Təhlükəsiz yaşayışın təmin edilməsi, həmçinin bütün sahələrdə quruculuğa nail olunması məsələlərinin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də müəyyən olunmuş **“İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ BÖYÜK QAYIDIŞ”** prioritetində dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməli olduğu qeyd edilir (https://president.az/az/articles/view/50474). Bu ərazilərdə 6 əsas istiqamət üzrə dövlət-özəl tərəfdaşlığı ilə inkişaf etdirilməsi təklif olunur:

- Dağ-mədən sənayesi;

- Yüngül və qida sənayesi;
- Aqrar kompleks;
- "Yaşıl iqtisadiyyat";
- Nəqliyyat, anbarlama, logistika;
- Turizm.

Hazırki mərhələdə dövlət-özəl tərəfdaşlığı olduqça aktualdır, belə ki dövlət və fərdi şəxslərin əməkdaşlıq modeli sosial-iqtisadi inkişaf üçün böyük praktiki potensiala malikdir. Bir çox ölkələrin təcrübəsi göstərir ki, dövlət infrastrukturunun inkişafı üçün ondan səmərəli istifadə etmək olar və nəticə etibarı ilə o ölkənin rəqabətqabiliyyətinə əhəmiyyətli təsir edə bilər.

Dünyada baş verən iqtisadi böhranlar, pandemiyalar neqativ təsirlərlə yanaşı dövlətlə biznes arasında əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini bir daha göstərmiş oldu. İqtisadi və maliyyə problemlərinin kəskinləşdiyi dövrlərdə uzunmüddətli layihələrin inkişafının davamlılığının təmin edilməsində biznesə dəstək verən həllərin aktiv axtarışı aparılır. Dövlət isə postkonflikt, postpandemiya dövrlərində öz səylərini yalnız daxili sosial-iqtisadi stabilliyin qorunmasına, ölkədaxili və ölkəxarici əldə edilmiş nailiyyətlərin saxlanmasına sərf etməməli, eyni zamanda özəl fəaliyyət subyektini dəstəkləyən yeni səmərəli yanaşmaların tapılmasına yönəltməlidir.

Bir çox hallarda dövlət və ayrı-ayrı subyektlər təkbaşına böyük maliyyə resursları, innovasiya texnologiyaları və digər elementləri tələb edən problemləri həll etməkdə ya çətinlik çəkirlər, ya da bunun üçün çoxlu zaman tələb olunur. Dövlət mənbələrinin hazırki məhdud vəziyyətində dövlət-özəl tərəfdaşlığı modelini tətbiq etməklə infrastruktur layihələrin icrasına özəl resursların cəlb edilməsi böyük əhəmiyyət kəsb edir.

İctimai infrastruktur layihələrinin icrası modeli kimi dövlət-özəl sektor tərəfdaşlığı öz əsasını 20-ci əsrin 70-ci illərindən, ABŞ-da və Böyük Britaniyada dövlət idarəetməsinin "dövlət inzibatçılığı" (Public Administration) modelindən "yeni dövlət idarəetməsi" (New Public Management) modelinə transformasiyası dövründən götürür. Bu müddət ərzində dövlət-özəl sektor tərəfdaşlığının (DÖST) öyrənilməsi sahəsində ən çox araşdırılmış mövzular bunlar olmuşdur: tətbiq edilən DÖST modelləri və onların infrastruktur tikintidə rolu, DÖST layihələrinin uğur amilləri, layihələrin idarəetmə məsələləri və

risklərin bölünməsi, layihə maliyyələşdirməsi, konsessiyaların müxtəlif aspektləri (qiymətyaratma, müddət, danışıqlar), DÖST-ün sərfəlilik qiymətləndirməsi (Value for Money, real opsionlar), DÖST razılaşması tərəflərinin təhlili və onların qarşılıqlı əlaqəsi, innovasiyalara dayanıqlılığı.

L. Ma, C. Li və başqaları tərəfindən aparılmış maraqlı bir araşdırmaya görə 2008-2018-ci illər arasında dövlət-özəl tərəfdaşlığına dair ən çox elmi tədqiqat aparan 20 ölkə arasında Çin (Honkonqla birlikdə), ABŞ, Avstraliya və Böyük Britaniya öndə gedir. (https://openresearch.lsbu.ac.uk/item/89y36). Analoji qənaətə C. Sonqun, H. Janqın və V. Donqun “A Review of Emerging Trends in Global PPP Research: Analysis and Visualization” adlı araşdırmasında da gəlinmişdir (https://www.researchgate.net/publication/299358471_A_review_of_emerging_trends_in_global_PPP_research_analysis_and_visualization).

Eyni zamanda, dövlət-özəl tərəfdaşlığına həsr olunmuş tədqiqatlar hökumət və beynəlxalq təşkilatlar tərəfindən aparılmışdır: Dünya Bankı, UNİDO, İƏİT, Böyük Britaniya Xəzinədarlığı, Hollandiyanın Xarici İşlər Nazirliyi, Avropa İnvestisiya Bankı, DÖST Avropa Mərkəzi və s.

İnkişaf etməkdə olan iqtisadiyyatlar üçün dövlət-özəl tərəfdaşlığı cəledici alət kimi qalmaqda davam edir. DÖST mexanizmlərini tətbiq etməklə Cənubi-Şərqi Asiya dövlətlərində infrastruktura kəskin sərmaye axınını müşahidə etmək olar, xüsusən də 90 faiz sövdələşmələrin reallaşdığı Çində. Braziliya, Hindistan və Türkiyə də DÖST mexanizmlərini yüksək səviyyədə iqtisadi münasibətlərdə tətbiq edirlər. Dünya Bankının məlumatlarına əsasən 1990 - 2018-ci illərdə inkişaf etməkdə olan ölkələrdə təqribən 1,5 trilyon ABŞ dollar dəyərində 6135 DÖST layihəsi həyata keçirilib. İstanbulun yeni Hava Limanı, Avrasiya Tuneli, Yavuz Sultan Səlim Körpüsü, Osmanqazi Körpüsü, ölkə daxilində bir sıra şəhər xəstəxanaları və dəmiryol layihələri də daxil olmaqla Türkiyənin tanınmış iri layihələrinin əhəmiyyətli bir hissəsi DÖST modelinin tətbiqi ilə həyata keçirilib. Dünya Bankının “İnfrastruktur Layihələrində Özəl İştirak” məlumat bazasına əsasən investisiya dəyəri 35 milyard ABŞ dollar olan İstanbul Hava Limanı layihəsi ən çox özəl investisiya cəlb edilən DÖST layihəsi hesab olunmaqdadır. (https://ppi.worldbank.org/en/ppi). Digər mühüm DÖST layihələri arasında Fransada ən böyük fiberoptik layihə olan “THD Grand Est” (1 milyard avro) və futbol üzrə “Avro 2016” yarışları üçün stadionların inşası və təmiri (məsələn, Lill şəhərində 618 milyon Avro həcmində PierreMauroy stadionunun inşası), Hollandiyada Blankenburg

tuneli (1 milyard avro) və Afsluitdijk dambası (810 milyon avro), Türkiyədə 1915 Çanakkale Köprüsü (3.1 milyard avro) və Bilkent laboratoriyası (711 milyon avro) və s. qeyd etmək olar.

Beləliklə, infrastruktur sektoru iqtisadiyyatın əsası kimi hər zaman iqtisadi siyasətin mərkəzində olmuş və olmaqda davam edir. Ölkənin dayanıqlı iqtisadi inkişafını təmin edən aparıcı amillərindən olan innovasiya fəaliyyətinin həyata keçirilməsi, infrastrukturun inkişafı üçün investisiyaların cəlb edilməsi xüsusi aktuallıq kəsb edir. Və burada barəsində yuxarıda qeyd etdiyimiz DÖST aləti ön plana çıxır. Bu milli iqtisadiyyatın innovasion inkişafı üçün əlavə maliyyə resurslarının cəlb edilməsinə, dövlət və biznesin kadr və idarəetmə resurslarınının cəmləşdirilməsinə imkan verir.

DÖST institutunun inkişafının vacibliyi bir sıra amillərlə şərtlənir:

**Sxem 1: DÖST institutunun işkişafının şərtləndirici amilləri**




**Mənbə:** Müəlliflər tərəfindən hazırlanmışdır

Dövlət-özəl tərəfdaşlığı özəl sektorun və dövlətin digər əməkdaşlıq formalarından özünün universallığı və çevikliyi ilə, səlayyihətlərin,

məsuliyyətin, risklərin, resursların optimal bölüşdürülməsinə imkan verən model və formaların çoxluğu ilə fərqlənir.

Dövlət-özəl tərəfdaşlığının aşağıdakı formalarını qeyd etmək olar:

1. Dövlət kontraktları;
2. İcarə (icarə ya lizinq müqavilələri);
3. Konsessiyalar (konsession razılaşmalar);
4. Məhsulun bölgüsü barədə razılaşma;
5. Dövlət-özəl müəsissələr.

Bu formaların təcrbədə özlərinə məxsus xarakterik xüsusiyyətlərini müşahidə etmək olar.

Dövlət kontraktı – ictimai faydalı fəaliyyət növlərinin icrası məqsədilə dövlətlə özəl şirkət arasında bağlanan müqavilədir. Bu əməkdaşlıq forması mülkiyyət hüquqlarının dövlətdən özəl şəxsə ötürülməsini nəzərdə tutmur. Kontrakt üzrə xərcləri özəl partnyor daşıyır, risklərin böyük hissəsini isə dövlət öz üzərinə götürür. Özəl tərəfdaşın xərcləri gəlir və ya mənfəətdəki payından, ya da istehlakçıların ödənişləri hesabına qarşılanır.

Dövlət-özəl tərəfdaşlığında icarə dedikdə dövlət və ya bələdiyyə mülkiyyətinin müyyən vaxta və müəyyən ödənişlə özəl tərəfdaşa verilməsi başa düşülür. Tərəfdaşlıq kimi yalnız ictimai fayda və xidmətlərin yaradılması və dövlət maraqlarının reallaşması məqsədini güdən icarə müqavilələri qəbul edilir. Lizinq müqaviləsinin xüsusiyyəti icarəyə verilən əmlakın lizinggötürən tərəfindən alış hüququnun olmasıdır.

Konsessiya (konsessiya müqaviləsi) dövlət (konsedent) tərəfindən özəl tərəfdaşa (konsessioner) təbii sərvətlərdən, infrastruktur obyektlərdən, müəssisə və avadanlıqlardan istifadə hüququnun verilməsidir. Əvəzində konsedent birdəfəlik və ya periodik formada mükafat alır. Konsessiyanın mahiyyəti ondan ibarətdir ki, dövlət əmlakın tamhüquqlu mülkiyyətçisi kimi qalır və özəl tərəfdaşa müəyyən zaman kəsiyində funksiyaların icrası üçün hüquq və səlayihətlər verir. Bu halda konsessiya çərçivəsində yaradılmış məhsula dair mülkiyyət hüququ konsessionerə verilir.

DÖST mexanizminin tədqiqatçılarından sayılan C. Delmana görə konsessiya müqavilələri çoxsaylı, bir-biri ilə uzlaşan və bunun nəticəsində yeni konsessiya növləri yaradan modellərin müxtəlifliyidir. (Делмон Д. Государственно-частное партнерство в инфраструктуре. - Астана: ИЦ «Апельсин», 2010. - 261 с.)

Məhsulun bölüşdürülməsi barədə razılaşma dövlətin biznesə müəyyən müddətə razılaşmada göstərilən ərazidə mineral xammalın axtarışına, kəşfiyyatına və hasilatına dair müstəsna hüquqların verilməsidir. İnvestor isə öz hesabına və öz riskinə qeyd olunan işlərin görülməsi öhdəliyini üzərinə götürür.

Bu formanın konsessiya ilə bir çox oxşar cəhətləri olsa da, onun prinsipial fərqi yaradılan məhsulun bir hissəsinin özəl partnyora məxsus olması, digər hissənin isə dövlətin mülkiyyətinə keçməsindədir. Tərəfdaşlar arasında məhsul bölgüsünün şərtləri və qaydası xüsusi razılaşma ilə təsbit edilir.

Qarabağ və Şərqi Zəngəzur regionunda zəngin faydalı qazıntı yataqlarının çoxluğu gələcəkdə bu formanın tətbiqini şərtləndirə bilər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatlarına görə qeyd olunan rayonlarda 167 faydalı qazıntı yataqları mövcuddur. (http://www.scientific-heritage.com/wp-content/uploads/2022/01/The-scientific-heritage-No-82-82-2022-Vol-4.pdf)

DÖST-ün növbəti forması olan dövlət-özəl müəssisəsi tərəflərin payçı iştirakı ilə səhmdar cəmiyyət və ya birgə müəssisə kimi yaradıla bilər. Tərəflərin riskləri və müstəqil qərar qəbul etmə imkanları səhmdar kapitaldakı payından asılıdır. DÖST-ün digər formalarından fərqli olaraq, dövlət-özəl müəssisəsində dövlət cari istehsal, inzibati-təsərrüfat və investisiya fəaliyyətində birbaşa iştirak edir, bu da səriştəli idarəetmə olmadığı təqdirdə müəssisənin səmərəli fəaliyyətinə mənfi təsir göstərə bilər.

Bu və ya digər tərəfdaşlıq formasının seçiminə DÖST layihəsinin məqsədi və onun iqtisadi səmərəliyi təsir edir. Modelin seçiminə bir sıra amillər ciddi təsir edir: DÖST layihəsinin sahəvi mənsubiyyəti, investisiya risklərinin paylanma riskləri, ölkə qanunvericiliyinin xüsusiyyətləri, kontrakt münasibətlərin təşkili təcrübəsi, xidmətlərə görə son ödəyicilərin müəyyən edilməsi (Борисова Л.А., Исмаилова Ф.Н. Основные формы и модели реализации проектов государственно-частного партнерства // УЭПС: УПРАВЛЕНИЕ, ЭКОНОМИКА, ПОЛИТИКА, СОЦИОЛОГИЯ. 2018. - №1. - С. 3-9.)

DÖST layihələrinin subyektlərinin əməkdaşlığı müvafiq razılaşma ilə təsdiqlənmiş konkret modelə uyğun həyata keçirilir. Bəzi təqdiqatçılar əldə edilmiş nəticələri ümumiləşdirərək DÖST modellərinin ikisəviyyəli klassifikasiyasını təklif edirlər. (Akitobi, B., Hemming, R., Schwartz, G. 2007, Public investment and public-private partnerships, Washington, International Monetary Fund; Marks, A. T., Silverman, E. F., Borisoff, A. K. 2010. Project Finance and Public-private Partnership in the United States; Delmon, J., Rigby Delmon, V., aan den Rijn, A. (eds.) International Project Finance and PPPs: A Legal Guide to Key Growth Markets)

Birinci səviyyədə obyektin üzərində həyata keçirilən hərəkətlərin xarakterinə görə modellərin qruplaşdırılması təklif olunur:

1. Yeni obyektin yaradılması ("greenfield");
2. Mövcud obyektin modernizasiyası ("brownfield");
3. Obyektin istismarı.

Qarabağ və Şərqi Zəngəzur regionuna gəldikdə isə konfliktsonrası reabilitasiyanın gedişində, qabaqlar mövcud olan obyektlərin bərpa edilib işə salınması ilə yeni inşaat optimal bir tərzdə uzlaşdırılmalıdır. Konfliktsonrası reabilitasiyanın bu iki forması ("greenfield" və "brownfield") arasındakı kəmiyyət nisbəti bir sıra amillərin təsiri altında müəyyənləşir. "İşğaldan azad edilmiş ərazilərdəki infrastruktur və istehsal obyektlərinin, sosial-mədəni təsisatların real vəziyyəti, rəsmən qəbul edilmiş bərpa standartları, dövlətin resurs (ilk növbədə maliyyə) imkanları, ərazinin dağıdılmasından bərpa işlərinin başlanmasına qədər keçən vaxtın uzunluğu və bəzi başqaları həmin amillər sırasındadır." (Müzəffərli N., İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar, Bakı, "Qafqaz", 2010, s.35)

İkinci səviyyə layihələrin məqsədlərindən asılı olaraq dövlətin biznesin-strukturları ilə bağladığı konsessiya razılaşmalarını əhatə edir.

DÖST layihəsinində tərəfdaşların iştirak xüsusiyyətlərindən asılı olaraq yeni məhsulun yaradılmasında çoxsaylı modellərdən istifadə edilir. Aşağıdakı sxem 2-də beynəlxalq təcrübədə konsessiyada daha çox istifadə edilən modellər verilir:

**Sxem 2: DÖST layihələrində yeni məhsul yaratma modelləri**




**Mənbə:** Cədvəl müəlliflər tərəfindən hazırlanıbdır.

Sxem 2-də qeyd olunan modellər barədə müxtəlif ədəbiyyatlarda kifayər qədər məlumatlar verilmişdir və nəzərə alınmalıdır ki, beynəlxalq təşkilatların təcrübəsində daha çox bu modellər tətbiq edilir. Eyni zamanda qeyd etməliyik ki, dövlət-özəl tərəfdaşlığı inkişaf etdikçə tərəflərin məsuliyyətini və riskini daha yaxşı bölüşdürmək üçün müəyyən sahələrə və ya infrastruktur tipinə adaptasiya olunan yeni əməkdaşlıq modelləri meydana gəlir.

Qeyd edək ki, DÖST mexanizmlərinin tətbiqi və icrası cəlbedici görünsə də, hər bir fəaliyyətdə olduğu kimi burada da nəzərə alınmalı olan bir sıra risklər mövcuddur. DÖST-ün hər iki tərəfinin məruz qaldığı riskləri klassifikasiya etsək bunları qeyd edə bilərik:

- Müsabiqə mərhələsində yaranan risklər;
- Layihələndirmə riskləri;
- Sənədləşdirmə riskləri;
- Marketinq riski;

- Qanunvericiliyin dəyişmə riski;
- İşin gecikdirilmə riski;
- Qiymət artımı riski;
- Ekoloji, siyasi, maliyyə və əmlak riskləri.

Risklərin identifikasiyası aparıldıqdan sonra onların qiymətləndirmə alətləri müəyyən edilməlidir. DÖST layihələrinin qiymətləndirilməsində risklərin yaranma ehtimalının dərəcəsindən asılı olaraq onun təsir səviyyəsini hesablamağa imkan verən statistik metoddan istifadə edilə bilər. (Патрунина К.А. Инструменты и новые формы государственно-частного партнерства на пути реализации корпоративной социальной ответственности бизнеса: облигации социального воздействия, социальное инвестирование, государственно-общественно-частное партнерство // Государственно-частное партнерство. 2017. – Т. 4, № 2.)

Bəzi hallarda risklərin qiymətləndirilməsi üçün dataların olmama və hesablamaların aparıla bilməməsi səbəbindən ekspert metodlarından istifadə edilir. Məsələn, brainstorming, Delfi metodu, anket sorğusu və s.

Beləliklə deyə bilərik ki, risklərin idarəetmə sisteminin inkişafı tərəfdaşlar arasında risklərin bölünməsinə imkan verən və DÖST lahilərinin səmərəliliyinə təsir edən əsas elementlərdən biridir.

Bu sahədə aparılan tədqiqatların təhlili göstərir ki, sivil bazar münasibətləri sistemində dövlətin özəl iqtisadi subyektlərlə birgə həm istehsalçı, həm də, istehlakçı kimi fəaliyyət göstərdiyi iqtisadiyyat böyük inkişaf potensialına malikdir. Xüsusilə nəzərə alsaq ki, ölkəmizdə hazırda həm postpandemiya dövrü yaşanır, həm də işğaldan azad edilmiş ərazilərdə iri quruculuq işləri həyata keçirilir dövlət-özəl sektor tərəfdaşlığı layihələrinin təşviqi və dəstəklənməsi sahəsində sistemli fəaliyyətin təmin edilməsi, işlərin bir mərkəzdən idarə edilməsi zərurəti yaranır.

Bu tədbirlərin sürətləndirilməsini həmçinin ölkə başçısının 2030-cu ilə qədər müəyyən etdiyi sosial-iqtisadi prioritetlər, o cümlədən Qarabağ və Şərqi Zəngəzur regionunda iqtisadi fəaliyyətə reinteqrasiya istiqamətində görüləcək tədbirlər tələb edir. Prezident İlham Əliyev bu bölgənin iqtisadi fəaliyyətin aparıcı həlqələrindən birinə çevrilməli və ölkənin digər regionlarına uyğun inkişaf səviyyəsinə çatdırılmasını, bu məqsədlə cari proseslərdə zəruri

stimullara əsaslanan özəl təşəbbüslərin hərtərəfli təşviqi, eləcə də dövlət-özəl tərəfdaşlığının inkişafını tapşırmışdır (https://president.az/az/articles/view/50474).

Qeyd edək ki, Azərbaycanda DÖST institutunun inkişaf etdirilməsi digər rəsmi dövlət sənədlərində də öz əksini tapmışdır. Belə ki, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə (1) DÖST-ün inkişafı prioritetləri əsaslandırılmış, onların gerçəkləşdirilməsi üçün tədbirlər planı hazırlanmışdır (https://static.president.az/pdf/38542.pdf).

Azərbaycan Respublikası Prezidentinin "Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Fərmanına əsasən, Agentliyin strukturunda Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi yaradılmışdır. İqtisadiyyat Nazirliyinin kollegiyasının 2019-cu il 16 iyul tarixli Qərarı ilə Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi haqqında nümunəvi əsasnamə təsdiq olunmuşdur. DÖST-ün fəaliyyətinin əsas istiqamətlərinə dövlət-sahibkar tərəfdaşlığı üzrə qanunvericilik bazasının və institusional infrastrukturun inkişaf etdirilməsi üçün təkliflərin əsaslandırılması, proqram və layihələrin hazırlanması, yerinə yetirilməsi, maraqlı tərəflərin maarifləndirilməsi, haqqında danışılan tərəfdaşlıq meyarlarına uyğun layihələrin icrası aid edilmişdir.

Ölkədə dövlət-özəl bölmə tərəfdaşlığı mühitinin formalaşdırılması baxımından "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Qanunu ilk dövrlərdə gözlənildiyi kimi təkanverici rol oynamışdır. Müvafiq layihələr qismində sənaye parkları, yüksək texnologiya parkları, aqroparklar, yüksək texnologiyalara əsaslanan avtomatlaşdırılmış idarəetmə sistemləri və informasiya texnologiyaları sahəsində digər sistemlər; kənd təsərrüfatı məhsullarının tədarük anbarları və bu tipli digər obyektlərin "Tik-idarə et-təhvil ver" (BOT) modeli çərçivəsində reallaşdırılması nəzərdə tutulur (https://e-qanun.az/framework/32612).

Etiraf etməliyik ki, DÖST mexanizminin inkişafı üçün yuxarıda göstərilən tədbirlər kifayət deyil. Dünyada və ölkədə baş verən proseslər dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi istiqamətində aparılan işlərin qanunvericilik bazasının təkmilləşdirilməsini və bu sahənin inkişafına dair vahid konsepsiyanın hazırlanmasını labüd edir.

Nəzərə alsaq ki, postkonflikt ərazilərin bərpası və inkişafında dövlət-özəl tərəfdaşlığı alətlərinin geniş istifadəsi nəzərdə tutulur, o zaman bu sahədə atılan addımların koordinasiya edilməsi üçün institusional tədbirlərin görülməsi vacibdir. Bir sıra alimlər, o cümlədən N.Müzəffərli yerli özəl müəssisələrlə və xarici investorlarla əməkdaşlıq prinsiplərini müəyyənləşdirmək, dövlət satınalmaları və bərpa işlərinin aparılması üzrə tenderləri hazırlamaq və keçirmək və sair vəzifələrin yerinə yetirilməsi məqsədilə konfliktsonrası reabilitasiya işlərinin vahid bir mərkəzdən idarə edilməsini təklif edir (Müzəffərli N., İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar, Bakı, “Qafqaz”, 2010, s. 71).

Qeyd etdiyimiz mərkəz Qarabağ və Şərqi Zəngəzurda bərpası və ya yenidən qurulması vacib olan obyektləri müəyyən etməklə, müstəqil şəkildə digər qurumların bu bölgədə dövlət-özəl tərəfdaşlığı sahəsində səlayyihətlərini özündə cəmləşdirməklə, beynəlxalq təcrübəni öyrənməklə, DÖST prinsipləri əsasında reallaşa bilən layihələr platformalarını inkişaf etdirməklə, müvafiq sahədə ekspert birliyini formalaşdırmaqla işlərin daha optimal icrası üçün yaxşı zəmin yarada bilər.

Müsbət haldır ki, azad olunmuş ərazilərdə yerli sahibkarlarla yanaşı xarici iş adamları da fəaliyyət göstərməkdə maraqlıdırlar. Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK) təşkilatçılığı xarici biznes nümayəndələri arasında aparılmış sorğuda şirkətlərin 61 faizi bu layihələrdə podratçı/subpodratçı kimi çıxış etmək və ya dövlət-özəl tərəfdaşlığı çərçivəsində iştirakda maraqlıdır. Həmçinin, sorğuda iştirak edən xarici şirkətlərin 43 %-i fəaliyyət sahələri üzrə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda həyata keçiriləcək layihələrdə iştirak edə biləcəklərini, 22 %-i bu layihələrdə iştirakının mümkünlüyünü bildirmişlər (https://www.azerbaijan-news.az/posts/detail/qelebeden-sonra-azerbaycan-xarici-investorlar-ucun-daha-celbedici-olub-1632952135).

Bu səbəbdən, özəl sektoru işğaldan azad edilmiş ərazilərin bərpasına fəal surətdə cəlb etmək məqsədilə əlavə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi üçün aidiyyəti üzrə məsələ qaldırmaq imkanları da mərkəzə tanınmalıdır.

Yaradılması təklif olunan mərkəz paralel olaraq ölkə üzrə də DÖST mexanizmlərinin reallaşmasında əsas iştirakçı ola bilər, çünki əgər söhbət postkonflikt ərazilərin ölkənin iqtisadi sisteminə inteqrasiyasından gedirsə biz buranın avtonom qaydada inkişafını nəzərdə tuta bilmərik. Qeyd edək ki,

dünyanın bir çox inkişaf etmiş ölkələrində artıq bu tip qurumlar uğurla fəaliyyət göstərməkdədir.

Gələcəkdə bu tədbirlərin həyata keçirilməsi nəticəsində dövlətlə özəl sektor arasında münasibətlərin tənzimlənməsi sahəsində daha təkmil addımlar atıla, Azərbaycanda dövlət-özəl tərəfdaşlığın yeni mərhələsi başlaya bilər.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Beləliklə, dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarında tətbiq etməklə tərəfdaşlar ayrı-ayrılıqda müxtəlif üstünlüklər qazanırlar.

DÖST-ün alətlərinin region iqtisadiyyatı üçün üstünlüklər:

- Biznesin ənənəvi formaları üçün az cəlbedici olan, ictimai əhəmiyyətli layihələrin qısa müddətə icra edilməsi imkanları;
- Universallıq-əksər sektorlarda tətbiq imkanları;
- Dövlət əhəmiyyətli obyektlərə yatırım üçün böyük həcmdə qeyri-dövlət maliyyələşdirilməsinin cəlbi;
- İnfrastruktur obyektlərinin bərpası və qurulması üçün dövlət xərclərinin kəskin azalması;
- Dövlət və investor arasında layihə riskin bölünməsi;
- İnvestora idarəetmə funksiyalarının ötürülməsi yolu ilə layihələrin səmərəli reallaşdırılmasının təmin edilməsi;
- Region infrastrukturunun inkişafına müasir texnologiyaların cəlb edilməsi;
- Və düşünürü ki, ən əsası regionun investisiya iqliminin yaxşılaşdırılması.

Sahibkarlar üçün DÖST aşağıdakı üstünlükləri təqdim edə bilər:

- ənənəvi olaraq dövlətin iqtisadi sahələrinə giriş imkanı;
- birbaşa dövlət dəstəyinin əldə edilməsi və istifadə imkanı;
- uyğun təminatlarla sərmayələrin uzun müddətli yerləşdirilmə imkanları;

- daha sərfəli layihəni seçim imkanı

Tətqiq etdiyimiz iqtisadi regionlarda dövlət-özəl tərəfdaşlığı çərçivəsində investisiya layihələrinin icra edilməsi ümumilikdə **multiplikativ effekt** verəcəkdir. DÖST-ün hər bir tərəfdaşı öz fəaliyyətini gəlirlərinin artırılması ilə bərabər ictimai faydalılığın da yüksəldilməsinə yönəldir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Akitobi, B., Hemming, R., Schwartz, G. 2007, Public investment and public-private partnerships, Washington, International Monetary Fund; Marks, A. T., Silverman, E. F., Borisoff, A. K. 2010. Project Finance and Public-private Partnership in the United States; Delmon, J., Rigby Delmon, V., aan den Rijn, A. (eds.) International Project Finance and PPPs: A Legal Guide to Key Growth Markets
2. Bult-Spiering M., Dewulf G. Strategic issues in public private partnerships: an international perspective. Blackwell Publishing Ltd., UK, 2006.
3. D. Əbdülrəhim, “İşğaldan azad edilmiş rayonlarda aqrar istehsal və emal potensialının qiymətləndirilməsi,” SDU Konfrans Materialları , p. 351.
4. Ivanov O., Inshakova A. 2020. Public-Private Partnerships in Russia. Institutional Frame-works and Best Practices. Springer. 312 p.
5. Müzəffərli N., İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar, Bakı, “Qafqaz”, 2010, s. 71
6. Yescombe E.R., Farquharson E. 2018. Public-Private Partnerships for Infrastructure. Princi-ples of Policy and Finance. Butterworth-Heinemann. Oxford, 548 p.
7. Борисова Л.А., Исмаилова Ф.Н. Основные формы и модели реализации проектов государственно-частного партнерства // УЭПС: УПРАВЛЕНИЕ, ЭКОНОМИКА, ПОЛИТИКА, СОЦИОЛОГИЯ. 2018. - №1. - С. 3-9
8. Делмон Д. Государственно-частное партнерство в инфраструктуре. - Астана: ИЦ «Апельсин», 2010. - 261 с
9. Дерябина М. Государственно-частное партнерство: теория и практика // Вопросы экономики. 2008. № 8.

10. Игнатюк Н.А. Государственно-частное партнерство. - М: Юстицинформ, 2012. - 490 с. 105.
11. Ларин, С.Н. Государственно-частное партнерство: зарубежный опыт и российские реалии / С.Н. Ларин // Государственно-частное партнерство в инновационных системах / под общ. ред. С.Н.Сильверстова. – М.: Изд-во ЛКИ, 2008.
12. Патрунина К.А. Инструменты и новые формы государственно-частного партнерства на пути реализации корпоративной социальной ответственности бизнеса: облигации социального воздействия, социальное инвестирование, государственно-общественно-частное партнерство // Государственно-частное партнерство. 2017. – Т. 4, № 2
13. http://www.scientific-heritage.com/wp-content/uploads/2022/01/The-scientific-heritage-No-82-82-2022-Vol-4.pdfhttps://hurriyyet.az/az/post/2022-ci-il-azerbaycan-tarixine-boyuk-qaydisin-baslangic-ili-kimi-dusecek---vuqar-bayramov-366926
14. https://e-qanun.az/framework/32612
15. https://iz.ru/1124945/nataliia-portiakova/territoriia-pomyslov-kakoe-budushchee-azerbaidzhan-zadumal-dlia-karabakha.
16. https://openresearch.lsbu.ac.uk/item/89y36
17. https://ppi.worldbank.org/en/ppi
18. https://president.az/az/articles/view/50474
19. https://static.president.az/pdf/38542.pdf
20. https://www.azerbaijan-news.az/posts/detail/qelebeden-sonra-azerbaycan-xarici-investorlar-ucun-daha-celbedici-olub-1632952135
21. https://www.researchgate.net/publication/299358471_A_review_of_emerging_trends_in_global_PPP_research_analysis_and_visualization

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA QADIN SAHİBKARLIĞININ POTENSİAL İMKANLARI VƏ TƏŞVİQİ

**Bayramova Ülkər**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

## Xülasə

44 günlük Vətən müharibəsində qələbəmizdən sonra işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması və həmin ərazilərdə iqtisadiyyatın canlanması Azərbaycan Respublikasının qarşısında duran əsas prioritet məsələlərdəndir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və quruculuq işləri ilə yanaşı, zəngin iqtisadi sərvətləri olan bu torpaqların milli iqtisadiyyata inteqrasiyası istiqamətində tədbirlər davam etdirilməkdədir. Dayanıqlı iqtisadiyyat, davamlı inkişafda sahibkarlığın önəmi danılmazdır. Sahibkarlıq ölkə iqtisadiyyatının çətin vəziyyətdən çıxması və sabit iqtisadi güc əldə etməsi, ölkəmizdə və dünyada zaman-zaman baş verən iqtisadi böhranlardan təsirlənməməsi və ya bunlardan az zərərlə çıxması üçün əhəmiyyətli bir yoldur. Sahibkarlığın güclü olduğu dövlətlərdə iqtisadiyyatın dayanıqlı inkişafını müşahidə edirik. Günümüzdə qadın sahibkarlığın inkişafı, önəmi, aktuallığı və siyasətdə mühim rolu danılmazdır. İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın sürətli inkişafını istəyiriksə qadın sahibkarların iqtisadiyyatda aktiv rol oynamalarını təmin etməliyik.

Bu tədqiqatın əsas məqsədi Qarabağda biznes mühitini incələmək, işğaldan azad edilmiş ərazilərin sürətli bərpasına töhfələr vermək və həmin ərazilərdə qadınları sahibkarlıq fəaliyyətinə təşviq edilməsi yollarını araşdırmaqdır.

***Açar sözlər:*** *Qarabağ, Biznes mühiti, Qadın sahibkarlığı*

## GİRİŞ

Günümüzdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını dirçəltmək, canlandırmaq, əlverişli biznes mühiti yaratmaq, investorların marağını çəkmək və əhalinin məşğulluğunu təmin etmək dövlətin qarşısında duran prioritet məsələlərdəndir. Azərbaycan Respublikasının prezidentinin imzaladığı bir sıra sərəncam, fərman və layihələr bu istiqamətdə atılan ciddi addımlardır. Erməni təcavüzünə məruz qalmış ərazilərin yenidən qurulması, güclü iqtisadi ərazilərə çevrilməsi istiqamətində aparılan işlərdə sahibkarlar yaxından iştirak etməlidir. İşğaldan azad edilmiş ərazilərin potensialı müəyyən amillər baxımından digər rayonlardan çoxdur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun ölkənin coğrafi nöqteyi-nəzərindən mühim yerində yerləşməsi digər ölkələrin bazalarına asanlıqla çıxma şansının geniş olması mühim amillərdəndir. Həmçinin turizm, kənd təsərrüfatı, xalçaçılıq, xidmət və digər zərruri sahələrdə sahibkarlıq fəaliyyəti üçün fürsətlər genişdir. Respublikada əhalinin yarısını qadınlar təşkil etdiyini nəzərə alaraq qadın sahibkarların bu işlərdə yaxından iştirakına, iqtisadiyyatda aktiv rol almalarına diqqət çəkməliyik. Qadın sahibkarlar cəmiyyətdə sosial problemləri görə bilir, həssas mövzularda olan problemlərin həllinə səbəb olur. Qadınların bu ərazilərdə sahibkarlıq fəaliyyətinə başlaması digər qadınlara yeni iş yeri və stimul olacaq. İqtisadiyyatın dirçəlməsinə, biznes mühitinin inkişafına, həmin ərazilərdə yaşayan əhalinin işsizlik problemlərinin həllində mühim rol oyanayacaq.

## Qadın Sahibkarlığı

Kapitalist cəmiyyətin inkişafı sahibkarların əsəridir. Sahibkar anlayışı iqtisadi dildə ilk dəfə 1730-cu illərdə Fransız Richard Cantillon tərəfindən istifadə edilmişdir (Çetindamar, 2002: 33). Sahibkarlığın əhəmiyyətinin bu qədər artmasının əsas səbəbi onun ölkələrin inkişafında mühüm güc mənbəyi kimi rol almasıdır. Sahibkarlar cəmiyyətin vizyonlu üzvləridir onlar keçmişdə deyil gələcəkdə yaşayırlar (Gerber, 2001: 24). Bir başqa ifadəyə görə Bygrave və Hofers isə sahibkarlığı “fürsətləri qavrayaraq, fürsətlər istiqamətində işini formalaşdıran insan” olaraq ifadə etmişdir (Mueller ve Thomas, 2001).

Sahibkarlıqla ölkə daxilində iqtisadi inkişaf, siyasi güc, texnoloji və elmi inkişafın dayanıqlı şəkildə artmasına və dünya arenasında beynəlxalq rəqabətdə üstünlük yaradır. Sahibkarlıq ölkə iqtisadiyyatının çətin vəziyyətdən çıxması və sabit iqtisadi güc əldə etməsi, ölkəmizdə və dünyada zaman-zaman baş verən iqtisadi böhranlardan təsirlənməməsi və ya bunlardan az zərərlə çıxması üçün əhəmiyyətli bir yoldur.

Belə ki, cəmiyyətin sahib olduğu mədəniyyəti ölkənin sahibkarlıq səviyyəsini müəyyən edən ən mühüm elementdir (Döm,2012 akt. Morçin, 2013: 184).

Güclü və sağlam təməlli bir ölkə iqtisadiyyatının əsas şərtlərindən biri də qıt mənbələrin ən səmərəli şəkildə istifadə edilərək istehsala çevirməkdir. Bu vəziyyət xarici asılılığı azaldacaq və kapitalın ölkə daxilində qalmasını təmin edəcək və yeni investisiyalara yol açacaqdır. İstehsal amillərindən biri də sahibkarlıqdır. Yeni müəssisələrin yaradılması yeni sahibkarlıq ideyalarının mövcudluğundan asılıdır. Bu kontekstdə sahibkarlar qurduqları yeni müəssisələrlə ölkədə məşğulluq yaratmaq, regional inkişaf, yoxsulluqla mübarizə və s. bu kimi mövzularda ölkə iqtisadiyyatının dayanıqlı inkişafında vacib rol oynayırlar. Ona görə də iqtisadi cəmiyyətdə sahibkarların sayının artırılması əsas şərtdir. Cəmiyyəti tam halda düşünərək bu sahədə aktiv əhalinin iqtisadiyyatda aktiv rol almasını istəyiriksə qadın sahibkarlardan söz açmamaq mümkünsüzdür. Sahibkarlığın tam şəkildə inkişafı, iqtisadiyyatın dayanıqlı olması qadınların iqtisadiyyatda önə çəkilməsilə mümkündür.

Dünyada qadın sahibkarların kişilərlə bərabər fürsətlər əldə edə bilmədiyi geniş olaraq müzakirə edilir. Qadınların sahibkarlıqda zəif iştirakının dünyada olduqca oxşar və fərqli səbəbləri vardır. Qadınlara ailə dəstəyinin olmaması, ailə və sahibkarlıqla maraqlanmanın ikitərəfli məsuliyyəti, bank kreditlərinə məhdudiyyətlər, korporativ və sosial marağın az olması, cəmiyyətdə kişilərin hökümranlığı və s. kimi səbəblərdən ortaya çıxan problemlər, xüsusilə az inkişaf etmiş sahələrdə və kişilərin hökümran olduğu cəmiyyətdə qadınların sahibkarlıq istəklərini ciddi şəkildə əngəlləyir (Raghuvanshi vd., 2017: 221).

Qadın sahibkar iqtisadı baxımdan müstəqil olmaq və şəxsi ehtiyaclarını qarşılamaq üçün çətin bir vəzifəni qəbul edən şəxslər kimi tanınırlar (Dharmendran, 2016:70)

Qadın sahibkarların uğurlu olmaq üçün işə başlamadan əvvəl mümkün olduğu qədər təcrübə qazanmaları çox vacibdir (Fairlie ve Robb, 2008, Stockdale, 2005 akt. Abd Rani ve Hashim, 2015: 39).

## Qarabağda Qadın Sahibkarlığı

Ermənistanın işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və quruculuq işləri ilə yanaşı, zəngin iqtisadi sərvətləri olan bu torpaqların milli iqtisadiyyata inteqrasiyası istiqamətində tədbirlər davam etdirilməkdədir. Strateji plana əsasən, həmin bölgədə istehsal, emal, ticarət və xidmət infrastrukturunun yaradılması, yeni texnologiyaların tətbiqi, investisiya cəlbediciliyinin təmin edilməsi nəzərdə tutulur. Bu məqsədlə sahibkarları həvəsləndirmək üçün xüsusi vergi-gömrük güzəştləri, müxtəlif iqtisadi, maliyyə və institusional stimulların tətbiqi hazırlanır.

Dünya iqtisadi forumu tərəfindən hazırlanmış “Qlobal Rəqabətlilik İndeksi 2019” hesabatında Azərbaycan 2018-ci illə müqayisədə 11 pillə irəliləyərək, 141 ölkə arasında 58-ci yeri tutub. Qlobal rəqabətlilik hesabatı dünya miqyasında mötəbər hesabat olmaqla, beynəlxalq təşkilatlar, investor və sahibkarlar, müstəqil beyin mərkəzləri tərəfindən istinad mənbəyi kimi istifadə olunur. “Biznesin dinamikliyi” və “innovasiya” üzrə Azərbaycan müvafiq olaraq 8 və 3 pillə irəliləyərək ölkəmizin biznes mühitinin inkişafı istiqaməti üzrə aparılan intensiv islahatlara adekvat cavab verib. Sahibkarlıq risklərinin tənzimlənməsi, ölkə üzrə müflisləşmə, biznesə başlamaq üçün sərf olunan zaman, elm-tədqiqat xərcləri, patent müraciətləri, tədqiqat institutlarının sayı və keyfiyyəti, biznesdə innovativ yeniliklərin tətbiqi üzrə Azərbaycan dünya ölkələri arasında yüksək bal əldə edib. Yalnız biznesin dinamikliyi üzrə Azərbaycan 141 ölkə arasında 31-ci mövqedə qərarlaşıb. (The Global Competitiveness Report 2019)

Respublikamızda işğaldan azad edilmiş ərazilərin bərpası, sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması məqsədilə dövlət tərəfindən bir çox addımlar atılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı 10 dekabr 2021-ci il tarixli “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” sərəncamı bu istiqamətdə atılmış addımlardan biridir. Belə ki, sərancamda işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şəraitin yaradılması məqsədilə: işğaldan azad edilmiş ərazilərdə iqtisadi resursların və əmək resurslarınım səmərəli idarə olunması, özəl təşəbbüslərin stimullaşdırılması, istehsal fəaliyyətilə məşğul

olan sahibkarlara kommunal xidmətlər üzrə güzəştlərin tətbiq edilməsi, müasir bilik və bacarıqlara malik mütəxəssilərin cəlb olunması, bu ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurlarına çıxış imkanlarının genişləndirilməsi, yaşayış massivlərinin inşası kimi bir sıra məsələlərin həll edilməsi qərarı alınmışdır. (Azərbaycan Respublikasının Prezidentinin 10 dekabr 2021-ci il tarixli Sərəncamı)

İşğaldan azad olunan ərazilərdə dağ-mədən, yeyinti, emal sənayeləri, metallurgiya, turizm-rekreasiya, əczaçılıq, taxılçılıq, tərəvəzçilik, üzümçülük, pambıqçılıq, meyvəçilik, heyvandarlıq, quşçuluq, arıçılıq, xalçaçılıq və tikini materialları kimi sahələr böyük inkişaf potensialına malikdir. Bu sahələrə yatırılan sərmayelər həm qeyri-neft ixracının artması və idxalın əvəzlənməsi, həm də dəyər zəncirlərinə qoşulmaq baxımından mühüm əhəmiyyət kəsb edəcək. Həmçinin buraya yeni texnologiyaların cəlbi də iqtisadi inkişafda innovasiyalarla müşayiət ediləcək.

İşğaldan azad edilmiş ərazilərin sürətli və dayanıqlı inkişafını istəyiriksə burada sahibkarlığın xüsusi önəmini vurğulamasaq olmaz. Günümüzdə qadın sahibkarlığın inkişafı, önəmi, aktuallığı və siyasətdə mühim rolu danılmazdır. İqtisadiyyatın hərtərəfli, dayanıqlı və tam inkişafını məqsəd olaraq görürüksə bu sahədə təşviq edici tədbirlər həyata keçirilməlidir. Aydındır ki, bir ölkədə sahibkarlıqla bağlı olan inkişaf o ölkənin ən mühüm sərvətlərindən biridir. Bu gün işğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətilə məşğul olan qadın sahibkarlar demək olar ki, yoxdur. Azad edilmiş bölgələrdə inkişaf istəyiriksə qadın sahibkarlığının önəmini ortaya qoyaraq bu sahədə təşviq edici proqramlar hazırlanmalıdır.

Azərbaycan Respublikasının Statistika Komitəsinin 2021-ci il 1 yanvar vəziyyətinə görə respublikada 225858 qadın sahibkar var (Cədvəl 1). Respublika əhalisinin 50,1% in qadınlar təşkil etdiyin nəzərə alaraq 225858 qadın sahibkar sahibkarlıq fəaliyyətində aşağı göstəricidir. Bu gün davamlı, dayanıqlı güclü iqtisadiyyat istəyiriksə qadınları iqtisadiyyatda önə çəkməli, sahibkarlığa təşviq etməliyik.

**Cədvəl1: 2021-ci il yanvar ayının 1-i vəziyyətinə fəaliyyət növləri üzrə fərdi sahibkarların gender bölgüsü**

| Fəaliyyət növləri | Qadınlar | | Kişilər | |
|---|---|---|---|---|
| | sayı | faizlə | sayı | faizlə |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 81875 | 36,3 | 260107 | 31,1 |
| Mədənçıxarma sənayesi | 53 | 0,0 | 983 | 0,1 |
| Emal sənayesi | 3912 | 1,7 | 19045 | 2,3 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 5 | 0,0 | 68 | 0,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 52 | 0,0 | 685 | 0,1 |
| Tikinti | 808 | 0,4 | 20498 | 2,5 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 47743 | 21,1 | 180999 | 21,6 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2405 | 1,1 | 114426 | 13,7 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 6614 | 2,9 | 36357 | 4,3 |
| İnformasiya və rabitə | 2118 | 0,9 | 8557 | 1,0 |
| Maliyyə və sığorta fəaliyyəti | 1135 | 0,5 | 3091 | 0,4 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 4234 | 1,9 | 10525 | 1,3 |
| Peşə, elmi və texniki fəaliyyət | 7986 | 3,5 | 15504 | 1,9 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 7327 | 3,2 | 14088 | 1,7 |
| Təhsil | 6742 | 3,0 | 3731 | 0,4 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2410 | 1,1 | 4488 | 0,5 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 1788 | 0,8 | 12028 | 1,4 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 34457 | 15,3 | 77648 | 9,3 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 14194 | 6,3 | 53851 | 6,4 |
| **Cəmi** | **225858** | **100,0** | **836679** | **100,0** |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Cədvəl 1- də göstərildiyi kimi ən çox fəaliyyət növləri 36,3 % Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi, 21,1% Ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində, 15,3% isə Digər sahələrdə xidmətlərin göstərilməsi kateqoriyası üzrə sıralanır**.** 225858 qadın sahibkardan 30,9 % Bakı şəhəri, 9,8 % Lənkəran-Astara iqtisadi rayonu, 0,3 % Şərqi Zəngəzur iqtisadi rayonu, və 5,2 % Qarabağ iqtisadi rayonunun payına düşür (Qrafik1).

**Qrafik1: 2021-ci il yanvar ayının 1-i vəziyyətinə iqtisadi və inzibati şəhər və rayonlar üzrə fərdi sahibkarların gender bölgüsü**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Qarbağın əlverişli şəraiti, zəngin mənbələri olmasına baxmayaraq sahibkarlıq subyektlərinin az olmasına səbəb həmin ərazilərin Ermənistanla sərhəd olması, siyasi gərginlik, atəşkəs dönəmində belə dəfələrlə hücuma məruz qalması bu ərazilərin itisadi inkişafına ciddi şəkildə zərər etmişdir. Yerləşmə yerinə görə yerli və xarici investorların marağının olmamasına və ya riskli ərazi kimi qəbul edilməsinə yol açmışdır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonu üzrə sahibkarlıq subyektlərinin artırılması və bir mənbədən idarə olunması məqsədilə sahibkarlar tərəfindən müraciətlər Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən idarə olunur. Ümumilikdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə 1100-dən çox işğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyəti üçün müraciət daxil olmuşdur. İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyəti üçün müraciətlərdən az bir hissəsi qadındır. Baxmayaraq ki, işğaldan azad edilmiş ərazilərdə qadınların sahibkarlıq fəaliyyətilə məşğul olmalarına bir çox sahədə tələbat var. Ən çox tələbat

sənətkarlıq, xidmət, sənaye təhsil, turizm, səhiyyə, ticarət və tikinti sahələridir. Zəruri təlabat kimi ehtiyac duyulan sahələr isə aptek, market və ictimai iaşə sahələridir. İlk fəaliyyət göstərən sahibkarlıq fəaliyyəti isə çörək hazırlanması, şirniyyat və əlüstü yeməklər, aptek, market, yanacaq doldurma mərkəzi və tikinti matrealları kimi sahələr olmuşdur. Ümumlikdə götürüləndə yaşlı əhalinin 80% i və gənc əhalinin 60% i azad olunmuş ərazilərdə yaşamağı düşünür.

Dövlət tərəfindən sahibkarlara mənəvi, siyasi dəstək eyni zamanda güzəştli kreditlər verilir. İlk öncə bölgənin infrastruktur layihələrinin icrası sahibkarların bu ərazilərə marağın artırır. Dövlət investisiyaları ilə yanaşı, yerli və xarici sərmayələrin cəlb edilməsi ilə işğaldan azad olunan ərazilərdə iqtisadi və sosial infrastrukturun yenidən qurulması, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində işlərin həyata keçirilməsi prioritet məsələlərdəndir. Ekspertlər qeyd edir ki, işğaldan azad edilmiş ərazilərin böyük iqtisadi potensialı və təbii ehtiyatları var. Bu da həmin ərazilərə yerli və xarici investisiyaların cəlbi, əhalinin məşğulluğunun təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

İşğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdış, “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları sahibkarlar üçün yeni biznes və investisiya imkanları açır. Bu ərazilərin bərpası Xəzər bölgəsində sabitliyin və təhlükəsizliyin gücləndirilməsinə, beynəlxalq nəqliyyat və kommunikasiya layihələrinin həyata keçirilməsinə, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə töhfə verməklə yanaşı, dünyada ölkəmizin investisiya cəlbediciliyini və rəqabət qabiliyyətini artıracaq.

Postmüharibə dövründə Azərbaycan dövlətinin qarşısında erməni vandalizminin viran qoyduğu torpaqlara yenidən həyat bəxş etmək, 30 ilə yaxın təcavüzə məruz qalan Qarabağın dirçəlişi üçün addımlar atmaq missiyası da dayanıb. Bu baxımdan Azərbaycan liderinin 2021-ci ilin yanvarın 19-da “Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin təmin edilməsi haqqında” fərmanı xüsusi əhəmiyyət daşıyır. Belə ki, sözügedən fərman məhz Qarabağda geniş quruculuq-bərpa işlərinin ölkəmiz üçün prioritet təşkil etdiyini bir daha nümayiş etdirir. (Azərbaycan Respublikasının Prezidentinin 4 yanvar 2021-ci il Fərmanı)

Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci ilin iyulun 7-də daha bir əhəmiyyətli sərəncam imzalayıb. “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Fərmanla dövlət başçısı tarixi bir hadisəyə

imza atdı. Fərmanla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı ki, Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.(Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il Fərmanı)

Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə fevralın 2-də təsdiq olunmuş “Azərbaycan 2030: Milli Prioritetlər” sənədinə əsasən növbəti 10 illikdə sosial-iqtisadi inkişafa dair 5 Milli Prioritet reallaşdırılmalıdır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;

2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;

3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;

4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;

5. təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi.

(Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri)

Azad olunan ərazilərin Azərbaycan iqtisadiyyatına reinteqrasiyası, burada əhalinin məşğulluğunun təmin edilməsi, istehsal, xidmət, ticarət, nəqliyyat, logistika və digər sahələrin yaradılması da diqqət mərkəzində olan əsas məsələlərdən biridir. Bütün bunlar ümumilikdə Azərbaycanın iqtisadi potensialının daha da güclənməsinə, ümumi daxili məhsul istehsalında ciddi artıma səbəb olacaq.

İşğaldan azad olunan ərazilərdə dağ-mədən, yeyinti, emal sənayeləri, metallurgiya, turizm-rekreasiya, əczaçılıq, taxılçılıq, tərəvəzçilik, üzümçülük, pambıqçılıq, meyvəçilik, heyvandarlıq, quşçuluq, arıçılıq, tikini materialları kimi sahələr böyük inkişaf potensialına malikdir. Bu sahələrə yatırılan sərmayelər həm qeyri-neft ixracının artması və idxalın əvəzlənməsi, həm də dəyər zəncirlərinə qoşulmaq baxımından mühüm əhəmiyyət kəsb edəcək. Həmçinin buraya yeni texnologiyaların cəlbi də iqtisadi inkişafda innovasiyalarla müşayiət ediləcəkdir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Cəmiyyətə dəyər qatan, ölkənin sosial mədəni, siyasi, fikir dəyişmələrində rol alan qadınların iqtisadi mühitdə inkişafı önəmlidir və bu prossesin sürətli inkişafı üçün araşdırmalar aparılmalı problemlərin əsas səbəbləri tapılmalıdır.

Ermənistanın Azərbaycana qarşı təcavüzü iqtisadi inkişafa mənfi təsirlərini göstərdi. Siyasi gərginlik yerləşmə yerinə görə yerli və xarici investorların marağının olmamasına və ya riskli ərazi kimi qəbul edilməsinə yol açmışdır.

İşğaldan azad edilmiş ərazilərin sürətli bərpası, həmin ərazilərdə davamlı inkişafı təmin etmək məqsədilə qadın sahibkarları burada fəaliyyət göstərmələri üçün təşviq edici mexanizmilər hazırlanmalıdır. Çünki qadın sahibkarlar cəmiyyətdə bir çox insanın görmədiyi sosial problemləri görür, həssas mövzuların həllinə diqqət çəkir. Ölkə əhalisinin yarısını təşkil edən qadınları iqtisadiyyatda önə çəkərək bir çox problemlərin həllinə yol aça bilərik. Az inkişaf etmiş bölgələrin dayanıqlı inkişafına və güclənməsinə zəmin yaradarıq. Bir qadının sahibkarlıq fəaliyyətilə məşğul olması işğaldan azad edilmiş bölgələrdə bir çox işsiz qadının işlə təmin olmasına səbəb olur. Birbaşa işsizlik səviyyəsinin azalmasına, digər qadınlara dəstək olmağa və əhalinin rifahının yüksəlməsini təmin edir.

İşğaldan azad edilmiş ərazilərdə xalçaçılığın, pambıqçılığın inkişaf etdirilməsi, yeni zavod və fabriklərin yaradılması, onların məhsullarının xaricə ixrac olunması, qadınlar arasında savadlı və təcrübəli mütəxəssislərin hazırlanması istiqamətində işlər görülməsinə layihələr hazırlanmasına ehtiyac var. Ən çox tələbat sənətkarlıq, xidmət, sənaye təhsil, turizm, səhiyyə, ticarət və tikinti sahələridir. Zəruri tələbat kimi ehtiyac duyulan sahələr isə aptek, market və ictimai iaşə sahələridir.

Ölkəmizdə işğaldan azad edilmiş ərazilərin inteqrasiyası, inkişafı və yenidən qurulması məqsədilə sərəncam, fərman və layihələr bu istiqamətdə atılan ciddi addımlardır. Bu ərazilərdə Böyük Qayıdış, “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları sərmayədarlar üçün yeni biznes və investisiya imkanları açır. Qarabağda iqtisadiyyatın gücləndirilməsi, sahibkarların fəaliyyətini təmin etmək məqsədilə sahibkarlıq subyektlərinin müraciətlərin toplanması istiqamətində işlər Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən aparılır. Agentlikdən alınan məlumata əsasən 1100-ə yaxın müraciət olunmuş və onlardan çox az bir qismi qadın sahibkarlardır.

İqtisadiyyatın inkişafında qadın sahibkarlığın mühim rolunu nəzərə alaraq aşağıdakı təkliflər irəli sürülür:

1. Qadın sahibkarlığını dəstəkləyən qurumların işi böyüdülməli, sahibkarlıqla bağlı ideası olan hər bir qadına başdan sona qədər sahibkarlıq fəaliyyətində köməklik göstərilməlidir.

2. İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıqla məşğul olmaq istəyən qadın sahibkarlara uyğun mütəmadi mükafat və təşviq mexanizimləri yaradılmalıdır.

3. İnformasiya tam və əlçatan olmalıdır. Sahibkar olmaq istəyən qadınlar məlumatlandırılmalıdır.

4. Qadınlara işğaldan azad edilmiş ərazilərdə olan fürsətlər, fəaliyyətlər, texnologiyalar və ehtiyac yaranan sahələr barədə təlimlər, seminarlar keçirilərək sahibkarlığa təşviq edilməlidir.

5. Xalçaçılıq və əl əməyi tətbiq olunan sahələrdə qadın sahibkarlığı subyektlərinin önəmi vurğulanmalıdır.

6. Vergi güzəştləri, dövlət yardımları geniş işıqlandırılmalı bu sahəyə qadınlarda həvəs və marağın yaranmasına köməklik göstərilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/gender/
2. Azərbaycan Respublikasının Prezidentinin 4 yanvar 2021-ci il Fərmanı https://qdf.gov.az/qanunvericilik/58-Qarabag-Dirchelish-Fondu-publik-huquqi-shexsin-yaradilmasi-haqqinda-Azerbaycan-Respublikasi-Prezidentinin-Fermani.html
3. Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il Fərmanı https://president.az/az/articles/view/52389
4. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər https://president.az/az/articles/view/50474
5. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2021-ci il № 3037 sərəncamı.

6. Gerber, M. E. (2001), Girişimcilik Tutkusu. Çeviren: Tayfur KESKİN, Sistem Yayıncılık, İstanbul.
7. MORÇİN, S.E. (2013). Türk Kültüründe Kadın Girişimciliği: Kavramsal Bir Değerlendirme. Journal of Entrepreneurship and Development, 8: 167-190.
8. MUELLER, S., THOMAS, A. S. (2001), CultureandEntrepreneurialPotential: A Nine Country Study of Locus of Control andInnovativeness, Florida International University, Miami, National Academy of Management, Journal of Business Venturing, Volume 16, Issue 1, January 2001, s. 51-75.
9. ÇETİNDAMAR, Dilek (2002), Türkiye'de Girişimcilik, TÜSİAD Yayınları, 33.
10. FAIRLIE, R. & ROBB, A. (2009). Gender Differences in Business Performance: Evidence fromthe Characteristics of Business Owners Survey. Small Business Economics. 33. 375-395. 10.1007/s11187-009-9207-5.
11. Dharmendran, A., "A Study on Women Entrepreneurship Development Through Self Help Group", Shanlax International Journal of Management, IV/1, 2016, s. 69-74
12. RAGHUVANSHI, J., AGRAWAL, R. ve GHOSH, P.K. (2017). Analysis of barriers to women entrepreneurship: The DEMATEL approach. The Journal of Entrepreneurship, 26(2): 220-238.
13. World Economic ForumThe Global Competitiveness Report 2019 https://www3.weforum.org/docs/WEF_TheGlobalCompetitivenessReport2019.pdf

# AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ KOB-LARIN İNKİŞAF İMKANLARI VƏ SOSİAL-İQTİSADİ PERSPEKTİVLƏRİ

**Cabbarov Vahid**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

## Xülasə

Son zamanlar kiçik və orta bizneslərin (KOB) iqtisadi funksiyaları tədqiqatçılar tərəfindən daha çox araşdırmalara məruz qalmışdır. Ona görə ki, KOB-lar əksər ölkələrin milli iqtisadiyyatında ümumi daxili məhsul, məşğulluğun təmin edilməsi, əlavə dəyərin yaradılması və dövlət büdcəsinin gəlirlərini artırılması kimi makroiqtisadi göstəricilərə ciddi şəkildə müsbət təsir göstərir və müasir dünya iqtisadiyyatının mühüm tərkib hissələrindən birini təşkil edir. Bütün bu cəhətlərini nəzərə alaraq, Azərbaycanın işğaldan azad edilmiş bölgələrinin ölkə iqtisadiyyatına transformasiyasının həyata keçirilməsi və sosial-iqtisadi inkişafının təmin olunması məqsədilə KOB-ların potensialının və rolunun tədqiq olunması böyük elmi və praktik əhəmiyyətə malikdir. Beləliklə də, məqalədə işğaldan azad edilmiş ərazilərin iqtisadi reallıqları, KOB-ların nəzəri-metodoloji əsasları və sosial-iqtisadi inkişafın təmin olunmasında onların rolu araşdırılır. Eləcə də, Azərbaycanda KOB-ların inkişafına dair dövlət siyasəti, normativ hüquqi baza və dəstək mexanizmləri öyrənilməklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının təmin olunması məqsədilə bölgədə kiçik və orta sahibkarlığın inkişaf perspektivləri tədqiq olunur. Sonda təhlil və ümumiləşdirmə aparılmaqla nəticələr verilir və təkliflər təqdim olunur.

***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, Şərqi Zəngəzur, KOB, iqtisadi inkişaf.*

## Giriş

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təməl potensialına Ermənistanın 30 ilə yaxın davam edən işğal siyasəti nəticəsində böyük zərbə vurulmuşdur. Belə ki, işğal müddətində bütün infrastruktur və kommunikasiyalar dağıdılmış, maddi-mədəni irs nümunələri məhv edilmiş və təbii sərvətlər talan edilmişdir. Azərbaycanın məruz qaldığı itki və tələfatların qiymətləndirilməsi üzrə müvafiq işçi qrupun sədri Xanhüseyn Kazımlının verdiyi məlamata görə, işğal nəticəsində Azərbaycan iqtisadiyyatına dəymiş ümumi ziyan 818 milyard dollardan artıq qiymətləndirilir (APA, 2015).

Ali Baş Komandan İlham Əliyevin hərbi-siyasi rəhbərliyi altında Azərbaycan ordusunun 44 günlük Vətən müharibəsində şanlı qələbəsi ilə ərazilərin işğaldan azad edilməsi və məlum 10 noyabr tarixli, Üçtərəfli Bəyanatın imzalanmasından sonra regionda yeni iqtisadi və geosiyasi reallıqlar yaranmışdır. Ərazilərin bərpası və "Böyük Qayıdış"ın reallaşdırılması istiqamətində intensiv dövlət siyasətinin aparılması və Ermənistanla bağlanılması gözlənilən sülh müqaviləsi bölgə üçün yeni real perspektivlər açır. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də qeyd olunur ki, qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına yenidən inteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın gələcək inkişafına böyük təkan verəcəkdir. Bu konteksdə, Cənubi Qafqazda təhlükəsizliyin və sabitliyin, eləcə də qarşılıqlı faydalı və uzunmüddətli əməkdaşlığın formalaşması, həmçinin də geniş iqtisadi və ticarət əlaqələrinin yaradılması regionun aparıcı dövləti kimi ölkəmizin bölgə iqtisadiyyatının ümumi konyukturasının müəyyən edilməsində moderator rolunu daha da gücləndirəcəkdir. Bütün bu gözləntilər və qarşıya qoyulan hədəflərdən irəli gələrək 2030-cu ilədək olan dövr üçün **5** Milli Prioritetin gerçəkləşdirilməsi nəzərdə tutulmuşdur ki, bunlara ***"dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat", "dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət", "rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı", "işğaldan azad olunmuş ərazilərə böyük qayıdış", "təmiz ətraf mühit və yaşıl artım ölkəsi"*** kimi prioritet hədəflər daxildir. Sənəddə işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsi və hədəflərə çatmaq üçün dayanıqlı məskunlaşmanın təmin edilməsi məqsədi ilə yüksək yaşayış standartlarının yaradılması və işğaldan

qurtarılmış ərazilərin Respublikanın sosial-iqtisadi həyatında tarixi mövqeyinin bərpası ilə bölgənin ölkə üzrə iqtisadi fəaliyyətdə oynadığı əhəmiyyətli rolunun özünə qaytarılması və potensialının davamlı gücləndirilməsi nəzərdə tutulmuşdur (E-qanun, 2021).

UNEC-in rektoru, professor Ədalət Muradov Azərbaycanın iqtisadi inkişafı ilə bağlı konseptual yanaşmaları çərçivəsində qeyd edir ki, Qarabağın iqtisadiyyatı ölkəmizin gələcək dayanıqlı və davamlı inkişafı üçün əlverişli və əvəzolunmaz şans yaradır (Muradov, 2020). Dəyərli alimin fikirləri onu deməyə əsas verir ki, işğaldan azad edilmiş ərazilərin inkişaf etdirilməsi bütövlükdə ölkəmizin iqtisadi potensialını da gücləndirir.

Müşahidələr göstərir ki, düşmən tapdağından azad olunmuş ərazilərdə hazırda həyata keçirilən böyük infrastruktur layihələri, o cümlədən, Füzuli Beynəlxalq Hava Limanının qısa zamanda istifadəyə verilməsi, geniş nəqliyyat şəbəkəsinin qurulması istiqamətində əməli fəaliyyət, xüsusilə, ölkəmizin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək avtomobil və dəmir yollarının çəkilməsi bütövlükdə regionun logistika xəritəsini yenidən formalaşdırmaqla bərabər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi potensialını artıracaq və sosial-iqtisadi üçün geniş imkanlar yaratmaqla ərazilərin davamlı məskunlaşması işinə böyük töhfələr verəcəkdir. Belə ki, “Böyük Qayıdış”ın reallaşdırılması ilə bir milyona yaxın qaçqın və məcburi köçkünün öz doğma yurdlarına dönməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi məqsədilə bölgənin biznes infrastrukturunun formalaşdırılmasını və sosial-iqtisadi inkişafının təmin edilməsini böyük zərurətə çevirir. Bu baxımdan, yeni iş yerlərinin yaradılmasında və rəqabətcil biznes mühitinin formalaşdırılmasında mühüm rol oynayan sahibkarlıq seqmenti kimi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında KOB-ların inkişaf imkanlarının və perspektivlərinin araşdırılması böyük elmi aktuallıq daşıyır. Belə ki, kiçik və orta müəssisələr həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan, biz sözlə bütün kateqoriyadan olan ölkələrin iqtisadiyyatında zaman keçdikcə daha çox əhəmiyyət kəsb edir. Ona görə də, dünya miqyasında onların inkişafına təsir edən müxtəlif amillər araşdırılır və gəlinən nəticələrə uyğun olaraq müxtəlif təşfiq proqramları həyata keçirilir.

Bu tədqiqatın əsas məqsədi Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında KOB-ların inkişaf imkanlarını və sosial-iqtisadi inkişafının təmin olunmasında onların rolunu araşdırmaqdan ibarətdir. Qarşıya qoyulmuş

məqsədə uyğun olaraq tədqiqat aşağıda qeyd olunan bir sıra vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur:

- KOB-ların əhəmiyyətini və sosial-iqtisadi inkişafa təsirlərini araşdırmaq;
- Azərbaycanda sahibkarlığın inkişafına dair dövlət siyasətini və onların təsnifləşdirilməsini müəyyənləşdirmək;
- KOB-ların inkişafını şərtləndirən amiləri müəyyənləşdirmək;
- İşğaldan azad edilmiş ərazilərdə KOB-ların inkişaf imkanlarını araşdırmaq.

Bu vəzifələrin icra edilməsinə nail olmaq üçün məqalədə ədəbiyyat icmalı, analiz, sintez, statistik təhlil, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilir.

Aparılan tədqiqatın məhdud cəhəti ondan ibarətdir ki, Azərbaycan Respublikasının indiki Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazilərinin əksər hissəsinin uzun müddət işğal altında olması ilə əlaqədar olaraq cari vəziyyəti əks etdirən məlumatlara çıxış imkanları minimum səviyyədədir. Buna görə də, araşdırma zamanı əsasən işğaldan öncəki təsərrüfat təcrübəsinə və bölgələrin iqtisadi potensialı üzərindən aparılan tədqiqat nəticələrinə istinad edilməklə təhlil və müqayisələr aparılır. Buna gorə də ərazilərin bərpası məqsədilə qəbul edilmiş proqram və sənədlərdən, rəsmi dövlət orqanlarının statistik hesabatlarından və açıq informasiya resurslarında yerləşdirilmiş məlumatlardan istifadə olunur. Bundan əlavə, mövzunun müxtəlif aspektlərinin öyrənilməsi ilə əlaqədar yerli və xarici müəlliflərin kitab, jurnal və konfrans materiallarında yer almış tədqiqatlarına müraciət olunur.

## KOB-ların Əhəmiyyəti və Onların İnkişafını Şərtləndirən Amillər

Qlobal iqtisadiyyatda surətlə inkişaf edən biznes nümunələrinin əksəriyyəti KOB-lara aid edilir. KOB-lar sosial-iqtisadi inkişafın təmin olunması, o cümlədən, yeni iş yerlərinin açılması və yoxsulluğa qarşı mübarizədə mühüm rol oynayırlar (Sendawula, Turyakira və Bananuka, 2018). Araşdırmalar sübut edir ki, müasir bazar iqtisadiyyatı şəraitində KOB-lar yeni iş yerlərinin açılmasına əhəmiyyətli töhfə verməklə bərabər, həm də, istehsal və xidmət sektorlarında iqtisadi inkişafın aparıcı drayverlərindən biri kimi çıxış edir və

yenilikçi xarakter daşıması ilə seçilirlər. Kiçik və orta səviyyəli sahibkarlıq müəssisələri əhalinin məşğulluğunun və gəlirlərinin artırılmasına xidmət etməklə ümumilikdə sosial, iqtisadi, biznes və siyasi mühitin davamlı şəkildə yaxşılaşmasına təkan verir. KOB-ların digər mühüm əhəmiyyəti isə onların nisbətən aşağı ixtisas dərəcəsinə və peşəkarlıq səviyyəsinə malik insanların kariyerasında və inkişafında böyük pay sahibi olması və trampilin rolu oynaması ilə əlaqədardır. Bu onunla izah olunur ki, hazırkı reallıqda bəhs olunan mütəxəssislər böyük firmalarda iş tapmaqda çətinlik çəkirlər. Belə bir vəziyyətdə, KOB-lar onların əmək bazarına adaptasiyasında, peşəkarlıq səviyyəsinin yüksəldilməsində və gələcək kariyera perspektivlərinin gücləndirilməsində əvəzsiz rol oynayırlar. Beləliklə də KOB-ların yerinə yetirdiyi ictimai funksiyalar dövlətin sosial-iqtisadi məqsədlərinə xidmət etdiyindən onların inkişafı müxtəlif səviyyələrdə və formalarda dəstəklənir (McIntyre, 2001).

Bu baxımdan azərbaycanlı tədqiqatçılar da fundamental sayıla bilən araşdırmalar həyata keçirmişlər. Onların gəldiyi qənaətə görə, KOB səviyyəsində sahibkarlığın inkişafı insanların sosial rifahının yüksəldilməsinə müsbət təsir göstərir. Digər tərəfdən isə, belə sahibkarlıq subyektlərinin inkişafı və milli iqtisadiyyatda xüsusi çəkisinin artması, paralel olaraq əsaslı vəsait qoyuluşuna yönəldilən investisiyaların da həcminin çoxalması ilə nəticələnir. Bundan əlavə, məlum olur ki, KOB-lar yeni texnologiya və innovasiyaların tətbiqini stimullaşdırmaqla intensiv inkişaf yolu ilə məhsuldarlığın artmasını da təmin edir. KOB-ların ən mühüm faydalarından biri də, xüsusilə prioritet məsələlərdən biri sayılan orta təbəqənin inkişafına kömək etməsindən ibarətdir. Nəticə etibarilə, KOB-lar dövlət büdcəsinə cəlb olunan vergilərin miqdarının çoxalmasına və büdcə gəlirlərinin artmasına dəstək vermiş olur (Abbasov, 2017).

KOB-lar dinamik şəkildə dəyişən biznes dünyasında yüksək rəqabətə rast gəlirlər. (Chan, Teoh, Yeow and Pan, 2019). Rəqabətcil mühitdə fəaliyyətini davam etdirmək üçün kiçik və orta sahibkarlar son vaxtlarda daha çox rəqəmsal platformalardan istifadə etməklə biznes strategiyalarını gücləndirməyə can atırlar (Li, Liu, Belitski, Ghobadian and O'Regan, 2016). Hazırda rəqəmsal platformalar biznes təsisatlarına məlumatları homogenləşdirməyə, dəyişdirməyə və kütləvi şəkildə yaymağa imkan verən alətlər funksiyasını yerinə yetirir (Yoo, Henfridsson and Lyytinen, 2010). Buna nümunə olaraq göstərə bilərik ki, rəqəmsal iqtisadiyyat şəraitində yeni

cihazlar, proqram təminatı və şəbəkə standartları yeni yaradılmış istehsal firmalarına rəqabət üstünlüyü əldə etməyə imkan verir (Parker, Van Alstyne and Choudary, 2016). Əslində rəqəmsal platformalar bir çox firmaların məlumat idarəçiliyindən istifadə etmələrini təmin edərək dəyəryaratma prosesində aparıcı rol oynayır (Cenamor, Sjödin and Parida, 2017). İqtisadi ədəbiyyatlar informasiya və kommunikasiya texnologiyalarının (İKT) kiçik və orta müəssisələrin biznes performansına təsirini geniş şəkildə araşdırmışdır (Parida & Örtqvist, 2015). Xüsusilə İKT-dən istifadə məlumatlarının düzgün analizi vasitəsi ilə idarəetməni və bazar oriyentasiyasını optimallaşdırmaqla əməliyyatların effektivliyini artıra bilər (Melville, Kraemer and Gurbaxani, 2004).

Beləliklə də araşdırmalar sübut edir ki, bütün kateqoriyadan olan ölkələrin sosial-iqtisadi inkişafında KOB-lar əhəmiyyətli paya malikdir. Kiçik və orta müəssisələr ÜDM-in artırılmasına və işsizlik səviyyəsinin azaldılmasına yardım etdiyinə görə xüsusilə sosial mahiyyət kəsb edir (Wozniak, Duda, Gasior and Bernat, 2019). Bütün bu faktorlara görə də, demək olar ki bütün dövlətlərdə KOB-ların inkişaf etdirilməsi prioritet kimi qəbul olunur.

Kiçik sahibkarlığın təşəkkül tapması üçün bir sıra şərtlərin ödənilməsi lazımdır. Bu şərtlərə iqtisadi, sosial və hüquqi şərtlər daxildir. İqtisadi şərtlər özündə məhsul və xidmətlər üzərində tələb və təklif münasibətlərini, insanların alıcılıq qabliyyətini, əhalinin gəlir səviyyəsinə təsir edən faktorların cəmini özündə ehtiva edir. Kiçik sahibkarlığın yaranmasını təmin edən sosial şərtlər də bir növ iqtisadi şərtlərlə vəhdət təşkil edir. Bu mənada birinci amil istehlakçı zövqünün formalaşması ilə bağlıdır və ona görə də mütəmadi şəkildə zövqlər dəyişə bilər. Kiçik sahibkarlığın inkişafına təsir edən sosial şərtlər coğrafi və milli çərçivədə dini inanclar və milli adət-ənənələrlə sıx bağlıdır. Bütün bu sosial xüsusiyyətlər işgüzar əlaqələrin şəkilləndirilməsində və bizneslərin yaranmasında mühüm rol oynayır. Digər cəhət ölkənin kadr potensialı ilə əlaqələndirilə bilər. Belə ki, insanların təhsili, ixtisas hazırlığı və yenidənhazırlanma imkanları, peşə təhsili və bütün bunların təşkili səviyyəsi kiçik sahibkarlığın təşəkkülünə böyük təsir edir. Hüquqi şərtlərə gəldikdə isə qeyd etmək lazımdır ki, bu zaman kiçik sahibkarlığın inkişafına zəmanət verən normativ-hüquqi baza və qanunvericilik aktlarının mövcudluğu nəzərdə tutulur. Qanunvericilik aktlarının təkmil olması və kiçik müəssələrin təşfiqini həyata keçirməsi sahibkarlığın bu kateqoriyasının geniş vüsət almasına gətirib çıxarır və kiçik bizneslərin inkişafının təməl prinsiplərindən birini təşkil

edir. Bu konteksdə kiçik müəssisələrin yaradılması və qeydiyyat prosedurlarının sadələşdirilməsi, sahibkarlığın inkişafına mane olan bürokratik əngəllərin aradan qaldırılması, istehsal sektorunun gücləndirilməsi kimi addımlar kiçik bizneslərin inkişafına təkan verir. Bu amillərə vergi qanunvericiliyinin sahibkarlıq siyəsətinə cavab verən formada təkmilləşdirilməsi, mülkiyyət hüquqlarına təminatların gücləndirilməsi kimi vacib amilləri də aid etmək olar (İmanov, 2009).

Vurğulamaq lazımdır ki, kiçik biznes subyektlərinin və fərdi sahibkarlığın bir sıra əlverişli xüsusiyyətləri (kiçik maliyyə dövriyyəsi və onun sürətli həyata keçirilməsi, istehsal vasitələrini tez-tez dəyişmək imkanları və s.) onların müəyyən üstünlüklər qazanmasına və rəqabətcil olmasına imkan verir. Kiçik sahibkarlıq müəssisələrinin sahib olduğu özünəməxsus xüsusiyyətlərə aşağıdakıları aid etmək olar:

- tələbin sürətli dəyişməsi riski nəzərə alınmaqla yeni məhsulların araşdırılması, istehsalı, onların inkişaf etdirilməsi və kiçik müəssisələrdə istehsalı;
- Sürətli texniki xidmətin etibarlı xarakter daşıması və müştərilərlə güclü ünsiyyətin qurulması;
- bazar tələblərinin və bazar konyukturasının dəyişməsinə uyğun olaraq istehsalın və satışın çevik təşkilinin həyata keçirilməsi;
- izafi əməyin aradan qaldırılması;
- idarəetmə strukturunun sadəliyi, böyük inzibati aparatın olmaması, tikinti və layihələndirmənin inkişafının qısa müddətdə reallaşdırılması mümkünlüyü, qoyulmuş investisiyaların qısa zaman müddətində repatriasiyası, maliyyəl dövriyyəsinin yüksək sürəti;
- xammal və əmək ehtiyatlarından, sənaye tullantılarından daha yaxşı və səmərəli istifadə edilməsi.

Kiçik biznes və sahibkarlıq subyektləri, eləcə də onlarla bağlı olan bütün komponentlər bazar iqtisadiyyatı şəraitində müasir ictimai istehsalın təşkilati strukturunun mühüm tərkib hissəsi rolunda çıxış edir. Bütün bunlara görə də, kiçik biznes və özəl sahibkarlığın inkişafı ümumi iqtisadi tərəqqinin aparıcı qüvvəsi hesab olunur. Bu səbəblərlə bağlı olaraq kiçik müəssisələrin

yaradılması və inmkişafı hökumətlər tərəfindən prioritet hesab olunur və kiçik sahibkarlığın dəstəklənməsi və təşfiqinə xidmət edən müxtəlif mexanizmlərdən və proqramlardan istifadə olunur. Kiçik bizneslər həm də elm və texnikanın inkişafının, yeni texnologiya və innovasiyalara keçidin sürətləndirilməsi vasitələrindən biri kimi önəmli hesab olunur. Belə ki, sahibkarlıq, xüsusilə kiçik sahibkarlıq yeni informasiya-kommunikasiya texnologiya və avadanlıqlarının, eləcə də, startapların və istehsalın modernləşdirilməsinin əsas təminatçılarından biri hesab olunur (Nusratovich & Usmonkhan, 2022). Digər tərəfdən isə milli iqtisadiyyat da KOB-ların inkişafına təsir göstərir. Belə ki, iqtisadi sistemin sabit xarakter daşıması, şəffaf fəaliyyət göstərməsi, əsas iqtisadi hüquq və azadlıqların təmin edilməsi KOB-ların inkişafını şərtləndirən əsas müəyyənedici faktorlardır (Misztal, 2015). Bundan əlavə, araşdırmalar göstərir ki, kiçik biznes müəssisələri yüksək risk qrupuna aid edilən məhsul və xidmətlərin sınaq yeri kimi də istifadə olunur və bu cəhətdən kiçik biznes texnoloji yeniliklərin istehsalda tətbiqinin genişlənməsinə təkan verir. Bu onunla əlaqədardır ki, kiçik biznes təşkilatları yeni texnoloji ideyaları böyük biznes qurumlarına nisbətən daha tez mənimsəyə və istehsalatda tətbiq edə bilirlər. Təhlil onu deməyə əsas verir ki, görülən işlərin məntiqi nəticəsi olaraq qlobal iqtisadiyyatda kiçik sahibkarlığın rolu və xüsusi çəkisi artmaqdadır. Bu baxımdan sənayenin aparıcı sahələrində, emal, istehsal və xidmət sektorlarında, həmçinin təhsil sahəsində kiçik sahibkarlıq nümunələrinin sayı artır və potensialı güclənir. Beləliklə, KOB-ların bütün üstün cəhətləri və sosial-iqtisadi inkişafın təmin olunması baxımdan səmərəli alət olması sahibkarlığın bu seqmentinin faydalarından Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsində və gələcək sosial-iqtisadi inkişafında istifadə edilməsini zərurətə çevirir.

## Azərbaycanın İşğaldan Azad Olunmuş Ərazilərində KOB-ların İnkişaf İmkanları

Respublikamızda KOB-ların inkişaf etdirilməsi və onların fəaliyyətinin tənzimlənməsi ilə bağlı davamlı işlər görülmüçşdür. Qəbul edilmiş normativ hüquqi aktların və aparılan struktur islahatlarının əsasında onların inkişafının təmin edilməsi üçün müxtəlif dəstək və təşfiq proqramlarının həyata keçirilməsi durur. Buna nümunə kimi göstərə bilərik ki, “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının

istehsalına dair Strateji Yol Xəritəsi"ndə KOB-ların inkişafı üçün bütün meyarlar, o cümlədən də kiçik və orta sahibkarlar üçün "ömür boyu öyrənmək" imkanlarının təmin olunması nəzərdə tutulmuşdur (SMB, 2022).

Ölkəmizdə KOB sahəsində dövlət siyasətinin və onlara münasibətin formalaşdırılması baxımından böyük əhəmiyyət kəsb edən addımlardan birini Nazirlər Kabineti (NK) tərəfindən 21.12.2018-ci il tarixli və 556 nömrəli müvafiq qərarla KOB-ların yeni bölgü meyarlarının müəyyənləşdirilməsi təşkil edir (E-qanun, 2018). Hazırda Azərbaycanda bu sənəd vasitəsilə sahibkarlıq təsisatlarının təsnifləşdirilməsi həyata keçirilir və onların kateqoriyaları müəyyən edilir. Beləliklə də, qeyd olunan qərar əsasında **Cədvəl 1**-də təsvir edilən yeni meyarlar Azərbaycanda sahibkarlıq fəaliyyətinə dair bir növ çərçivə sənədi kimi də qəbul edilə bilər. Ona görə də, cədvəldə verilmiş təsnifləşdirmə və ölçü meyarlarının nəzərdən keçirilməsi və onların təhlili tədqiq olunan istiqamət üzrə aydın təsəvvür formalaşdırılması baxımından olduqca böyük əhəmiyyət kəsb edir.

**Cədvəl 1: AR-da sahibkarlıq subyektlərinin yeni ölçü meyarları**

| **Sahibkarlığın növü** | **İşçilərin say həddi** | **İllik gəlirin həddi (ig) (min manat)** |
|---|---|---|
| **Mikro səviyyəli** | 1-10 intervalı | ig≤ 200 |
| **Kiçik səviyyəli** | 11-50 intervalı | 200< ig≤ 3000 |
| **Orta səviyyəli** | 51-250 intervalı | 3000<ig≤ 30000 |
| **Böyük səviyyəli** | 251 və daha çox | 30000< ig |

**Mənbə:** E-qanun.az, 2018.

Cədvəldən göründüyü kimi sonuncu dəyişikliklərdən sonra Azırbaycanda mikro səviyyəli sahibkarlıq təsisatlarına işçilərinin say həddi 10 nəfərə qədər, illik gəlir həddi isə 200 min manatı keçməyən, kiçik səviyyəli sahibkarlıq təsisatlarına işçilərinin say həddi 11 nəfərdən 50 nəfərə qədər və eyni zamanda illik gəlir səviyyəsi 200 min manatdan 3 milyon manata qədər olan, orta səviyyəli sahibkarlıq təsisatlarına işçilərin say həddi 51-250 intervalında dəyişən və illik gəlir səviyyəsi 3 milyon manatdan çox, 30 milyon manatdan az və ya ona bərabər olan, və nəhayət iri sahibkarlara isə işçilərinin say həddi 250-dən, illik gəlirləri 30 miyon manatdan çox olan biznes qurumları aid edilir.

Azərbaycanlı alimlər Fariz Əhmədov və Cəbrayıl Vəliyevin araşdırmaları göstərir ki, ölkəmizdə KOB səviyyəli bizneslərin inkişaf etdirilməsi milli iqtisadiyyatın şaxələndirilməsi, rəqabət qabiliyyətinin artırılması, məşğulluğun səviyyəsinin daha da yüksəldilməsi və yerli resurslardan istifadə etməklə istehlak məhsullarına olan təlabatın qarşılanması üçün vacibdir. Bu baxımdan, müvafiq sektorun inkişafına nail olunması məqsədilə qəbul edilmiş strateji yol xəritələrinin icrası və Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə yaradılmış Kiçik və Orta Bizneslərin İnkişafı Agentliyinin fəaliyyəti ölkəmizdə bəhs olunan bizneslərin inkişafına təkan vermişdir (Ahmadov and Valiyev, 2019). Sahibkarlıq sahəsində dövlət prioritetlərinə uyğun olaraq Azərbaycanda özəl bizneslərin dəstəklənməsi üçün müxtəlif mexanizmlərdən istifadə olunur və bölgələrdə sahibkarlığın inkişafı xüsusilə diqqət mərkəzindədir. Bu cəhətdən səmərəli mexanizmlərdən birini də Biznes inkubatorlar (Bİ) vasitəsilə sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi təşkil edir. Bu məqsədlə, 10.09.2014-cü il tarixində Xaçmaz rayonu ərazisində yerləşən Quba-Xaçmaz Regional İnkişaf Mərkəzi nəzdində Bİ-un yaradılması ilə Azərbaycanda ilk Bİ fəaliyyətə başlamışdır. Məqsədyönlü iqtisadi siyasətin nəticəsi olaraq, 24.05.2016-cı il tarixində Aran Regional İnkişaf Mərkəzində Aran iqtisadi rayonunda fəaliyyət göstərən yeni sahibkarların və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərin biznes təşəbbüslərinə dövlət dəstəyini təmin etmək üçün sayca ikinci olan regional biznes inkubatoru fəaliyyətə başlamışdır. Bİ-un yaradılmasının başlıca qayəsi regionlarda biznes mühitinin daha da yaxşılaşdırılmasını təmin etməklə sahibkarlara dövlət dəstəyini gücləndirmək və yeni biznes ideyalarının reallaşdırılmasına kömək etməklə bölgələrdə məşğulluğun artırılmasına nail olmaqdır (SİF, 2022). Regional inkişaf konteksində, hazırda Azərbaycanın milli prioritetlərindən birini də işğaldan azad edilmiş bölgələrin dirçəldilməsi, davamlı məskunlaşmanın həyata keçirilməsi və sosial -iqtisadi inkişafın təmin edilməsi təşkil edir. Bu istiqamətdə əsas alətlərdən biri kimi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında KOB-ların inkişaf etdirilməsi hesab olunur.

Dövlət Statistika Komitəsinin müvafiq iqtisadi rayonlar üzrə fəaliyyət göstərən mikro, kiçik və orta (MKO) səviyyəli sahibkarlıq subyektlərinin 2019-cu və 2020-ci ilə dair bölgü **(Cədvəl 2)** məlumatlarından istifadə etmək işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafını qiymətləndirmək baxımından faydalıdır (Azstat, 2022). Statistikada yer alan bəzi inzibati rayonlar otuz ilə yaxın tamamilə işğal atında olduğundan onların müvafiq göstəriciləri yox səviyyəsindədir və ya bu məlumatların əksəriyyəti rəsmi dövlət orqanlarında

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan inzibati ərazi vahidləri üzrə qeydiyyatdan keçmiş sahibkarlıq subyektlərini əhatə edir. Ancaq təqdim olunan məlumatlar sahibkarlıq təşəbbüsləri və aktivliyini müəyyənləşdirmək baxımından böyük əhəmiyyətə malikdir.

**Cədvəl 2: Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə bölgüsü**

| İqtisadi və inzibati rayonlar | 2019 | | | | 2020 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | | Cəmi | o cümlədən | | |
| | | Mikro | kiçik | orta | | mikro | kiçik | orta |
| **Ölkə üzrə cəmi** | **271304** | **262622** | **5956** | **2726** | **316370** | **307717** | **5943** | **2710** |
| **Qarabağ** | **10328** | **10139** | **133** | **56** | **12857** | **12692** | **114** | **51** |
| Xankəndi ş. | 1 | 1 | - | - | 838 | 838 | | |
| Ağcabədi r. | 2108 | 2070 | 27 | 11 | 2715 | 2689 | 15 | 11 |
| Ağdam r. | 1552 | 1524 | 22 | 6 | 1503 | 1478 | 17 | 8 |
| Bərdə r. | 4089 | 4037 | 40 | 12 | 5098 | 5053 | 35 | 10 |
| Füzuli r. | 1413 | 1380 | 22 | 11 | 1217 | 1187 | 21 | 9 |
| Xocalı r. | 11 | 9 | 1 | 1 | 29 | 27 | 1 | 1 |
| Xocavənd r. | 59 | 53 | 4 | 2 | 153 | 147 | 5 | 1 |
| Şuşa r. | 13 | 10 | 3 | - | 27 | 23 | 4 | - |
| Tərtər r. | 1082 | 1055 | 14 | 13 | 1277 | 1250 | 16 | 11 |
| **Şərqi Zəngəzur** | **537** | **496** | **31** | **10** | **1156** | **1113** | **28** | **15** |
| Cəbrayıl r. | 156 | 146 | 7 | 3 | 212 | 203 | 5 | 4 |
| Kəlbəcər r. | 95 | 90 | 3 | 2 | 216 | 208 | 5 | 3 |
| Laçın r. | 188 | 172 | 13 | 3 | 83 | 77 | 3 | 3 |
| Qubadlı r. | 47 | 41 | 4 | 2 | 571 | 555 | 11 | 5 |
| Zəngilan r. | 51 | 47 | 4 | - | 74 | 70 | 4 | - |

**Mənbə:** Dövlət Statistika Komitəsi (Azstat, 2022).

Cədvəldə verilən statistik məlumatlar üzərində təhlil apardıqda məlum olur ki, 2019-cu ildə Qarabağ iqtisadi rayonu üzrə fəaliyyət göstərən 10328 KOB subyektinin 60%-i işğala məruz qalmamış Ağcabədi və Bərdə rayonlarının, 39%-i qismən işğalda olmuş Ağdam, Füzuli və Tərtər rayonlarının, 1%-i isə tamamilə Ermənistan silahlı qüvvələrinin işğalı altında olmuş Xocalı, Xocavənd, Şuşa və Xankəndi inzibati ərazi vahidlərinin payına düşür. Bundan əlavə, statistika əsasında hesablama apardıqda aşkar olur ki, 2019-cu ildə Qarabağ iqtisadi rayonunda fəaliyyətdə olan müvafiq biznes subyektlərinin respublika üzrə pay göstəricisi 3,8% təşkil etmişdir. 2020-ci ildə isə eyni iqtisadi rayonda müvafiq göstərici 4,06% həcmində olmuşdur.

Şərqi Zəngəzur iqtisadi rayonunda KOB subyeklərinin daha az olması isə həmin inzibati rayonların uzun müddət tam şəkildə düşmən işğalında olması ilə əlaqədardır. Bu iqtisadi rayon üzrə 2019-cu ildə fəaliyyət göstərən mikro, kiçik və eləcə də orta biznes müəssisələrinin toplam sayı ölkə üzrə müvafiq subyektlərin 0.2%-ni təşkil etmişdir. 2020-ci ildə isə bu göstərici 0,36%-dan ibarət olmuşdur. Qeyd etmək vacibdir ki, 2020-ci ildə hər iki iqtisadi rayon üzrə fəaliyyətdə olan KOB müəssisələrinin sayının və ölkə üzrə xüsusi çəkisinin artması işğaldan azad olunmuş ərazilərdə biznes mühiti ilə birbaşa bağlı olmasa da, ən azından post müharibə dövründə sahibkarlıq təşəbbüslərinin artdığını deməyə əsas verir.

Ümumiyyətlə, mövcud göstəricilər müvafiq sahibkarlıq sektorlarında bölgənin real potensialını tam əks etdirmir. Bəhs olunan ərazilər zəngin təbiətə və təbii resurslara, bol su ehtiyatlarına və bərpa olunan enerji potensialına sahib olmaqla kənd təsərrüfatı və turizmdə böyük iqtisadi imkanlara malikdir. Yeni nəqliyyat və kommunikasiya xətləri hər iki iqtisadi rayonun həm də logistik baxımdan əhəmiyyətini artırır. Bundan əlavə, bərpa olunan ərazilərdə sənaye parklarının yaradılması da sahibkarlığın inkişafı üçün böyük perspektivlər açır və yeni təşəkkül tapacaq sənaye və istehsal müəssisələrində çalışacaq mütəxəssislərin hazırlanmasını aktuallaşdırır. Bu mənada Azərbaycanın işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında KOB-ların, o cümlədən, sahibkarlığın rəqabətcil inkişafı üçün böyük perspektivlər görünür.

Hazırda, Azərbaycan yerli və xarici investisiyaları cəlb etməklə ərazilərin dirçəldilməsi və bölgədə sağlam, əlverişli biznes mühiti formalaşdırmaqla sahibkarlığın müxtəlif növlərinin inkişaf etdirilməsi istiqamətində fəal iqtisadi siyasət həyata aparır. Artıq işğaldan azad olunmuş ərazilərdə sahibkarlıqla

məşğul olmaq istəyən sahibkarlara biznes layihələrini İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən KOBİA-ya təqdim etmələri ilə bağlı müraciət də edilmişdir (Economy, 2020). Buna baxmayaraq, regionda real biznes mühitinin formalaşdırılması müəyyən qədər vaxt apara bilər ki, bu da ərazilərin minalardan təmizlənməsi, infrastruktur və kommunikasiyaların yaradılması ilə əlaqədardır.

İİTKM-in icraçı direktoru Vüsal Qasımlının verdiyi məlumata əsasən, işğaldan qabaq ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə yaxını Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşürdü. Bölgədə üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Həmçinin, bölgədə emal və ərzaq sənayesinin inkişafı potensialı mövcuddur. Azərbaycan ərazilərinin işğaldan azad edilməsi həm də ölkəmizdə ərzaq təhlükəsizliyinin təmininə ciddi töhfə verəcək, xüsusilə, heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi yaxşılaşacaq (Qasımlı, 2020).

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları füsünkar təbiəti, münbit torpaqları, təbii sərvətləri, bol su ehtiyatları, zəngin mədəniyyəti və qədim insanların ilk yaşayış məskənlərindən biri kimi tarixən şöhrət qazanmışdır. Hazırki dövrdə isə regionda yerləşən çaylar, göllər və su anbarları, günəş radiasiyasının miqdarı və yüksək dağlıq ərazilər su, günəş, külək kimi bərpa olunan enerji növlərinin istehsalı üçün çox səmərəli hesab olunur.

Araşdırmalara görə, işğaldan azad edilmiş bölgələrdə KOB səviyyəsində ailə bizneslərinin inkişafı üçün də böyük perspektivlər mövcuddur. Tədqiqatın nəticələrinə görə, tarixi və milli ənənələr, eləcə də, təbii imkanlar və zəngin təbiət Qarabağda sənətkarlıq, kənd təsərrüfatı və turizm sahəsində KOB-ların yaranması və inkişafına böyük fürsətlər yaradır. Qeyd olunur ki, Qarabağ xalçaları, yerli insanların əl əməyi məhsulları və digər sənətkarlıq məmulatlarının dünyada məşhur olması bu bölgədə müvafiq istiqamətlərdə KOB səviyyəsində ailə bizneslərinin rəqabətcil inkişafına imkanlar açır (Musayev,2021).

Ağdamda reallaşdırılan "Smart şəhər" layihəsində Qarabağ Universitetinin planlaşdırılması Azərbaycan dövlətinin bölgənin inkişafında və yeni imicinin formalaşdırılmasında təhsil müəssisələrinin fəaliyyətinə də xüsusi önəm verdiyini göstərir (APA, 2021). Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini Nadir İsrafilov hesab edir ki, işğaldan azad edilmiş ərazilərin

bərpasında təhsilin üzərinə böyük vəzifələr düşür. “Çox şey bərpa olunmalı və yenidən qurulmalıdır. Məktəblər, litseylər, gimnaziyalar tikmək lazım gələcək” (525-ci qəzet, 2021). Azərbaycan Respublikasının Əməkdar müəllimi Asif Cahangirovun yanaşması isə ondan ibarətdir ki, “Qarabağda təkcə ali təhsili deyil, həm də peşə təhsilini inkişaf etdirmək vacibdir. Texniki məktəblərdə və kolleclərdə kənd təsərrüfatı, inşaat və iqtisadi peşələrə tələbat olacaq” (Konkret, 2020).

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Araşdırma zamanı bəlli olur ki, kiçik və orta səviyyəli sahibkarlıq nümunələri həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında böyük paya sahib olmaqla dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Bu mövzu ətrafında araşdırma aparan müəlliflərin yanaşmasına əsasən, KOB-lar sosial xarakter daşımaqla yeni iş yerlərinin yaradılması və məşğulluğun artırılmasına töhfə verir, insanların sosial rifahının yaxşılaşdırılmasına və xüsusilə də, orta təbəqənin gücləndirilməsinə xidmət edir. Ən çox rast gəlinən ortaq fikirlərdən biri də ondan ibarətdir ki, bu bizneslər surətlə dəyişən bazar tələbinə çevik reaksiya verir və innovasiyaların tətbiqində aktiv iştirakı ilə seçilir. Araşdırma zamanı o da məlum olur ki, KOB-ların inkişafının təmin olunması üçün sosial, iqtisadi və hüquqi şərtlərin ödənilməsi olduqca əhəmiyyətli faktorlardır.

Araşdırma göstərir ki, bütün bunlara uyğun olaraq, Azərbaycan Respublikasında KOB-ların inkişafını təmin edən güclü normativ-hüquqi baza və institusional sistem yaradılmışdır. Dövlət prioritetlərindən biri kimi kiçik və orta sahibkarlıq təsisatlarının inkişafına istiqamətlənmiş dövlət proqramları və təşfiqedici layihələr gerçəkləşdirilmişdir. Bu baxımdan Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin dirçəldilməsi və ölkə iqtisadiyyatına inteqrasiyasının təmin edilməsində KOB-ların imkanlarından istifadə effektiv alətlərdən biri kimi nəzərdən keçirilir. Tədqiqat zamanı əldə olunan nəticələr onu deməyə əsas verir ki, ölkəmizin müvafiq qanunvericilik bazası və dəstək mexanizmləri işğaldan qurtarılmış bölgələrdə KOB-ların yaradılması və inkişafına təminat verir. Digər tərəfdən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının zəngin təbiəti və təbii resursları, logistika və kommunikasiya layihələrinin reallaşdırılması bölgədə sahibkarlığın çiçəklənməsinə geniş perspektivlər açır. Beləliklə də, KOB-lar bölgədə davamlı məskunlaşma siyasətinin

gerçəkləşməsinə və sosial-iqtisadi inkişafın təmin edilməsinə böyük töhfə verə bilər. Araşdırma göstərir ki, bölgənin tarixi-mədəni irsi və təbii imkanları, eləcə də yerli insanların zəngin ənənələri bu ərazilərdə kənd təsərrüfatı, turizm və sənətkarlığa əsaslanan kiçik və orta səviyyəli ailə bizneslərinin inkişafına da şərait yaradır.

Tədqiqat zamanı əldə olunan nəticələrə uyğun olaraq, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafında əlverişli alətlərdən biri kimi görünən KOB-ların bölgədə inkişafına nail olmaq baxımından aşağıdakı təkliflərin nəzərə alınması tövsiyə edilir:

1. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında KOB-ların inkişaf imkanlarının araşdırılması ilə bağlı geniş tədqiqatların aparılması;

2. Gəlinən nəticələrə uyğun olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında KOB-ların inkişafı məqsədilə xüsusi təşfiq proqramlarının həyata keçirilməsi;

3. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında regional biznes-inkubatorların yaradılması.

## ƏDƏBİYYAT SİYAHISI


1. APA (2015). Xanhüseyn Kazımlı: Ermənistanın Azərbaycana işğalı nəticəsində 818 milyard dollardan çox ziyan dəyib. https://apa.az/az/xeber/dagliq_qarabag/xeber_ermenistanin_isgali_neticesinde_azerbayc_-405086

2. APA (2021). Prezident İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşını qoyub.

3. Cenamor J., Sjödin D. R., Parida V. Adopting a platform approach in servitization: Leveraging the value of digitalization. International Journal of Production Economics, (2017). *192*, pp 54-65.

4. Chan C. M., Teoh S. Y., Yeow A., Pan, G. Agility in responding to disruptive digital innovation: Case study of an SME. Information Systems Journal, (2019). *29* (2), pp 436-455.

5. E-qanun (2021). "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.

6. Li W., Liu K., Belitski M., Ghobadian A., O'Regan N. e-Leadership through strategic alignment: An empirical study of small-and medium-sized enterprises in the digital age Journal of Information Technology, 2016. *31* (2), pp 185-206.

7. Melville N., Kraemer K., Gurbaxani V. Information technology and organizational performance: An integrative model of IT business value. *MIS quarterly*, 2004. pp 283-322.

8. Parida V., Örtqvist D. Interactive effects of network capability, ICT capability, and financial slack on Technology-Based small firm innovation performance. Journal of Small Business Management, 2015. *53*, pp 278-298.

9. Parker G. G., Van Alstyne, M. W., Choudary S. P. Platform revolution: How networked markets are transforming the economy and how to make them work for you. WW Norton Company. 2016.

10. SMB. Ömürboyu öyrənmək. (2022). https://smb.gov.az/az/nav/omur-boyu-oyrenmek

11. Yoo Y., Henfridsson O., Lyytinen K. Research commentary — the new organizing logic of digital innovation: an agenda for information systems research. Information systems research, 2010. *21* (4), pp 724-735.

12. 525-ci qəzet (2021). “Qarabağ Universiteti güclü bir universitet brendi olacaq”.

    https://525.az/news/170045-qarabag-universiteti-guclu-bir-universitet-brendi-olacaq-tehsil

13. Konkret.az. (2020). Qarabağda hansı ali məktəblər açılmalıdır?

    https://konkret.az/qarabagda-hansi-ali-mektebler-acilmalidir-etrafli/

14. Nusratovich S. K., & Usmonkhan V. S. (2022). The Role of Small Business and Entrepreneurship in the Development of the National Economy. Eurasian Journal of Academic Research, 2(2), 731-735.

15. Muradov Ə. (2020). https://www.muallim.edu.az/news.php?id=13480&lang=

16. İmanov Ə.Ş. Kiçik sahibkarlıq / İmanov Ə.Ş.-Bakı: Elm, -2009.-368 s.

17. Qasımlı V. (2020). Qarabağın böyük iqtisadi potensialı var. https://azertag.az/xeber/Vusal_Qasimli_Qarabagin_boyuk_iqtisadi_potensiali_var-1620053

18. E-qanun (2018). http://www.e-qanun.az/framework/41048

19. McIntyre R. J. (2001). The role of small and medium enterprises in transition: Growth and entrepreneurship.

20. Misztal A. (2015). Sytuacja gospodarcza Polski a rozwój małych i średnich przedsiębiorstw.

21. Sendawula K., Turyakira P., & Bananuka J. (2018). Adoption of sustainable entrepreneurship in small and medium enterprises (SMEs) in developing countries: literature review. Journal of Advances in Social Science and Humanities, 4(2), 1-7.

22. Woźniak M., Duda J., Gąsior A., & Bernat, T. (2019). Relations of GDP growth and development of SMEs in Poland. Procedia Computer Science, 159, 2470-2480.

23. Abbasov A.B. Biznesin əsasları. Dərslik. – Bakı: Elm və təhsil, 2017. – 456 səh.

24. Ahmadov F. & Valiyev J. (2019). The evaluation of small and medium enterprises role in economic development of Azerbaijan. Economic and Social Development: Book of Proceedings, 397-408.

25. SİF (2022). Biznes inkubatorlar. http://edf.gov.az/az/content/163

26. Musayev Y. (2021). Development of Family Businesses in Karabakh Region of Azerbaijan: new opportunities and prospects. Economic and Social Development: Book of Proceedings, 449-458.

27. Azstat (2022). https://www.stat.gov.az/source/entrepreneurship/

# FÜZULİ RAYONUNDA BİZNES SAHƏLƏRİNİN İNKİŞAFI ÜÇÜN ŞƏRAİTİN TƏHLİLİ VƏ ZƏRURİ İNFRASTRUKTURUN İNKİŞAFI

**i.ü.f.d., dos. Hüseynli Aytən**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Abbasova Afət**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

## Xülasə

Dünyada baş verən qlobal böhranın ölkə iqtisadiyyatına təsirlərinin azaldılnması və neft gəlirlərindən asılılığı minimuma endirmək məqsədilə Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı sistemli tədbirlər həyata keçirilməkdədir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilməsi qeyri-neft sektorunun və biznesin inkişafı üçün yeni imkanlar yaratdı. Azərbaycan Respublikası Sahibkarlığın inkişafı fondu tərəfindən iqtisadi rayonlar üzrə prioritet istiqamətlər hazırlamışdır. Füzuli rayonunun da daxil olduğu Qarabağ iqtisadi rayonunda inkişaf etdirilməsi planlanan əsas sahələr innovativ texnologiyalara əsaslanan istehsal, xidmət və emal sahələridir. Yeni emal fəaliyyəti ilə məşğul olan müəssisələrinin açılması və ya mövcud olan bu tipli müəssisələrin yenilənməsi və genişlənməsi bu bölgədə aqrar sektorun inkişafı üçün münbit şərait olması ilə sıx əlaqəlidir. İşğaldan öncəki dövrlərdə də kənd təsərrüfatının inkişaf etdiyi Füzuli rayonu və digər bölgələrdə işğaldan azad edildikdən sonra da texnologiyanın təkmilləşməsi və müasir suvarma sistemlərinin tətbiqi vasitəsilə əkinçilik, bağçılıq və digər bu tipli təsərrüfatların yaranması və genişlənməsi Qarabağ iqtisadi rayonu üçün əsas prioritet istiqamətlərdən biridir. Qarabağın inkişafında önəmli rol oynayacaq layihələrdən biri olan Füzuli hava limanı həm bu rayonunda, həm də digər bölgələrdə müxtəlif biznes sahələrinin inkişafına önəmli təsir göstərəcək. Əsas məqsədi azad edilmiş ərazilərə sərnişin və yük daşımalarının artırılmasına yönələn bu hava limanı bölgədə həm turizm həm də digər sektorların inkişafına önəmli dərəcədə təsir edəcək. Hava limanı vasitəsilə bölgəyə turist axınının çoxalması digər sahələrin inkişafına da gətirib çıxaracaq. Bu da ictimai iaşə, xidmət sektorlarına müsbət təsir göstərəcək. Bu ərazilərin sənaye potensialını nəzərə alsaq, hava limanı Qarabağda istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından olduqca vacibdir.

***Açar sözlər:*** *Sahibkarlıq fəaliyyəti, Füzuli hava limanı*

## Giriş

2020-ci ildə İkinci Qarabağ müharibəsinin qalibiyyətlə nəticələnməsi və bu sayədə ərazilərin işğaldan azad olunması Azərbaycan tarixi və sosial-iqdisadi inkişafı üçün olduqca önəmli rol oynayır. Ərazilərimizin işğaldan azad olunması ilə bu bölgədə yaşayış üçün yenidən infrastrukturun qurulması, iqtisadi sahələrin canlanması, bölgə iqtisadiyyatının ölkənin ümumi iqtisadiyyatına reinteqrasiya edilməsi kimi yeni və aktual məsələlər gündəmə gəlmişdir. Belə ki, strukturun bərpası və iqtisadiyyatın yenidən tənzimlənməsi üçün yeni layihələr hazırlanması və icra edilməsi dövlətin əsas prioritetlərindən birinə çevrildi. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” işğaldan azad olunmuş ərazilərə böyük qayıdış planını əks etdirir ki, burada da əsas məqsəd həmin ərazilərdə dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiyadır. İşğaldan azad olunan ərazilərin bərpasının sosial-iqtisadi konsepsiyası hazırlanması göstərir ki, bu müddətdə dövlətin qarşısına qoyduğu əsas məqsəd də işğaldan azad olunan ərazilərdə iqtisadiyyatın inkişafı və biznes mühitinin bərpa edilməsidir. Biznesin İnkişafı Agentliyinin agentliyə müraciət edən sahibkarlara işğaldan azad olunmuş ərazilərin iqtisadi və investisiya potensialına dair informasiya, məsləhət, əlaqələndirmə və digər dəstək və xidmətlər göstərilməsi də həmin əraziliərdə biznesin inkişafı məsələsinin dövlət üçün önəmini göstərir.

Azərbaycan Respublikasında müxtəlif sahələrlə bağlı hazırlanan Strateji Yol Xəritələri hal-hazırkı dövrdən 2025-ci ilə qədər və 2025-ci ildən sonrakı dövr üçün dövlətin inkişaf planını özündə əks etdirir. Burada kənd təsərrüfatı, turizm, müxtəlif biznes sahələrinin və sektorların inkişafı Strateji Yol Xəritələrinin əsas istiqamətini təşkil edir. Belə ki, Azərbaycanın dünya iqtisadiyyatında mövqeyinin güclənməsi və onun yüksək gəlirli ölkələr qrupuna daxil olması dövlətin əsas diqqət mərkəzində olan məsələdir. Hazırkı dövrdə torpaqların işğaldan azad edilməsi burada göstərilen sahələrin hər biri üçün yeni potensial yaradır.

İşğaldan azad edilmiş rayonlardan biri olan Füzuli rayonu da geniş iqtisadi potensiala malikdir. Bu rayon işğaldan əvvəlki dövrdə Azərbaycanın iqtisadiyyatında əhəmiyyətli rola malik olmuş və xüsusilə də kənd təsərrüfatında ixtisaslaşmışdır. Rayonun işğaldan azad olunması burada yeni biznes sahələri və müxtəlif sektorların inkişafı üçün şərait yaradır.

Tədqiqat işğaldan azad edilmiş Füzuli rayonunda biznes mühitini və müxtəlif sektorların mümkün inkişafını təhlil edərək inkişaf istiqamətlərini araşdırmışdır. Qarabağ regionunun işğaldan əvvəki potensialı, mövcud olan təbii ehtiyatlar, torpaq sahələri, iqlim şəraiti və həmçinin işğaldan azad olunduqdan sonra həyata keçirilməsi planlanan layihələr nəzərə alınaraq bölgədə sonrakı dövr üçün kənd təsərrüfatının, turizm sektorunun, biznes subyektlərinin inkişaf perspektivləri N.R. Əliyeva, Y.Musayev, A.Cabbarov və s. tərəfindən araşdırılsa da spesifik olaraq Füzuli rayonunu əhatə edən bu tipli araşdırmalar aparılmamışdır.

Əsas məqsədlər işğaldan azad olunmuş Füzuli rayonunun iqtisadi potensialını araşdırmaq və ərazinin biznes mühitinə təsir edən əsas parametrlərin təhlil edilməsidir. Bunun üçün həyata keçiriləcək tədbirlər:

• Füzuli rayonunda mikro və kiçik sahibkarlıq subyektlərinin inkişafı imkanlarının qiymətləndirilməsi;

• Füzuli rayonunda biznes sahələrinin inkişafı üçün zəruri infrastrukturun inkişaf etdirilməsi ilə bağlı islahatların təhlili;

• İşğaldan azad edilmiş regionların biznes mühitinin qurulması və yaxşılaşdırılması istiqamətində mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətlərinin tədqiq edilməsidir.

Qarabağ bölgəsində, xüsusilədə Füzuli rayonunda biznes mühitini təhlil etmək və əhalinin regiona qarşı münasibətini öyrənmək məqsədilə əhali arasında anonim anket sorğusu keçirilmişdir. Sorğunun nəticələrini analiz etmək üçün SPSS proqramının 28.0.1.1(15) versiyasında istifadə edilmişdir. 200 nəfərin iştirak etdiyi sorğu Frekans, Etibarlılıq, Ortalama, Çarpaz Tablo analizləri, “Chi-Square”, “Fisher-Freeman-Halton Exact”, “Phi and Cramer’s V” testləri vasitəsilə təhlil edilmiş əldə edilən nəticələrə uyğun təkliflər hazırlanmışdır.

Füzuli rayonunun uzun müddət işğal altında olması və həmin işğal dövrünə aid dataların mövcud olmaması burada iqtisadi vəziyyətin statistik təhlil edilməsinə maneçilik törədir. Uzun müddətdə ərzində torpaqların məhv edilməsi və ərazilərin minalanmasının burada əvvəllər inkişaf etmiş olan kənd təsərrüfatı sahəsinə təsirinin, infrastruktur və digər şəraitlər yaradıldıqdan sonra turizm sahəsinin inkişaf səviyyəsini və ya həyata keçirilən layihələrin bölgədə biznes subyektlərinə necə təsir edəceyini dəqiqliklə müəyyənləşdirmək qeyri-mümkündür. Bundan əlavə olaraq dissertasiya işinin

yeni gündəmə gəlmiş aktual bir mövzu olduğunu nəzərə alsaq bu haqda əvvəlki araşdırmaların kifayyət qədər olmaması da aydın məsələdir. 2020-ci ildən etibarən bəzi iqtisadçılar tərəfindən aparılmış az sayılı tədqiqatlar mövzunun dərindən araşdırıla bilməsi üçün kifayyət deyil.

## Füzuli Rayonunda Sahibkarlıq Subyektlərinin İnkişafı İmkanlarının Qiymətləndirilməsi

Neftin və neft gəlirlərinin Azərbaycan üçün iqtisadi əhəmiyyəti çox olsa da gələcəkdə neft-qaz gəlirlərindən asılı olmayan güclü, rəqabətədavamlı iqtisadiyyatın qurulması ölkə üçün önəmli bir məsələdir. Makroiqtisadi sabitliyi qoruyub saxlamaq və iqtisadiyyatın şaxələndirilməsi iqtisadiyyatın inkişafı üçün vacib məqamdır. Bu səbəbdən də qeyri-neft sektorlarının və sahibkarlığın inkişafına dövlət tərəfindən dəstək göstərilir. Sahibkarlıq subyektlərinin inkişafını tənzimləmək azad rəqabət və münbit investisiya mühiti yaratmaq dövlətin iqtisadi siyasətinin əsas hissələrindəndir.

Qeyri-neft sektorunun və sahibkarlığın inkişafı istiqamətində işğaldan azad olunmuş bölgələr önəmli rol oynayacaq. 2020-ci ildə ərazilərimizin işğaldan azad olması biznes subyekləri və ölkənin iqtisadiyyatı üçün önəmli faktor oldu. Füzuli rayonu da daxil olmaqla Qarabağ bölgəsində sosial və iqtisadi həyatın qısa müddət ərzində canlanması üçün burada biznes sahələri inkişaf etdirilməli və buraya sahibkarlar cəlb olunmalıdır. Bu səbəbdən bölgənin inkişaf etdirilməsində yerli investorların iştirakı önəmli rol oynayır. Dövlətin sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar və iş adamları üçün yaratdığı imkanlar biznes mühitinin inkişafı üçün vacibdir. Sahibkarlar yaradılan bu imkanlardan istifadə edərək bölgədə yeni biznes sahələri qurmalı və bu yolla da regionun inkişafına öz töhfələrini verməlidirlər.

Azərbaycan Respublikası Sahibkarlığın inkişafı fondu tərəfindən iqtisadi rayonlar üzrə prioritet istiqamətlər hazırlamışdır. Buradakı önəmli məsələ vəsaitlərin səmərəli yolla istifadə edilməsidir. Füzuli rayonunun da daxil olduğu Qarabağ iqtisadi rayonunda inkişaf etdirilməsi planlanan əsas sahələr innovativ texnologiyalara əsaslanan istehsal, xidmət və emal sahələridir. Yeni emal fəaliyyəti ilə məşğul olan müəssisələrinin açılması və ya mövcud olan bu tipli müəssisələrin yenilənməsi və genişlənməsi bu bölgədə aqrar sektorun inkişafı üçün mümbit şərait olması ilə sıx əlaqəlidir. (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu, 2022)

İşğaldan öncəki dövrlərdə də kənd təsərrüfatının əhalinin əsas məşğuliyyətini təşkil etdiyi Füzuli və digər bölgələrdə işğaldan azad edildikdən sonra da texnologiyanın təkmilləşməsi və müasir suvarma sistemlərinin tətbiqi vasitəsilə əkinçilik, bağçılıq və digər bu tipli təsərrüfatların yaranması və genişlənməsi Qarabağ iqtisadi rayonu üçün əsas prioritet istiqamətlərdən biridir.

Bölgədə yaradılması və inkişaf etdirilməsi planlanan digər sahələr:

- Meyvə-tərəvəz istehsalı;
- Ət kəsimi müəssisələri;
- Baramaçılıq, üzümçülük təsərrüfatları;
- Baramaqurutma, dəri və yun qəbulu məntəqələri;
- Şərabçılıq müəsissələri;

Prioritet istiqamətlərdən biri də müxtəlif layihələrin dəstəklənməsidir. Bunlara startap layihələrini, turizmin inkişafı ilə bağlı layihələri, dağ-mədən sənayesinin inkişaf etdirilməsi ilə bağlı layihələri, bundan başqa ekoloji tarazlığın təmin edilməsi, KİV-lərin, rəqəmsal iqtisadiyyatın, internet və telekommunikasiya xidmətlərinin inkişafı ilə əlaqədar layihələri misal çəkə bilərik. Qeyri-neft sektorunun inkişaf etdirilməsinə yönəlmiş biznes layihələrin dəstəklənməsi də bu region üçün diqqət mərkəzində olan vacib məsələlərdəndir. (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu, 2022)

İşğaldan olunmadan əvvəlki dövrdə Azərbaycanın iqtisadiyyatında önəmli bir yerə malik olan Füzuli rayonunun azad edilməsi ölkə üçün çox böyük iqtisadi önəm daşıyır. İşğaldan öncəki dövrlərdəki inkişafını qiymətləndirən zaman Füzuli rayonunun kənd təsərrüfatı üçün geniş potensialı olduğunu görə bilərik. İşğaldan əvvəlki dövrdə rayonun iqtisadiyyatının əsasını təşkil edən bu sahənin bundan sonrada inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Rayonun iqlimi və münbit torpaq örtüyü burada kənd təsərrüfatının inkişafı üçün geniş imkanlar yaradır. Araz, Köndələnçay, Quruçay Şaparlı, və Qozluçay kimi çayların burada yerləşməsi və bu çaylar vasitəsilə torpaqların suvarılması əkinçiliyin inkişafına təsir edən əsas amillərdəndir. Xudafərin və Suqovuşan su anbarları azad edilən rayonda bütün kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi üçün yeni imkanlar yaradır. Suvarılma imkanlarının artırılması bu

sahədən götürülən faydanın artmasına gətirib çıxaracaq. Suvarma mənbələrinin çoxalmasından əlavə olaraq həmin vaxtdan indiyə texnologiyanın inkişafı və müasir texnikaların tətbiqi imkaları da işğaldan əvvəlki dövrlə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalının daha da artmasına səbəb olacaq. (https://www.azerbaijan-news.az/posts/detail/kend-teserrufati-ve-aqrar-emal-senayesinin-inkisafi-ucun-fuzulinin-boyuk-potensiali-var-1613248721, 2021)

Rayonun işğaldan əvvəlki dövrlərdəki əsas istehsal sahələrinin 2025-ci il üçün proqnozlaşdırılan inkişafı:

- Taxılçılıq-işğaldan öncəki illərdə ölkədəki ümumi taxıl istehsalının 2.3 faizi Füzuli rayonunun payına düşürdü. 2019-cu ilin statistikasına baxdıqda bu göstəricinin artaraq 3.3 faizə çatdığını görə bilərik. Bu zaman rayonun bir hissəsinin işğal altında olmasına baxmayaraq istehsalın artması bu sahənin daha da inkişaf edəcəyini göstərir. 2025-ci il üçün proqnozlaşdırılan taxıl istehsalı 130.4 min tondur.

- Pampıqçılıq-2019-cu ildə 1.6 ton olan pambıq istehsalının 2025-ci ilədək 5.5 tona çatdırılması planlaşdırılır ki, bu da ümumi ölkə istehsalının 1.4 faizi deməkdir.

- Üzümçülük-1980-ci illərin əvvəlində Füzuli rayonunda 76.7 min ton üzüm istehsal edilməsinə baxmayaraq, 2019-cu ildə bu rəqəm 960 tona qədər düşmüşdü. Rayonun geri qalan hissəsinin də işğaldan azad olması sayəsində üzüm sahələri genişləndiriləcək. Beləliklə də ümumi istehsalın təqribən 10.5 min ton olması proqnozlaşdırılır. Üzümçülüyün inkişaf etdirilməsi həmçinin şərabçılıq sektorunun da canlanmasına gətirib çıxaracaq.

- Bitkiçilik-Aparılan təhlillərin nəticəsi göstərir ki, 2025-ci ildə Füzuli rayonunda ümumi sahəsi 47.4 min hektar oln əkin və bağ sahələrindən toplamda 208.2 min ton məhsul istehsal edilə bilər. Bu ölkə ərazisində istehsal olunan bitkiçilik məhsullarının 2.1 faizini təşkil edir.

- Heyvandarlıq- 2025-ci ilədək rayonunda 56.3 min baş iribuynuzlu və 260.4 min baş xırdabuynuzlu heyvandarlığın bərpa edilməsi gözlənilir. Həmin zamana qədər quşların sayının 470,9 min baş və arı ailələrinin sayının 4 min olması planlaşdırılır. Bununla da rayonun ölkədəki ət istehsalındakı payının 0.6 faiz, yun istehsalındakı payının 2.4 faiz, süd istehsalındakı payının 1.2 faiz və yumurta istehsalındakı payının isə 1.6 faiz olması planlanır.

Bütün bu kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi nəticəsində 2025-ci ildə Füzuli rayonunda istehsal edilən malların proqnozlaşdırılan ümumi dəyəri 147.8 milyon manat olacaq. (https://www.azerbaijan-news.az/posts/detail/kend-teserrufati-ve-aqrar-emal-senayesinin-inkisafi-ucun-fuzulinin-boyuk-potensiali-var-1613248721, 2021)

Azərbaycan Prezidentinin 2021-ci ilin yanvarında Füzulidə beynəlxalq hava limanının tikintisi barədə sərəncam verməsi ilə həmin ay tikintisinə başlanan hava limanının 26 oktyabr 2021-ci ildə açılış mərasimi keçirilmişdir. (https://azertag.az/xeber/Fuzuli_Beynelxalq_Hava_Limaninin_achilis_merasimi_olub_Prezidentler_Ilham_Aliyev_ve_Receb_Tayyib_Ardogan_achilis_merasiminde_istirak_edibler_YENILANIB_VIDEO-1908966, 2021)

Qarabağın inkişafında önəmli rol oynayacaq bu layihə həm Füzuli rayonunda, həm də Qarabağın digər bölgələrinda müxtəlif biznes sahələrinin inkişafına önəmli təsir göstərəcək. Bu hava limanının inşasının əsas məqsədi ilk növbədə azad edilmiş ərazilər istiqamətində sərnişin daşımalarının artırılmasına yönəlib. Füzulidə yeni hava limanının açılışından sonra bu istiqamətdə sərnişin daşımalarını artırmaq mümkün olacaq. Belə ki, bu hava limanı ilə nəinki Füzuli rayonunda həmçinin ətraf rayonlardada turizmin inkişafına şərait yaradacaq. Digər önəmli məsələ isə bu hava limanı vasitəsilə həyata keçiriləcək yük daşımalarıdır. (https://azvision.az/news/244180/-muhum-layihe--fuzuli-neqliyyat-qovsagina-cevrilir-.html, 2021)

Qarabağa hava qapısı olacaq Füzuli hava limanı beynəlxalq hava limanları münasibətində irələ sürülən bütün yüksək tələblərə uyğun şəkildə inşa edilmişdir. Burada istismara verilən uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metrdir. Beynəlxalq mülki aviasiya təşkilatının (İCAO) bütün tələblərinə uyğun olan bu zolaq uçuşların təhlükəsizliyi məqsədi ilə instrumental enmə və naviqasiya sistemləri, işıqtexniki, ilkin və ikincil radiolakasiya sistemləri ilə tam təchiz olunmuşdur. Bu, müxtəlif tip təyyarələrin hava limanına qəbul edilməsinə şərait yaradacaq. Bakı Füzuli marşrutu üzrə hərəkət edəcək olan sərnişin təyyarələri üçün təxmini uçuş müddəti 35 dəqiqə təşkil etmişdir. Burada sərnişin terminalının qarşısında inşa edilmiş dayanacaq 150 avtomobil üçün nəzərdə tutulmuşdur. Hava limanından "Zəfər Yolu" və Şuşa şəhərinə aparan magistral yola birləşən yol çəkilməsi yekunlaşıb.

Bu hava limanının əsas məqsədlərindən biri bölgədə turizm sektorunun inkişafını təmin etməkdir. Bu hava limanı nəinki Füzuli rayonu həm də Qarabağın digər rayonlarına gəlmək istəyən qonaqları qarşılayacaq. Xarici qonaqların Şuşa şəhərinə gəlişi Füzuli Beynəlxalq Hava Limanı vasitəsilə asanlaşacaq. Belə ki, Füzulidən Şuşaya olan məsafə o qədər də uzaq deyil. Füzuli aeroportu işğaldan azad edilmiş ərazilərimizə xarici turistlərin cəlb olunması üçün olduqca faydalıdır və yeni imkanlar yaradacaq. Çünki hazırda Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin sayı kifayət qədər çoxdur. Həmin turistlərin daha sərfəli və qısa yolla, praktik olaraq birbaşa işğaldan azad olunan ərazilərimizə səfər edə bilmələri üçün Füzuli hava limanı daha əlverişli imkan yaradacaq. Bir sözlə, Füzuli Beynəlxalq hava limanı regionda turizmin canlanmasına kömək edəcək. (https://azvision.az/news/244180/-muhum-layihe--fuzuli-neqliyyat-qovsagina-cevrilir-.html, 2021)

Müasir dünyada turizm bütün əlaqəli infrastrukturun inkişafına birbaşa və dolayı təsir göstərən sosial-iqtisadi hadisə kimi qəbul edilir. Müasir turizm nəqliyyat, sosial və xidmət sahələrinin yüksək inkişaf səviyyəsinə əsaslanır ki, bu da son nəticədə onu iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevirir. Ümumdünya Turizm Təşkilatının (ÜTT) məlumatına görə, turizm bu gün dünya iqtisadiyyatının ən gəlirli və dinamik sektorlarından biridir. Gəlirliliyə görə neft hasilatı və emalından sonra ikinci yerdədir. Turizm dünyanın ümumi milli məhsulunun təxminən 6%-ni, qlobal investisiyanın 7%-ni, qlobal istehlak xərclərinin 11%-ni və bütün vergi gəlirlərinin 5%-ni təşkil edir. Bu baxımdan bir çox ölkələrdə turizm sektoru dövlət dəstəyi ilə fəal inkişaf edir.

Turizm sektoru Azərbaycan iqtisadiyyatında da önəmli rola malikdir. Belə ki, son illər turizmin inkişafı Azərbaycan regionlarının iqtisadi inkişafının prioritet istiqamətlərindən biri kimi qəbul edilir. Azərbaycanda onun həyata keçirilməsi üçün geniş imkanlar mövcuddur.

Qarabağ bölgəsinin işğaldan azad edilməsi Azərbaycanda turizmin inkişafı üçün yeni imkanlar yaradır. Belə ki, Qarabağ bölgəsində turizmin inkişafı xarici turistlərin böyük marağına səbəb olacaq. Qarabağ regional əhəmiyyətli ekoturizm mərkəzinə çevriləcək və gələcəkdə dünya səviyyəli turizm zonası statusu ala bilər. Füzuli rayonunda inşa edilən hava limanı və onu digər rayonlarla birləşdirən Ağdam- Füzuli avtomobil yolu, Füzuli-Şuşa avtomobil yolu kimi yolların çəkilməsi Füzuli vasitəsilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizminə töhvə verəcək.

Dünya Səyahət və Turizm Şurasının (WTTC) məlumatına görə, Azərbaycan 2028-ci ildə MDB ölkələri arasında turizmdən illik gəlirlərini 6,2% artıran ilk ölkə olacaq. Bu, ölkənin yalnız turizm gəlirlərindən 18,2 milyard dollar qazanmasına səbəb olacaq. Ümumdünya Turizm və Səhiyyə Şurasının bu proqnozu özünü doğrultsa, turizm sektoru ÜDM-in 19,3 faizini, dövlət büdcəsinin isə 1\5 hissəsini təşkil edəcək. Pandemiya dövrünün itkilərinin Qarabağ bölgəsinin turizm sektoruna açılması eyni gəliri maksimum 2 il gecikdirməklə və hətta orta hesabla ondan 5% yüksək gəlir əldə etməyə imkan verərdi. (Aghayeva, K., Hatamova, T., & Sheydai, T.,2021).

Xüsusi vurğulamaq lazımdır ki, sentyabrın 5-də Azərbaycanın «Silk Way» aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan «Boeing 747-400» tipli hava gəmisi də Füzuli hava limanına eniş etmişdi. Bu təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırılıb. Bu, onu göstərir ki, hava limanı həm də yükdaşımalar, xüsusən beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərimizin sənaye potensialını nəzərə alsaq, Füzulidə açılan hava limanı həm də Qarabağda istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından olduqca vacibdir. Yükdaşıma Qarabağda kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələri üçün də önəmli amildir. Qarabağdakı meyvə məhsullarını xarici ölkələrə aparmaq üçün hava limanı birbaşa əlaqə deməkdir.

İşğaldan azad olunmuş ərazilərdə aeroportların inşası, həmçinin Zəngəzur dəhlizinin də əhəmiyyətini artıracaq. Bu dəhlizin bərpası nəinki Azərbaycanın, həmçinin regionun iqtisadi inkişafına böyük töhfələr verəcək. Bu dəhliz vasitəsi ilə Naxçıvan Muxtar Respublikasının Azərbaycana quru yolla birləşdirilməsi də bu tarixi diyarımızın Azərbaycan iqtisadiyyatına daha da reinteqrasiyasına səbəb olacaq. Dövlətimizin başçısının vurğuladığı kimi, Zəngəzur dəhlizinin Azərbaycan iqtisadiyyatında çox böyük rolu olacaq. Bu dəhlizin ən üstün cəhətlərindən biri ondan ibarətdir ki, nəinki Azərbaycanla Naxçıvan arasındakı nəqliyyat əlaqələrinin şaxələndirməsinə, həmçinin Xəzər və Aralıq dənizlərindən başlayaraq Cənub- Şərqi Asiya və Mərkəzi Asiya ilə Avropa arasındakı nəqliyyat-logistika xətti olacaq. Zəngəzur dəhlizi Azərbaycanı öz ayrılmaz hissəsi olan Naxçıvanla, həmçinin Türkiyə ilə birləşdirəcək.

Naxçıvana quru dəhlizinin açılması mühüm tarixi nailiyyətdir. Ölkənin qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında analoqu olmayan

nəqliyyat əlaqəsi yaradılacaq. Beləliklə, Naxçıvan həm mühasirədən çıxarılır, həm də yeni nəqliyyat arteriyası yaranır. Azərbaycan Respublikası Prezidenti çıxışında bu dəhlizin açılması haqqında danışır: "Biz Naxçıvanı mühasirədən çıxarırıq, eyni zamanda yeni nəqliyyat dəhlizi açırıq. Deyə bilərəm ki, bütün ölkələr bundan ancaq qazanc əldə edəcəklər. Azərbaycan onun tərkib hissəsi olan Naxçıvanla birləşib. Azərbaycan Türkiyə ilə birləşir. Bu dəhlizə Rusiya, Azərbaycan, Türkiyə, İran, istəsə, Ermənistan da qoşula bilər. Beləliklə, regionda yeni beştərəfli əməkdaşlıq platforması yaradıla bilər. Mən bu fikri artıq həm Rusiya, həm də Türkiyə prezidentlərinə çatdırmışam. Həm Rəcəb Tayyib Ərdoğan, həm də Vladimir Putin bunu müsbət qarşılayıb. Budur bizim təklifimiz. Biz regionda davamlı sülh istəyirik. Buna nail olmaq üçün təhlükəsizlik tədbirləri ilə yanaşı əməkdaşlıq da inkişaf etməlidir. Biz əməkdaşlığa hazırıq. Bu doqquzuncu abzasda qeyd olunan məsələlər arasında bizim üçün bir nömrəli məsələ Azərbaycanı Naxçıvan Muxtar Respublikasına birləşdirmək və eyni zamanda, Azərbaycan ilə Türkiyə arasında yeni nəqliyyat dəhlizinin yaradılmasıdır. Çünki bildiyiniz kimi, biz bir neçə il əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istifadəyə vermişik. Bu, artıq Türkiyə ilə Azərbaycan arasında dəmir yolu əlaqəsidir. Bu layihə baş tutsa, əminəm ki, baş verəcək, yeni olacaq 5 ölkə bundan faydalana bilər" (Mehmetshah, I. O. K.,2021).

## Füzuli Rayonunda Müxtəlif Sahibkarlıq Fəaliyyətlərinə Maraq

Qarabağ bölgəsində, xüsusilədə Füzuli rayonunda biznes mühitini təhlil etmək və əhalinin regiona qarşı münasibətini və daha çox üstünlük verdikləri sahələri öyrənmək məqsədilə əhali arasında sorğusu keçirilmişdir. Sorğuda ümumilikdə 200 nəfər iştirak etmişdir. İştirakçıların özləri, sahibkarlıq fəaliyyətləri haqqında məlumatlar və Füzuli rayonunda biznes mühiti ilə bağlı fikirləri öyrənilmiş və təhlil edilmişdir.

İlk olaraq iştirakçıların özləri haqqında verdikləri məlumatlar təhlil edilmişdir. Bunun üçün təsviri statistikadan istifadə edilmişdir. Verilənlər toplusunun (anketdən əldə edilmiş nəticələrin) xüsusiyyətlərinin kəmiyyətcə təsvir edilməsinin öyrənilməsi təsviri statistika adlanır. Frekans təhlili təsviri statistikanın bir hissəsidir. Statistikada frekans bir hadisənin baş vermə sayıdır. Bu analiz zamanı seçimin neçə dəfə təkrarlanması və bunun neçə faiz olduğu göstərilir. (https://www.researchoptimus.com/article/frequency-

analysis.php, 2013). Anketlə bağlı ilk analiz olaraq respondentlərin cinsiyyət faktoru üzrə frekansının öyrənilməsi nəzərdə tutulmuşdur.

Aparılmış bu analizlərin nəticəsinə əsasən iştirak edənlərdən 96-sı qadındır, bu isə ümumi iştirakçıların 48 faizini təşkil edir. Geriyə qalan 104 kişi cinsinə mənsub iştirakçı isə 52 faiz təşkil edir. Anketdə 6 faiz 0-18 yaş, 39 faiz 18-25 yaş, 37 faiz 25-35 yaş aralığndakı və 18 faiz 35 yaşdan yuxarı insanlar iştirak etmişdir. Belə ki, respondentlərin əsas hissəsini 18-35 yaş arası insanlar təşkil edir. Aparılmış sorğu yalnız bakalavr və magistr təhsili olanlar arasında keçirilmişdir (0-18 yaş arasındakı iştirakçılar istisna olmaqla).

Araşdırmanın əsasını işğaldan azad edilmiş bölgələr əhatə etdiyi üçün seçimlər arasında işğaldan azad edilmiş rayonlar tək-tək əlavə edilmiş, geriyə qalan bölgələr isə “Digər” variantında öz əksini tapmışdır.

Aşağıdakı cədvəl 1-dən görürük ki, toplamda 200 nəfər iştirakçının 144 nəfəri digər bölgələrdə yaşayan Qarabağ sakinləri di. Geriyə qalan 56 nəfər iştirakçı isə Bakıda yaşayan Qarabağ sakinləri idi.

**Cədvəl 1: Rayon üzrə frekans analizi**

| | Frekans | Faiz |
|---|---|---|
| Ağdam | 14 | 7.0 |
| Cəbrayıl | 2 | 1.0 |
| Zəngilan | 12 | 6.0 |
| Füzuli | 12 | 6.0 |
| Kəlbəcər | 4 | 2.0 |
| Laçın | 4 | 2.0 |
| Qubadlı | 2 | 1.0 |
| Şuşa | 4 | 2.0 |
| Xocalı | 2 | 1.0 |
| Digər | 144 | 72.0 |
| Total | 200 | 100.0 |

**Mənbə:** Müəllifin hesablamaları

Həyat şəraiti və infrastruktur qurulduqdan sonra əhalinin nə qədər hissəsinin işğaldan azad edilmiş ərazilərdə məskunlaşmaq istəyəcəyini müəyyənləşdirmək üçün b usual anketə əlavə edilmiş və 200 iştirakçıdan cavab alınmışdır.

**Cədvəl 2: Qarabağda məskunlaşma planı ilə bağlı frekans analizi**

| | Frekans | Faiz |
|---|---|---|
| Bəli | 74 | 37.0 |
| Xeyr | 126 | 63.0 |
| Total | 200 | 100.0 |

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl 2-yə əsasən 200 nəfərdən 74-ü yəni 37 faizi Qarabağ və Şərqi Zəngəzur bölgəsində yaşamağı planlaşdırır.

Burada araşdırılmalı olan bir məsələ də Qarabağ regionunda yaşamağı planlaşdıran 37 faiz insanın əsasən hansı bölgədən olmasıdır. Belə ki, işğaldan azad olunmuş rayonlardan olan insanların daha çox bu bölgələrdə yaşamaq istəyəcəyi fərz edilir. Bunu test etmək üçün ilk öncə işğaldan azad olunmuş rayonları "Qarabağ" adı altında birləşdirdik.

Fərziyyəmizi test etmək üçün çarpaz tablo analizindən istifadə edilir. Çarpaz tablo dəyişənləri birlikdə qruplaşdıraraq araşdırmaçılara müxtəlif dəyişənlər arasındakı korrelyasiyanı görməyə kömək edir. Bu üsulla korrelyasiyaların müxtəlif dəyişənlər qrupu arasında necə fərqlilik göstərdiyini müəyyənləşdirə bilirik. Çarpaz tablo vasitəsilə sorğudakı iki və daha çox sual arasındakı əlaqəni təsvir etmək mümkündür. Bu yolla da iştirakçı qruplarının digər suala verdikləri cavabları müqayisə etmək olar. (https://www.alchemer.com/resources/blog/cross-tabulation/, 2022)

Respondentlərin hansı bölgədən olmasının onların Qarabağda yaşama planlarına təsirini araşdırmaq məqsədilə ilk növbədə SPSS vasitəsilə iki dəyişən arasındakı çarpaz tablo çıxarılır.

**Cədvəl 3: Rayon və yaşama planı arasında çarpaz tablo**

| | | Yaşama planı | | |
|---|---|---|---|---|
| | | Bəli | Xeyr | Total |
| Rayon | Qarabağ | 40 | 16 | 56 |
| | Digər | 34 | 110 | 144 |
| Total | | 74 | 126 | 200 |

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl 3-dən görünür ki, işğaldan azad olunmuş rayonlarda olan 56 nəfərdən 40-ı yəni 71.43 faizi yaşayış üçün həmin bölgələrə qayıtmaq istəyir. Digər bölgələrdən olan iştirakçılar arasında isə bu göstərici yalnız 37 faiz olmuşdur.

İki dəyişən arasındakı əlaqəni müəyyənləşdirmək üçün chi-squared testindən istifadə etdik. Chi-squared ən çox istifadə edilən korrelasiya testlərindən biridir. Onu dəyişənlər arasındakı əlaqəni(korrelasiyanı) ölçən testlərdən fərqləndirən cəhəti isə chi-squared testinin kateqoriyalı dəyişənlər arasında aparılmasıdır. Bizim araşdırmamızda hər iki dəyişən kateqoriyalı (iki variantlı) olduğundan bu test aparılmışdır. Chi-squared testi hipotez (fərziyyə) testidir. Bizim buradakı fərziyyəmiz respondentlərin Qarabağ bölgəsindən olmasının onların burada məskunlaşmaq istəməklərinə təsir etməməsidir.

**Cədvəl 4: Chi-Square Tests**

| | Value | df | Asymptotic Significance (2-sided) | Exact Sig. (2-sided) | Exact Sig. (1-sided) |
|---|---|---|---|---|---|
| Pearson Chi-Square | 39.550[a] | 1 | <.001 | | |
| Continuity Correction[b] | 37.526 | 1 | <.001 | | |
| Likelihood Ratio | 39.168 | 1 | <.001 | | |
| Fisher's Exact Test | | | | <.001 | <.001 |
| N of Valid Cases | 200 | | | | |

a. 0 cells (0.0%) have expected count less than 5. The minimum expected count is 20.72.
b. Computed only for a 2x2 table

**Mənbə**: Müəllifin hesablamaları

Cədvəl 4-də chi-squared testinin nəticəsi verilmişdir. Testin nəticəsinə əsasən pearson chi-squared dəyəri 37.421-dir. Həmin dəyərə aid olan “Asimptotik Əhəmiyyət (2 tərəfli)” hissədə p-dəyəri 0.001 olaraq göstərilmişdir. Nəticənin əhəmiyyətli olması üçün tapılan dəyər müəyyən edilmiş alfa dəyərindən (adətən bu dəyər 0.05 olaraq qəbul edilir) kiçik və ya ona bərabər olmalıdır. Tapılan p-dəyəri 0.001<0.05 olduğundan təhlilimiz əhəmiyyətli sayılır. Yəni iştirakçıların hansı bölgədən olmaları ilə Qarabağda məskunlaşma planları arasında əlaqə olmaması hipotezimiz səhvdir. Chi-squared testi vasitəsilə iki dəyişənin arasında əlaqə olduğunu müəyyənləşdirik. Lakin bu əlaqənin nə dərəcədə olduğunu bilmək üçün əlavə təhlillər aparılmalıdır. Bu səbəbdən də Phi and Cramer’s V testindən istifadə edilmişdir. Bu test dəyişənlər arasındakı təsir dərəcəsini ölçmək üçün istifadə edilir. Bu test chi-squared testinin nəticəsini tənzimləmək üçün əlaqənin gücünü ölçür.

**Cədvəl 5: Phi and Cramer's V testi**

| | Dəyər | Təxmini əhəmiyyət |
|---|---|---|
| Phi | -.445 | <.001 |
| Cramer's V | .445 | <.001 |
| N of Valid Cases | 200 | |

**Mənbə**: Müəllifin hesablamaları

Bu testimizdə də p-dəyəri aşağı olduğundan nəticəmiz əhəmiyyətlidir. Burada çıxan dəyər 0.433 dür.

Dəyərin 0.25-də yuxarı olması dəyişənlər arasındakı əlaqənin çox güclü olduğunu göstərir. (https://www.semanticscholar.org/paper/User's-guide-to-correlation-coefficients-Akoğlu/dd7ceee5b05eb672e850140220f7db44ead3968f/figure/2, 2018)

Nəticə onu göstərir ki, işğaldan azad edilmiş rayonlardan olan insanların əksəriyyəti (71.43 faizi) öz torpaqlarına qayıtmaq və həyatlarını orada davam etdirməyi planlayırlar.

Füzuli rayonunda olan 12 iştirakçıdan 10-u zəruri infrastruktur və həyat şəraiti qurulduqdan sonra həmin ərazilərdə məskunlaşmaq istədiklərini bildiriblər. Bu həmin rayondan olan iştirakçıların 83.33 faizini təşkil edir. Nümunə sayımız çox az olduğundan dəqiq nəticəyə gələ bilməsək də ümumilikdə deyə bilərik ki, rayonda məskunlaşma istəyi kifayyət qədərdir.

Sorğunu dolduran 200 nəfərdən 60-ı, yəni 30 faizi sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Geriyə qalan 140 nəfər isə biznes sahibi olmayan insanlardır. Anketdə iştirak edən sahibkarların 28-i, yəni təqribi 46.67 faizi fərdi qaydada fəaliyyət göstərir. 10 nəfər mikro və 10 nəfər kiçik sahibkarlıq subyekti olanların hər biri 16.67 faiz təşkil edir. İştirakçılar arasında 8 nəfər orta sahibkar var ki, bu da 13.33 faizdir. Yalnız 6.66 faiz, yəni 4 nəfər iri sahibkar sorğuda iştirak etmişdir.

Bu sahibkarlarin hansı sahədə fəaliyyət göstərdiklərini müəyyənləşdirmək üçün anketə fəaliyyət növləri ilə bağlı sual daxil edilmişdir. Variantlara ictimai iaşə, istehsal, ticarət, turizm və xidmət sahələri daxil edilmişdir. Xidmət sahələri dedikdə buraya həm mühasibatlıq, maliyyə hüquq kimi xidmətlər,

həm də taksi, dərzi və s. fəaliyyətləri aiddir. (iştirakçılar arasında kənd təsərrüfatı ilə məşğul olan yoxdur).

**Qrafik 1: Fəaliyyət növləri üzrə frekans analizi**




**Mənbə**: Müəllifin hesablamaları

Qrafik 1 sahibkarların fəaliyyət növləri üzrə bölgüsünü göstərir. Bu qrafikə əsasən respondentlərin 20-si, 33.33 faiz ticarət fəaliyyəti ilə məşğul olur. Ikinci sırada xidmət sektoru gəlir. Belə ki, 16 nəfər bu sahə ilə məşğul olduğunu bildirmişdir. Bu da bütün sahibkarların 26.67 faizini təşkil edir. 12 nəfərin seçdiyi istehsal sahəsi 20 faizlik hissəni əhatə edir. 60 sahibkardan yalnız 8-i, 13.33 faizi ictimai iaşə fəaliyyəti ilə məşğul olur. Nümunəmizdə ən az seçilən 6.67 faizlik hissə isə 4 nəfərin seçdiyi turizm sahəsidir. Fəaliyyət növləri ilə bağlı sualda variantlar arasına kənd təsərrüfatı fəaliyyəti də daxil edilmişdir. Lakin respondentlərdən heç biri bu fəaliyyət növü ilə məşğul olmurlar. Bunun əsas səbəbi anketin Bakı şəhərində keçirilməsi və məhdud şəkildə yayılmasıdır.

İşğaldan azad edilmiş digər bölgələrdə və Füzuli rayonu ərazisində bizneslə məşğul olmağı planlayıb planlamamaları anketin əsasını təşkil edən suallardandır. Burada məqsəd həmin ərazilərdə sahibkarlıq fəaliyyətilə məşğul olmaqla bağlı əhalinin fikrini öyrənmək, daha çox hansı sahələrə qarşı maraq olduğunu əvvəlcədən müəyyənləşdirməkdir. Bunun üçün qruplaşdırılmış bar diaqramından istifadə edilmişdir.

Standart bar diaqramı kimi, qruplaşdırılmış bar diaqramı da məlumatların paylanmasını göstərmək və ya müxtəlif kateqoriyalar üzrə müqayisələr aparmaq üçün qurulur. Qruplaşdırılmış bar diaqramının fərqli cəhəti məlumatların yalnız bir deyil, iki fərqli kateqoriyalı dəyişən üzrə bölünməsidir. İkinci kateqoriya dəyişəninin birincinin hər səviyyəsində necə dəyişdiyinə baxmaq istədiyiniz zaman və ya birinci kateqoriya dəyişəninin ikincinin səviyyələri arasında necə dəyişdiyinə baxmaq istədiyiniz zaman qruplaşdırılmış bar diaqramından istifadə olunur.

Analizimizdə qruplaşdırılmış bar diaqramından istfadə edərək respondentlərin Füzuli və işğaldan azad edilmiş digər bölgələrdə (Qarabağ deyə qeyd edilmişdir) müxtəlif sektorlar üzrə fəaliyyət göstərmə niyyətləri göstərilmişdir. 200 iştirakçı həm Füzuli həm də Qarabağ üçün ayrılıqda hansı fəaliyyətlə məşğul olmağı planladıqlarını qeyd etmişdir.

**Qrafik 2: Qruplaşdırılmış bar diaqramı**




**Mənbə**: Müəllifin hesablamaları

Qrafik 2-yə əsasən əvvəlcə Qarabağ bölgəsini analiz etsək görərik ki, 200 nəfərdən 94-ünün bu bölgədə heç bir biznes sahəsi ilə məşğul olmaq planı yoxdur. Füzuli rayonu üçün bu rəqəm 114-dür. Yəni iştirakçıların yalnız 43 faizini təşkil edən 86 nəfər füzuli rayonunda bizneslə məşğul olmağı planlayır. Iştirakçıların əksəriyyətinin (140 nəfər) ümumiyyətlə sahibkarlıq fəaliyyəti ilə məşğul olmadığını nəzərə alarsaq bu faiz heç də təəcüblü deyil.

Qarabağ sektorunda ən çox üstünlük verilən sektor 15 faiz iştirakçının (30 nəfər) seçdiyi turizm sektorudur. Füzuli rayonu üçün isə bu göstərici 16 nəfərin

seçməsi ilə 8 faiz olmuşdur. Bu qədər insanın turizm sektorunda fəaliyyət göstərməyə meyilli olmasını Qarabağ regionunun böyük turizm potensialının olması və Füzuli rayonunda inşa edilən hava limanı ilə əlaqələndirə bilərik.

Füzuli rayonunda fəaliyyət göstərməyi planlayan 86 nəfərdən 28-i (toplam iştirakçıların 14 faizi) ictima iaşə fəaliyyəti ilə məşğul olacağını bildirmişdir. Bunun əsas səbəblərindən biri Füzuli hava limanı vasitəsilə nəinki bu rayona gələnlərin həm də Qarabağın digər turistik bölgələrinə gələnlərin tranzit olaraq bu rayondan istifadə edəcək olmasıdır. Bu da rayonda rafe və restoranlara olan tələbin çox olması deməkdir. Bu səbəbdən də bu fəaliyyət növü ilə məşğul olanlar və ya olmağı planlayanlar üçün Füzuli rayonu yeni imkanlar yaradır. Qarabağda bu fəaliyyət növünə üstünlük verənlər 11 faizdir (22 nəfər). Bunun Füzulidəki göstəricidən daha aşağı olmasının səbəbi Qarabağda sahibkarlıqla məşğul olmaq istəyənlərin əksəriyyətinin əsasən ticarət və turizm sahələrinə üstünlük verməsidir.

Vurğuladığımız kimi Qarabağ regionunda respondentlərin ən çox seçdiyi sahələrdən biri də ticarətdir. Bu sahədə fəaliyyət göstərməyi planladığını bildirən 24 nəfər ümumi iştirakçıların 12 faizidir. Füzuli rayonunda bu sahə ilə məşğul olmaq istəyənlərin sayı Qarabağa nisbətən azdır. Belə ki, Füzuli rayonu üçün ticarət fəaliyyətini 200 iştirakçıdan yalnız 10-u seçmişdir, bu da 5 faiz edir.

Əhalinin məskunlaşması və müxtəlif biznes sahələrinin inkişaf etməsi ümumi regionda xidmət sahəsinə də təlabatı artıracaq. Bu da bir çox sahibkar və ya sahibkarlıqla məşğul olmağı planlayanlar üçün yeni imkanlar deməkdir. Bu səbəbdən də həm Qarabağda, həm də Füzulidə xidmət sahəsini seçənlər yetəri qədərdir. Belə ki, bu sahəni seçənlər Qarabağ bögəsində 14, Füzuli rayononda isə 16 nəfərdir. Faiz nisbəti olaraq isə Qarabağda ümumi iştirakçıların 7 faizi, Füzuli rayonunda isə 8 faizidir.

Həm Qarabağ, həm də Füzuli rayonu üçün digər sektorlara nisbətən ən az seçilən fəaliyyət növləri istehsal və kənd təsərrüfatıdır. Qarabağla bağlı sualda istehsal sahəsini 12 nəfər (6 faiz), Füzuli rayonu ilə bağlı sualda isə yalnız 6 nəfər (3 faiz) seçmişdir. Qarabağ bölgəsində kənd təsərrüfatı ilə məşğul olmağı planlayanlar 200 nəfərdən 4-ü, yəni 2 faizidir. Füzuli rayonu üçün bu say nisbətən daha çox, 10 nəfər (5 faiz) olsada bu say regionun potensiyalı üçün çox azdır.

Sorğunun ən böyük məhdudiyyətlərindən biri onun Bakı şəhərində az sayda insan arasında keçirilməsidir. Belə ki, iştirakçılarən fəaliyyət növləri hər sektor üzrə bərabər paylanmamışdır. Hətta 200 nəfər arasında kənd təsərrüfatı ilə məşğul olan yoxdur. Respondentlərin fəaliyyət növləri ilə gələcəkdə də Qarabağ və Füzuli bölgəsində  göstərmək istəyəcəkləri fəaliyyətlə əlaqəli olması kənd təsərrüfatı və istehsal sahəsinə marağın az olmasını izah edə bilər.

Bunun üçün respondentlərin fəaliyyət növləri və onların Füzuli rayonunda göstərməyi planladıqları fəaliyyət növləri arasında əlaqə yoxlanılmalıdır. Cədvəl 6 hər fəaliyyət növü üzrə Füzuli rayonunda göstərilməyi planlanan fəaliyyət növlərini çarpaz tablo vasitəsilə göstərilmişdir.

**Cədvəl 6: Fəaliyyət növləri və Füzulidə planlanan fəaliyyətlər arasında çarpaz tablo**

| | | Növü | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Heç biri | İctimai iaşə | İstehsal | Ticarət | Turizm | Xidmət | Total |
| Füzuli | Heç biri | 90 | 0 | 4 | 10 | 0 | 10 | 114 |
| | İctimai iaşə | 14 | 8 | 2 | 2 | 2 | 0 | 28 |
| | İstehsal | 2 | 0 | 2 | 0 | 0 | 2 | 6 |
| | Kənd təsərrüfatı | 8 | 0 | 0 | 0 | 0 | 2 | 10 |
| | Ticarət | 2 | 0 | 4 | 4 | 0 | 0 | 10 |
| | Turizm | 12 | 0 | 0 | 2 | 2 | 0 | 16 |
| | Xidmət | 12 | 0 | 0 | 2 | 0 | 2 | 16 |
| Total | | 140 | 8 | 12 | 20 | 4 | 16 | 200 |

**Mənbə**: Müəllifin hesablamaları

Cədvəl 3.13-ün üst sətrində iştirakçıların fəaliyyət növləri göstərilmişdir. Sağ sütunda isə həmin iştirakçıların Füzuli rayonunda göstərməyi planladıqları fəaliyyət növləri əks etdirilmişdir.

Cədvəl 3.16-ya əsasən deyə bilərik ki, sahibkarlıq subyekti olmayan 140 iştirakçımızın 90-ı (64.29 faizi) Füzuli rayonunda da sahibkarlıqla məşğul olmağı planlamır. Onların qalanlarından 14-ü ictimai iaşə, 12-si turizm, 12-si xidmət, 8-I kənd təsərrüfatı, 2-si istehsal və 2-si də ticarət sahəsində yeni biznes fəaliyyətinə başlamağı planlayırlar.

Ictimai iaşə fəaliyyəti ilə məşğul olan 8 nəfər Qarabağ bölgəsində olduğu kimi Füzuli rayonunda da öz fəaliyyət sahələrini davam etdirmək istəyirlər.

Digər sahələrdən fərqli olaraq istehsal sahəsində fəaliyyət göstərən respondentlərin sadəcə 2-si Füzulidə istehsalla məşğul olmaq istəyir. Onlardan 4-ünün burada bizneslə məşğul olmaq planı yoxdur, 4-ü isə ticarətlə məşğul olacağını bildirmişdir. İstehsal fəaliyyəti olan 2 iştirakçı isə Füzuli rayonunda ictimai iaşə fəaliyyəti ilə məşğul olmaq istəyir.

Hazırkı sahibkarlıq subyektləri ticarət fəaliyyəti ilə bağlı olan 20 iştirakçının 50 faizini Füzuli rayonunda fəaliyyət göstərməyi planlamır. Geriyə qalan 10 nəfərdən 4-ü fəaliyyət sahəsini dəyişmədən Füzuli rayononda bizneslə məşğul olmaq istəyir. Fəaliyyət sahəsi ticarət olan respondentlərdən 2-si ictimai iaşə, 2-si turizm və 2-si də xidmət sahəsində fəaliyyət göstərməyə üstünlük vermişdir.

Anketi dolduranlar arasında sadəcə 4-ü turizmlə məşğuldur. Onlardan ikisi Füzulidə də turizmlə məşğul olmağı planlarkən 2-si ictimai iaşə fəaliyyətinə üstünlük verir.

Xidmət sahəsində biznes subyekti olanların 62.5 faizi Füzulidə hər hansısa bir sahibkarlıq fəaliyyəti ilə məşğul olmuyacaqlarını bildirmişdir. Geriyə qalanlardan 2-si istehsal, 2-si kənd təsərrüfatı, 2-si isə xidmət sahəsində fəaliyyətlə məşğul olmağı planlayırlar.

İştirakçıların fəaliyyət növləri və Füzuli rayonunda göstərməyi planladıqları fəaliyyət növləri arasındakı əlaqəni test etmək üçün chi-square testindən istifadə etsək nəticə qeyri-dəqiq olacaq. Belə ki, cədvəl 6-ya baxsaq oradakı xanaların bir çoxunun 0 və ya aşağı rəqəmlər olduğunu görə bilərik. Lakin chi-square testinin düzgün nəticə verməsi üçün xanaların 20 faizindən daha azında rəqəmlər 5 dən daha aşağı ola bilər. Cədvəl 7-yə nəzər salsaq görərik ki, bu faiz göstəricisi bizim nümunəmiz üçün 78.6 faizdir. Bu da chi-square testini bu nümunə üçün yetərsiz edir. Bu səbəbdən də aradakı əlaqəni ölçmək üçün fisher-freeman-exact testinin nəticəsi əsas götürülür. Testdə monte carlo metodundan istifadə edilib. Monte Karlo Metodu və ya çox ehtimal simulyasiyası kimi də tanınan Monte Karlo Simulyasiyası qeyri-müəyyən bir hadisənin mümkün nəticələrini qiymətləndirmək üçün istifadə edilən riyazi bir texnikadır. (https://www.ibm.com/cloud/learn/monte-carlo-simulation)

**Cədvəl 7: Chi-Square Tests**

| | Value | df | Asymptotic Significance (2-sided) | Monte Carlo Sig. (2-sided) | | |
|---|---|---|---|---|---|---|
| | | | | Significance | 99% Confidence Interval | |
| | | | | | Lower Bound | Upper Bound |
| Pearson Chi-Square | 125.792[a] | 30 | <.001 | .000[b] | .000 | <.001 |
| Likelihood Ratio | 93.931 | 30 | <.001 | .000[b] | .000 | <.001 |
| Fisher-Freeman-Halton Exact Test | 79.252 | | | .000[b] | .000 | <.001 |
| N of Valid Cases | 200 | | | | | |

a. 33 cells (78.6%) have expected count less than 5. The minimum expected count is .12.
b. Based on 10000 sampled tables with starting seed 624387341.

**Mənbə**: Müəllifin hesablamaları

Burada fisher-freeman-halton exact testinin nəticəsinə əsasən p-dəyəri 0.05-dən kiçik olduğundan (həm alt, həm üst sərhəddə) respondentlərin fəaliyyət növlərinin onların Füzuli rayonunda göstərmək istədikləri fəaliyyətə təsir etdiyini deyə bilərik. Bu təsirin dərəcəsini ölçmək üçün phi and Cramer's V testindən istifadə edilmişdir.

**Cədvəl 8: Phi and Cramer's V testində**

| | | Value | Approximate Significance |
|---|---|---|---|
| Nominal by Nominal | Phi | .793 | <.001 |
| | Cramer's V | .355 | <.001 |
| N of Valid Cases | | 200 | |

**Mənbə**: Müəllifin hesablamaları

Dəyərin 0.25-də yuxarı, 0.35 olması respondentlərin fəaliyyət növləri və Füzuli rayonunda planladıqları fəaliyyət növləri arasındakı əlaqənin çox güclü olduğunu göstərir. (https://www.semanticscholar.org/paper/User's-guide-to-correlation-coefficients-Akoğlu/dd7ceee5b05eb672e850140220f7db44ead3968f/figure/2, 2018)

Çıxan nəticəyə əsasən iştirakçıların böyük hissəsinin Füzuli rayonunda göstərməyi planladıqları sahələr ictimai iaşə, turizm və xidmət sahələridir. Lakin yuxarıda vurğuladığımız əlaqəni nəzərə alsaq görərik ki, öz sahibkarlıq

fəaliyyətini davam etdirmək istəyənlərdən başqa, sahibkarlıq subyekti olmayıb Füzuli rayonunda yeni sahibkarlıq fəaliyyətinə başlamağı planlayanların və ya hazırda başqa fəaliyyət növü ilə məşğul olub fəaliyyət sahəsini dəyişmək istəyənlərin əksəriyyəti ictimai iaşə, kənd təsərrüfatı və turizm sahəssinə üstünlük verirlər. Bu da iştirakçıların Füzuli rayonunda bu sahələrə təlabat olacağını düşünməsi ilə əlaqədar ola bilər.

Anketdə iştirakçıların Füzuli rayonunda inkişaf edəcəyini düşündükləri sahələrlə bağlı fikirləri də soruşulmuşdur. Hər bir fəaliyyət sahəsinin Füzuli rayonunda inkişafı haqqında fikirləri öyrənilib. Bu fəaliyyət sahələrinə kənd təsərrüfatı, ictimai iaşə, xidmət, turizm, istehsal və ticarət daxildir. Seçənəklər isə “razıyam” “qismən razıyam” və “razı deyiləm” olmuşdur.

Sualların nəticələrinin etibarlılığını ölçmək üçün “Cronbach’s alpha” testindən istifadə edilmişdir.

**Cədvəl 9: Etibarlılıq testi**

| Cronbach's Alpha | N of Items |
|---|---|
| 0.822 | 6 |

**Mənbə**: Müəllifin hesablamaları

Cədvəl 3.19-a əsasən testin nəticəsinin 0.822 olması testin yüksək etibarlılığa malik olmasını göstərir.

Suallarda ayrılıqda soruşulan sahələrin inkişafını müqayisəli şəkildə analiz etmək üçün hər birinin ortalama dəyəri müqayisə olunmuşdur. Bunun üçün ilk olaraq toplanmış məlumatlar ədədi hala salınmışdır. “razıyam” cavabının dəyəri 3, “qismən razıyam” cavabının dəyəri 2 və son olaraqda “razı deyiləm” cavabının dəyəri 1 ilə göstərilmişdir. Daha sonra təsviri statistika vasitəsilə ortalama dəyərlər tapılmışdır.

**Cədvəl 10: Təsviri statistika**

| | N | Mean | Std. Deviation |
|---|---|---|---|
| Kənd təsərrüfatı | 200 | 2.85 | .410 |
| İctimai iaşə | 200 | 2.70 | .558 |
| Xidmət | 200 | 2.61 | .624 |
| Turizm | 200 | 2.41 | .778 |
| İstehsal | 200 | 2.66 | .580 |
| Ticarət | 200 | 2.67 | .586 |
| Say | 200 | | |

**Mənbə**: Müəllifin hesablamaları

3 üstündən qiymətləndirilən testlərdə ortalama dəyərin 3.33-dən yüksək olması nəticənin müsbət olması kimi qiymətləndirilir. Cədvəl 3.20-nin nəticələri də hər sahə üzrə göstərilən dəyərdən yüksəkdir. Bu da onu göstərir ki, iştirakçıların əksəriyyəti Füzuli rayonunda verilən hər sahənin yüksək səviyyədə inkişaf potensialı olduğunu düşünür.

Müqayisə etsək görərik ki, ən yüksək dəyər kənd təsərrüfatı və ictimai iaşə sektorlarına aiddir. Bu sahələr Füzuli rayonunda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən iştirakçıların da əksəriyyətinin üstünlük verdiyi sahədir. Bu onu göstərir ki, kənd təsərrüfatı və ictiami iaşə Füzuli rayonunda ən çox inkişafı gözlənilən sahələrdir və bu səbəbdən də burada bu sektorlarda fəaliyyət göstərməyi planlayanlar çoxluq təşkil edir.

2.41 yüksək ortalama dəyər olsa da digər sahələrə nisbətən daha aşağı olmuşdur. Halbuki, iştirakçıların Füzuli rayonunda ən çox fəaliyyət göstərmək istədikləri sahələrdən biri turizm olmuşdur. Belə ki, iştirakçılardan 16-sı (8 faiz) bu sahədə fəaliyyət göstərməyi planladıqlarını bildirmişlər. Hətta onların 12-si yeni sahibkarlıq fəaliyyəti olaraq bu sahəni seçmişlər.

Füzuli rayonunda turizm sahəsi ilə məşğul olmaq istəyən insanlar verdikləri cavaba əsasən bu sahənin inkişafı ilə razılaşdığını bildirsələr də, sahibkarlıqla məşğul olmağı planlamayan və ya fərqli sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı planlayan iştirakçılar arasında 36 nəfər Füzuli rayonunun turizmin inkişafı üçün uyğun olmadığını düşünür. Onların 44-ü isə bu sahənin qismən inkişaf edəcəyini fikirləşdiklərini bildirmişlər. Beləliklə, turizm sahə iştirakçıların fikirlərinin ən çox fərqləndiyi sahə olmuşdur. Bunun əsas səbəbi

Qarabağın digər bölgələrinin turizm üçün daha əlverişli olması və işğaldan əvvəlki dövrdə bu sahənin əsas fəaliyyət sahəsi olmamasıdır. Füzuli rayonunda hava limanının tikintisi həm Füzuliyə, həm də Qarabağın digər bölgələrinə turist səfərlərini asanlaşdıracaq.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Ərazilərimizin işğaldan azad olunması sahibkarlar üçün yeni imkanlar yaradır. Kənd təsərrüfatı daxil olmaqla bir çox sahə üçün yüksək potensiyala malik olan Füzuli rayonu burada inşa edilən hava limanı ilə daha çox sahibkarların marağına səbəb olacaq. Əhalinin məskunlaşması və turizmin inkişafı öz növbəsində digər sahələrin inkişafına da gətirib çıxaracaq. Əhali və turist sayı nə qədər çox olarsa ictimai iaşə, xidmət sektorları da o qədər inkişaf edər. Turistlərin çox olduğu bölgələrdə otellərin açılması, kafe və restoranların sayının çoxalması gözlənilən nəticədir. Bundan əlavə olaraq bu sahibkarlar üçün suvenir mağazaları, Qarabağ bölgəsinə aid xalça ticarətini, və digər bu tipli sahələrdə fəaliyyət göstərmə imkanı yaradır.

Sahibkarların Füzuli rayonunda fəaliyyət göstərməyi üçün ilk növbədə yaşayışın təmin olunması vacibli şərtdir. Belə ki, əhali bölgədə nə qədər tez və çox məskunlaşarsa sahibkarların da xidmət göstərə biləcəyi insanların sayı artmış olur. Bunun üçün tələbə sayı çox olan universitetlərdən bəzilərinin bu regionda da fəaliyyət göstərməsi təklif oluna bilər. Bu yolla həm əhalinin tək bir mərkəzə, Bakı şəhərinə, toplaşmasının və sıxlığın qarşısı alınar, həm də Füzuli rayonunda cəmiyyətin əsas hərəkətverici qüvvəsi olan tələbələr çoxalacaq.

Digər bir məsələ rayonun işğaldan öncəki dövrlərdə də əhalinin əsas məşğuliyyət növü olmuş kənd təsərrüfatı sahəsnin inkişafıdır. İşğaldan azad edilmiş ərazilərimizdə 443 min hektarlıq əkin sahəsi mövcuddur. Məcburi köçkünlərin təqribən 80 faizi kənd yerlərinin sakinləridir. Belə ki, mövcud torpaqlar pay torpaqlarına bölünərsə, burada hər ailəyə 3-4 hektara yaxın əkin sahəsi ayrılmış olur. Lakin digər rayonlarda da tətbiq bu üsulun çox yaxşı nəticə vermədiyini deyə bilərik. Belə ki, çox vaxt bu cür paylanmış torpaqlar ya satır, ya da istifadəsiz saxlanılır. Bu da aqrar sahənin inkişaf etdirilməsinə ciddi maneə törədir. Bunun əsas səbəbi kəndlilərin nə əkəcəklərinə qərar verə bilməməsi və əkin planlarının olmamasıdər. Bu problemin həll olması üçün hansı məhsullara ehtiyacımız olduğuna dair plan olmalıdır. İlk növbədə, daxili

tələbatın ödənilməsi istiqamətində işlər aparılır ki, bu da öz növbəsində ölkədən kənd təsərrüfatı məhsullarının alınması üçün valyuta axınının azalmasına səbəb olacaq. Daha sonra xarici bazarlarda sata biləcəyimiz məhsulların çeşidini müəyyən etməklə kənd təsərrüfatı sahələri arasında istehsal bölgüsünü həyata keçirmək olar.

Kənd təsərrüfatı ilə əlaqədar toxunulmalı olan növbəti məsələ milli toxumların mühafizəsidir. Qarabağ bölgəsində toxum bankı yaratmaqla Milli Toxum Bankını qorumaq üçün mühüm işlər görə bilərik. Bəzi ölkələrdə toxum banklarının yaradılması faktları artıq məlumdur. Bu banklarda saxlanılan toxumlar genetik və kimyəvi müdaxilələrdən qorunur. Unudulmamalıdır ki, son illər inkişaf etmiş ölkələr daxili tələbatı ödəmək vəzifəsi ilə yanaşı, bu tələbatın da orqanik məhsullarla ödənilməsini tələb edirlər. Bu səbəbdən dünya bazarına çıxmaq üçün orqanik məhsullara üstünlük verilməsi rəqabət qabiliyyətimizi artıracaq. Təkcə xaricə satılan məhsullara tələbat kimi deyil, həm də daxili istehlakı təmin etmək kimi amillərə nəzər salsaq, bu yolla 5-10 il ərzində xroniki xəstəliklər nəticəsində yaranan problemlərlə bağlı dövlətin sosial yükünün və sağlamlıq xərclərinin azaldığını müşahidə edə bilərik.

Füzuli rayonunda açılan hava limanı nəinki sadəcə bu rayona gəlmək istəyən yerli və xarici turistləri həmçinin Qarabağın digər bölgələrinə ziyarət etmək istəyən turistləri də qarşılayacaq. Bu səbəbdən də Şuşa şəhəri və ya Qarabağın digər ərazilərində turizmin inkişafı birbaşa Füzuli rayonuna da təsir edəcek. Bu səbəbdən də nəinki Füzuli rayonun, həmçinin ətraf rayonlarında turizminin inkişafı Füzuli iqtisadiyyatı üçün önəmli rol oynayır. Bölgədə turizmin inkişafı üçün ilk olaraq infrastruktur işləri aparılmalıdır. Ən əsası isə tarixi memarlıq abidələrinin vəziyyəti öyrənilməlidir. Onlar yenidən nəzərdən keçirilməlidir. Bir sıra alimlər Qarabağda yerləşən tarixi abidələri tədqiq etsə də, üstündən 30 il keçib. Təbii ki, onlara yenidən baxılmalıdır. Hansı abidələr dövlət mühafizəsinə alınmalıdır? Onları bərpa etmək lazımdır. Gəzinti yolları çəkmək və işarələmək lazımdır. Turist xəritələrinin hazırlanması və digər işlər görülməlidir. Qarşıdakı illərdə bununla məşğul olunması planlaşdırılır. Bu işi bir sıra idarə, nazirlik və qurumlar həyata keçirməlidir. Müxtəlif qurumlar və institusional strukturlar tərəfindən həll edilməli olan məsələlər var. Ümumiyyətlə, Qarabağ Azərbaycan üçün yeni turizm məkanına çevriləcək. Bu ərazilərin təhlükəsizliyini təmin etmək lazımdır. Turist üçün oraya səfər təhlükəsiz olmalıdır. Sonrakı mərhələlərdə alimlər tərəfindən Qarabağ ərazisi birgə təhlil edəcək, yeni turizm marşrutları, turizm məhsulları yaradacaqlar.

Turizm sektorunda böhran aradan qaldırıldıqdan sonra buraya çoxlu turist cəlb ediləcək. Bundan əlavə, əhalinin məşğulluğunun təmin edilməsi və qiymətlərin daha münasib olması üçün kiçik tipli butik otellər modelinin hazırlanması bu sektorun inkişafında müstəsna rol oynaya bilər. Belə butik otellərdə ailə üzvlərinin hər biri tam məşğul olacaq və belə otellər adətən xarici turistlər üçün dörd və beşulduzlu otellərdən daha cəlbedici olur.

Bundan əlavə, turistləri cəlb etmək üçün buradakı hadisələrdən Çernobıl modeli kimi istifadə edə bilərik. ABŞ və Böyük Britaniyanın Çernobıl faciəsi ilə bağlı birgə mini-serialı böyük rezonansa səbəb olub. Böyük maraqla izlənilən miniserial Ukraynaya böyük turist axınına səbəb olub. 2019-cu ildə Ukraynanın turizm gəlirləri 2,5 dəfə artıb. Turizmdən \ld\ edilın gəlir bağlı təxminən 150 milyon dollar artdı. Bu istiqamətdə Qarbağda aparıln islahatlar həm siyasi, həm də turist cəlbediciliyi baxımından çox təsirli bir addım olacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Aghayeva, K., Hatamova, T., & Sheydai, T. (2021). Defining Directions of Economic Development Policy of Karabakh Region. *InterConf.* https://ojs.ukrlogos.in.ua/index.php/interconf/article/download/13843/12707

2. Gandilova, S. (2021). Features and Prospects of Development of Tourism in Karabakh. *Economic and Social Development: Book of Proceedings,* 1095-1099. https://www.researchgate.net/profile/Aynura-Hajiyeva-2/publication/357689108_OPPORTUNITIESANDPRIORITIESOFAZERBAIJANSTRANSITIONTOTHECONCEPTOFINCLUSIVEGROWTH/links/61db306fe669ee0f5c976ce4/OPPORTUNITIESANDPRIORITIESOFAZERBAIJANSTRANSITIONTOTHECONCEPTOFINCLUSIVEGROWTH.pdf#page=1111

3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu. (n.d.). *İqtisadi Rayonlar Üzrə Prioritet İstiqamətlər.* Elf.Gov.Az. Retrieved April 20, 2022, from http://edf.gov.az/az/content/105

4. Rüstəm Kamal. (2021, February). *Kənd təsərrüfatı və aqrar emal sənayesinin inkişafı üçün Füzulinin böyük potensialı var*. Azərbaycan. Retrieved October 14, 2021, from https://www.azerbaijan-news.az/posts/detail/kend-teserrufati-ve-aqrar-emal-senayesinin-inkisafi-ucun-fuzulinin-boyuk-potensiali-var-1613248721

5. Aytən Zəhra. (2021, January). Mühüm layihə: *Füzuli nəqliyyat qovşağına çevrilir.* Azvision.az. Retrieved October 14, 2021, from https://azvision.az/news/244180/-muhum-layihe--fuzuli-neqliyyat-qovsagina-cevrilir-.html

6. Mehmetshah, I. O. K. (2021). Participation of Azerbaijan and Turkey in Ensuring Economic and Energy Security in the South Caucasus: Prospects For The Liberated Territories Of Karabakh. Збірник наукових праць ΛΌГОΣ. https://ojs.ukrlogos.in.ua/index.php/logos/article/download/8418/8387Abbasov

7. ResearchOptimus. (2013, March 13). What is Frequency Analysis? *Research Optmius.* Retrieved May 3, 2022, from https://www.researchoptimus.com/article/frequency-analysis.php

8. Beals, S. (2021, September 13). How Cross Tabulation Makes Your Data More Actionable | *Alchemer Blog. Alchemer*. Retrieved May 3, 2022, from https://www.alchemer.com/resources/blog/cross-tabulation/

9. Akoğlu, H. (2018). User’s guide to correlation coefficients | *Semantic Scholar.* Semanticscholar.Org. Retrieved May 3, 2022, from https://www.semanticscholar.org/paper/User’s-guide-to-correlation-coefficients-Ako%C4%9Flu/dd7ceee5b05eb672e850140220f7db44ead3968f

10. *Tarixi hadisə: AZAL-ın “Qarabağ” təyyarəsi Füzuli hava limanına endi.* (2021, September 5). Azerbaijan Airlines. Retrieved May 20, 2022, from https://www.azal.az/az/article/643

11. A.T.A.A. (2021, October 26). *Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi olub Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər Yenilənib Video*. Azərtac. Retrieved May 20, 2022, from https://azertag.az/xeber/Fuzuli_Beynelxalq_Hava_Limaninin_achilis_merasimi_olub_Prezidentler_Ilham_Aliyev_ve_Receb_Tayyib_Ardogan_achilis_merasiminde_istirak_edibler_YENILANIB_VIDEO-1908966

# ZƏNGİLAN RAYONUNDA BİZNES MÜHİTİNİN İNKİŞAFI İSTİQAMƏTİNDƏ MÜASİR TƏCRÜBƏ VƏ MEXANİZMLƏRİN TƏTBİQİ

**i.e.n., dos. Həmidov Həmid**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Hüseynli İlahə**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

## Xülasə

İşğaldan azad olunan ərazilərdə biznes infrastrukturunun yaradılması məsələsinin aktual olması fonunda Şərqi Zəngəzur iqtisadi rayonunun tərkib hissəsi olan Zəngilan rayonunun sektoral təhlili burada əkinçilik, heyvandarlıq, turizm, nəqliyyat və logistika, tikinti, dağ-mədən sənayesi və digər sahələr üzrə coğrafi mühitin və mövcud resurs imkanlarının gətirdiyi üstünlərə əsaslanaraq inkişafı üçün əlverişli şəraitin olmasını göstərir. İşğaldan öncə əsasən taxıl, üzüm və tütün istehsalına görə ixtisaslaşan rayonda müasir dövrdə yeni texnologiyaların tətbiqi ilə qeyd edilən sahələr də daxil olmaqla əkinçilik imkanlarını artırmaq və eyni zamanda heyvandarlıq üzrə də yeni cins növlərinin və aqro-texniki mexanizmlərin tətbiqi ilə ölkə iqtisadiyyatına faydalarını təmin etmək mümkündür. Rayonun təbii ehtiyatlarının tikinti və dağ-mədən sektorunun inkişafı üçün imkanlarını nəzərə alaraq bu sahələrə investisiyaların qoyulması ilə gələcək dönəmdə yüksək gəlirliliyə nail olmaq olar. Rayonun tarixinin qədim dövrələrə qədər uzanması bərabərində abilərin çoxluğuna səbəb olmuşdur ki, bir çoxunun işğal nəticəsində məhv olmasına baxmayaraq rekonstruksiya işləri görülərək bərpa edilməsi ilə turizm potensialını artırmaq olar. Həmçinin bu istiqamətdə şərq çinarı meşə qurşağının da bərpası turist axınına təkan verəcək. Coğrafi yerləşməsi nəqliyyat və logistika imkanlarını da artırır ki, hazırda görülən işlər bu sahədə də öz töhfələrini yaxın gələcəkdə göstərəcəkdir. Biznesdə innovasiyaların tətbiqinə nümunə olaraq “Ağıllı kənd” layihəsinin ilk dəfə Zəngilan rayonunda reallaşması ilə perspektiv dövrdə həm rayon əhalisinin yaşayış səviyyəsində, həm də sahibkarlığın inkişafında öz müsbət cəhətlərini göstərəcəkdir. Beynəlxalq təcrübəyə əsaslanaraq və bu konsepsiyanın komponenləri üzrə lazımi qiymətləndirmələr apararaq “Ağıllı kənd”in inkişafına nail olunması ilə eyni zamanda məşğulluğun artırılmasına, biznes subyektlərinin öz məhsullarını daha rahat müştəriyə çatdırmasına və bununla da ölkə iqtisadiyyatında artıma səbəb olmaq mümkündür.

***Açar sözlər:*** *“Ağıllı kənd” konsepsiyası, biznesdə innovasiya*

## Giriş

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixində imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Sərəncamı çərçivəsində qarşıdan gələn dövr ərzində ölkənin sosial-iqtisadi inkişafı üçün həyata keçirilməli olan prioritetlərdən biri də "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" məsələsidir. Bu prioritetin reallaşdırılması üçün dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya təmin olunmalıdır ki, buna da işğaldan azad olunmuş ərazilərin bərpası, biznes infrastrukturunun, müasir şəraitin yaradılması ilə nail olmaq olar (https://president.az/az/articles/view/50474, 2021). Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunun işğaldan öncəki potensialını dəyərləndirərək yeni layihələrin hazırlanması bölgənin tərəqqisinə nail olunması, texnoloji innovasiya-startap mərkəzi kimi formalaşması üçün aktual məsələlər sırasındadır. Bu istiqamətdə rayonda tətbiq edilən Azərbaycan Respublikası Prezidentinin imzaladığı "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında 2021-ci il 19 aprel tarixli Sərəncama müvafiq surətdə tətbiq edilən layihənin sahibkarlığın da inkişafına təkan verəcəyi nəzərə alınmaqla gündəmdə olan ən aktual məsələlərdən biri kimi tədqiqat işində təhlil edilmişdir (https://president.az/az/articles/view/51179, 2021). Bu konsepsiya ilə bağlı aparılan tədqiqatın məqsədi işğaldan azad olunan Zəngilan rayonunu müxtəlif perspektivlərdən təhlil edərək yeni inkişaf istiqamətlərini müəyyən edib rayonda biznes infrastrukturunun qurulması və inkişaf etdirilməsi üçün ümumi tövsiyyə verməkdən ibarətdir. Bu məqsədlə tədqiqatın vəzifələri aşağıdakı kimi olmuşdur:

- Zəngilan rayonunun həm iqtisadi, həm də texnoloji innovasiya-startap mərkəzi kimi formalaşmasının üstünlüklərinin təhlil edilməsi;

- Sahibkarlığın geniş şəbəkələrin yaradılması üçün imkanların müəyyən olunması;

- Biznes mühitinin tərəqqisi fonunda müasir yerli və xarici təcrübə və mexanizmlərin tətbiq olunması şəraitinin qiymətləndirilməsi və bu aspektdən "Ağıllı kənd" konsepsiyası nümunəsində sahibkarlığın inkişafına dəstək mexanizmləri kimi yeni innovativ layihənin tətbiq edilməsi mümkünlüyünün təhlil edilməsi.

"Ağıllı kənd" konsepsiyasının tətbiq edilməsi üçün ölkənin mövcud imkanları, hazırlığı, əhalinin buna münasibəti və digər amillər nəzərə alınmaqla 300 respondenti əhatə edən anket sorğusu keçirilmişdir ki, sorğu ölkədə bu konsepsiyanın nə dərəcə effektiv ola biləcəyi, əhalinin məlumatlılıq səviyyəsi, rəqəmsal xidmətlərdən istifadə göstəriciləri, konsepsiyadan gözlənilən faydalar və meydana gələ biləcək problemlərlə bağlı məsələləri əhatə etmişdir. Sorğudan alınan məlumatlar əsasında SPSS proqramında Frekans, Etibarlılıq, Ortalama, Çarpaz Tablo analizləri, "Chi-Square", "Fisher-Freeman-Halton Exact", "Phi and Cramer's V" testləri aparılmış və müəyyən nəticələr əldə olunaraq tövsiyyələr verilmişdir.

## Sahibkarlığın müxtəlif mülkiyyət formalarında geniş şəbəkəsinin yaradılması imkanlarının təhlili

Azərbaycan üçün tarixi ədalətin bərqərar olunması bərabərində ölkənin sosial-iqtisadi inkişafı baxımından daha prinsipial addımların atılması məsələlərini də gündəmə gətirdi. Qarabağ zəfərindən sonra mövcud reallıqlara müvafiq olaraq yeni iqtisadi inkişaf modelinin hazırlanması, daha güclü və məhsuldar idarəetmə üsullarının balanslı şəkildə formalaşdırılması artıq real zərurət kimi meydana çıxmışdır. İşğaldan azad olunmuş regionların yenidən qurulması və texnoloji-innovasiya mərkəzləri kimi formalaşması nöqteyi-nəzərindən hazırkı vəziyyətin tələblərindən qaynaqlanan zərurətlərlə əlaqəlidar olaraq 7 iyul 2021-ci ildə imzalanan Fərmana əsasən iqtisadi rayonların yeni bölgüsünün strateji önəminin özünü görüləcək işlərin səmərəli planlaşdırılmasında və təşkilində biruzə verəcəyi gözlənilir (http://www.geostrategiya.az/news.php?id=187, 2021).

Fərmana əsasən yeni yaradılan Şərqi Zəngəzur iqtisadi rayonunun tərkib hissəsi olan Zəngilan rayonu Azərbaycan Respublikasının cənub - qərb bölgəsində 730 kvadratmetr ərazini əhatə edib şimaldan Qubadlı, şərqdən Cəbrayıl rayonları, cənubdan Araz çayı boyunca İran İslam Respublikası, qərbdən və şimal – qərbdən isə Qərbi Azərbaycan ilə həmhüduddur. Zəngilan rayonunun 1 şəhəri, Həkəri, Bartaz, Ağbənd, Mincivan, Ağ oyuq olmaqla 5 qəsəbəsi, 83 kəndi olmuşdur ki, mərkəzi də Zəngilan şəhəridir (Ələkbərov O., Əliyev A., 2015).

Zəngilan dəqiq ərazi hüdudlarına malik olmaqla vahid inzibati rayon kimi 1930-cu il 8 avqust (bəzi mənbələrdə 30 avqust) tarixində Azərbaycan SSR

Mərkəzi İcraiyə Komitəsinin qərarı ilə Azərbaycanda aparılan yeni inzibati bölgü sisteminə əsasən təşkil olunmuşdur (Cavadlı S., 2011).

Erməni qəsbkarları tərəfindən Azərbaycan Respublikasına qarşı yürüdülən işğalçılıq siyasəti Zəngilan rayonu Birinci Qarabağ müharibəsində 235 nəfər şəhid verməklə 30 oktyabr 1993-cü ildə işğal olunan sonuncu rayon olmuşdur (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Zəngilan Rayon Statistika İdarəsi, 2019).

44 gün davam edən İkinci Qarabağ müharibəsi dövründə Zəngilan rayonu 20 oktyabr 2020-ci il tarixində Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən işğaldan azad olunmuşdur (https://www.virtualkarabakh.az/az/post-item/27/108/zengilan.html, 2020).

Hazırda aktual məsələlərdən olan işğaldan azad olunan rayonlarda hədəflənən layihələrin, tədbirlərin müəyyən bir ərazidə reallaşdırılması üçün ilkin məsələlər bu ərazilərin müxtəlif aspektlərdən təhlil edilməsi, mövcud resurs, iqlim, hidroloji, torpaq və digər coğrafi xüsusiyyətlərinin, turizm, təsərrüfat və digər imkanlarının dəyərləndirilməsidir. Bu nöqteyi-nəzərdən baxıldıqda Şərqi Zəngəzur regionunun tərkibinə daxil olan Zəngilan rayonunun da iqtisadi, texnoloji mərkəz kimi formalaşması üçün xarakteristikasına diqqət yetirmək lazımdır.

İnvestisiya tələb edən sahələr təhlil edilməli, ayrı-ayrı sahələr üzrə maliyyə yatırımlarının edilməsi imkanları araşdırılmalı, investorların bu sahələrə cəlbi üçün işlər aparılmalı, eləcə də digər investisiya imkanları nəzərdən keçirilməlidir.

Zəngilan rayonu nümunəsində baxıldıqda qeyd etmək lazımdır ki, bu rayon kənd təsərrüfatı, heyvandarlıq, turizm, mədənçilik, tikinti, nəqliyyat-logistika kimi sahələrdə fərqlənmişdir.

Ərazisinin hidroloji xüsusiyyətləri, eyni zamanda torpaq örtüyünün münbitliyi və müxtəlifliyi burada əkinçilik təsərrüfatının yaradılması baxımından əlverişlidir. İşğal nəticəsində çaylarının çirkləndirilməsi, bəzilərinin qurudulmasını nəzərə alaraq bu istiqamətdə bərpa işlərinin aparılması ilə suvarma-irriqasiya sistemləri yaradıla bilər ki, bu da kənd təsərrüfatının inkişafı üçün əsas amil rolunu oynayacaq. Hazırkı dövrdə torpaq, iqlim, əmək, su resursları nəzərə alınaraq burada daha məhsuldar toxum növlərinin, müasir kənd təsərrüfatı sistemlərinin yaradılması növbəti dövrlərdə rayonun

bu sektorda aparıcı qüvvələrdən birinə çevrilməsinə şərait yaradacaq. Beləliklə, işğaldan öncə tütünçülük, üzümçülük kimi sahələrdə potensiala malik olan Zəngilan rayonunda gözləntilərə görə ilk dövrlərdə tütünçülükdə 22 faiz, üzümçülükdə isə 13 faiz, dənli və paxlalı bitkilərin həcmində isə 0.1 faiz artımın olması proqnozlaşdırılır

(https://azertag.az/xeber/Serqi_Zengezur_iqtisadi_rayonunun_yaradilmasi_bolgenin_parlaq_geleceyinin_teminatchisidir_VIDEO-1845401, 2021).

Kənd təsərrüfatı cəhətdən ixtisaslaşmış Zəngilan rayonunda işğala qədər 4 kooperativ, 29 kolxoz-sovxoz, 3 kəndli-fermer təsərrüfatı, 1 arıçılıq təsərrüfatı fəaliyyət göstərmişdir (Cabbarov M., 2017). 1 nömrəli cədvəldə müxtəlif istehsal növləri üzrə istehsal olunan məhsulun həcmi işğaldan öncəki dövrü əhatə etməklə göstərilmişdir. Bu cədvəl işğaldan öncəki müddətdə rayonun istehsal məhsulları barədə fikir sahibi olmaq üçün əhəmiyyətlidir.

**Cədvəl 1: İstehsal növləri üzrə məhsul həcmi (ton)**

| İstehsal növləri | Həcmi (ton) |
|---|---|
| Dənli bitkilər | 3180 |
| Tütün | 1700 |
| Barama | 80 |
| Bostan | 30 |
| Kartof | 20 |
| Üzüm | 18000 |
| Ət | 310 |
| Süd | 1700 |
| Yun | 11,5 |

**Mənbə:** (http://zengilan-ih.gov.az/az/iqtisadiyyat.html, 2021) istinadən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən də müşahidə olunduğu kimi rayon üzüm, dənli bitkilər və tütün istehsalına görə əsasən fərqlənmişdir ki, müvafiq olaraq bu məhsulların həcmi 18000, 3180, 1700 tona çatmışdır. Digər istehsal növləri ilə əlaqəli statistik göstəriciləri cədvəldən müəyyənləşdirmək olar.

Əkinçilik imkanlarından əlavə maldarlıq və arıçılıq potensialına görə rayonda heyvandarlığın inkişaf etdirilməsi mümkündür. Yayı isti, qışı isə mülayim olan Zəngilan rayonunda otlaq sahələrinin geniş olmasına görə həm iribuynuzlu, həm də xırdabuynuzlu heyvandarlıq sahələrinin inkişaf səviyyəsi nəzərə

alındıqda müasir dövrdə bu sahələrdə yeni üsulların tətbiqi, yeni növ heyvan cinslərinin saxlanması ilə daha böyük irəliləyişlər əldə etməyin mümkünlüyünü demək olar. Qeyd etmək lazımdır ki, yaxın gələcəkdə burada heyvandarlığın inkişafı sayəsində iribuynuzlu heyvandarlıqda 0.8 faiz, xırdabuynuzlu heyvandarlıqda 0.4 faiz artım müşahidə oluna bilər. Eləcə də diri və kəsilmiş çəkidə ətin istehsalında 0.3, yunun istehsalında 3, südün istehsalında 0.4, yumurtanın istehsalında isə 0.2 faiz artımın olacağı düşünülür (https://azertag.az/xeber/Serqi_Zengezur_iqtisadi_rayonunun_yaradilmasi_bolgenin_parlaq_geleceyinin_teminatchisidir_VIDEO-1845401, 2021).

Heyvandarlıqla bağlı qeyd olunan gözləntilərin olması işğaldan öncəki dövrdə bu sahədəki göstəricilərə dəlalət edir. Belə ki, ictimai təsərrüfatlarda 9340 baş iribuynuzlu mal-qara, 12000 baş qoyun-keçi, 1300 baş inək və camış, 30 baş donuz saxlanılmışdır ki, fərdi təsərrüfatlarda iribuynuzlu mal-qara, qoyun-keçilər üçün bu rəqəmlər müvafiq olaraq 43000 baş, 92000 baş olmuşdur. Arıçılıq, baramaçılıqla da məşğul olan yerli əhali 1400 yeşik arı ailəsi saxlamış, 1700 ton həcmində süd, 11.5 ton həcmində isə yun istehsal etmişdirlər. Bunlardan əlavə 1 quşçuluq kompleksi də mövcud olmuşdur ki, burada 12000 baş quş yetişdirmək mümkün idi (http://zengilan-ih.gov.az/az/iqtisadiyyat.html, 2021).

Gümüş, qızıl, civə, mis, xromit və digər faydalı qazıntıların mövcudluğu baxımından Zəngilan rayonunda dağ-mədən sənayesinin yaradılması və təkmilləşdirilməsi istiqamətində işlər aparmaq mümkündür. Eləcə də üzlük tikinti daşı, qara mərmər, əhəng xammalı kimi ehtiyatların da rayonda mövcudluğu tikinti sektorunda sahibkarlığın inkişafına şərait yaradacaq amillər kimi qiymətləndirilir (https://az.trend.az/business/3338769.html, 2020).

Növbəti cədvəl işğaldan öncəki dövrlər üzrə bəzi faydalı qazıntı ehtiyatlarına aid göstəriciləri əks etdirir.

**Cədvəl 2: Zəngilan rayonunun faydalı qazıntı ehtiyatları və onların həcmi**

| Ehtiyatlar | Həcmi |
|---|---|
| Vejnəli yatağı - qızıl ehtiyatı | 6.5 ton |
| Vejnəli yatağı - mis ehtiyatı | 3000 ton |
| Oxçuçay mərmərləşmiş əhəngdaşı | 6 milyon 618 min kubmetr |
| Daşbaşı-Əsgülüm əhəngdaşı | 129 milyon ton |

| | |
|---|---|
| Əhəndaşı və qırmadaş | 6 milyon 24 min ton |
| Bartaz-I və Bartaz-II portfirit | 28 milyon 943 min kubmetr |
| Gil | 1 milyon 102 min kubmetr |
| Qum-çınqıl | 17 milyon 367 min kubmetr |

**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir

Cədvəldən də görüldüyü kimi Zəngilan rayonunun faydalı ehtiyatlarının zənginliyi buranın mədən və tikinti sənayesində aparıcı qüvvələrdən birinə çevrilməsi üçün əsas amil kimi çıxış edə bilər. Yataqların uzun müddət erməni istismarına məruz qalmasını nəzərə alaraq burada bərpa işlərinin görülməsi və yataqlardan istifadənin tənzimlənməsi üçün gərəkli işlərin aparılması vacibdir.

Rayonunun turzim potensialına diqqət yetirildikdə buradakı mineral bulaqların əhəmiyyətini qeyd etmək lazımdır. Kurort sərvətlərindən hesab edilən "Qotursu", "Turşsu", "Noxudlu" kimi müalicəvi əhəmiyyətli mineral bulaqlarının imkanlarından istifadə edilərək sanatoriyaların yaradılması (Ələkbərov O., Əliyev A., 2015), bu qəbildən olan "Daşbulaq", "Kinav", "Vənni", "Sarıbulaq", "Şıxılcan", "Yeşkər", "Çinarlı" və digər bulaqlarının, dünyada unikal sayılan təbii Şərq Çinarının qorunduğu "Bəsitçay Dövlət Qoruğu"nun, "Arazboyu yasaqlığı"nın (Cabbarov M., 2017) təbii gözəlliklərindən bəhrələnərək yenidən istifadəyə verilməsi Zəngilan rayonunda turizm sektorunun yenidən canlanmasına, turist axınının artmasına təkan verəcək amillər kimi nəzərə alına bilər. Bunlardan əlavə bir çoxu dağıdılmasına baxmayaraq Məmmədbəyli türbəsi, Yenikənd sərdabəsi, Hacallı dairəvi bürcü, Koroğlu daşı, Top tağlı körpüsü, Qədim Şərifan şəhəri, Qarababa kəndində Alban kilsəsi, müxtəlif ərazilərindəki ziyarətgahlar, məscidlər, qalalar və digər tarixi abidələrinin təmir edilib qorunaraq istifadəyə verilməsi rayonun tarixi, mədəniyyəti ilə bağlı olaraq turizm imkanlarının yüksək səviyyəyə çatdırılması üçün əvəzsiz stimul kimi qiymətləndirilə bilər (Ələkbərov O., Əliyev A., 2015).

Zəngilan rayon gələcək dönəmdə beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi də qiymətləndirilir. Bütün nəqliyyat növlərinin inşası üçün uyğun olan mövcud coğrafi mövqe nəzərə alınaraq bu istiqamətdə müvafiq tədbirlərin və işlərin həyata keçirilməsinə başlanılmışdır. Belə ki, həm sakinlərin işğaldan azad olunan ərazilərə gəlişini, həm yükdaşıma funksiyalarının yerinə yetirilməsini, həm də Naxçıvanla olan əlaqəni təmin etmək məqsədilə inşasına başlanılan Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun əhəmiyyəti bu səbəblərdən dolayı

böyükdür. Türkiyəyə qədər uzanacaq və iki ölkə arasında nəqliyyat əlaqələrinin möhkəmləndirilməsi məqsədilə yaradılacaq ikinci dəmir yolu şəbəkəsinin bir hissəsi olacaq bu dəmir yolunun inşası ölkənin iqtisadi, strateji, siyasi məqsədlərinin həyata keçirilməsinə xidmət edəcək (https://www.xalqcebhesi.az/news/politics/69851.html, 2021).

Eyni zamanda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun da inşasına baxşlanılmışdır ki, Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistralının bir hissəsi olaraq rayonu həm Azərbaycanın digər bölgələri, həm də Naxçıvanla birləşdirməklə strateji rol oynayacaq. Adıçəkilən avtomobil yolunun inşa edilib istifadəyə verilməsi ilə rayonun və ölkənin sosial-iqtisadi tərəqqisində əhəmiyyətli mövqeyə malik olacaqdır (https://report.az/infrastruktur/horadiz-cebrayil-zengilan-agbend-avtomobil-yolunun-tikintisi-davam-edir/, 2021).

Zəngilan rayonu respublika üzrə səthə düşən günəş radiyasiyasının kəmiyyətinə görə Füzuli, Cəbrayıl rayonları ilə bərabər ikinci yerdə qərarlaşır (https://www.aceconsultants.az/az/news/561.html, 2021). Cəbrayıl rayonu ilə bərabər Zəngilan rayonunun günəş enerjisi potensialından faydalanmaq üçün, bununla Azərbaycanda post-konflikt bölgələrdə "yaşıl enerji" zonalarının yaradılaraq respublikanın alternativ enerji qisminin tərəqqisi və 2030-cu ilədək karbon emissiyasını 35 faizə qədər azaltmaq, həmçinin BP şirkətinin 2050-ci ilə qədər "xalis sıfır emissiyalı" şirkət olmaq təşəbbüsü ilə əlaqədar olaraq Energetika Nazirliyi və BP arasında 3 iyun 2021-ci il tarixində İcra Müqaviləsi imzalanmışdır və müqaviləyə uyğun olaraq günəş elektrik stansiyasının tikilməsi layihəsinin həyata keçirilməsi üzrə işlərə başlanılmışdır (https://report.az/energetika/zengilan-cebrayil-zonasinda-gunes-enerjisi-layihesi-uzre-emekdasliga-baslanilir/, 2021). Alternativ enerjidən istifadə edilməsi bu sahə üzrə xərclərin azaldılması ilə yanaşı, ətraf mühitin ekoloji çirklənməsinin qarşısının alınması cəhətdən də əhəmiyyətlidir.

Qeyd edilmiş sahələr üzrə təhlilin aparılması işğaldan azad edilən digər ərazilər kimi Zəngilan rayonunun da sahibkarlığın müxtəlif mülkiyyət formalarında geniş şəbəkələrin yaradılması üçün mühümdür.

Rayonda sahibkarlığın inkişafında sektoral təhlilin aparılması ilə yanaşı rayon əhalisinin məşğulluq üzrə göstəriciləri də nəzərə alınmalıdır. Rayonun işğal olunmasına baxmayaraq məcburi köçkün düşən yerli əhalinin dövlət dəstəyi ilə təmin olunması nəticəsində işğaldan sonrakı dövrdə də yerli əhali

məskunlaşdıqları ərazilərdə müxtəlif sahələr üzrə çalışmağa davam etmiş, sahibkarlığın müxtəlif sektorları üzrə öz fəaliyyətlərini həyata keçirmişlər. 2004-cü ildə imzalanan "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamın illərdir tətbiq edilməsi nəticəsində yerli əhalinin məşğulluq səviyyəsi artmaqda davam etmişdir (https://e-qanun.az/framework/6261, 2004).

Statistikaya baxdıqda rayon əhalisinin müxtəlif istiqamətlərdə davamlı fəaliyyətinin şahidi olmaq olar.

**Cədvəl 3: Məşğul əhalinin mülkiyyət növləri üzrə bölgüsü (nəfər)**

| | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** |
|---|---|---|---|---|---|---|---|
| **Cəmi iqtisadiyyatla məşğul olanlar** | 18507 | 19674 | 19980 | 21013 | 21111 | 22014 | 24259 |
| **O cümlədən mülkiyyət növləri üzrə:** | | | | | | | |
| **Dövlət** | 3439 | 3470 | 3158 | 3089 | 3017 | 3081 | 3089 |
| **Qeyri-dövlət** | 15068 | 16204 | 16822 | 17924 | 18094 | 18933 | 21170 |
| **Fərdi** | 4680 | 4901 | 4180 | 4250 | 4331 | 5810 | 5766 |
| **Xüsusi** | 1915 | 2231 | 2510 | 2800 | 2856 | 2513 | 2341 |
| **Sərbəst məşğul əhali** | 8473 | 9022 | 9111 | 10874 | 10907 | 10610 | 13063 |

**Mənbə:** (Zəngilan Rayon Statistika İdarəsi, 2019)

Cədvəldən də göründüyü kimi ümumilikdə iqtisadiyyatla məşğul olan əhalinin sayı sayı qeyd olunan illər intervalında 5752 nəfərlik artım göstərmişdir. Qeyd etmək lazımdır ki, ayrılıqda mülkiyyət növləri üzrə də məşğul şəxslərin sayında göstəricilərin ilk və son dövrləri arasında artım tempi müşahidə edilir.

Növbəti qrafik isə iqtisadi fəallıq üzrə göstəriciləri özündə əks etdirir.

**Qrafik 1: İqtisadi fəallıq barədə statistika (faizlə)**



| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin ümumi sayından məşğul olanlar | 84.73 | 85.9 | 86.64 | 85.42 | 85.6 | 86.4 | 94.1 |
| İşsizliyin səviyyəsi | 6.7 | 5.6 | 4.9 | 6.2 | 6.1 | 5.5 | 5.8 |

**Mənbə:** (Zəngilan Rayon Statistika İdarəsi, 2019) istinadən müəllif tərəfindən tərtib edilmişdir

Qrafikdən göründüyü kimi iqtisadi fəal əhalinin sayında məşğul əhalinin say nisbəti 2012-ci ildən 2018-ci ilə qədər 9.37 faiz artım göstərmişdir. Eyni zamanda rayon əhalisinin işsizlik səviyyəsi isə bu aralıqda 0.9 faiz azalmış, 2018-ci ildə 5.8 faiz olmuşdur.

## Biznes mühitinin inkişafı fonunda innovativ layihələrin tətbiqi imkanları

"Ağıllı kənd"lərdə ənənəvi və müasir şəbəkə və xidmətlər sakinlərin və biznes müəssisələrinin xeyrinə rəqəmsal, telekommunikasiya texnologiyaları, innovasiyalar və biliklərin daha səmərəli və yaxşı istifadəsi yolu ilə təkmilləşdirilir. Bu layihə kənd yerlərində biznesə təşviq məqsədlərini də daşıyır. Azərbaycan Respublikası Prezidenti tərəfindən bu konsepsiyanın icrası ilə bağlı imzalanan Sərəncama görə ölkədəki şəhər və kəndlərdə informasiya texnologiyalarından istifadə edilərək göstərilən xidmətlərin effektivliyini, səmərəliliyini artırmaq, onlar üzrə resurslardan istifadə edilməsinin səmərəliliyinin artırılması yolu ilə kənd və şəhərlərdə dayanıqlılığın artırılması əsas hədəf və məqsədlərdir (https://president.az/az/articles/view/51179, 2021).

Adı çəkilən Sərəncama müvafiq olaraq işğaldan azad olunan Zəngilan rayonunun Ağalı kəndində ilk "Ağıllı kənd" layihəsinin tətbiqi istiqamətində işlərin görülməsinə start verilmişdir. Türkiyə, Çin, İtaliya və İsrailin mütərəqqi şirkətlərinin iştirakı ilə reallaşan konsepsiyanın icrası istiqamətində ilk işlər

2021-ci ilin aprel ayının 26-dan həyata keçirilməyə başlanılmışdır ki, bununla da işğaldan azad olunan ərazilərə Böyük Qayıdışın da başlandığını qəbul etmək olar. Dünya təcrübəsini də nəzərə alaraq demək lazımdır ki, “Ağıllı kənd”in reallaşmasında məqsəd kənd ərazilərindən şəhərə olan insan axınının qarşısını almaq və buna da kəndlərdə xidmətlərin effektivliyini artıraraq, insanlara daha yüksək yaşam şəraitini təqdim edərək, daha çox məşğulluq imkanlarını təmin edərək nail olmaq mümkündür. Bununla yanaşı dövlət orqanlarının da təklif etdiyi xidmətlərə kənd yerlərində rahat formada çıxış imkanları əldə etmək nöqteyi nəzərindən də yeni innovativ texnologiyaların və mexanizmlərin tətbiqini özündə ehtiva edən bu layihənin ölkənin post-konflikt ərazilərində reallaşdırılması təşəbbüsü təqdirəlayiq addımdır (https://www.azerbaijan-news.az/posts/detail/qarabagda-birinci-agilli-kend-layihesinin-temeli-qoyuldu-agilli-kend-nedir-1619608871, 2021).

Zəngilan rayonunda bu konsepsiyanın əsas 5 kompononenti istiqamətində işlər həyata keçirilir ki, bunlar sosial xidmətlər, alternativ enerji, istehsal, “ağıllı kənd təsərrüfatı” və yaşayışdır. Qeyd olunan bu istiqamətlərdə proseslərin aparılması kənd əhalisinin yaşayış səviyyəsinin yaxşılaşdırılması, innovasiyaya əsaslanan idarəçilik mühitinin yaradılması, tükənən enerji mənbələrinə asılılığın azaldılaraq ekoloji cəhətdən daha təmiz və sərfəli enerji resurslarından istifadəsi, təsərrüfatda rəqəmsallığın rolunun artırılaraq bu sahədəki kiçik sahibkarlığın inkişaf etdirilməsi və vaxta qənaət edilməsi kimi amilləri nəzərə alaraq gələcək dönəmdə rayonun texnoloji-innovasiya mərkəzi kimi formalaşmasında öz müsbət təsirlərini göstərəcəkdir (https://xalqqazeti.com/mobile/az/news/71350, 2022).

“Ağıllı kənd” layihəsinin tətbiq edilməsi üçün ölkənin mövcud imkanları, hazırlığı, əhalinin buna münasibəti və digər amillər nəzərə alınmalıdır. Bu amilləri nəzərə alaraq aparılan araşdırmaların kifayət qədər olmaması səbəbi ilə Zəngilan rayonu nümunəsində ölkədə reallaşan “Ağıllı kənd” layihəsinin tətbiqi imkanlarını təhlil etmək üçün 300 respondenti əhatə edən anket sorğusu keçirilmişdir ki, sorğu ölkədə bu konsepsiyanın nə dərəcə effektiv ola biləcəyi, əhalinin məlumatlılıq səviyyəsi, rəqəmsal xidmətlərdən istifadə göstəriciləri, konsepsiyadan gözlənilən faydalar və meydana gələ biləcək problemlərlə bağlı məsələləri əhatə etmişdir. Sorğudan alınan məlumatlar əsasında SPSS proqramında təhlillər aparılmış və nəticələr əldə olunmuşdur.

Sorğuda iştirak edən 300 insanın 174-ü qadın, 126-sı kişi olmuşdur ki, bunlar da müvafiq olaraq ümumi iştirakçıların 58 faizini və 42 faizini əhatə etmişdir.

Respondentlərin 56.3 faizi 18-25, 14 faizi 26-30, 10 faizi 31-35, 5 faizi 36-40, 5 faizi 41-50 yaş aralıqlarını, 9.7 faizi isə 51 yaş və yuxarısına aid olmuşdur.

Təhsil faktoruna görə qruplaşdırmanın nəticəsinə uyğun olaraq araşdırmada iştirak edənlərin 48 faizinin magistratura, 46 faizinin bakalavriat, 3 faizinin orta ixtisas, 2 faizinin doktorantura, 1 faizinin isə orta məktəb təhsilli olduğu məlum olmuşdur.

Anket sorğusunda müxtəlif fəaliyyət sahələrindən olanlar iştirak etmişdir və frekans analizinin nəticələri əsasında fəaliyyət sahələri üzrə qruplaşmalara görə respondentlərin 25 faizi maliyyə və bank sahəsində, 18 faizi dövlət idarəçiliyində, 15 faizi təhsil sahəsində, 14 faizi İT istiqamətində çalışanlardır. 11.3 faiz respondent bizneslə məşğul olanlardır. Ümumi cavablardan 9.7 faizi müştəri xidmətlərinə, 7 faizi digər sektorlarda çalışanlara aiddir.

Müxtəlif faktorlar üzrə iştirakçıların bölünməsindən sonra tədqiqat işinin suallarının cavablandırılması mərhələsi başlanılmışdır ki, ilk növbədə "Ağıllı kənd/şəhər" konsepsiyası ilə məlumatlılıq səviyyəsi yoxlanılmışdır. Sualın verilməsində məqsəd əhalinin iştirakçı qisminin məlumatlılığını öyrənməkdir ki, gələcək dönəmdə bu məsələ ilə bağlı tədbirlərin görülməsi üzrə təkliflərin verilməsi dəyərləndirilsin.

Növbəti şəkildə cavabların frekans analizinin nəticəsi vizual olaraq təqdim edilmişdir.

**Qrafik 2: “Ağıllı kənd”, “Ağıllı şəhər” layihələri ilə bağlı məlumatlılıq üzrə sualın frekans analizinin nəticəsi**




**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

“Ağıllı kənd”, “Ağıllı şəhər” layihələri ilə bağlı məlumatlılığı ölçmək üçün verilən suala cavab verən 300 nəfərdən 228 nəfəri, yəni 76 faizi məlumatlı olduğunu, 72 nəfəri, yəni 24 faizi isə məlumatlı olmadığını bildirmişdir. Layihənin yeni olduğunu nəzərə alaraq nəticəsinin qənaətbəxş olduğunu hesab etmək olar, lakin konsepsiyadan xəbərdar olmaq göstəricisinin artırılmasına nail olmaq olar.

Konsepsiyadan məlumatlılığın göstəricilərinin yaş faktoru ilə əlaqəli olub olmadığını öyrənmək üçün “Chi-Square” (Ki-kvadrat ($X^2$) testi) testi edilmişdir. Yaş faktoru və məlumatlılıq üzrə sual kateqoriyalı və nominal dəyişkənlər olduğu üçün dəyişkənlər arasında əlaqə olub olmaması “Chi-Square” testinin aparılmasına qərar verilmişdir. Bunun üçün ilk növbədə yaş və məlumatlılıq üzrə sualların çarpaz tablosuna baxılmışdır.

**Cədvəl 4: "Ağıllı kənd", "Ağıllı şəhər" konsepsiyasından məlumatlılıq və yaş faktoru üzrə Çarpaz tablo testi**

| | | | "Ağıllı kənd", "Ağıllı şəhər" layihələri ilə bağlı məlumatlısınızmı? | | Cəm |
|---|---|---|---|---|---|
| | | | Bəli | Xeyr | |
| Yaşınız | 18-25 | Say | 138 | 31 | 169 |
| | | Gözlənilən say | 128.4 | 40.6 | 169.0 |
| | | Cəmin %-i | 46.0% | 10.3% | 56.3% |
| | 26-30 | Say | 31 | 11 | 42 |
| | | Gözlənilən say | 31.9 | 10.1 | 42.0 |
| | | Cəmin %-i | 10.3% | 3.7% | 14.0% |
| | 31-35 | Say | 25 | 5 | 30 |
| | | Gözlənilən say | 22.8 | 7.2 | 30.0 |
| | | Cəmin %-i | 8.3% | 1.7% | 10.0% |
| | 36-40 | Say | 15 | 0 | 15 |
| | | Gözlənilən say | 11.4 | 3.6 | 15.0 |
| | | Cəmin %-i | 5.0% | 0.0% | 5.0% |
| | 41-50 | Say | 9 | 6 | 15 |
| | | Gözlənilən say | 11.4 | 3.6 | 15.0 |
| | | Cəmin %-i | 3.0% | 2.0% | 5.0% |
| | 51 yaş və yuxarı | Say | 10 | 19 | 29 |
| | | Gözlənilən say | 22.0 | 7.0 | 29.0 |
| | | Cəmin %-i | 3.3% | 6.3% | 9.7% |
| Cəm | | Say | 228 | 72 | 300 |
| | | Gözlənilən say | 228.0 | 72.0 | 300.0 |
| | | Cəmin %-i | 76.0% | 24.0% | 100.0% |

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Verilmiş çarpaz tabloya əsasən ən yüksək məlumatlılıq göstəricisi 18-25 yaş aralığında olan şəxslərə məxsusdur ki, bu da ümumi cavabların 46 faizi təşkil edir. Ən aşağı məlumatlılıq isə 41-50 yaş aralığında özünü göstərmişdir və bu da ümumi cavabların 3 faizinə bərabər olmuşdur. Buradakı gözlənilən say hər bir xana üzrə proqnozlaşdırılan sayı göstərir.

Araşdırmanın bu hissəsində irəli sürülən sıfır hipotezinə ($H_0$) görə 2 dəyişkən arasında əlaqə yoxdur, yəni, bir-birilərindən asılı olmayaraq müstəqildirlər. Alternativ hipotezə ($H_A$) görə isə onlar arasında əlaqə vardır, başqa sözlə, bir-

birindən asılıdırlar. İrəli sürülən sıfır hipotezinin doğru olub olmadığını bilmək üçün "Chi-Square" testinin nəticələrinə baxılmalıdır.

**Cədvəl 5: "Ağıllı kənd", "Ağıllı şəhər" konsepsiyasından məlumatlılıq və yaş faktoru üzrə "Chi square" testi**

| | Dəyər | df | Asimptotik Əhəmiyyət (2 tərəfli) | Dəqiq Ehtimal (2 tərəfli) | Dəqiq Ehtimal (1 tərəfli) | Nöqtə ehtimalı |
|---|---|---|---|---|---|---|
| Pearson Chi-Square | 38.207[a] | 5 | <.001 | <.001 | | |
| Ehtimal nisbəti | 36.681 | 5 | <.001 | <.001 | | |
| Fisher-Freeman-Halton Exact Testi | 34.023 | | | <.001 | | |
| Xətti-xətti əlaqələndirmə | 19.839[b] | 1 | <.001 | <.001 | <.001 | .000 |
| Keçərli halların sayı | 300 | | | | | |

a. 2 xanada (16.7%) gözlənilən say 5-dən azdır. Minimum gözlənilən say 3.60-dır.
b. Standartlaşdırılmış statistika 4.454-dür.

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

"Chi-Square" testinin şərtlərinə görə ümumi xanaların 20 faizinə qədərində gözlənilən say 5-dən kiçik olsa, testin nəticəsi əhəmiyyətli sayılır. Bu təhlildə də bu göstərici 16.7 faiz olaraq 20 faizdən kiçik olduğu üçün Pearson Chi-Square dəyəri əhəmiyyətlidir. Chi-Square testinin digər şərtinə görə isə Asimptotik Əhəmiyyət (2 tərəfli) bölümündəki p dəyəri, 0.05 olaraq qəbul edilən alfa dəyərindən kiçik və ya ona bərabər olduqda $H_0$ hipotezi yox, $H_A$ hipotezi qəbul edilir. Bu testdə bu qiymət <.001-dir yəni, 0.05-dən kiçikdir. Bu səbəbdən $H_0$ hipotezi səhv, $H_A$ hipotezi isə doğrudur. Başqa sözlə, yaş faktoru ilə "Ağıllı kənd", "Ağıllı şəhər" konsepsiyasından məlumatlılıqla bağlı verilən sual arasında asılılıq, yəni əlaqə vardır. Bu asılığın hansı səviyyədə güclü və ya zəif olduğunu müəyyən etmək məqsədilə "Phi and Cramer's V" testi aparılmışdır ki, onun da nəticəsi 6-cı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 6: "Ağıllı kənd", "Ağıllı şəhər" konsepsiyasından məlumatlılıq və yaş faktoru üzrə "Phi and Cramer's V" testi**

| | | Dəyər | Təxmini əhəmiyyət | Dəqiq əhəmiyyət |
|---|---|---|---|---|
| Nominal-Nominal | Phi | .357 | <.001 | <.001 |
| | Cramer's V | .357 | <.001 | <.001 |
| Keçərli halların sayı | | 300 | | |

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

"Phi and Cramer's V" testində 2*2 formatından böyük cədvəllərdə Cramer's V dəyərinə baxılır və tədqiq edilən çarpaz tablo 2*6 ölçülü olduğu üçün bu dəyərə baxılmalıdır. Şərtə görə dəyər 0.25-dən yüksək olarsa, dəyişkənlərin arasındakı əlaqənin güclü olduğu qəbul edilir. Buradakı dəyər də 0.357 > 0.25 olması əlaqənin çox güclü olduğunu müəyyən edir.

Məlumatlılıqla bağlı digər sual isə respondentin bu tip layihələrlə bağlı məlumatları haradan əldə etməsi ilə əlaqəli olmuş, cavablayanlara bir neçə variantı seçmək imkanı verilmişdir. Bu sualın verilməsi ona görə əhəmiyyət kəsb edir ki, bu layihələrlə bağlı hansı növ məlumat mənbəyində daha çox informasiya paylaşımı edilərsə, insanların məlumatlılığına daha yaxşı təsir edə bilər. Eyni zamanda zəif məlumat paylaşımı olan mənbələrdə bununla bağlı təkmilləşdirmə aparıla bilər.

**Cədvəl 7: "Bu tip layihələrlə bağlı məlumatları haradan əldə edirsiniz?" sualının frekans alizi nəticələri**

| | | Cavablar | |
|---|---|---|---|
| | | Say | Faiz |
| | Sosial şəbəkələrdən | 255 | 57.0% |
| | Xəbər buraxılışlarından | 117 | 26.2% |
| | Ətrafdakı insanlardan | 60 | 13.4% |
| | Digər | 15 | 3.4% |
| Cəm | | 447 | 100.0% |

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Cədvəldən görüldüyü üzrə ümumi cavabların 57 faizi sosial şəbəkələrdən, 26.2 faizi xəbər buraxılışlarından, 13.4 faizi ətrafdakı insanlardan, 3.4 faizi isə digər mənbələrdən olmuşdur. Bu qənaətə gəlmək olar ki, məlumatlandırıcı paylaşımların sosial şəbəkələr üzərindən olması insanların xəbərdar olması cəhətdən əlverişlidir.

Ağıllı kənd layihəsi tətbiq edilərkən ölkənin bu yeniliyə hazırlıq vəziyyəti nəzərə alınmalıdır ki, bu səbəbdən respondentlərin bununla bağlı fikirləri öyrənilmişdir. Nəticələr növbəti qrafikdə əks edilmişdir:

**Qrafik 3: "Ölkənin "Ağıllı kənd"/ "Ağıllı şəhər" layihələrini tətbiq etmək üçün mövcud hazırlıq vəziyyətini necə qiymətləndirirsiniz?" sualının nəticələri**




**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Sualı cavablayanların 202 nəfəri, yəni, təqribən 67.33 faizi ölkənin bu layihəyə qismən hazır olduğunu, 49 nəfəri, yəni, təqribən 16.33 faizi tamamilə hazır olduğunu, 49 nəfəri, yəni, təqribən 16.33 faizi isə hazır olmadığını qeyd etmişdir. Aydın olur ki, ölkənin bu konsepsiyaya qismən hazır olduğunu düşünənlər üstünlük təşkil edir. Tamamilə hazır olduğunu düşünənlərlə hazır olmadığını düşünənlərin sayı isə sorğuda eyni olmuşdur.

Müxtəlif fəaliyyət sahələrindən olanlarla ölkənin hazırlıq vəziyyətini qiymətləndirmək üçün verilən sualın bir-birinə münasibətdə müstəqil olub olmadığını müəyyən etmək üçün dəyişkənlər arasında "Chi-Square" testi edilmişdir.

**Cədvəl 8: "Ağıllı kənd", "Ağıllı şəhər" layihəsinə mövcud hazırlıq vəziyyəti ilə fəaliyyət sahəsi faktoru üzrə Çarpaz tablo testi**

| | | | Ölkənin "Ağıllı kənd"/"Ağıllı şəhər" layihələrini tətbiq etmək üçün mövcud hazırlıq vəziyyətini necə qiymətləndirirsiniz? | | | |
|---|---|---|---|---|---|---|
| | | | Hazır deyil | Qismən hazırdır | Tamamilə hazırdır | Cəm |
| Fəaliyyət sahəniz | Biznes | Say | 15 | 9 | 10 | 34 |
| | | Gözlənilən say | 5.6 | 22.9 | 5.6 | 34.0 |
| | | Cəmin %-i | 5.0% | 3.0% | 3.3% | 11.3% |
| | Digər | Say | 6 | 9 | 6 | 21 |
| | | Gözlənilən say | 3.4 | 14.1 | 3.4 | 21.0 |
| | | Cəmin %-i | 2.0% | 3.0% | 2.0% | 7.0% |
| | Dövlət idarəetməsi | Say | 0 | 45 | 9 | 54 |
| | | Gözlənilən say | 8.8 | 36.4 | 8.8 | 54.0 |
| | | Cəmin %-i | 0.0% | 15.0% | 3.0% | 18.0% |
| | İT | Say | 6 | 36 | 0 | 42 |
| | | Gözlənilən say | 6.9 | 28.3 | 6.9 | 42.0 |
| | | Cəmin %-i | 2.0% | 12.0% | 0.0% | 14.0% |
| | Maliyyə və bank | Say | 6 | 57 | 12 | 75 |
| | | Gözlənilən say | 12.3 | 50.5 | 12.3 | 75.0 |
| | | Cəmin %-i | 2.0% | 19.0% | 4.0% | 25.0% |
| | Müştəri xidmətləri | Say | 8 | 18 | 3 | 29 |
| | | Gözlənilən say | 4.7 | 19.5 | 4.7 | 29.0 |
| | | Cəmin %-i | 2.7% | 6.0% | 1.0% | 9.7% |
| | Təhsil | Say | 8 | 28 | 9 | 45 |
| | | Gözlənilən say | 7.4 | 30.3 | 7.4 | 45.0 |
| | | Cəmin %-i | 2.7% | 9.3% | 3.0% | 15.0% |
| Cəm | | Say | 49 | 202 | 49 | 300 |
| | | Gözlənilən say | 49.0 | 202.0 | 49.0 | 300.0 |
| | | Cəmin %-i | 16.3% | 67.3% | 16.3% | 100.0 % |

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

İki dəyişkənin çarpaz tablosuna nəzər salındıqda aydın olur ki, cədvəl üzrə ən yüksək göstərici hazırlıq vəziyyətini "qismən hazırdır" kimi qiymətləndirən

şəxslər üzrə olmuşdur ki, bu göstərici 19 faiz olmaqla maliyyə və bank sahəsindən olanlara aiddir. Növbəti yerlərdə 15 faizlik nəticə ilə dövlət idarəetməsində çalışanların və 12 faiz seçimlə İT sahəsindən olanların seçdiyi "qismən hazırdır" cavabı gəlir. Ən aşağı, yəni 0 faiz göstəricilər isə dövlət idarəetməsindən olanların seçdiyi "hazır deyil variantı", eyni zamanda İT üzrə işləyənlərin qəbul etdikləri "tamamilə hazırdır" variantı olmuşdur.

"Ağıllı kənd", "Ağıllı şəhər" layihəsinə mövcud hazırlıq vəziyyəti ilə fəaliyyət sahəsi faktoru arasında asılılığın olmaması, yəni $H_0$ hipotezi irəli sürülür. $H_A$ alternativ fərziyyəsinə görə isə asılılığın olması irəli sürülür. Hipotezlərdən hansının doğru olduğunu müəyyən etmək üçün dəyişkənlər arasında Chi-Square testi edilmişdir. Nəticələr 9 nömrəli cədvəldə verilmişdir.

**Cədvəl 9: "Ağıllı kənd", "Ağıllı şəhər" layihəsinə mövcud hazırlıq vəziyyəti ilə fəaliyyət sahəsi faktoru üzrə Chi-Square testi**

| | Dəyər | df | Asimptotik Əhəmiyyət (2 tərəfli) | Monte Carlo Sig. (2 tərəfli) | | |
|---|---|---|---|---|---|---|
| | | | | Əhəmiyyət | 99% Güvən aralığı | |
| | | | | | Aşağı hədd | Yuxarı hədd |
| Pearson Chi-Square | 61.371[a] | 12 | <.001 | .000[b] | .000 | <.001 |
| Ehtimal nisbəti | 73.417 | 12 | <.001 | .000[b] | .000 | <.001 |
| Fisher-Freeman-Halton Exact Test | 67.186 | | | .000[b] | .000 | <.001 |
| Keçərli halların sayı | 300 | | | | | |

a. 4 xanada (19.0%) gözlənilən say 5-dən azdır. Minimum gözlənilən say 3.43-dür.

b. 743671174 başlanğıc göstəricisi ilə 10000 nümunə cədvəlinə əsaslanır.

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Chi-Square dəyərinin əhəmiyyətli olması üçün lazım olan xanaların 20 faizinə qədərində gözlənilən sayın 5-dən kiçik olması şərti ödənildiyi üçün (19 faiz olduğuna görə) testin nəticəs, yəni, Pearson Chi-Square dəyəri əhəmiyyətlidir. Asimptotik Əhəmiyyət (2 tərəfli) sütunundakı p qiyməti 0.05-ə bərabər olan alfa dəyərindən az, < .001 olması səbəbi ilə dəyişkənlər arasında asılığın olması fərziyyəsi qəbul edilir. Bu əlaqənin hansı dərəcədə olması üçün edilən "Phi and Cramer's V" testinin nəticəsi aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 10: "Ağıllı kənd", "Ağıllı şəhər" layihəsinə mövcud hazırlıq vəziyyəti ilə fəaliyyət sahəsi faktoru üzrə "Phi and Cramer's V" testi**

| | | | | Monte Carlo Əhəmiyyəti | | |
|---|---|---|---|---|---|---|
| | | | | | 99% Güvən aralığı | |
| | | Dəyər | Təxmini əhəmiyyət | Əhəmiyyət | Aşağı hədd | Yuxarı hədd |
| Nominal-Nominal | Phi | .452 | <.001 | .000c | .000 | <.001 |
| | Cramer's V | .320 | <.001 | .000c | .000 | <.001 |
| Keçərli halların sayı | | 300 | | | | |

c. 79654295 başlanğıc göstəricisi ilə 10000 nümunə cədvəlinə əsaslanır.

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Cədvəl 3*7 ölçüsündə olduğu üçün Cramer's V dəyəri əsas götürülür. Dəyərin 0.25dən böyük, yəni, 0.32 olması "Ağıllı kənd", "Ağıllı şəhər" layihəsinə mövcud hazırlıq vəziyyəti ilə fəaliyyət sahəsi faktoru arasındakı bağlılığın çox güclü olduğunu göstərir.

Sözügedən layihənin reallaşmasında əhalinin İnformasiya Kommunikasiya Texnologiyalarından (İKT) istifadə göstəriciləri də nəzərə alınmalıdır. Bunun üçün sorğunun iştirakçılarının fikrinin öyrənilməsi məqsədilə sual ünvanlanmışdır.

**Qrafik 4: Ölkə əhalisinin İKT-dən istifadə səviyyəsinin qiymətləndirilməsinin frekans testi nəticələri**




**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Qeyd olunan sualın cavablarına əsasən əhalinin İKT-dən istifadə səviyyəsinin 201 nəfər qənaətbəxş, 60 nəfər aşağı səviyyədə, 39 nəfər isə yüksək səviyyədə olduğunu bildirmişdir ki, bunlar da ümumi cavabın müvafiq olaraq 67, 20 və 13 faizini təşkil edir.

Əgər bir ölkə ərazisinin hər hansı bir hissəsində "Ağıllı kənd" konsepsiyası kimi innovativ, rəqəmsallığa əsaslanan layihəni tətbiq edirsə, göstərilən rəqəmsal xidmətlərin mövcud vəziyyətinə də baxılmalıdır. Konsepsiyanın həyata keçirilməsi üçün zəruri olan rəqəmsal dövlət, bankçılıq, ticarət, təhsil, çatdırılma, səhiyyə, turizm kimi xidmətlərin hansı səviyyədə inkişaf etməsi, ümumiyyətlə əhalinin bu kimi xidmətlərdən hansı dərəcədə yararlanması, onları necə qiymətləndirməsi məsələləri diqqətdə saxlanmalıdır. Bu məqsədlə sorğuda likert şkalası üzrə rəqəmsal xidmətlərin mövcud vəziyyətinin qiymətləndirilməsi istənilmişdir. Bu xidmətlərin vəziyyətinin aşağı səviyyədə, qənaətbəxş, yoxsa yüksək səviyyədə olması ilə bağlı fikirlər öyrənilmişdir. Proqramda 1-"Aşağı səviyyədədir", 2-"Qənaətbəxşdir", 3-"Yüksək səviyyədədir" kimi işarə olunmuşdur.

7 maddə üzrə qiymətləndirilmə tələb olunan sualın hər maddə üzrə cavablarının Ortalama analizi edilmişdir və nəticələr 12 nömrəli cədvəldə əksini tapmışdır.

**Cədvəl 12: Rəqamsal xidmətlərin mövcud vəziyyətinin qiymətləndirilməsi üzrə sualın maddələri üzrə ortalama analizinin nəticələri**

| | Say | Ortalama | Standart kənarlaşma |
|---|---|---|---|
| İctimai və sosial xidmətlər | 300 | 2.0900 | .55037 |
| Bankçılıq və ödəniş sistemləri | 300 | 2.2700 | .54598 |
| Ticarət | 300 | 2.1800 | .60731 |
| Təhsil | 300 | 1.6500 | .63942 |
| Çatdırılma xidmətləri | 300 | 2.2100 | .58912 |
| Tibbi xidmətlər | 300 | 1.6000 | .63351 |
| Turizm xidmətləri | 300 | 2.1000 | .64138 |
| Keçərli halların sayı (siyahı üzrə) | 300 | | |

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Cavabların ortalama analizinə əsasən "İctimai və sosial xidmətlər" maddəsinin ortalaması 2.09 olmuşdur. Nəticə 2-yə ("Qənaətbəxşdir") yaxın olduğuna görə bu maddə üzrə verilən cavabların nəticəsinə əsasən ictimai və sosial xidmətlərin vəziyyəti qənaətbəxş qəbul edilir. "Bankçılıq və ödəniş sistemləri"

üzrə ortalama 2.27 olmuşdur ki, bu da bu xidmətlərin qənaətbəxş səviyyədə olmasını göstərir. “Ticarət” üzrə 2.18 ortalama da rəqəmsal ticarətin səviyyəsinin digərləri ilə eyni olduğunu göstərir. “Təhsil” maddəsində ortalama 1.65-dir, yəni, rəqəmsal təhsil səviyyəsi aşağı səviyyə ilə qənaətbəxş arasındadır, təqribi olaraq qənaətbəxş kimi götürülə bilər. 2.21 ortalama ilə “Çatdırılma xidmətləri” maddəsinə uyğun olaraq rəqəmsal çatdırılma xidmətlərinin durumu qənaətbəxş qiymətləndirilir. Ən az ortalama 1.60 olmuşdur ki, bu da “Tibbi xidmətlər” üzrə alınmışdır. Yəni, rəqəmsal tibbi xidmətlərin səviyyəsi aşağı ilə qənaətbəxş arasındadır, təqribi olaraq 2-yə daha yaxın olduğu üçün qənaətbəxş qəbul etmək olar. Son olaraq “Turizm xidmətləri” üzrə 2.1 ortalama bu xidmətlərin orta hesabla qənaətbəxş olduğunu göstərir. Bu nəticəyə gəlmək olar ki, qeyd olunan rəqəmsal xidmətlərin heç biri insanlar tərəfindən yüksək səviyyədə qiymətləndirilmir. Təhsil və tibbi xidmətlər üzrə isə ən aşağı səviyyədə qiymətləndirilmə müşahidə olunur. Buradan onu demək olar ki, qənaətbəxş hesab olunan rəqəmsal xidmətlər üzrə təkmilləşmə işləri apararaq onları yüksək səviyyəyə gətirmək olar. Təhsil, tibbi xidmətlər kimi daha aşağı səviyyədə qiymətləndirilən xidmətlərlə bağlı isə daha çox işlər aparılmalıdır. “Ağıllı kənd” konsepsiyası kimi yeni layihənin tətbiqində bu amillər nəzərə alınarsa daha yüksək effektivliyə nail olmaq olar. Biznes infrastrukturuna birbaşa təsir edən rəqəmsal ödəniş sistemlərinin təkmilləşdirilməsi alış-satış prosesinin sürətlənməsinə, ticarət üzrə elektronlaşmanın artırılması kənd sahibkarlarına öz məhsullarının satışını onlayn platforma üzərindən daha rahat həyata keçirməyə, çatdırılma xidmətlərində də innovativliyin təmin olunması ilə müştəri razılığının artırılmasına təkan verəcəkdir.

Növbəti sual repondentlərin qeyd olunmuş xidmətlərdən hansı dərəcədə istifadə etməsini aydınlaşdırmaq məqsədilə verilmişdir.

**Cədvəl 13: Şəxslərin rəqəmsal xidmətlərdən istifadə vəziyyəti qiymətləndirməsinin ortalama analizi**

| | Say | Ortalama | Standart kənarlaşma |
|---|---|---|---|
| Rəqəmsal bankçılıq və ödəniş sistemləri | 300 | 2.6200 | .56272 |
| Rəqəmsal ictimai və sosial xidmətlər | 300 | 2.2600 | .62747 |
| Rəqəmsal ticarət | 300 | 2.1600 | .70431 |
| Onlayn təhsil | 300 | 2.0900 | .69535 |
| Onlayn çatdırılma xidmətləri | 300 | 2.1900 | .67485 |
| Onlayn tibbi xidmətlər | 300 | 1.4100 | .56831 |
| Onlayn turizm xidmətləri | 300 | 1.5500 | .59048 |
| Keçərli halların sayı (siyahı üzrə) | 300 | | |

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Sual proqrama inteqrasiya edilərkən 1- “Heç istifadə etmirəm”, 2- “Bəzən istifadə edirəm”, 3- “Tez-tez istifadə edirəm” kimi qeyd edilmişdir. Ortalamaların təhlilinə baxıldıqda məlum olur ki, ən yüksək ortalama ilə, yəni 2.62, rəqəmsal bankçılıq və ödəniş xidmətlərinin istifadə səviyyəsi 3-ə (“Tez-tez istifadə edirəm”) yaxındır və iştirakçılar bu xidmətlərdən tez-tez istifadə edirlər. Ən az ortalama onlayn tibbi xidmətlərin istifadəsinə aiddi ki, bu rəqəm 1.41 olmaqla 1-ə (“Heç istifadə etmirəm”) yaxın olduğu üçün demək olar ki, iştirakçıların əksəriyyətinin istifadə etmədiklərini göstərir. Onlayn turizm xidmətlərindən də istifadə göstəricisi üzrə ortalama 1.55 olmaqla istifadə edilməməklə bəzən istifadə edilmə arasında aralıqda qeydə alınmışdır, nisbətən 2-ə (“Bəzən istifadə edirəm”) yaxın olduğu üçün bəzən istifadə edilməsi qəbul edilə bilər. Rəqəmsal ictimai-sosial xidmətlər, onlayn çatdırılma xidmətləri, rəqəmsal ticarət, onlayn təhsil maddələri üzrə ortalama nəticələri müvafiq olaraq 2.26, 2.19, 2.16, 2.09 olmuşdur ki, bu qiymətlər 2 (“Bəzən istifadə edirəm”) cavabına uyğun gəldiyi üçün repondentlərin bəzən istifadə etdiklərini göstərir. Aşağı istifadə göstəriciləri qeydə alınan maddələr üzrə müvafiq işlər aparılaraq əhalinin rəqəmsal xidmətlərdən daha çox fayda əldə etməsini təmin etmək olar ki, bunun üçün isə ilk növbədə həmin xidmətlərin təkmilləşdirilməsi lazımdır ki, insanların razılıq səviyyəsi yüksək olsun. “Ağıllı kənd” layihəsi də tətbiq edilərkən məskunlaşacaq şəxslərin xidmətlərə tələbatı sorğu iştirakçıları timsalında nəzərə alınsa, faydalı olar.

Anket sorğusunda “Ağıllı kənd”in əsas 6 komponenti üzərində dəyərləndirmələr aparılmışdır ki, bunlar “Ağıllı iqtisadiyyat” (“Smart economy”), “Ağıllı ətraf mühit” (“Smart environment”), “Ağıllı əhali” (“Smart people”), “Ağıllı yaşayış” (“Smart living”), “Ağıllı idarəetmə” (“Smart

governance”), “Ağıllı hərəkətlilik” (“Smart mobility”) kimi qeyd olunmuşdur. Burada “Ağıllı iqtisadiyyat” dedikdə innovasiyaya əsaslanan biznes, sənaye, turizm, bankçılıq, ticarət və digərləri, “Ağıllı ətraf mühit” qismində alternativ enerji, su, hava, torpaq istifadəsinin menecmenti, “Ağıllı əhali” kimi İKT bacarıqlı, innovativ həllərə yönümlü əhali, “Ağıllı yaşayış” komponentində "Ağıllı evlər" kimi insanların yaşayışını daha rahatlaşdırmağa imkan verən innovativ həllər, “Ağıllı idarəetmə” deyilərkən innovativ ictimai və sosial xidmətlər, digər idarəetmə sistemləri, “Ağıllı hərəkətlilik” komponenti ilə isə nəqliyyat və kommunikasiyanı daha “ağıllı” texnoloji həll üsulları ilə optimallaşdıran sistemlər və mexanizmlər nəzərdə tutlmuşdur. Bu komponenlərin ölkə ərazisindəki inkişaf səviyyəsini 5 ballıq şkala üzrə respondentlərin qiymətləndirmə göstəricilərinin ortalamaları analizi nəticələri növbəti cədvəldə göstərilmişdir.

**Cədvəl 14: Ölkədə "Ağıllı kənd"/"Ağıllı şəhər" konsepsiyalarının əsas komponentlərinin inkişaf səviyyəsininin qiymətləndirməsinin ortalamalar analizinin nəticələri**

| | Say | Ortalama | Standart kənarlaşma |
|---|---|---|---|
| "Ağıllı iqtisadiyyat" | 300 | 3.0800 | 1.07585 |
| "Ağıllı ətraf mühit" | 300 | 2.6900 | 1.13056 |
| "Ağıllı əhali" | 300 | 2.6800 | 1.09618 |
| "Ağıllı yaşayış" | 300 | 2.4700 | 1.18057 |
| "Ağıllı idarəetmə" | 300 | 3.1100 | 1.08712 |
| "Ağıllı hərəkətlilik" | 300 | 2.7700 | 1.15826 |
| Keçərli halların sayı (siyahı üzrə) | 300 | | |

**Mənbə:** Müəllifin hesablamaları

5 bal üzərindən qiymətləndirilən bu komponentlərin inkişaf səviyyəsi hər biri üzrə ortalama 3 balla qiymətləndirilib ki, bu da qənaətbəxş kimi hesab olunur. “Ağıllı iqtisadiyyat” və “Ağıllı idarəetmə” göstəricisi nisbətən yüksək olsa da “Ağıllı yaşayış” üzrə daha az inkişaf qiymətləndirməsi edilmişdir. Bu da bütün komponentlər üzrə daha ciddi və sürətli işlərin aparılmasını şərtləndirir.

Növbəti cədvəldə isə əsasən hansı sahələrdə təkmilləşmənin aparılmasının önəmli olduğu ilə əlaqədar cavablar qeydə alınmışdır:

**Cədvəl 15: Konsepsiyanın reallaşması üçün təkmilləşməyə ehtiyac olan sahələr üzrə cavabların frekans analizi göstəriciləri**

| | Cavablar | |
|---|---|---|
| | Say | Faiz |
| "Ağıllı iqtisadiyyat" | 156 | 18.4% |
| "Ağıllı ətraf mühit" | 123 | 14.5% |
| "Ağıllı əhali" | 183 | 21.6% |
| "Ağıllı yaşayış" | 123 | 14.5% |
| "Ağıllı idarəetmə" | 165 | 19.5% |
| "Ağıllı hərəkətlilik" | 96 | 11.3% |
| Cəm | 846 | 100.0% |

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Cavabların ən çoxu, yəni 21.6 faizi “Ağıllı əhali” komponenti üzrə daha çox təkmilləşməyə ehtiyac olduğu yönündədir. 19.5 faiz çoxluq idarəetmə,18.4 faiz isə iqtisadiyyatla bağlı innovativlikdə təkmilləşmələr aparılmalı olduğunu qeyd etmişdir.

Zəngilan rayonunda “Ağıllı kənd” konsepsiyasının tətbiqi fonunda ilk hansı sahələrdə işlərin görülməsi ilə əlaqəli fikirlər alınmışdır və göstəricilər 16 nömrəli cədvəldə təqdim edilmişdir.

**Cədvəl 16: Zəngilan rayonunda layihə çərçivəsində görülməli ilk işlər üzrə frekans nəticələri**

| | Cavablar | |
|---|---|---|
| | Say | Faiz |
| Kənd təsərrüfatı | 198 | 24.8% |
| Turizm | 129 | 16.2% |
| Ticarət | 99 | 12.4% |
| Nəqliyyat və logistika | 195 | 24.4% |
| Alternativ enerji | 171 | 21.4% |
| Digər | 6 | 0.8% |
| Cəm | 798 | 100.0% |

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Araşdırmanın təhlili göstərir ki, ilkin olaraq daha çox insan kənd təsərrüfatı, nəqliyyat və logistika, alternativ enerji istiqamətlərində işlərin görülməli olduğu qənaətindədir ki, bunlar da müvafiq olaraq ümumi cavabların 24.8, 24.4, 21.4

faiz hissələrini təşkil edir. Digər cavabların faiz göstəriciləri isə turizm üzrə 16.2, ticarət üzrə 12.4, digər sahələr üzrə isə 0.8 faiz kimi ayrılmışdır.

İştirakçıların adıçəkilən konsepsiyaya münasibətini öyrənmək üçün 5 ballıq şkala üzrə "Ağıllı kənd" layihəsinin qiymətləndirilməsi tələb edilmişdir. Nəticələr növbəti qrafikdə öz əksini tapmışdır:

**Qrafik 5: İşğaldan azad olunan ərazilərdə "Ağıllı kənd", "Ağıllı şəhər" layihələrinin tətbiqininin qiymətləndirilməsi üzə nəticələr**




**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Cavablar onu deməyə əsas verir ki, konsepsiya ilə bağlı fikirlər müsbət yöndədir. Belə ki, respondentlərin 162-si, yəni 54 faizi layihəni 5, 54-ü, yəni 18 faizi 4, 54-ü, yəni 18 faizi 3, 27-si, yəni 9 faizi 2, 3-ü, yəni 1 faizi isə 1 balla qiymətləndirmişdir.

"Ağıllı kənd" konsepsiyasının daha effektiv icrası ilə bağlı bir sıra tədbirlər görülə bilər ki, onlardan bir neçəsi haqqında iştirakçıların fikirləri öyrənilmişdir. 17-ci cədvəl vasitəsilə həm bu tədbirlər, həm də onlara verilən cavabların ortalama analizi göstərilmişdir. Tədbirlərin icrası ilə əlaqədar razılıq səviyyəsi Razı deyiləm/Qismən razıyam/ Tamamilə razıyam kimi qiymətləndirilmişdir.

**Cədvəl 17: Konsepsiyanın icrası istiqamətində görülməli tədbirlər üzrə ortalama nəticələri**

| | N | Ortalama | Standart kənarlaşma |
|---|---|---|---|
| Bu mövzularda seminar və konfranslar keçirmək | 300 | 2.6200 | .56272 |
| Bu sahədə dünyadakı ən yaxşı təcrübələri dəyərləndirmək və tətbiq etmək | 300 | 2.8000 | .42497 |
| Proses müddətində daim monitorinqlər keçirib qiymətləndirmələr aparmaq | 300 | 2.7700 | .44470 |
| Əhalinin bu sahədə məlumatlılığını yüksək səviyyəyə çatdırmaq | 300 | 2.8600 | .34757 |
| Dünyada mövcud olan "Ağıllı kənd"/"Ağıllı şəhər" şəbəkələrinə qoşulmaq və əməkdaşlıq etmək | 300 | 2.7200 | .47153 |
| Konsepsiyanın əsas komponentlərinin inkişafını yüksək səviyyəyə çatdrmaq | 300 | 2.7500 | .45628 |
| Keçərli say (siyahı üzrə) | 300 | | |

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Ortalamaların hər birinin nəticəsi 3-ə yaxındır və proqramda “Tamamilə razıyam” cavabına uyğun gəlir. Buradan belə nəticə çıxır ki siyahıdakı tədbirlərin keçirilməsi ilə əlaqəli təkliflər verilə bilər.

Konsepsiyadan gözlənən faydalarla bağlı da iştirakçılara sual ünvanlanmışdır. Razı deyiləm/Qismən razıyam/ Tamamilə razıyam dərəcələri ilə qiymətləndirilən üstünlüklər üzrə ortalama nəticələr və gözləntilər aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 18: Layihənin faydalarının qiymətləndirilməsi üzrə ortalama analizi**

| | Say | Ortalama | Standart kənarlaşma |
|---|---|---|---|
| Vətəndaşların ehtiyaclarına daha effektiv cavab verən xidmətlərin yaradılmasına zəmin yaranacaq | 300 | 2.6900 | .46327 |
| Sahələr və xidmətlər üzrə çəkilən xərclər azalacaq | 300 | 2.3800 | .58028 |
| Sağlamlıq, ictimai və sosial xidmətlər kimi sahələrdə vaxtın optimallaşdırılmasına nail olunacaq | 300 | 2.6800 | .52776 |
| Yeni biznes imkanlarının yaradılmasına şərait yaranacaq | 300 | 2.6500 | .49832 |
| Nəqliyyat və logistika xidmətləri təkmilləşəcək | 300 | 2.6200 | .52585 |
| Müxtəlif sistemlərin tətbiqi ətraf mühitin yaxşılaşdırılmasına səbəb olacaq | 300 | 2.4800 | .57507 |
| Kommunikasiya sistemlərinin inkişaf etməsinə səbəb olacaq | 300 | 2.5700 | .53484 |
| Daha təhlükəsiz həyat şəraiti təmin olunacaq | 300 | 2.4200 | .62039 |
| İş imkanları artacaq | 300 | 2.4500 | .65493 |
| Xidmətlərin rəqəmsallaşması şəffaflığın artmasına səbəb olacaq | 300 | 2.5500 | .49832 |
| Keçərli say (siyahı üzrə) | 300 | | |

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Burada sahələr və xidmətlər üzrə çəkilən xərclərin azalması və daha təhlükəsiz həyat şəraitinin təmin olunması ilə bağlı cavabların nəticələri ortalama 2-ə (proqramda 2-“Qismən razıyam”) yaxın olduğu üçün bu faydalarla bağlı qismən razılıq, digər hər bir cavab üzrə isə ortalama 3-ə proqramda “3-“Tamamilə razıyam”) yaxın olduğuna görə tam razılıq vardır. Ən yüksək cavab isə 2.69 olmaqla vətəndaşların ehtiyaclarına daha effektiv cavab verən xidmətlərin yaradılmasına zəmin yaranması ilə əlaqəli olmuşdur. Bu sualın “Yeni biznes imkanlarının yaradılmasına şərait yaranacaq” maddəsinə verilən cavablarda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarından olan şəxslərin payının nə qədər olması da hesablanmışdır.

**Cədvəl 19: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarından olan şəxslərin yeni biznes imkanlarının yaranmasına zəmin yaranmasına verdikləri cavabların çarpaz tablosu**

| | | | Yeni biznes imkanlarının yaradılmasına şərait yaranacaq | | | |
|---|---|---|---|---|---|---|
| | | | Razı deyiləm | Qismən razıyam | Tamamilə razıyam | Cəm |
| Hansı bölgədənsiniz? | Qarabağ və Şərqi Zəngəzur | Say | 0 | 45 | 78 | 123 |
| | | % of Cəm | 0.0% | 36.6% | 63.4% | 100.0% |

**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Ümumilikdə 300 nəfər respondentin 123-ü qeyd edilən iqtisadi rayonlardandır və cədvələ müvafiq olaraq demək mümkündür ki, bu iqtisadi rayonlardan olan şəxslərin hamısı yeni biznes imkanlarının yaranacağı ilə razıdırlar. Onlardan 78 nəfəri, yəni 63.4 faizi tam razı, 45 nəfəri, yəni 36.6 faizi isə qismən razı olmuşdur. Əlaqəyə baxılmasında məqsəd bu iqtisadi rayonlarda reallaşacaq layihənin biznes mühitinə təsirini onların əhalisinin nöqteyi-nəzərindən qiymətləndirməkdir ki, qayıdış və biznes mühitinin inkişafı cəhətdən də bu önəmlidir.

İstənilən bir layihə tətbiq edilərkən onun müsbət cəhətləri və faydaları olduğu kimi mənfi cəhətləri və reallaşma müddətində bir sıra problem və çatışmazlıqlar meydana gələ bilər. Bunu diqqətə alaraq sorğuda iştirak edənlərə sual ünvanlanmış və nəticələr göstərilən kimi olmuşdur:

**Cədvəl 20: "Ağıllı kənd" konsepsiyasının tətbiqi zamanı yarana biləcək problemlər və layihənin çatışmazlıqları**

| | | Cavablar | |
|---|---|---|---|
| | | Say | Faiz |
| | Sosial nəzarətin olmaması və ya zəif olması | 141 | 14.5% |
| | Təhlükəsizlik problemləri və məlumatların məxfiliyi ilə bağlı narahatlıqlar | 156 | 16.0% |
| | Texnologiya əhəmiyyətli kapital qoyuluşunun tələb olunması | 135 | 13.8% |
| | Elektron tullantıların əhəmiyyətli dərəcədə artması | 132 | 13.5% |
| | Digər kənd və şəhərlər arasında böyük texnoloji boşluqlar meydana gəlməsi | 147 | 15.1% |
| | Xidmətlərin, eləcə də daşınmaz əmlak qiymətlərinin daha yüksək olması | 144 | 14.8% |
| | İctimai məlumatlılığın və sosial məsuliyyətin səviyyəsinin aşağı olması | 120 | 12.3% |
Azərbaycan Dövləti öz doğma torpaqlarını erməni işğalından azad etdikdən sonra, qarşısında duran növbəti məqsəd, dağıdılmış şəhər, kənd və qəsəbələri bərpa etməklə dünyaya yeni və uğurlu bölgə inkişafı modelini nümayiş etdirməkdir. Başqa sözlərlə müasir hərb tarixinə düşmüş uğurdan əlavə, muasir iqtisadi tarixdə də yeni uğura imza atmaq vacibdir. Agıllı kənd, ağıllı şəhər, innovativ kənd təsərrüfatı istehsalı layihələrindən əlavə, muasir və inkşaf etmiş turizm sahibkarlığı da bölgənin inkişaf modelinin ayrılmaz hissəsi olmalıdır. Şübhəsiz ki, bu məqsədlərin həyata keçirilməsində iri həcmli investisiyalar, xüsusilə turizmin inkişafında əsas rollardan birini oynayır. Ümumiyyətlə, turizm sahələrinə investisiyaların cəlb olunması, turizm əhəmiyyətli obyektlərin tikintisi və xidmət sahələrinin inkişafı özlüyündə bir çox amillərdən – mikro və makroiqtisadi dayanıqlıq, biznes fəaliyyəti, büdcə siyasəti və s. – asılıdır. Azərbaycan misalında isə əlavə olaraq təhlükəsizlik amili də çox mühüm əhəmiyyət kəsb edir. İkinci Qarabağ müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm sahələrinə sərmayələrin yatırılması mərhələli şəkildə və minalardan tam təmizlənmiş ərazilərdə aparılmalıdır.

Turizmin inkişafı ilə bağlı ikinci böyük çətinlik maliyyə mənbələri və investor problemidir. Burada məntiqi bir sual yaranır ki, dövlət investsiyalarını nəzərə almasaq, özəl sektor işğaldan azad olunan ərazilərdə turizm inkişaf etdirməyə hazırdırmı? Azərbaycanın bank sistemi və investsisya şirkətləri ölkə sahibkarlarını bu məsələdə dəstəkləməyə hazırdırmı? İnvestorların da təbii olaraq dövlətdən də müəyyən gözləntiləri və tələbləri mövcuddur, bu ilk növbədə siyasi-iqtisadi sabitlik və mülkiyyət hüququnun toxunulmazlığına zəmanətin verilməsidir. Qeyd etmək uyğun olardı ki, İraq, Kosovo və Xorvatiya ölkələri münaqişədən sonrakı dövrdə digər böyük çətinliklərlə üzləşdilər. Belə ki, iqtisadi böhran, yüksək inflyasiya səviyyəsi, böyük büdcə kəsirləri, yüksək dövlət borcları və digər problemlər hələdə həmin ölkələrdə dinamik sosial-iqtisadi inkişafa mane olmaqdadır. Ölkəmizdə mövcud olan siyasi-iqtisadi

sabitlik, Respublikanın sosial-iqtisadi inkişafının təməlidir, lakin Azərbaycan, Livan dövlətinin ərazisi qədər bir ərazini sıfırdan bərpa etməlidir. Xarici analitik şirkətlərinin hesablanmasına əsasən ölkə növbəti 10 ildə 10 mlrd. ABŞ dolları vəsaiti işğaldan azad olunmuş ərazilərin yenidən bərpa işlərinə sərf etməklə yalnız 100 000 vətəndaşın geri qayıdışını təmin edə biləcək. Turizm biznesinin inkişafı da həmin infrastruktur tikintillərinin və yenidən bərpa işlərinin sürətindən çox asılıdır. Bundan əlavə, kadr hazırlığı, turizmin dövlət inkişaf proqramları və dövlətin özünün bu sahəyə investisyaları, özəl sektorun bu sahəyə investisyalarını stimulaşdırmalıdır. İnvestsiyalar isə sabitlik və təhlükəsizliyi sevir və istənilən risk amilindən qaçmağa çalışır. Ölkənin həmin riskləri sığortalamaq üçün hər zaman daha güclü ordusu olmalıdır və bu mövcuddur.

Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında turizm biznesinin inkişafı bir neçə aşağıda göstərilən mərhələli problemlərin həllini özündə əks etdirir:

**I – mərhələ:** ərazilərin minalardan təmizlənməsi, təhlükəsizliyin təmin edilməsi, yol-nəqliyyat infrastrukturu, şəhər, kənd və qəsəbələrin bərpası və əhalinin qayıdışının təmin edilməsi;

**II – mərhələ:** mülkiyyət hüququnun toxunulmazlığının təmin edilməsi və turizm biznesinin fiskal alətlər və xüsusi dövlət proqramları vasitəsi ilə dəstəklənməsi;

**III – mərhələ:** işğaldan əvvəl fəaliyyət göstərən turizm müəssisələrinin (misal üçün Kəlbəcərin İsti Su sanatoriyası) bərpa edilməsinə üstünlüyün verilməsi;

**IV – mərhələ:** turizm üçün perspektiv hesab edilən ərazilərdə, iqlim və relyefin xüsusiyyətlərini nəzərə alaraq (dağlıq bölgə, dağ ətəyi bölgə və s.) uğurlu beynəlxalq və yerli turizm modellərinin və təcrübələrinin tətbiq edilməsi, daxili və xarici turistlərin cəlb edilməsinə dair xüsusi satış kampaniyalarının keçirilməsi;

**V- mərhələ:** turizm sahəsində fəaliyyətə başlayan mehmanxanaların xidmət keyfiyyəti meyarı hesab edilən "ulduz" qiymətləndirilməsi ilə təmin edilməsi;

**VI – mərhələ:** turizm (hotellər, restoranlar, turizm agentlikləri və s.) və sərnişin daşıma şirkətlərinin fəaliyyətini, ixtisas artırma təlimləri və nəqliyyat xidmətlərinin təkmilləşdirilməsi vasitəsilə dəstəklənməsi.

## Problemin həlli yolları və beynəlxalq təcrübə

İşğaldan azad olunan və yeni bərpa olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm biznesinin inkişafı bir neçə məqsədi hədəfləməlidir. Birinci hədəf yerli əhalinin rəğbətini qazanmaq və yeni tikilmiş kurort və istirahət mərkəzlərinə cəlb etmək. İkinci hədəf xarici turistlərin cəlb edilməsi www.booking.com, və bu kimi vebsaytların xidmətindən istifadə etmək və yeni istifadəyə verilmiş istrahət mərkəzlərinin xidmətlərini təklif etmək. Bunun üçün öncədən satış strategiyaları müəyyən edilməlidir və qiymətlər 10-15% qonşu ölkələrin turizm xidmətlərindən ucuz olmalıdır. Ümumiyyətlə satış strategiyaları uğurlu beynəlxalq və yerli təcrübələrə əsaslanmaqla, ərazi, iqlim, relyef, ənənələr, rəqabət və mövcud imkanları dəqiq nəzərə almalıdır. Azərbaycan daha çox Türkiyə, Gürcüstan və Avropa İttifaqı ölkələrinin turizm təcrübələrinə üstünlük verməlidir və burada tək özəl sektorun təcrübəsini yox, eləcə də turizm biznesinin dəstəklənməsi üçün qəbul olunan dövlət proqramları da araşdırılmalıdır və ölkə maraqlarına cavab verən proqramlara istinadlar edilməlidir.

Türkiyə Respublikası dünyada turizm baxımından seçilən ölkələrdən biridir. Ölkədə gəlirlərinin əhəmiyyətli hissəsi turizm hesabına formalaşır. İnvestisiyaların artımına kömək məqsədilə Turkiyə Turizm Bankı sahibkarlara kiçik faizlərlə kredit vəsaitlərini təklif edir. Türkiyə dövlətinə məxsus olan torpaqlar turizm biznesinin inkişaf etdirilməsi üçün 50 ilədək qeyri-rezident sahibkarlara icarəyə verilə bilər. Qeyd olunanlara baxmayaraq, Türkiyə turizm biznesinin uğur qazanması, səmərəli biznes idarəetməsi, peşakar və ixtisaslı menecerlər və işçi heyətin işə cəlb edilməsidir. Antalya, Bodrum və Alaniya şəhərlərinin turizmdən əldə etdikləri illik gəlir, Rusiya Federasiyasının turizmnən əldə etdiyi illik gəlir səviyyəsini üstələyir (Bayramov, 2007).

Turizm biznesinin inkişafı təcrübəsində Gürcüstanı da nümunə kimi dəyərləndirmək olar. Ölkə öz dağlıq və dəniz kənarı ərazilərini tam olaraq turizm biznesinin inkişafı üçün adaptasiya etmişdir. Qudauri, Borjomi və digər dağlıq ərazilərində tikilmiş kurortların, Azərbaycanda öyrənilməsi üçün çox faydalı təcrübələri vardır. Xüsusilə, azulduzlu hotellərin tikintisinə ciddi əhəmiyyət verən Gürcüstan hökuməti, eyni zamanda bu sahə üzrə vergi güzəştlərinin tətbiqini də həyata keçirməkdədir. Keçmiş post-sovet ölkəsi Latviya da ulduzsuz və ya azulduzlu hotel və motellərin tikintisi, yolboyu

kemping yerlərinin yaradılması işlərini təşkil etməkdə, eyni zamanda aqroturizmin inkişafı yönündə addımlarını atmaqdadır. Gürcüstan hökuməti, həmçinin, öz ekoloji-təmiz məhsulları ilə xarici turistlərin ölkəyə marağını cəlb etməkdədir (Bayramov, 2007).

Yaponiya Milli Turizm Təşkilatı tərəfindən xarici turistlər üçün "Visit JAPAN Fare" və "Star Alliance Japan Airpass Fare" güzəştli aviabiletlər tətbiq edilir ki, bu biletlər vasitəsilə ölkəyə səfər edən xarici turistlər ölkədaxili səfərlər üçün aldığı biletlərə də güzəştlər əldə edə bilərlər. Yaponiyada turizm sektorunda fəaliyyət göstərən agentliklər "insanların rifahı"nı üstün tuturlar. Yapon fəlsəfəsinə görə, ölkədə turizm istiqamətlərini inkişaf etdirməklə insanlar daha xoşbəxt və mənalı həyat sürə bilərlər. Eyni zamanda, aqroturizmin inkişafı yerli icmaların həyat səviyyəsinə və bütün ölkənin iqtisadiyyatına töhfə verməlidir. 1990-cı illərin ortalarından etibarən yapon fermerləri tərəfindən "fermer mehmanxanaları" yaranmağa başlamışdır. Burada şəhərdən gələn turistlər təsərrüfatın gündəlik iş həyatını müşahidə edirlər və öz istəkləri əsasında müəyyən işləri icra edirlər (Bayramov, 2007).

Əhalisi nisbətən az olan və dağlıq bölgələrdə yerləşən kənd yerlərində, təbiət və iqlim şəraitindən aslı olaraq uğurlu turizm layihələri həyata keçirilə bilər. Buna misal olaraq, İtaliyanın cənubu Basilicata bölgəsindəki Dolomiti Lucane dağ silsiləsinin ətəyində yerləşən kiçik Castelmezzano kəndini misal gətirmək olar. Kənd dəniz səviyyəsindən 750 m yüksəklikdə Gelipoli Koqnato Regional Parkının qorunan ərazisində yerləşir. 1980-ci il İrpinia zəlzələsindən ciddi zərər çəkmiş Castelmezzano kəndi, hal-hazırda İtaliyanın ən mənzərəli kəndlərindən biri hesab edilir. Onun tarixi tikili hesab edilən evləri zəlzələdən sonra xüsusi landşaft planına əsasən bərpa olunub. Sözügedən kəndə quraşdırılmış atraksionlar və digər turizm obyektləri yerli əhalinin iqtisadi və mədəni inkişafına müsbət töhfə vermiş və kənddə uğurlu turizm məkanlarının yaradılmasına səbəb olmuşdur (Russo, Parisi, Notarianni, Manuelli and Carvao, 2021).

Azərbaycanda yüksək dağlıq rayonlarından biri hesab olunan Kəlbəcərdə, hündürlüyü 3500 metrdən yuxarı olan Gamışdağ və Dəlidağ zirvələri mövcuddur. Bu ərazilərdə alpinizm və xizək sürmək həvaskarları üçün çox cəlb edici qış kurort mərkəzlərinin tikintisi, fikrimizcə əsaslandırılmış investisiya layihələri hesab ediləcək. Bundan əlavə, Yuxarı və Aşağı İstisu kimi böyük müalicə əhəmiyyət daşıyan mineral su mənbələrinin yanında Hotel spa-mərkəzlərinin tikintisini biznes baxımından çox faydalı investisiya

qoyuluşu hesab etmək olar. Nəzərə alsaq ki, ölkədə dağ rayonlarında turizm biznesi əsasən, Quba, Balakən, Şəki, Qəbələ, Şamaxı Göygöl və Şabran rayonlarında, orta keyfiyyət səviyyəsində inkişaf etdirilmişdi. Lakin orta səviyyədə inkişaf ölkə daxili və xarici turistlərin cəlb edilməsinə kifayət etmir. Bu baxımdan Şərgi Zəngəzur və Qarabağ ərazilərində açılan yeni turizm mərkəzləri, rəqabət mühitini daha da gücləndirərək, qiymət səviyyəsinin tənzimləyəcək və ilk növbədə daha çox xaricə istrahətə gedən Azərbaycan vətəndaşlarının ölkəmizdə istrahət etməsini şərait yaradacaqdır. Qeyd etmək lazımdır ki, xaricə istrahətə üz tutan vətəndaşlarımız tirizm xidmətlərinin orada daha ucuz və daha keyfiyyətli olması ilə əsaslandırırlar (http://ikisahil.com/post/179963-kelbecer-zengin-tebii-resurslar-ve-turizm-potensiali).

Kəlbəcər ərazisinin dağlıq relyefini nəzərə alaraq İtaliyanın Castelmezzano bölgəsinin turizm təcrübəsindən faydalanmaq mümkündür. Beləki, Kəlbəcər rayonu da Castelmezzanoda olduğu kimi bir çox tarixi abidələrlə zəngindir. Burada qədim alban dövrünə aid abidələr, məbədlər, qədim körpü və qalalar mövcuddur. Bu tarixi əhəmiyyətli yerlərə ekskursiyaların təşkili yüksək gəlir gətirə bilər. Kanat yollarının çəkilməsi, turizm əhəmiyyətli atraksionların yaradılması üçün də Kəlbəcər rayonun relyefi çox əlverişlidir. Eyni zamanda, Gürcüstanın dağlıq turizm bölgəsi hesab edilən Qudauridə, inşa edilmiş qış istrahət mərkəzi və və turizm infrastruktur modelini, müsbət təcrübə olaraq Kəlbəcər rayonunda inşa ediləcək qış istrahət mərkəzlərinin layihələndirilməsində istifadə etmək olar. Belə ki, Qudauri bölgəsində su təchizatının bərpası, suni gölün yaradılması, kanat yollarının inşası və sair xizək kurortunun inkişafında istifadə olunan təcrübələr çox uğurlu nəticələr verməkdədir. Qeyd edək ki, Qudaurini xizək kurortu kimi inkişaf etdirilməsi üçün Fransa və İsveçrədən dəvət olunan mütəxəssislər orada xüsusi təlimlər keçməkdədirlər. Kəlbəcərdə qış kurortu mərkəzlərinin  və bütövlükdə turizm infrastruktutnun  bərpası, çoxlu sayda  uğurlu beynəlxalq təcrübələrin təhlili və uyğun modelin seçimini tələb edəcək (Russo, Parisi, Notarianni, Manuelli and Carvao, 2021; https://sightlytravel.com/az/246171-resorts-gudauri-and-bakuriani-are-waiting-for- conversion/).

Kəlbəcər torpağının digər zənginliklərindən biri də İstisu mineral bulağı sayılır ki, bu bulaq üzərində sovet dönəmində, İstisu kurortu inşa edilmişdi, lakin erməni işğalı nəticəsində tamami ilə yararsız hala salınmışdı. İstisu bulağının müalicəvi əhəmiyyətini nəzərə alaraq, kurortun bərpası tibbi-sağlamlıq

turizmin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə bu turizm növünün inkişafı ilə bağlı da təcrübə mövcuddur. Beləki 2015-ci ildə Şabran rayonunda ölkə prezidentinin də iştirakı ilə Qalaaltı Hotel-Spa Mərkəzinin açılışı olmuşdur. Göstərilən ərazidə 1969-cu ildə müalicəvi su kəşf edilmişdir. Buranın xüsusi təbii şəraiti ilə seçilən çox quru, təmiz havası var. Ərazi Xəzər dənizi sahilindən 10-15 kilometrlik məsafədə, çox füsunkar təbiəti olan məkanda yerləşir və burada dağ havası dəniz havası ilə birləşərək insanların özlərini rahat hiss etməsinə səbəb olur. Qalaaltı müalicə-istirahət kompleksində mövsüm ərzində 300 nəfərə yaxın insan daimi işlə təmin olunmuşdur (https://www.azerbaijan-news.az/view-160782/qalaalti-kurortu-duneni-bugunu-ve-geleceyi).

Qalaaltı mərkəzinin təcrübəsi beynəlxalq təcrübə ilə yanaşı, Kəlbəcərin İstisu mualicə sanatoriyasının muasir standartlar əsasında bərpası üçün, istifadə edilə bilər. Sözsuz ki, bu cür turizm məkanının yaxın gələcəkdə yaradılması, Kəlbəcərdə öz döğma yurdlarına qayıtmış əhalinin işlə təmin olunmasında çox müsbət faktor olacaq (http://ikisahil.com/post/179963-kelbecer-zengin-tebii-resurslar-ve-turizm-potensiali).

Avropanın ən hündür dağ kurortu olan Davos, ətrafındakı gözəl dağ silsilə mənzərələri ilə seçilir. Davos, bütün sezonlar üçün, ən əsasda qış mövsumu üçün ixtisaslaşdırılmış dünya kurort mərkəzlərindən biridir. Burada istrahərdən başqa, havanın mualicəvi xüsisiyətlərini nəzərə alaraq, tənəffüs yolları xəstəlikləri, allergiya və digər bu kimi digər xəstəliklərin müalicəsi üzrə ixtisaslaşmış nüfuzlu tibb klinikası fəaliyyət göstərir. Bundan əlavə Davos qəsəbəsi, məşhur Davos İqtisadi Forumuna hər il ev sahibliyi edir. Forum zamanı inkişaf etmiş və inkişafda olan ölkə rəhbərlərinin çıxışları maraqla izlənilir və bir çox hallarda həmin forum iqtisadi yox, siyasi forum təəssüratı yaradır (https://www.myswitzerland.com/en/destinations/davos/).

Azərbaycanın incisi, Qarabağın gözü hesab olunan, mədəniyyət paytaxtı Şuşa şəhəri eyni zamanda Respublikanın əsas sağlamlıq və istirahət mərkəzlərindən biri hesab olunur. Dəniz səviyyəsindən 1600 metr hündürlükdə yerləşən Şuşa şəhərinin gələcək inkişaf istiqamətlərinin bir neçəsini, Davos kurortunun biznes modeli əsasında təşkil edilə bilər. Uzun illər Şuşanın təbii iqlim şəraitini tədqiq edən alimlər, bu şəhərin havasının insan orqanizminə müsbət müalicəvi təsir göstərməsi fikrində, yekdildilər. Məlumdur ki, Azərbaycan öz mədəni mərkəzinin bu təbii üstünlüyündən istifadə edərək, müalicəvi istrahat kurortlarını beynəlxlaq səviyyədə inşa

etdirməlidir ki, gələcəkdə Şuşa şəhəri benəlxalq mədəni tədbirlərə yanaşı, iqtisadi-siyasi tədbirlərədə ev sahibliyi edə bilsin (https://www.myswitzerland.com/en/destinations/davos/).

Qeyd etmək lazımdır ki, gələcəkdə inşa olunacaq Laçın, Kəlbəcər və Xocalı, inşası gedən Zəngilan və artıq istifadəyə verilmiş Fizuli beynəlxalq aeroportları, dünyanın hər yerindən Şərgi Zəngəzur və Qarabağ iqtisadi zonalarında yaradılacaq turizm mərkəzlərinə sərnişin daşınmanını, rahat və təhlükəsiz qayda da həyata keçirəcəklər. Lakin burada avia biletlərin qiymət tariflərinin tənzimlənməsi prioritet vəzifələrdən biridir. Avropa daxilində 30-40 Avroya sərnişin daşıyan avia şirkətlərin, adları yuxarıda qeyd olunan aeroportlara reyslərinin təşkil olunması, vacib inkişaf amillərindən biri seçilməsi dövlət tərəfindən tənzimlənməlidir.

## Uğurlu Aqroturizm fəaliyyətinin yerli modeli






Aqroturizm - turizminin bir sahəsi olmaqla, turistlərin təsərrüfatçılıq proseslərinin müşahidə edilməsi və ya iştrakının təmin olunmasıdır. Aqroturizmi, kənd təsərrüfatı ilə turizmin qarışıq modeli kimi təsvir etmək olar. Azərbaycanda ən uğrlu aqroturizm modellərindən biri kimi, "Citrus Valley" təsərrüfatı bazasında yaradılmış turizm mərkəzini misal göstərmək olar. "Citrus Valley" təsərrüfatı 2006-cı ildə Lənkəran rayonunun İsti Su qəsəbəsində sahibkar xanım Rəftarə Şükürova tərəfindən təsis edilmişdir. Ümumi sahəsi 15 hektar olan təsərrüfatda kivi, feyxoa, limon, mandarin, portağal, alça və az sayda gilas meyvələri yetişdirilir. Təsərrüfat yetişdirilmiş məhsulun satışı ilə yanaşı, kiçik emal müəssisəsi kimi müəyyən meyvə növlərinin emalını və Rusiya bazarlarına ixracını həyata keçirir. "Citrus Valley" əsasən, eqzotik turşu və

mürəbbələrin istehsalına üstünlük verilir və daxili bazarı fərqli məhsul çeşidləri təmin etməyə üstünlük verir. Təsərrüfatın məhsulları, "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkil etdiyi "Kənddən Şəhərə" yarmarkalarında alıcılar tərəfindən yüksək rəğbətlə qarşılanmışdı (https://www.azernews.az/business/159690.html).

"Citrus Valley" eyni zamanda Azərbaycanda özünün yeni inkişaf dövrünü yaşayan aqro, eko və qastro turizm xidmətlərinin cəmini özündə birləşdirən, yerli turizm mərkəzidir. Mərkəzdə eyni zamanda 100 qonağı qəbul edib yerləşdirmək imkanları mövcuddur. Aqroturizm həvəskarlarının mərkəzə səfərləri zamanı, onlar bağ sahələrini gəzir, mövsümlü təsərrüfat işlərinin müşahidə edir və öz istəkləri əsasında həmin işlərə qatılırlar. Turistlərin





təsərrüfatda, ən çox iştiraka həvəsli olduqları işlərdən biri məhsul yığımıdır. Onlar məhsul yığımında təsərrüfata köməklik göstərirlər və yaxud topladıqları məhsulu təsərrüfatdan güzəştli qiymətlə əldə edirlər (https://www.azernews.az/business/159690.html).

"Citrus Valley" aqroturizm mərkəzində xüsusi diqqət qastroturizm fəaliyyətinə də verilmişdi. Zəngin Lənkəran mətbəxinin ən ləziz təamları, mərkəzin peşəkar aşbazları tərəfindən qonaqlara təklif edilir və hətta bəzi təamların hazırlanmasına dair master-class təqdimatları keçirilir.



"Citrus Valley" təsərrüfatı, Lənkaran rayonu İstisu qəsəbəsinin fəal iş təminatçılarından biridir. Təsərrüfatda və aqroturizm mərkəzində 15-dan artıq qadın daimi işlə təmin olunmuşdur və mövsümlü işlərin səviyyəsindən aslı olaraq, xüsusəndə məhsul yığımı zamanı, təsərrüfata əlavə olraq 60

nəfər mövsümlü işçi cəlb edilir. Aqroturizm mərkəzi 2021-ci il ərzində 2000 yaxın turist qəbul etmişdir. Qeyd etmək zəruri olardı ki, “Citrus Valley” öz aqroturizm xidmətlərinin təbliğatını İnstagram (https://www.instagram.com/citrusvalley_lankaran/) və Fecabook (https://www.facebook.com/pages/Citrus%20Valley/108228884742678/) sosial şəbəkələri vasitəsi ilə aparır. Gələcək perspektivdə təsərrüfatın və aqroturizm mərkəzinin fəaliyyətini geniş işıqlandıran vebsaytın yaradılması da nəzərdə tutulmuşdur. “Citrus Valley” aqroturizm modeli işğaldan azad olunmuş Qarabağ və Şərgi Zəngəzur rayonlarında, turizm sahəsinin inkişaf etdirilməsində, uğurlu yerli təcrübə kimi geniş tətbiq oluna bilər.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan sonrakı bərpası, iri həcmli investisiyalar tələb edir. Həmin investisiyaların böyük hissəsini (90-95%), Azərbaycan Dövləti öz üzərinə götürmüş və həyata keçirdiyi infrastruktur, şəhər və kəndlərin yenidən tikilməsi hesabına, əhalinin öz doğma yurdlarına rahat qayıdışını təmin edəcəkdir. Özəl sektorun həmin rayonlarda inkişaf etdirilməsi, aqrar təsərrüfatların, yeni salınmış sənaye parkları daxilində özəl istehsal müəssisələrinin və turizm biznesinin inkişaf etdirilməsi ilə səciyyələnəcəkdir. Bundan əlavə dövlətin iqtisadi investsisyaları, mədən sənayesinin inkişafı və digər strateji baxımından perspektiv layihələrin icrasına yönələcəkdir. Özəl İnvestisyaların Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına cəlb edilməsi dövlətdən, təhlükəsizlik və münbit iqtisadi mühitin təmin edilməsini tələb edir. Turizm sahəsinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında inkişaf etdirilməsi, uğurlu beynəlxlaq və yerli təcrübələrin tətbiqini tələb edir və turistlərin cəlb olunmasında rəqabət qabiliyyətli satış strategiyasının həyata keçirilməsinə əsaslanacaqdır. Peşakar menecerlərin turizm mərkəzlərinin idarəedilməsinə cəlb edilməsi və kadr hazırlğı, Özəl Sektorun qarşısında duran və bütün zamanlarda həlli aktual olan problemlərdən biridir. Deyilənləri nəzərə alaraq, aşağıda qeyd olunan təklifləri maraqlı tərflər üçün tövsiyyə olunur:

- Dağlıq bölgələrdə (Kəlbəcər, Laçın, Şuşa və s.) ilkin mərhələdə ənənəvi (tarixi) turizm mərkəzləri bərpa olunmalı və sahibkarlara dövlət tərəfindən müəyyən müddət üçün vergi güzəştləri təqdim olunmalıdır;

- Turizm biznesinin inkişaf etdirilməsi uğulu beynəlxalq və yerli təcrübələrə əsalanmalıdır, hansılar ki, təkmil idarəetmə modellərinin tədqiqini nəzərdə tutur;
- İşğaldan azad olunmuş ərazilərdə, turizm sahəsi üzrə investisya qoyuluşlarında üstünlük, bu sahə üzrə təcrübəsi olan Azərbaycan və Türkiyyə sahibkarlarına verilməlidir;
- Turistlərin cəlb edilməsində sahibkarlar xarici turistlərlə yanaşı, yerli turistləri də cəlb etməkdə maraqlı olmalı və bunun üçün qonşu dövlətlərin istrahət mərkəzləri ilə müqaisədə daha əlverişli qiymət təkliflərini bazarda təqdim etməlidirlər;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında inşa edilmiş turzm mərkəzləri Azərbaycanın bütün bölgələrində fəaliyyət göstərən turizm agentlikləri ilə səmərəli əməkdaşlıq qurmalı və dövrü olaraq “Hot” turlar təşkil etməlidirlər;
- Turizm mərkəzləri haqqında informasiya təminatı, sosial şəbəkələr və turizm məkanının ayrıca vebsayt vasitəsi ilə həyata keçirilməlidir, o cümldən də, turizm byurosunun akredtasiyandan keçmiş və “ulduz” almış otellər öz xidmətlərini www.booking.com və ya digər bu kimi məşur turizm vebsaytlarında, təklif etməlidirlər.
- Turizm sahəsində peşakar menecerlərin işə cəlb edilməsi və kadr hazırlığı məsələləri, turizm məkanlarının inşası ilə paralel, sahibkar tərəfindən həll edilməlidir.
- Aqroturizm mərkəzlərinin inkişafında prioritet dağ ətəyi bölgələrə verilməlidir (Ağdam, Fizuli, Cəbrayıl, Qubadlı və Zəngilan) və həmin mərkəzlərdə qastroturizmin inkişafı yerli mətbəxin xüsusiyyətlərini nəzərə alınmaqla təmin edilməlidir.
- Dövlət, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında istifadəyə veriləcək bütün hava limanlarında, beynəlxlaq sərnişin daşınma xidmətlərini, əlverişli qiymətlər əsasında həyata keçirilməsinə nəzarət etməlidir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm biznesini aid növbəti elmi tədqiqatlar mikroiqtisadi səviyyədə aparılmalıdır və Azərbaycanda turizm sahəsi üzrə həyata keçirilmiş konkret investsiya layihəsinin real göstəricilərini

əhatə etməlidir. Analiz, PP - investsisyanın geriya ödəmə müddəti, SRR - investsisyaların gəlirlik dərəcəsi, NPV - xalsi cari dəyər və İRR - daxili gəlilrlilik əmsalı, investsiya təhlil metodları əsasında aparılmalıdı. Nəticələr xaricdə həyata keçirilmiş oxşar layihənin eyni göstəriciləri ilə müqaisə olunmalı və investsisya qərarlarının verilməsinə, iqtisadi əsaslandırma kimi xidmət eləmələdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Bayramov V., (2017). “Turizm sektorunun inkişaf perspektivləri”, Bakı, “CESD Tədqiqat qrupu” - 26 səh
2. Romeo R., Russo, L., Parisi F., Notarianni M., Manuelli S. and Carvao S.,(2021). “Mountain tourism – Towards a more sustainable path”. Roma, “FAO” səh.49
3. https://azertag.az
4. https://www.myswitzerland.com
5. https://www.locationscout.net/italy/20922-castelmezzano-with-drone
6. https://sightlytravel.com/az/246171-resorts-gudauri-and-bakuriani-are-waiting-for- conversion/
7. https://www.azerbaijan-news.az/view-160782/qalaalti-kurortu-duneni-bugunu-ve-geleceyi
8. https://www.instagram.com/citrusvalley_lankaran/https://www.facebook.com/pages/Citrus%20Valley/108228884742678/
9. http://ikisahil.com/post/179963-kelbecer-zengin-tebii-resurslar-ve-turizm-potensiali
10. https://www.azernews.az/business/159690.html

# QARABAĞDA TURİZMİN DAYANIQLI İNKİŞAFINDA KOB-LARIN FƏALİYYƏTİNİN QURULMASI: (EKO-OTELLƏRİN YARADILMASI KONTEKSTİNDƏ)

**İsmayılova Pərvanə**
*UNEC KOB Tədqiqat və İnkişaf Mərkəzi*

**i.ü.f.d. Vəliyev Cəbrayıl**
*UNEC KOB Tədqiqat və İnkişaf Mərkəzi*

## Xülasə

Bu gün varlığını uzun müddət qorumaq istəyən müəssisələr davamlılıq meyarlarını yerinə yetirməlidirlər. Müəssisələrin material seçimindən tutmuş tikinti mərhələsinə və biznes fəaliyyətinin yerinə yetirilməsinə qədər bütün proseslərdə davamlılıq meyarları nəzərə alınmalıdır. Turizm sektorunda davamlılıq meyarlarının yerinə yetirilməsində eko-otellər mühüm yer tutur. İşğaldan azad olunmuş Azərbaycan torpaqlarında sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün münbit iqtisadi mühitin formalaşdırılması, ərazinin inkişafı üçün labüd amillərdəndir. Bacasız sənaye adlandırılan turizmin resurslarla zəngin olan Qarabağ bölgəsində canlandırılması üçün mümkün olan sahə və istiqamətlərdən biri də eko-otellərdir. Regionun iqtisadi inkişafına töhfə verəcək, turist axınını təmin edəcək, regionun iqtisadiyyatının şaxələnməsinə stimul verəcək bu sahibkarlıq fəaliyyətinin qurulması dövlətin də marağındadır. 2017-ci ildən bəri əhəmiyyəti artmaqda davam edən KOB subyektlərinin iqtisadi inkişafda, məşğulluqda, ÜDM-da payı da artmaqdadır. Əsasən də 2020-2021-ci illərdə “ölü sektor” halına gələn turizm, onun təbii, ekoloji növü olan eko-otellər işğaldan azad olunmuş ərazilərdə qurularsa, bu ərazidə yaxın gələcəkdə turizm bumunun yaşanması proqnozunu vermək olar. Məqalə Qarabağın resurslarından səmərəli istifadə etmək üçün ərazidə KOB subyektlərinin fəaliyyətə başlamasının stimullaşdırılması və mövcud potensialın dünyanın əhəmiyyətli istehlakçı seqmentini əhatə edən eko-otellərin qurulmasından bəhs edir.

***Açar sözlər:*** *Qarabağ iqtisadi rayonu, turizm, dayanıqlı turizm, eko-otel, KOB, sahibkarlıq*

## Qarabağ iqtisadi rayonu

2020-ci ildə baş vermiş və Azərbaycan üçün qalibiyyətlə nəticələnmiş 44 günlük müharibə Azərbaycan dövləti və cəmiyyəti üçün yeni səhifənin açılması demək idi. Müharibənin acı həqiqətləri və nəticələri ilə birlikdə sevindirici hal ondan ibarətdir ki, bol resurslarla zəngin, davamlı və dayanıqlı iqtisadi inkişaf potensialı olan əzəli Azərbaycan torpaqları düşmən işğalından azad olundu, torpaq üstündə can verən, şəhid olan həmvətənlərimizin qanı yerdə qalmadı, məcburi köçkünlərin illərdir yaşadığı həsrət sona çatdı. Bütün bunların yekununda Azərbaycan iqtisadi, siyasi, sosial tarixi yeni mərhələyə qədəm qoydu. Düşünürəm ki, Azərbaycan iqtisadiyyatı, siyasəti dedikdə bundan sonrakı dövrdə bölünəcək mərhələlər özündə işğaldan əvvəl, işğal müddəti və işğaldan azad olunma dövrü ilə təsnifləşdiriləcək. Hər dövrün özünməxsus iqtisadi inkişafı, siyasi vəziyyəti, beynəlxalq münasibətləri, sosial inkişafı fərqləndirilərək tədqiq ediləcək. Növbəti illərdə investisiya xərclərində bu istiqamətdə xərclərin planlaşdırılması və işğaldan azad olunmuş ərazilərdə dövlət-özəl sektor əməkdaşlığı və investisiyaların cəlb olunması ilə bağlı yeni alətlərin tətbiq olunması qeyd olunan inkişafa öz töhvəsini vermiş olacaq (https://meclis.gov.az/documents/24.12.2020.pdf).

1991-2021-ci illərdə Azərbaycan 10 iqtisadi rayon üzrə bölgünü həyata keçirmişdisə, 2021-ci ildə Prezident İlham Əliyev "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmana əsasən Azərbaycan rayonları 14 iqtisadi rayonda təsnifləşdirilmişdir https://marja.az/73384/yeni-iqtisadi-rayonlar-yaradildi-ferman (Cədvəl 1.). Cədvəl 1-ə əsasən bəzi iqtisadi rayonlar məsələn, Abşeron iqtisadi rayonu Bakı və Abşeron-Xızı iqtisadi rayonlarına bölünmüşdür. 2021-ci ildə iqtisadi rayonlar arasındakı bu təsnifat iqtisadi inkişaf tempinə, sosial statusuna, əhalinin məşğulluğuna görə bölgü aparılmaqla rayonların bir iqtisadi rayon adı altına birləşməsini nəzərdə tutmuşdur. Cədvəl 1. bu dəyişikliyin əyani şəkildə göstərilməsi məqsədilə tərtib olunmuşdur.

**Cədvəl 1: İqtisadi rayonların təsnifatı**

| № | 1991-2021-ci illərdə iqtisadi rayonlar | 2021-ci ildən bəri iqtisadi rayonlar |
|---|---|---|
| 1 | | Bakı (Bakı şəhəri) |
| 2 | Abşeron | **Abşeron-Xızı iqtisadi rayonu** (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları) |

| | | |
|---|---|---|
| 3 | Naxçıvan | Naxçıvan (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları) |
| 4 | Dağlıq Şirvan | Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları) |
| 5 | | **Şirvan-Salyan iqtisadi rayonu** (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları) |
| 6 | Gəncə-Qazax | **Gəncə-Daşkəsən iqtisadi rayonu** (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları) |
| 7 | | **Qazax-Tovuz iqtisadi rayonu** (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları) |
| 8 | Yuxarı-Qarabağ | **Qarabağ iqtisadi rayonu** (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) |
| 9 | Kəlbəcər-Laçın | **Şərqi Zəngəzur iqtisadi rayonu** (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) |
| 10 | Quba-Xaçmaz | Quba-Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları) |
| 11 | Lənkəran | Lənkəran-Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları) |
| 12 | Aran | Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları) |
| 13 | | **Mil-Muğan iqtisadi rayon**u (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları) |
| 14 | Şəki-Zaqatala | Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları) |

**Mənbə:** 2021-ci il Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanına əsasən müəllif tərəfindən hazırlanmışdır.

## Davamlı və dayanıqlı turizm

Turizmin iqtisadiyyata, cəmiyyətə, mədəniyyətə, ətraf mühitə müsbət və mənfi tərəfləri vardır ki, qeyd olunanlar arasında müsbət amillərin sayının artması sənayesinin “ağıllı” idarəetməsi sahəsində mümkündür.

1970-1990-cı illərdən sonra davamlı inkişafın tərifinin verilməsi və ətraf mühitlə bağlı qlobal məlumatlılığın artması nəticəsində ətraf mühitin mühafizəsindən qat-qat daha əhatəli bir anlayış olan davamlı turizm ekoturizm, yaşıl turizm və yumşaq turizm anlayışı kimi məşhur anlayışlara əlavə edilmişdir (Ertuğrul, 2018 s.34). Davamlı turizmin qlobal miqyasda inkişaf tarixləri illəri ilə birlikdə əsas hədəf və məzmun göstərilməklə Cədvəl 2.də qeyd olunmuşdur.

**Cədvəl 2: Qlobal miqyasda davamlılıq konsepsiyasının inkişafı**

| Qlobal miqyasda inkişaf | Tarix | Məzmunu |
|---|---|---|
| Birləşmiş Millətlər Stokholm konfransı | 1972 | Ətraf mühitin mühafizəsi və inkişafı, davamlılıq şüuru |
| Bruntland hesabatı | 1987 | Davamlılıq və dayanıqlı inkişaf |
| Rio BMT-nin ətraf mühit və inkişaf konfransı | 1992 | Gündəlik 21 Fəaliyyət Planı Beynəlxalq əməkdaşlıq |
| Rio+10 Dünya Ətraf Mühitin İnkişafı Sammiti | 2002 | 10 illik balans hesabatı və milli davamlı inkişaf strategiyalarının yaradılması |
| Rio+20 Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Konfransı | 2012 | Yaşıl artım və qlobal miqyasdan yerli miqyasda davamlı inkişaf şüurunun yaradılması |

**Mənbə:** Ertuğrul, 2018, s.8

Dünyanın ən böyük sənaye sahələrindən biri kimi turizm planetə əhəmiyyətli sosial və ekoloji təsir göstərir. Turizm sənayesi bərpa olunmayan resursların mühüm istifadəçisidir. Turizmin davamlı inkişafı üçün zəruri ilkin şərtlər müəyyən edildikdə, onların davamlı inkişaf prinsipləri ilə üst-üstə düşdüyü görünür (Ceylan, 2001). İnkişafda və ya regional inkişafda mühüm bir alt sektor olaraq təyin etdiyimiz turizm, ətraf mühit və təbii ehtiyatlarla sıx əlaqəsi sayəsində inkişaf və ətraf mühit arasındakı əlaqəni harmoniyaya çevirmək ehtiyacını ortaya qoyur. Bu nöqtədə ətraf mühiti, iqtisadiyyatı və turizmi artan əhəmiyyəti ilə bir-birinin parçaları kimi görmək, ətraf mühitin keyfiyyətini qorumaq və inkişafı bərabərləşdirmək kimi əsas məqsədləri ehtiva edən davamlı turizm anlayışı ortaya çıxır (Beyhan və Ünügür 2005).

Davamlı turizmin prinsipləri 1988-ci ildə Ümumdünya Turizm Təşkilatı (UNWTO) tərəfindən müəyyən edilmişdir. O, mədəni bütövlüyü, əsas ekoloji prosesləri, biomüxtəlifliyi və həyatı təmin edən sistemləri qoruyarkən iqtisadi, sosial və estetik ehtiyacları qarşılamağa qadirdir.

Turizm fəaliyyətinin özünəməxsusluğu, xidmətin keyfiyyəti, turistlərin sayının artmasının ekoloji fəsadları və təbii və mədəni sərvətlərdən daha çox insan tərəfindən istifadə edilməsi, problemlərin həlli üçün tədbirlər və siyasətin strukturu ciddi diqqət tələb edən məsələlərdir (Erdoğan, 2003).

Artan ekoloji problemlərə həll yolu kimi irəli sürülən davamlılıq və davamlı inkişaf konsepsiyaları ətraf mühitə vurulan zərərin minimuma endirilməsinə yönəlmiş təcrübələri önə çəkir. Ciddi enerji istehlakçısı olan turizm sektorunda təmiz və bərpa olunan enerji resurslarından istifadənin artırılması davamlı

inkişafa və dayanıqlı turizm hədəflərinə nail olmağa imkan verəcək (Lim ve McAleer, 2005). Turizmin davamlı olması üçün daşıma qabiliyyətini və ekosistemləri idarə edə biləcəkləri həddə idarə etmək, biomüxtəlifliyi qorumaq lazımdır.

Bu gün bir çox otellər turizm və ətraf mühit arasındakı əlaqənin yaratdığı problemlər səbəbindən ətraf mühitə vurduqları zərəri minimuma endirmək və turizmdən daha çox pay almaq üçün ekoloji cəhətdən təmiz təcrübələrə keçməli olmuşdur (Manaktola və Jauhari, 2007; Dief and Font, 2010). "Ətraf mühitə həssas" fəaliyyət göstərən təşkilatların təsiri və "ekoloji cəhətdən təmiz" anlayışına getdikcə daha çox əhəmiyyət verilməsi ilə eko otellərə üstünlük verən məsuliyyətli turistlərin sayında artım müşahidə olunur. Araşdırmalar göstərir ki, gündəlik həyatlarında ekoloji cəhətdən təmiz davranışlara müsbət münasibət bəsləyən istehlakçılar, yaşayış müəssisələrinin ekoloji cəhətdən təmiz idarə olunmasını da alqışlayırlar. Bu kontekstdə istehlakçıların ekoloji mehmanxanalardan xidmət almağa meyli yüksək olacaq, onlar bu cür otelləri başqalarına tövsiyə edə bilərlər və bunun üçün daha çox xərclədikləri müəyyən edilmişdir (Han et al., 2011). Bu vəziyyət ekoloji otellərin əhəmiyyətini günü-gündən artırır.

## Səyahət və Turizmin İnkişafı İndeksi və Azərbaycanın mövqeyi

***Səyahət və Turizmin İnkişafı İndeksi-*** Dünya İqtisadi Forumu tərəfindən "Səyahət və Turizmin İnkişafı İndeksi 2021- Davamlı və Güclü Gələcək üçün Yenidən Qurulması" hesabatı çox yeni tarixdə, 2022-ci ilin may ayında yayınlanmışdır. İndeks Dünya İqtisadi Forumu tərəfindən 2019-cu ildə "Səyahət və Turizm Rəqabətqabiliyyətlilik İndeksi" kimi yayınlanmış olsa da bu il "Səyahət və Turizmin İnkişafı İndeksi" kimi dəyişmişdir. Bu indeks, 5 subindeks, 17 göstərici və 113 alt göstəricilərdən ibarət çərçivədə səyahət və turizm üzrə dünyanın, ayrı-ayrı regionların və ayrılıqda ölkələrin mövqeyini əks etdirir. Subindekslər olaraq 1) Mühit təmini, 2) Səyahət və Turizm siyasəti, Şərtlərin təmini, 3) İnfrastruktur, 4) Səyahət və Turizmə tələbin əsas drayverləri və 5) Səyahət və Turizm dayanıqlılığıdır. Səyahət və turizmin inkişafı, dayanıqlılığı və davamlılığı prinsipi əsas tutulan bu hesabatda əksər alt göstəricilərdə davamlı və dayanıqlı turizmə nail olmaq üçün inkişaf etdirilməsi vacib istiqamətlər yer almaqdadır. Xüsusilə tədqiqatımızın mövzusu nöqteyi nəzərindən yanaşsaq, Səyahət və Turizmə tələbin əsas

drayverləri subindeksində yer alan göstəricilərdən Təbii resurslar, Mədəni resurslar və Qeyri-əyləncə resurları, İnfrastruktur subindeksində yer alan Turist xidmətləri infrastrukturu, Səyahət və Turizm dayanıqlılığı subindeksdə yer alan ətraf mühitin davamlılığı, Mühit təmini subindeksində yer alan Biznes mühiti, Təhlükəsizlik və Mühafizə, Sağlamlıq və Hijyen, Səyahət və Turizm siyasəti və Şərtlərin təmini subindeksdə yer alan Səyahət və turizmin prioritetləşdirilməsi, Beynəlxalq açıqlıq və digər göstəricilər üzrə Qarabağ və Şərqi Zəngəzurda, həm də ümumi olaraq ölkədə proaktiv fəaliyyətlərin və effektiv tədbirlərin həyata keçirilməsi ölkəmizdə turizmin gələcək inkişafı istiqamətində vacib siyasətlərdən olmalıdır.

Ölkəmizin son yayınlanan hesabatda mövqeyi 63-cü sıradadır. Hesabatda ümumi göstəricilər üzrə hesablanan ən yüksək qiymətin 7 bal olduğunu nəzərə aldıqda "4" bala malik ölkəmizin bu mövqeyini qənaətbəxş mövqe kimi qiymətləndirmək mümkündür (https://www3.weforum.org/docs/WEF_Travel_Tourism_Development_2021.pdf). Ancaq Qarabağ və Şərqi Zəngəzurun turizm potensialının düzgün dəyərləndirilməsi və məqsədli istifadəsi bu indeksdə ölkəmizin daha yüksək mövqeyə yerləşməsi imkanı yaradacaqdır.

## Destinasiya cəlbediciliyi və Qarabağ turizm destinasiyası

Destinasiya cəlbediciliyi (Destination attractiveness), bir şəxsin fərdi tətil ehtiyacının təmin edilməsi zamanı destinasiya ilə bağlı hisslərini, inanclarını və görüşlərini formalaşdıran faktorların bütünüdür. Bu faktorlar turizmin rəqabətqabiliyyətliliyi faktorları ilə həmahəngdir. Yuxarıda "Səyahət və Turizm İnkişafı İndeksi"ndə yer alan subindeks və göstəricilər destinasiya cəlb ediciliyi faktorları kimi dqəbul edilə bilər. Destinasiya cəlbediciliyində məqsəd: 1) turistləri destinasiyalara cəlb edən faktorların, 2) tələb və təklifi formalaşdıran faktorların və 3) turistlərin qərarvermə prosesinə təsir edən faktorların dərindən öyrənilməsi ilə turizm siyasət və fəaliyyətlərinin daha məqsədyönlü və effektiv həyata keçirilməsidir. Destinasiya cəlbediciliyi faktorlarını eyni zamanda xüsusiyyətlərinə görə aşağıdakı cədvəldəki kimi qruplaşdırmaq mümkündür:

## Cədvəl 3: Destinasiya (turizm) cəlbediciliyi faktorlarının klassifikasiyası

| | |
|---|---|
| **A. Təbii faktorlar** | |
| **A1-**Təbiətin gözəllikləri | Ərazinin ümumi coğrafi xüsusiyyətləri: dağlar, ovalıq, düzənliklər, meşə və bitki örtüyü, çaylar, göllər, ziyarət ediləcək təbiət möcüzələri, isti su qaynaqları, şəlalələr və s. |
| **A2-**İqlim | İl ərzində günəşli günlərin miqdarı, turizm üçün əlverişli hava şərtləri, dağ turizmi üçün uyğunluq, yay və qış turizmi imkanları, yağışlı günlərin uzunluğu, yağıntı miqdarı və s. |
| **B. Sosial faktorlar** | |
| **B1**- Memarlıq xüsusiyyətləri | Bölgənin və şəhərlərin özünəxas memarlıq xüsusiyyətləri, tətil yeri seçimində memarlıq xüsusiyyətlərinin təsiri, fərqli memarlıqların yaratdığı fərqli yaşayış şəkilləri |
| **B2**-Festivallar | Musiqi festivalları, Müxtəlif oyunlar festivalları və idman müsabiqələri, Bölgəyə aid xüsusi festivallar |
| **B3**-Bölgənin xüsusiyyətləri | Bölgənin folklor xüsusiyyətləri, rəqs, bölgəyə xas yeməklər, əl işləri və sənətkarlıq nümunələri, bölgə xalqının yaşayış şəkli, adət-ənənələri |
| **B4**-Xalqın turistlərə qarşı davranışı | Bölgə xalqının turistlərlə maraqlanma dərəcəsi, qarşılıqlı ünsiyyət və əlaqələr |
| **C-Tarixi dəyərlər** | |
| **C1-**Önəmli xarabalıqlar | Antiq dövr qalıqları, müharibə nəticəsində yaranan xarabalıqlar, funksiyasını itirmiş əsərlər, qalalar |
| **C2-**Dini xüsusiyyəti olan əsərlər | Köhnə məscid və kilsələr, sitayiş yerləri və s. |
| **C3-** Tarixi əhəmiyyəti olan əsərlər | Müxtəlif dövrlərin tarixini əks etdirən və öz funksiyasını itirməmiş və ya fərqli məqsədlər üçün istifadə edilə biləcək əsərlər |
| **D- Reakrasiya və alış-veriş imkanları** | |
| **D1**- İdman turizmi fəaliyyətləri | Dağçılıq, ovçuluq, balıqçılıq, atçılıq yarışları, üzmə, yelkəncilik |
| **D2-** Mədəni turizm fəaliyyətləri | Arxeoloji və etnoqrafi muzeyləri, milli parklar, teatrlar, sərgi yerləri, zooparklar və s. |
| **D3-**Sağlamlıq və istirahət imkanları | Eko otellər, SPA-lar, bulaqlar və piknik məkanları |
| **D4-** Gecə reakrasiyası | Gecə əyləncə yerləri |
| **D5-** Alış-veriş imkanları | Xatirə və hədiyyəlik əşya satan mağazaların olması, bölgəyə xas əl işlərinin satışı məkanları, avtomobil təmiri və yanacaqdoldurma məntəqələri, böyük ticarət məkanları və müxtəlif təyinatlı mağazalar |
| **E-İnfrastruktur** | |
| **E1-** Turizmin inkişafına və turustlərə imkan yaradacaq infrastruktur | Nəqliyyat, hava, qatar və avtomobil yolları, əsas yollar boyu müxtəlif xidmət məntəqələri, su, elektrik, təbii qazdan istifadə imkanları, tətil bölgələrinə asan çatmaq imkanı |

| | |
|---|---|
| **E2-** Qidalanma və qonaqlama imkanları | Müxtəlif xüsusiyyətdə və seqmentdə otellərin (otel, eko-otel, motel, hostel) mövcudluğu, tətil kəndləri, bungalo və koteclərin mövcudluğu, müxtəlif restoranların, xüsusilə bölgəyə xas milli yeməklərin təklif edildiyi restoranların mövcudluğu və s. |

**Mənbə:** Kutvan A. B. və Kutvan A. Ş. *“Turizm planlamasında destinasyon çekiciliğinin ölçümü: bir yöntem yaklaşımı”* məqaləsi istifadə edilərək müəlliflər tərəfindən hazırlanmışdır. https://dergipark.org.tr/tr/download/article-file/201963

Yuxarıdakı cədvəldə qeyd olunan müxtəlif destinasiya cəlbediciliyi faktorlarının Qarabağda mövcudluğu və Qarabağ turizm destinasiyası ilə əlaqədar əsas xüsusiyyətləri ümumi şəkildə təhlil edə bilərik. 30 ilə yaxın işğal altında qalan torpaqların resurs zənginliyi bütün dünyaya məlumdur. Dünyada yeganə rəqibi Çexiyadakı Karlovi-Varl olan Kəlbəcərdə İstisu bulağı başda olmaqla, münbit torpaqları, flora və faunası, təbiəti, rekresasiya ehtiyatları, dağıdılmış vəziyyətdə olsa da tarixi abidələri, zəngin mədəni irs, şərabçılıq ilə işğaldan azad olunmuş torpaqlar real və mümkün turizm potensialıdır. Bu potensialdan səmərəli istifadə etmək regionun davamlı və dayanıqlı inkişafı üçün edilməli olan əsas şərtlərdən biridir. Qarabağda müxtəlif turizm növlərini – rekreasiya turizmi, müalicə-sağlamlıq turizmi, dərketmə turizmi, dağ turizmi, qış turizmi, qara turizmi, ekoloji turizmi inkişaf etdirmək üçün potensial vardır. Bunun üçün zamana ehtiyac olduğunu, yalnızca resurslardan səmərəli və ağıllı istifadə etməklə davamlı və dayanıqlı inkişafa nail olmağın mümkün olduğunu bilirik.

Qarabağın Kiçik Qafqaz dağlarında yerləşməsi, xüsusi potensial coğrafi mövqeyə sahib olması turizm potensialının əhəmiyyətli dərəcədə inkişaf etdirilməsinə təkan ola bilər. Əslində Qarabağ regionunun turizm potensialından əldə olunan gəlir ümumi ölkənin turizm potensialından əldə olunan gəlirdən çox ola bilər. Bunun üçün tarixi yerlərin, eləcə də regionun təbiəti və ekoloji potensialı bərpa olunmalı, beynəlxalq turizm təşkilatlarının müəyyənləşdirdiyi hədəflər tətbiq olunaraq modern turizm şəraiti formalaşdırılmalıdır (Sadıqov E. səh.17).

Destinasiya müxtəlif turizm dəyərlərinə və xüsusiyyətlərinə malik və turistin səyahəti müddətində ehtiyac olan turizm məhsullarının cəmini və ya bir qismini təklif edən coğrafi məkandır. Dünyada bir çox məşhur turizm destinasiyaları vardır ki, bunlar həm tarix, coğrafiya, həm qonaqpərvərlik və əyləncə sənayesinin mövcudluğu ilə yüksək tempdə turistləri qəbul etmək potensialındadır.

**Şəkil 1: Destinasiyanın dayanıqlığının ölçü meyarları**




**Mənbə:** B.Himmetoğlu, 2021, s.115

Qarabağ 2020-ci ilə qədər siyasi destinasiya idi. Ərazinin qaynar zona olması, münaqişələrin qızğın olması, daim təhlükə kimi amillərlə Qarabağ siyasi destinasiya kimi dünya ictimaiyyətində tanınırdı. Bugün isə müharibənin bitməsi, Qarabağda quruculuq işlərinin aparılması, yol infrastrukturunun qurulması, KOB subyektlərinin Qarabağda sahibkarlıq fəaliyyəti qurmaları üçün təşviqat və təbliğat işlərinin aparılması nəticəsində, həmçinin mövcud turizm potensialına görə Qarabağ turizm destinasiyasına çevrilə bilər. Bunun üçün ilk öncə ərazidə turistə zəruri olan əsas (zəruri) və əlavə (izafi) xidmətlərin təklif olunması üçün turizm müəssisələrinin yaradılması vacibdir. Ən vacibi isə yerləşdirmə müəssisələridir. Dərəcəsindən asılı olmayaraq ərazidə yerləşdirmə müəssisələrinin olması əraziyə gələn turistlərin həmin yerdə 24 saatdan daha çox qalmasına şərait yaradar, həmçinin regionda daha çox xərcləməklə region iqtisadiyyatında canlanma yarada bilər.

Qeyd olunan yerləşdirmə müəssisələrindən Qarabağın potensialına əsasən qurulması mümkün olan və dünya bazarında xeyli tələbat olan eko-otellərin qurulması Qarabağa olan marağı daha da artırar.

Qarabağa mümkün ola biləcək turizm səyahətlərinin səbəbləri:

- İllərdir münaqişə bölgəsi olan ərazini görmək marağı
- Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşanı və xarı bülbülü görmək marağı
- Qara turizm məqsədilə səfərlər

- Etnik turizm məqsədilə səfərlər
- Təbiətdə dincəlmək məqsədilə səfərlər
- Müalicə-sağlamlıq məqsədli səyahət

İşğaldan azad olunduqdan sonra Qarabağda yol infrastrukturunun qurulması, Kəlbəcər və Füzulidə müasir Beynəlxalq Hava Limanlarının inşası, əhalinin Qarabağa böyük qayıdışının təmin olunması sonrakı mərhələlərdə iş prosesini asanlaşdıra bilər.

## İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq subyektlərinin qurulması

Qarabağ regionunun yenidənqurulması, eləcə də biznes potensialının reallaşdırılması istiqamətində aparılan işlərə özəl sektorun cəlb edilməsi əhəmiyyətlidir. Özəl sektorun prosesdə iştirakı dövlət investisiya xərclərinin azaldılması, habelə alternativ və şaxələndirilmiş maliyyələşmə mexanizmləri vasitəsilə yerli və xarici sərmayələrin cəlb edilməsi baxımından faydalı ola bilər. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə həyata keçiriləcək bərpa və yenidənqurma işlərində özəl sektorun innovativ texnoloji yanaşmasının və effektiv idarəetmə təcrübəsinin tətbiqi, həyata keçiriləcək iş və xidmətlərin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsinə imkan verəcəkdir https://smb.gov.az/az/all-news/isgaldan-azad-edilmis-erazilerin-berpasi-ve-yenidenqurulmasi-prosesinde-is-adamlarinin-istirakina-dair-muzakireler-aparilib.

**Cədvəl 4: Qarabağda fəaliyyətdə olan KOB-ların sayı**

| | 2019 | | 2020 | |
|---|---|---|---|---|
| | Kiçik | Orta | Kiçik | Orta |
| Ölkə üzrə fəaliyyətdə olan KOBların sayı | 5956 | 2726 | 5943 | 2710 |
| Qarabağ iqtisadi regionunda fəaliyyətdə olan KOBların sayı | 133 | 56 | 114 | 51 |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/

2019-2020-ci illərdə Qarabağda KOB-ların sayının az olması, ÜDM-da payının az olması mümkün və olması lazım olan rəqəmlərdir. Gələcəyə baxışı düzgün quraraq 2021-ci il və ondan sonrakı dövr üçün KOB-ların ərazidə sahibkarlıq fəaliyyəti qurmaları üçün təşviq etmək əsas məqsədlərdəndir. Cədvəl 4.ə əsasən 2019-cu illə müqayisədə 2020-ci ildə fəaliyyətdə olan

KOBların sayı azalmışdır ki, buna da səbəb 44 günlük "Qarabağ müharibəsi"nin iqtisadiyyata və sahibkarlıq subyektlərinə zərər vurması kimi izah olunur. 2021 və ondan sonrakı dövrdə regionda KOB subyektlərinin sayının artması, həmçinin Bərdədə mərkəzləşmənin digər rayonlara bərabər bölgüsü ilə əvəzlənməsi gözləniləndir. Bu dövlətin ölkə və beynəlxalq bazarda təbliğat işləri, sahibkarların stimullaşdırılması tədbirlərinin olması, ölkəyə investisiya axınının intensivləşməsi nəticəsində mümkün ola bilər.

Yeni yaradılmış sahibkarlıq subyektlərindən turistllərin yerləşdirilməsi və ictimai-iaşə üzrə KOB-ların sayı 2019-cu ildə 72, 2020-ci ildə 82 sayda olmuş, onlardan 16-cı Ağcabədi, 8-i Ağdam, 26-sı Bərdə, 11-i Füzuli, 11-i Tərtər rayonlarında fəaliyyət göstərir. Reallıq odur ki, yeni yaradılmış və ya fəaliyyətdə olan sahibkarlıq subyektləri içərisində mikrosahibkarlar üstünlük təşkil edir. Belə ki, 2019-cu ildə turizm sahəsində fəaliyyət göstərən 1 kiçik biznes subyekti yeni fəaliyyətə başlamış, 2020-ci ildə isə heç bir yeni kiçik və ya orta biznes qurulmamışdır. 2020-ci ili Covid-19 pandemiyası və II Qarabağ müharibəsi ilə əlaqələndirə bilərik. Ümumi təhlil etsək, mikrosahibkarlıq subyektləri məşğulluqda elə də əhəmiyyətli rol oynamır.

**Şəkil 2: Qarabağda turizm insfrastrukturunun qurulması zamanı faydalananlar qrupu**




**Mənbə:** Məqalənin yazılmasında istifadə olunan ədəbiyyatlardan qeydlər götürülərək, müəllif tərəfindən hazırlanmışdır.

Qarabağda turizmin inkişafı bir çox sahələrin də inkişafını özü ilə bərabər gətirir. Bura tikinti, qida sənayesi, yüngül sənaye, kənd təsərrüfatı və digər sənaye sahələrini misal göstərmək olar. Bunlardan başqa Qarabağda turizmin inkişafından faydalanacaqlar qrupu Şəkil 2.də göstərilmişdir. Şəkil 2.ə əsasən dövlət-özəl sektor-ictimaiyyət əməkdaşlığı Qarabağ turizminin inkişafı üçün hər tərəfin maraqlarının təmin olunması və regionda turizm xidmətlərinin intensivləşməsinin əhəmiyyətini görmək mümkündür.

2021-ci ildə işğaldan azad edilmiş ərazilərdə layihələr həyata keçirməkdə maraqlı olan yerli və xarici investorlardan KOBİA-ya təxminən 220-yə yaxın müraciət daxil olub. Bu müraciətlərin təxminən 50%-i Türk Şurasına üzv olan və müşahidəçi qismində iştirak edən ölkələrdən daxil olub. Bunlar arasında çoxluğu türk investorlar təşkil edir (https://www.smb.gov.az/az/all-news/qarabaga-investisiya-yatirmaq-ucun-muraciet-etmis-sermayedarlarin-50-e-yaxini-turk-surasina-uzv-olkelerin-investorlaridir).

İnvestisiya layihələri ixracyönümlü və idxalı əvəz edən, yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsalını nəzərdə tutmaqla, qeyri-neft sektorunun prioritet istiqamətlərini əhatə etməli, yeni müəssisələrin yaradılmasını və ya innovativ alətlərin tətbiqi ilə mövcud müəssisələrin və bizneslərin yenidən qurulmasını təmin etməlidir (https://smb.gov.az/az/all-news/investorlara-teqdim-etmek-ucun-kob-subyektlerinden-investisiya-layiheleri-qebul-olunur).

Qarabağın iqtisadi və sosial inkişafı üçün sadə bir yol xəritəsi hazırlamalı olsaq mərhələlərə bölməklə işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, elektrik enerjisinin təminatı, kritik yol xətlərinin bərpası, içməli su, sanitar qovşaqlarının və irriqasiya sistemlərinin bərpası, ev və ya mənzil yaşayış sahələrinin bərpası və təminatı, humanitar yardım məqsədləri üçün hava limanının bərpası kimi işlər ilk mərhələni əhatə etməklə 10 ilə yaxın bir dövrü əhatə edə bilər ki, sadalananlardan bir neçəsi artıq icra mərhələsindədir. İkinci mərhələ Qarabağda ən vacib, iqtisadi inkişafa daha çox töhvə verəcək sənaye sahələrinin inkişafı olacaq ki, bunlara kənd təsərrüfatı, turizm, şərabçılıq, xalçaçılıq və s. aiddir. Əlavə olaraq uzun müddətdə dayanıqlı iqtisadi inkişaf modeli yaradılmalı və sərmayə qoyuluşlarında davamlı gəlirlər əldə etmək üçün strateji sahələr seçilməlidir. Bu sahələrin inkişafı ərazidə iqtisadi gücə, iqtisadiyyatın şaxələnməsinə kömək olacaq (A.Satıcı, s.4)

Qarabağ regionunda ekoloji baxımdan daha əlverişli fəaliyyət sahələrinin inkişaf etdirilməsi strateji hədəflər kimi qarşıya qoyulmuşdur. Bu məqsədlə regiona "yaşıl iqtisadiyyat" parametrlərini tətbiq etməyə imkan verən yüksək texnologiyaların transferi tələb olunur. Klasterlər investisiyaların və texnoloji şirkətlərin maraqlarını özündə əks etdirən mexanizmlərə malikdirlər. Həmin məntiqdən yanaşsaq, belə fəaliyyət zonalarının və qurumlarının yaradılması hesabına postkonflikt vəziyyətdə regionun iqtisadi dirçəlişinin sürətləndirilməsində klasterlərdən məhsuldar istifadə etmək imkanları vardır. Qarabağın mineral ehtiyatlarından, turizm-rekreasiya potensialından, təbii və füsunkar gözəlliklərindən səmərəli olaraq bəhrələnməkdə klasterləşmə formaları fəaliyyət iştirakçılarının maraqlarına cavab verə bilər (Əliyev Ş., Musayeva S., s.58).

Sənaye sahələrində enerjidən istifadə olunması vacib şərtlərdəndir. Bütün fəaliyyətlərin əsasında məhz enerji dayanır. Enerji mənbələrindən səmərəli istifadə olunması ekoloji cəhətdən zəruridir. Son illərdə dünyada belə bir tendensiya yaranmışdır ki, ölkələr külək, dalğa, günəş, qabarma-çəkilmə və digər alternativ enerji mənbələrindən istifadəyə üstünlük verilməsinə çalışırlar. Çünki bu zaman neft, qaz, daş-kömür və s.-dən istifadə azalır, ölkədə enerjiyə qənaət edilmiş olur. Ümumiyyətlə, alternativ enerji mənbələrindən (AEM) sənayenin müxtəlif sahələrində istifadə olunmasının ölkənin enerji təhlükəsizliyi və elektrik enerjisinə olan tələbatının ödənilməsində böyük rolu vardır (Rəhimli E.s.93).

2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncam imzalamışdır (Rəhimli E.s.95). 2010-cu ildə Azərbaycanda Alternativ və bərpa olunan enerji mənbələri üzrə Dövlət Agentliyi yaradıldı.

Təhlillər göstərir ki, yanacaq enerjisindən asılılıq dövrü artıq başa çatmaq üzrədir və dünya energetikasının gələcəyi bərpa oluna bilən enerji resurslarındadır. 2030-cu ilə qədər elektrik enerjisi istehsalı gücündə bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması əsas hədəf kimi müəyyənləşdirilmişdir (Rəhimli, E.s.95).

Hidroenerji potensialı baxımından "Xudafərin", "Qız Qalası" su elektrik stansiyaları və "Tərtər" SES-i nümunə göstərmək olar. Həmçinin, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında günəş enerji potensialı, Qarabağın dağlıq

hissələri, əsasda Kəlbəcər və Laçın rayonlarında külək enerji potensialı, geotermal enerji resurslarımız isə Kəlbəcər və Şuşada geniş yayılıb (A.Satıcı s.6).

Artıq Qarabağda bərpa olunan enerji mənbələrinin istifadəsini, enerji səmərəliliyini, ekoloji cəhətdən təmiz texnologiyaları, o cümlədən nəqliyyat vasitələrinin istifadəsini və s. əhatə edəcək yaşıl zona konsepsiyasının inkişafına başlanmışdır. Bu istiqamətdə Beynəlxalq Bərpa olunan Enerji Agentliyi ilə müzakirələr aparılır. İlkin hesablamalara görə, bu ərazilərdə 4000 meqavatdan çox günəş, 500 meqavatadək külək enerjisi ehtiyatları mövcuddur. Qarabağ bölgəsində çox geniş turizm potensialı da var. Qarabağ bölgəsinin olduqca zəngin, mənzərəli, misilsiz təbiətə və tarixi abidələrə malik olduğunu nəzərə alsaq, bu regionun Azərbaycanın əsas turizm zonalarının birinə çevrilməsi ehtimalı yüksəkdir (Rzayeva, s.37).

## Ekoloji otellər

Beynəlxalq Ekoturizm Cəmiyyətinin (TIES-The International Ecoturism Society) tərifinə görə (1990), ekoturizm ətraf mühiti qoruyan və yerli əhalinin rifahını yaxşılaşdıran təbii ərazilərə məsuliyyətli səyahətdir. IUCN Beynəlxalq Təbiəti Mühafizə İttifaqı (IUNC- International Union for Conservation of Nature) isə ekoturizmi təbiətdən həzz almaq və qiymətləndirmək üçün təbii ərazidə ekoloji cəhətdən məsuliyyətli səyahət, keçmiş və gələcək mədəni xüsusiyyətlərin hər birini müşayiət etməklə ziyarətçilərin az təsiri ilə mühafizəni gücləndirən və yerli əhalinin aktiv sosial-iqtisadi iştirakını təmin edən səyahət kimi müəyyən etdi (The Nature Conservancy 2009). Turizmin davamlılığını təmin etmək və turizmin cəlbediciliyini artırmaq məqsədilə bu gün bir turizm növü kimi ortaya çıxan ekoturizm termini 1983-cü ildə Hector Ceballos-Leascurain tərəfindən ortaya atılmış və ekoturizm təbiətdən həzz almaq və təbiəti dəyərləndirmək kimi müəyyən edilmişdir.

ÜTT-na görə, ekoturizmin məqsədləri (Özkan 2005);

- Turizmin təbii və ənənəvi ətraf mühitə vurduğu zərərin minimuma endirilməsi,
- Turistlərə və yerli əhaliyə təbiətin və ənənəvi sosial-mədəni mühitin mühafizəsi üzrə təlimlərin keçirilməsi,

- Turizmin yerli əhalinin ehtiyaclarına cavab verən və yerli hökumət və ictimaiyyətlə əməkdaşlıqda inkişaf edən məsuliyyətli ticarət kimi təşviq edilməsini təmin etmək,
- Mühafizə olunan (təbii və sosial-mədəni) ərazilərin idarə edilməsi üçün resursların ayrılması;
- Turizmin mənfi təsirini minimuma endirmək üçün sosial-mədəni və təbii mühit üçün uzunmüddətli təqib və qiymətləndirmə proqramlarının dəstəklənməsi,
- Turizmin yerli əhalinin güzəranına töhfə verəcək şəkildə inkişafının təmin edilməsi,
- Turizmin regionun sosial və ekoloji potensialını artıracaq şəkildə inkişafının təmin edilməsi,
- Turizmin ətraf mühitə uyğun, təbii və ənənəvi sosial-mədəni həyatla iç-içə olan, yerli bitki örtüyünü və canlı aləmi qoruyan infrastruktur investisiyalarının reallaşdırılmasıdır.

Yerləşdirmə müəssisələri turizmin vazkeçilməz elementlərindən biridir. Bu gün bir mehmanxananın yer tələbləri yerləşdirmə obyektinin növünə, təsnifatına və yerləşdiyi yerə görə dəyişir, lakin orta bir oteldə olmalı olan məkanlar aşağıdakılardır;

- Ümumi yerlər və ümumi sahələr;
- Obyektin ətrafı və açıq ərazilər (landşaft, bağ və s.),
- Lobbi və giriş sahəsi (resepsiyon, foye və gözləmə sahəsi),
- Yemək-içmək yerləri (bar və restoran),
- Fəaliyyət (istirahət) yerləri (hamam, sauna, spa, hovuz və idman sahələri),
- Toplantı və dəvət sahələri (top, konsert və sərgi salonları),
- Üfüqi və şaquli dövriyyə sahələri (pilləkənlər, dəhlizlər və liftlər),
- Yerləşdirmə vahidləri,
- Otaqlar (otaq növlərinə, yaşayış sahələrinə, mətbəxə və s. asılı olaraq),

- Rütubətli yerlər (hamam, tualet, cakuzi və s.),
- İdarəetmə və xidmət sahələri,
- Ofislər (biznes meneceri, mühasibatlıq, kadrlar üzrə menecer və s.),
- Camaşırxana sahəsi (camaşırxana, ütüləmə və s.),
- Mətbəx və xidmət sahələri (əsas mətbəx, otaq xidməti və s.),
- Personalın istifadə sahələri (soyunma, istirahət və yemək yerləri) olaraq sıralana bilər.

Turizmdə davamlılıq konsepsiyasının inkişafı ilə "ekoloji otel" anlayışı getdikcə daha çox əhəmiyyət kəsb edir. Ədəbiyyatda ekoloji otellər təbiəti qorumaqla enerji, su, tullantıların idarə edilməsi və təbii ehtiyatlardan səmərəli istifadə etməklə keyfiyyətli xidmət göstərən otellər kimi müəyyən edliir (Cooper 1998:113). Güneş (2011:48) ekoloji otelləri "su və enerjiyə qənaət edən, bərk tullantıları azaldan, təkrar emalı və təkrar istifadə proqramlarını həyata keçirən, davamlı ekoloji qaydalar və iqtisadi həllər inkişaf etdirən otellər" olaraq təyin edir.

İvanovski və Rushmore (1994) öz araşdırmalarında ekoloji cəhətdən təmiz mehmanxanaların bəzi xüsusiyyətlərini bərk tullantıların idarə edilməsi, tərkibində birdəfəlik deyil, təkrar istifadə oluna bilən məhsulların olması, kimyəvi maddələrdən istifadənin minimuma endirilməsi, məhsulun ömrünün uzadılmasına diqqət yetirilməsi, təkrar emalın tətbiqi kimi bir sıra xüsusiyyətlər qeyd etmişlər.

Eko-otellərin standartlara uyğun şəkildə hazırlanması üçün dünyada bir neçə məşhur dəyərləndirmə təşkilatları fəaliyyət göstərir. Təşkilatların sertifikasiyasını almış və ya həmin təşkilatlar tərəfindən qurulmuş eko-otellər müştərilərdə daha çox inam hissi oyadır. Həmin təşkilatlar haqqında qısa məlumatlar Cədvəl 5.də verilmişdir.

**Cədvəl 5: Yaşıl bina dəyərləndirmə sistemləri**

| | BREEAM | LEED | Green Star | DGNB |
|---|---|---|---|---|
| Sertifikasiya loqoları | BREEAM® | U.S. GREEN BUILDING COUNCIL<br>LEED<br>USGBC | green building council australia | DGNB |
| Tarix, ölkə | 1990, İngiltərə | 1998, ABŞ | 2003, Avstraliya | 2008, Almaniya |
| Təşkilat | BRE | USGBC | GBCA | DGNB |
| Qiymətləndirmə meyarları | İdarəetmə<br>Sağlamlıq və rifah<br>Enerji<br>Nəqliyyat<br>Su<br>Material<br>Tullantılar<br>Torpaqdan istifadə və ekologiya<br>Çirklənmə<br>Yenilik | Dayanıqlı ərazi<br>Su səmərəliliyi<br>Enerji və atmosfer<br>Materiallar və resurslar<br>Daxili mühitin keyfiyyəti<br>Dizaynda yenilik və regional prioritet | İdarəetmə<br>Daxili mühitin keyfiyyəti<br>Enerji<br>Nəqliyyat<br>Su<br>Torpaqdan istifadə və ekologiya<br>Material<br>Emissiya<br>Yenilik | Ətraf mühit<br>İqtisadiyyat<br>Sosial mədəniyyət və funksiya<br>Texniki<br>Ərazi yerləşməsi<br>Proseslər |
| Tətbiq edilən struktur növləri | Yeni binalar<br>Mövcud binalar<br>interyerlər<br>Evlər<br>Məhəllələr | Yeni binalar<br>Mövcud binalar<br>interyerlər<br>Kampuslar<br>Evlər<br>Məhəllələr | Yeni binalar və performans<br>Mövcud binalar<br>interyerlər<br>Rayonlar və məhəllələr | Yeni binalar<br>Mövcud binalar<br>Evlər<br>Məhəllələr |
| Sertifikasiya səviyyələri | Kafi<br>Yaxşı<br>Çox yaxşı<br>Əla<br>Mükəmməl | Sertifikatlanmış<br>Gümüş<br>Qızıl<br>Platin | 1 ulduz<br>2 ulduz<br>3 ulduz<br>4 ulduz<br>5 ulduz<br>6 ulduz | Bürünc<br>Gümüş<br>Qızıl<br>Platin |
| Layihə sayı | 16281 | 37326 | 1715 | 1226 |

**Mənbə:** Ertuğrul, 2018 s. 32.

## Qarabağ yaşıl enerji zonasıdır

Dünyada və Azərbaycanda alternativ enerji mənbələrindən istifadənin genişlənməsi təbiəti qorumaq, ekologiyanın davamlı inkişafının təmin olunması, resursların gələcək nəsillərə ötürülməsi məqsədi daşıyır.

Qarabağda külək və günəş enerjisindən istifadə üçün uyğun şərait vardır. Bu resursların turizmə istiqamətlənməsi, turizmin ətraf mühitə təsirinin azaldılması məqsədilə eko-otellərin qurulması prioritet istiqamətlərdəndir.

Qarabağda eko-otelin qurulması ilə tullantısız texnologiyanın tətbiqi, alternativ enerji mənbələrindən istifadə, su resurslarının qorunması, təbiətin qorunması ilə bərabər mədəniyyətin, kulinariyanın da turistlərə təqdim olunması deməkdir. Yüksək investisiya tələb edən eko-otellər qurulduqdan sonra daha az xərclə, daha çox mənfəətlə və vicdan rahatlığı ilə işlədilir.

“Sustainable Hotel” və ya başqa sözlə “yaşıl otel” ekoloji cəhətdən təmiz yerli və təkrar emal edilə bilən materiallardan istifadə etməklə tikilir, daha az enerji və su sərf edir, CO2 emissiyasını azaldır, qlobal iqlim dəyişikliyinə müsbət təsir göstərir və şirkətin sosial və ekoloji məsuliyyətini daşıyır (Vatan & Poyraz, 2016, s. 21).

Otel müəssisəsinin ölçüsündən, personalın sayından və oteldə qalacaq insanların sayından asılı olaraq istehlakın artması ətraf mühitə böyük ziyan vurur. Məsələn, dörd nəfərdən ibarət standart bir ailə gündə təxminən 450 litr su sərf etdiyi halda, lüks otel otağında qonaq bir gecədə orta hesabla 1000 litr su istehlak edir (Arısoy, 2014, s. 1). Otel istifadəçilərinin gündə istehlak etdikləri enerjinin miqdarının 130 Mg, gündə buraxılan CO2 emissiyasının miqdarının isə 20,6 kq olduğu bildirilir (Özkök, Özdemir & Güçlü, 2018, s. 185).

Eko-otellərin qurulmasında və istifadəsində bir çox ağıllı texnologiyalardan istifadə danılmazdır. Bunlara tullantıların idarəedilməsi, suya qənaət, enerjiyə qənaət, kimi idarəetmə texnologiyalarını misal göstərmək olar. Tullantıların idarəedilməsi texnologiyasında dünyada geniş istifadə olunan üsullar aşağıdakılardır (Dilek, s.41):

- Qida artıqlarının tullantı şəklində atılmaması, yeməklərin qonaq sayına uyğun hazırlanması və ya artıq qalan lakin qonaq çəngəl-bıçaqlarının dəymədiyi yeməklərin personala təklif edilməsi, ən sonda isə eko-otelin ətrafında bəslənilən toyuq-cücə və ya itlərə verilməsi;
- Qida sənayesində seçilən yağların sənaye yağları yox, təbii yağlarla əvəz edilməs, yağla 2 dəfə yeməyin hazırlanması, 3cü dəfəsində itlər üçün yal hazırlanmasında istifadə;

- Otelin əsas tullantıları olan plastik və şüşə qablar ayrı konteynerlərə yığılmaqla təkrar emal üçün göndərilməli;
- Otaqlarda sabun, şampun qalıqlarının az olması məqsədilə əksər otellərdə istifadə olunan bu tipli məhsulların 1 ölçülərinin 1 dəfəlik istifadə üçün nəzərdə tutulması;
- Otaqlarda istifadə olunan mebel avadanlıqları və digər avadanlıqların inşaatda artıq qalan materiallar hesabına düzəldilməsi;
- Qonaq otaqlarında istifadə olunan və yuyulması nəzərdə tutulan mələfələrin Turmepa və digər adda dəniz ağardıcılarından istifadə edərək yuyulması.

Suya qənaət prinsipinin əsas texnologiyası aşağıdakı kimidir (Dilek, s.41):

- Vanna otaqlarında olan təchizatın qənaət sisteminə uyğun quraşdırılması;
- Duşlardan axan suyun təzyiqinin və miqdarının nəzarət ediləbilən olması;
- İstifadə olunmuş boz suların müxtəlif təmizləyici sistemdən keçərək bağın sulanmasında istifadəsi (məsələn Biopart);
- Yağış suyunun toplanması və bağçanın sulanmasında istifadəsi;
- Yağış suyunun artığını süni yaratmaqla orada saxlanılmasının təmin edilməsi;

Enerjiyə qənaət texnologiyasının əsas üsullarını təşkil edir (Dilek, s.42):

- Alternativ enerji mənbələrindən (günəş və külək) istifadə üçün infrastruturun qurulması;
- Yay aylarında kondinsioner istifadə etmədən karbonun udulmasını təmin edən təchizatın qurulması;
- Qış aylarında istiliyin təmin olunması üçün otaqların qurulması və günəş enerjisiylə otaqların isidilməsi;
- Otaqların divarlarının termostat temperaturu ilə idarə olunması;
- İsinmə üçün qranul qazanlardan istifadə olunması. Bu təbii gipslənmiş ağac tozudur.

- Otaqlarda suyun isidilməsi üçün günəş enerjisindən istifadə. Günəşin isitməyə çatdırmadığı vaxtlarda isə qranul qazanxanalardan suyun isidilməsinin təmin edilməsi;

Oteldə istifadə olunacaq qidaların yerli sakinlərin təsərrüfatından almaqla və ya otelin ərazisində əkin-biçin, maldarlıq işlərini qurmaqla həyata keçirmək mümkündür. Ərazidə qarğıdalı, buğda əkilməsi, bu məhsullardan təbii, qatqısız çörəklər hazırlanması, maldarlıqda, arıçılıqda əlavə qatqı olmadan məhsulların alınması eko-otellərin əsas iş prinsipidir.

Eko qonaqpərvərlik konsepsiyası aşağıdakı prinsipləri qəbul etmişdir:

**Şəkil 3: Eko-otel konsepsiyasının əsas prinsipləri.**




**Mənbə:** (Marie Hammer və Townsend, 1993: 25)

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Məqalədə müxtəlif istiqamətli araşdırma aparılmış, araşdırmanın alt başlıqları Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonları, həmin rayonlardakı mövcud potensial, rayonların iqtisadi vəziyyəti və turizm resursları təhlil edilmiş, digər tərəfdən də davamlı və dayanıqlı inkişaf üçün baza olan eko-turizm və eko-otellər anlayışlarının izahı verilmiş, dünya üzrə həmin növ otellərin

qurulmasının əsas nəticələri göstərilmiş və eko-otel konsepsiyasının Qarabağ iqtisadiyyatına faydası təhlil edilmişdir.

Qeyd olunanları ümumiləşdirsək deyə bilərik ki, Azərbaycanda eko-otellərin qurulması üçün mümkün potensial var. Qarabağ regionu bunun üçün ən ideal destinasiyadır. Buna səbəb ilk öncə ərazinin işğaldan yeni azad olunması, iqtisadi inkişafda turizmin əsas rol oynaması, destinasiyanın inkişafında ölkənin maraqlı olması və dünya ictimaiyyətinin gözünün Qarabağ üzərində olması, digər tərəfdən isə yeni konseptlərin və çağırışların tətbiqi üçün münasib şəraitə malik olmasıdır.

Təbii ki, Qarabağda eko-otellərin qurulmasının və ya hər-hansı bir iqtisadi fəaliyyətlə məşğul olmağın potensial riskləri də mövcuddur. Bu mərhələdə dövlət sahibkarı mümkün ola biləcək risklərdən sığortalamaqla, həmçinin sahibkarları Qarabağ iqtisadiyyatının inkişafı üçün təşviq etməklə regionun qısa müddət ərzində inkişafına şərait yaratmış olar.

Dünya ölkələrində iqtisadiyyatda əsas payı olan KOB subyektlərinin təşviqi Azərbaycanda da əsas inkişaf istiqamətlərindən biri olmuşdur. Bunu 2016-cı ildə 11 sektorun inkişafına dair hazırlanmış “Strateji yol xəritəsində” KOB subyektlərinin də xüsusilə inkişaf planın çəkilməsini misal göstərməklə izah etmək olar. Ən çox inkişafı planlaşdırılan sahibkarlıq subyektlərinin ən çox inkişaf edə biləcək sektorla (turizm), inkişafı yolunda təbliğat-təşviqat işlərinin görüldüyü Qarabağ destinasiyasında turizmin yeni, lakin iqtisadi, sosial və təbii səmərə verəcək alt-sektorunun – eko otellərin qurulması regionun, ölkənin, sahibkarların inkişafı üçün ən ideal şərait deməkdir.

Yazılmış tədqiqat işi Qarabağ destinasiyası üçün aparılması zəruri olan başqa bir tədqiqatın başlanğıcıdır. Belə ki, məqalədə qeyd olunan destinasiyaların inkişafı üçün zəruri olan cəlbedicilik ünsürləri, destinasiyaların dayanıqlılıq indeksi sırf Qarabağ bölgəsi üçün fundamental tədqiqat işinin aparılmasına şərait yaradır.

Məqaləni araşdırarkən əldə olunan nəticələrə əsasən Qarabağda rentabelliyi yüksək olan eko-otellərin qurulması üçün təkliflər aşağıdakı kimidir:

KOB subyektləri müxtəlif qrant layihələri vasitəsilə və ya investorlar cəlb etməklə Qarabağda turizm infrastrukturunu qurmağa çalışmalıdır.

Turizm biznesinin inkişafının intensivləşdirilməsi üçün region üzrə konkret turizm layihələri hazırlanmalı, ekspertizadan keçirilməli, biznes-planlar əsaslandırılmalı və bu sahədə təcrübəsi olan turizm firmalarına və şirkətlərinə, potensial investorlara təqdim olunmalıdır.

Regionda turizmin canlandırılması üçün ən azından ilk 10 il üçün güzəştlər paketi, o cümlədən vergi güzəştləri mexanizmləri və alətləri hazırlanmalı, özəl turizm müəssisələrinə dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi təmin edilməlidir və s.

Eko otellərdə xüsusi proqramlar çərçivəsində həyata keçirilə biləcək ekoloji təcrübələr:

- Təsərrüfat xidmətlərində və camaşırxana üçün istifadə olunan yuyucu vasitələr toksik olmayan məhsullardan seçilir,
- 100% üzvi kətan çarşafların, dəsmalların və pərdələrin istifadəsi vacibdir,
- Oteldə siqaret çəkmək qadağandır,
- Bərpa olunan enerji mənbələrinin (məsələn, külək və günəş) istifadəsi təşviq edilir,
- Üzvi qida və içkilərdən istifadə edilir və suyun azaldılması təmin edilir, Otel otaqlarında təkrar emal edilə bilən materiallardan istifadə edilir,
- Qonaqlara su sərfiyyatını azaltmaq üçün zərurət olmadıqca çarpayı və dəsmalların dəyişdirilməməsi barədə məlumat verilir,
- Effektiv və enerjiyə qənaət edən işıqlandırma təşviq edilir,
- Yaşıl nəqliyyat vasitələri və ictimai nəqliyyatla nəqliyyat təşviq edilir,
- Üzvi və yerli tərəvəz və meyvələr təqdim olunur,
- Müəssisə yemək və içki xidməti üçün birdəfəlik boşqablardan istifadə etmir,
- Təmiz hava mübadiləsi proqramları həyata keçirilir,
- Mətbəxdə, hamamda və camaşırxanada təkrar emal edilmiş suyun istifadəsi və suvarma üçün istifadəsi təşviq edilir,

- Qonaqlara verilən gündəlik qəzetlərin təkrar istifadəsi təmin edilir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Alexander S., (2002), "Green Hotels: Opportunities and Resources for Success", Zero Waste Alliance, September 2002, 1-9
2. Arısoy, K. (2014). Turizm İşletmelerinde Yeşil Yıldız Uygulaması. Ekoyapı Dergisi.
3. Beyhan, Ş. G. ve S. M. Ünügür (2005). Çağdaş Gereksinimler Bağlamında Sürdürülebilir Turizm ve Kimlik Modeli, İ.T.Ü. Mimarlık, Planlama, Tasarım Dergisi,.4(2), ss. 79-87.
4. Ceylan, T. (2001), Turizm ve Sürdürülebilir Gelişme, Anatolia: Turizm Araştırmaları Dergisi, 12(2), ss.169-177.
5. Cooper, I. (1998). Emerging Issues in Environmental Management A.K. (Ed.) içinde: Facility Management: Theory and Practice London: Spon Press.
6. Dilek D.P, Sürdürülebilirlik Kapsamında Ekolojik Oteller: Narköy Ekolojik Otel ve Eğitim Merkezi, Journal of Travel and Hospitality Management 14 (2), 2017, 31-46.
7. Dünya İqtisadi Forumu tərəfindən "Səyahət və Turizmin İnkişafı İndeksi 2021-Davamlı və Güclü Gələcək üçün Yenidən Qurulması" hesabatı, Dünya İtisadi Forumu, may, 2022, https://www3.weforum.org/docs/WEF_Travel_Tourism_Development_2021.pdf
8. Elnur Sadıqov, Vətən müharibəsindən sonra Qarabağ bölgəsinin Azərbaycanın bazar iqtisadiyyatına təsiri, UNEC Expert, Mart 2021. səh. 14-18.
9. Erdoğan, N. (2003), Çevre ve Ekoturizm, Erk Yayınları: Ankara.
10. Əliyev Ş., Musayeva S., Azərbaycanda regional biznesin inkişafinin şaxələndirilməsində klaster institutunun multiplikativ rolu, Sumqayıt Dövlət Universiteti, konfrans materialları, 2021, s.52-55, ISSN 2709-6033 (on-line)
11. Gökdeniz A., Turizm Sektöründe Yeşil Pazarlama: Eko Oteller ve Ekolojik Uygulamalar, Karabük Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Özel Sayı 3, səh.1-11, 2017, DOI:10.14230/joiss447
12. Güneş, G. (2011), Konaklama Sektöründe Çevre Dostu Yönetimin Önemi, KMÜ Sosyal ve Ekonomik Araştırmalar Dergisi, 13(20), ss. 45-51.

13. Hamele, H., Eckerdt S., (2002), "Environmental initiatives by European tourism businesses Instruments, indicators and practical examples", A contribution to the development of sustainable tourism in Europe, Universität Stuttgart, 1-39.

14. Han, H, L.-T.J. Hsu, J.-S. Lee, C. Sheu (2011), Are Lodging Customers Ready To Green? An Examination of Attitudes, Demographics, and Eco-Friendly Intentions, International Journal of Hospitality Management, 30(2), ss.345-355.

15. İşğaldan azad olunmuş ərazilərin post-konflikt dövründə bərpa prosesi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin kiçik analitiki Ayhan Satıcının şərhi

16. Lim, C. ve McAleer, M. (2005), Ecologically sustainable tourism management, Environmental Modelling & Software, 20(11), ss. 1431-1438.

17. Manaktola, K. ve Jauhari, V. (2007). Exploring consumer attitude and behaviour towards green practices in the lodging industry in India, International Journal of Contemporary Hospitality Management, 19(5), s.364-377

18. Maria S., Hammer Jo, Townsend M., ( 1993), Eco Purchasing Guide for Hotels and Motels, Fall, Copyright, 1993 University of Florida, Printed on Recycled Paper, 6-50.

19. Özkan, Y. E. (2005), Turizmin geleceği: ekoturizm, Standard Dergisi, 42(500).

20. P.İsmayılova, N.Musayeva, B.Himmetoğlu, Destinasiyaların yaranması və inkişafının nəzəri əsasları, Turizmdə destinasiyaların idarəedilməsi, çoxmüəllifli dərslik, 2021, s. 10-116

21. Rəhimli E., Bərpa olunan enerji mənbələrinin sosial iqtisadi aspektləri, Sumqayıt Dövlət Universiteti, konfrans materialları, 2021, s.93-95, ISSN 2709-6033 (on-line)

22. Rzayeva Ü., Qarabağda kiçik və orta müəssisələrin innovativ fəaliyyətinin stimullaşdirilmasi və perspektivləri, UNEC Expert, Mart 2021, səh.36-37

23. Sürdürülebilir tasarım kriterlerinin otel iç mekân tasarımına olan etkisinin kullanıcı yorumları üzerinden değerlendirilmesi: Tasigo ve h2hotel örneği yüksek lisans tezi Ümmü Ertuğrul, Eskişehir, 2018 səh. 32.

24. The Nature Conservancy. About Art Travel, www.nature.org (30.12.2015).

25. Vatan, A., & Poyraz, M. (2016). Nasıl Sürdürülebilir Otel Olunur? How to Create a Sustainable Hotel? ÇATALHÖYÜK Uluslararası Turizm ve Sosyal Araştırmalar Dergisi, 15-30.

26. E-stat.gov.az

27. https://dergipark.org.tr/tr/download/article-file/201963

28. https://marja.az/73384/yeni-iqtisadi-rayonlar-yaradildi-ferman

29. https://meclis.gov.az/documents/24.12.2020.pdf

30. https://smb.gov.az/az/all-news/investorlara-teqdim-etmek-ucun-kob-subyektlerinden-investisiya-layiheleri-qebul-olunur

31. https://smb.gov.az/az/all-news/isgaldan-azad-edilmis-erazilerin-berpasi-ve-yenidenqurulmasi-prosesinde-is-adamlarinin-istirakina-dair-muzakireler-aparilib

32. https://www.smb.gov.az/az/all-news/qarabaga-investisiya-yatirmaq-ucun-muraciet-etmis-sermayedarlarin-50-e-yaxini-turk-surasina-uzv-olkelerin-investorlaridir

33. https://www.ssu-conferenceproceedings.edu.az/pdf/2021-2.pdf

34. https://www3.weforum.org/docs/WEF_Travel_Tourism_Development_2021.pdf

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ ZONASINDA MİKRO, KİÇİK VƏ ORTA BİZNESİN ALTERNATİV MALİYYƏLƏŞMƏ MƏSƏLƏLƏRİ

**i.ü.f.d. Atakişiyev Ruslan**
*İqtisadi Resursların Öyrənilməsi Mərkəzi*

**Qəhrəmanlı Qafqaz**
*İqtisadi Resursların Öyrənilməsi Mərkəzi*

## Xülasə

Beynəlxalq aləmdə olduğu kimi ölkəmizdə də iqtisadiyyatın inkişafında və genişlənməsində mikro, kiçik və orta biznes nümayəndələrinin rolu çox böyükdür. Buna görə də KOB-ların alternative maliyyə mənbələrinə çıxış imkanlarının artırılması Dövlətimiz üçün prioritet təşkil edir, əsasən də 2020-ci il şanlı tarixində müzəffər ordumuzun qəhrəmanlığı ilə işğalçılardan təmizlənən Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonasında hazırda bu istiqamətdə bir sıra layihələr icra edilir, tədiqatlar aparılır və siyasət sənədləri hazırlanaraq requlyativ qurumlara təqdim edilir. Məqalədə KOB-ların ölkə iqtisadiyytaında yeri (statistik məlumatlara istinadən), və onların maliyyə mənbələrinə çıxış problemlərinn araşdırılmasına geniş yer verilmişdir. Burada xüsusilə Vençur Fondları, Kraudfandinq və Paydaşa iştiraka dair real sektorun inkişafında mühüm əhəmiyyət daşıyan alternativ maliyyə mənbələrinə baxılmışdır. Məqalənin əsaslandığı tədqiqatda aşkarlanmış nəticələr və təkliflər elmi-nəzəri və metodoloji baxımdan işlənmişdir.

***Açar sözlər:*** *mikro, kiçik və orta sahibkarlıq, vençur, kraudfandinq, payda iştirak.*

## Giriş

Müasir dövrdə Azərbaycanın iqtisadi inkişaf strategiyasında qeyri-neft sektorunun tərəqqisi günün aktual məsələsinə çevrilmişdir. Məlumdur ki, özəl sektorun inkişafında onun başlıca hərəkətverici qüvvəsi mikro, kiçik və orta biznes (MKOB) subyektləridir. Belə ki, əhalinin çox çeşidli məhsullarla təminində, ölkənin ucqar bölgələrinə məhsulların çatdırılmasında, dəyişkən iqtisadi mühitə tez bir zamanda uyğunlaşmaqda və fəal şəxslərin məşğulluğa cəlb olunmasında MKOB-ların rolu müstəsnadır.

Avropa İttifaqına daxil olan ölkələrdə müəssisələrin 99 faizini kiçik və orta müəssisələr təşkil edir. İnkişaf etməkdə olan ölkələrdə ortahəcmli müəssisələr məşğulluğun əsas təminatçısıdır.

Azərbaycan Respublikasında (AR) mikro, kiçik və orta sahibkarlıq subyektləri Nazirlər Kabinetinin (NK) meyarlarına uyğun olaraq müəyyən edilmişdir. Mikro sahibkarlara işçilərinin orta sayı 10 nəfərədək, illik gəliri 200 min manatadək olan, kiçik sahibkarlara işçilərinin orta sayı 11 nəfərdən 50 nəfərədək, illik gəliri 200 min manatdan 3 milyon manatadək olan, orta sahibkarlar isə işçilərinin orta sayı 51 nəfərdən 250 nəfərədək, illik gəliri 3 milyon manatdan 30 milyon manatadək olan sahibkarlıq subyektləri aid edilirlər. 2021-ci il üzrə Azərbaycanda ticarət, tikinti, kənd təsərrüfatı, emal, peşə, logistika və digər xidmətlər üzrə fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin hüquqi və fiziki şəxslər üzrə ümumi payı 99.6 % təşkil etmişdir, eləcə də hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sayı ölkə üzrə 1 milyon 114 min 700 nəfər olmuşdur. (AR-nın Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/entrepreneurship/)

Ölkə üzrə sahibkarlıq subyektlərinin 99 faizinin MKOB subyektləri olması kiçik və orta sahibkarlığın ÜDM-də və ixracda payının artırılması üçün böyük potensialın olduğunu göstərir. MKOB-ların ölkə iqtisadiyyatında rolunun və çəkisinin artırılması davamlı iqtisadi artımın təmin edilməsi baxımından prioritet istiqamətlərdəndir. (https://www.azerbaijan-news.az/view-172675/kicik-sahibkarin-boyuk-destekcisi)

Məlumdur ki, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlairnın da sosial – iqtisadi inkişafının təmin olunmasında MKOB subyektlərinin hərtərəfli fəaliyyətinin dəstəklənməsi mühüm əhəmiyyət kəsb edir. Sənaye, kənd təsərrüfatı, mədənçilik və turizm sahələrinin tərəqqisi üçün böyük potensiala malik olan sözügedən iqtisadi zonalarda MKOB-ların işinin

təşkilində də başlıca amil zəruri investisiya resursları ilə təminatıdır. Çünki, ərazinin 30 ilə qədər müddətdə işğal altında qalması, mövcud infrastrukturun tamamilə məhv edilməsi burada yaranacaq təsərrüfat subyektləri üçün başqa regionalardan fərqli olaraq "Yerdən başlamaq" xarakterini daşıyacaqdır.

Nəticədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında MKOB-ların inkişafı məsələlərində ümumrespublika dövlət proqram və fəaliyyət planlarında sahibkarlıq maliyyə mənbələrinə çıxışı ilə bağlı müddəalara daha çox diqqət yetirilməlidir.

Ölkəmizdə MKOB subyektlərinin iqtisadiyyatda rolununun möhkəmləndirilməsi, maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, onlara dəstək mexanizmlərinin təkmilləşdirilməsi, yerli və xarici investisiyaların cəlb edilməsi sahibkarlığın inkişafı istiqamətində dövlət siyasətinin öndə duran strateji hədəflərindəndir. Bu sahədə həyata keçirilən islahatlar, o cümlədən ixracın və investisiyaların səmərəli təşviq mexanizmlərinin işə salınması, güzəştli kreditlərin əldə edilməsi və digər alternativ maliyyə dəstəyi mexanizmlərindən istifadəsi ilə bağlı prosedurların sadələşdirilməsi sahibkarların marağında olan məsələlərdir.

Bütün bunlarla yanaşı Azərbaycanda hələ də MKOB-lardan gözlənilən töhfənin tam şəkildə əldə olunmasında, onların iqtisadi potensialının aşkarlanaraq üzə çıxarılmasında bir sıra çətinliklər mövcuddur. MKOB-ların inkişafı qarşısında dayanan əngəllər içərisində maliyyə mənbələrinə çıxış ən başlıca yerlərdən birini tutur. Mövzunun vacibliyi dövlət tərəfindən qəbul olunan proqram və planlarda da öz əksini tapmışdır.

AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair" Strateji Yol Xəritəsində MKOB-ların maliyyə resurslarına çıxışı problemlərinin öyrənilməsinə və tədbirlərin hazırlanmasına geniş yer ayrılmışdır. Burada Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu, "Azərbaycan İnvestisiya Şirkəti" ASC, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu və s. vasitəsilə verilən dövlət dəstəyi qiymətləndirilmişdir.(AR-da kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair

Strateji Yol Xəritəsi, https://mida.gov.az/documents/Ki%C3%A7ik_v%C9%99_orta_sahibkarl%C4%B1q_s%C9%99viyy%C9%99sind%C9%99_istehlak_mallar%C4%B1n%C4%B1n_istehsal%C4%B1na_dair.pdf)

AR İqtisadiyyat Nazirliyinin məlumatlarına əsasən Azərbaycanda fəaliyyət göstərən MKOB subyektlərinin 51 faizi maliyyə resurslarına çıxış məsələsini biznesin inkişafında ən ciddi maneə kimi qeyd etmişdir.

Erkən inkişaf mərhələsində məlumatların toplanması və nağd pul vəsaitlərinin effektiv idarəolunması ilə əlaqədar bacarıqların aşağı səviyyədə olması, habelə peşəkar düşüncə tərzi və korporativ idarəetmənin zəif olması MKOB subyektləri üçün xarakterik cəhətlərdəndir. Əlavə olaraq, artıq kredit əldə etmiş MKOB subyektlərində qeyri-işlək kreditlərin nisbətinin yüksək səviyyədə olması və müflisləşmə ilə bağlı həll variantlarının azlığı bank sektorunun fəaliyyətinə mənfi təsir göstərir. Nəticədə, banklar MKOB subyektlərinin kreditləşməsində daha az maraqlı olurlar.

Bütün bunlar nəzərə alınaraq Strateji Yol Xəritələrində Azərbaycanda alternativ maliyyə alətləri bazarının inkişaf etdirilməsi, eləcə də bu bazara MKOB-un çıxış imkanlarının artırılması irəli sürülmüşdür. Bu səbəbdən MKOB subyektlərinin maliyyələşməsində alternativ maliyyə alətlərindən istifadənin genişləndirilməsi Azərbaycanda maliyyə sisteminə uyğun olaraq, alternativ maliyyə alətlərindən istifadə imkanları, mexanizmləri və tətbiqi perspektivlərinin araşdırılması bir vəzifə kimi qarşıya qoyulmuşdur.

Bunlarla yanaşı, AR Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" konsepsiyasında da MKOB-un inkişafı başlıca prioritet kimi qeyd olunur. Belə ki, həmin sənəddə "Özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühit əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalı, məhkəmə-hüquq sistemində şəffaflıq artırılmalı, haqsız rəqabətin qarşısı alınmalıdır." kimi tezislər vurğulanmışdır. (https://president.az/az/articles/view/50474)

Milli prioritetlər konsepsiyasında MKOB-un maliyyə mənbələrinə çıxışında alternativ investisiya qaynaqlarının önə çəkilməsi bir daha öz əksini tapmışdır. Həmin istiqamət sənəddə əks olunan "Yeni dövrdə qurulacaq ekosistem (müvafiq təşviqlər, inkubasiya və akselerasiya mərkəzləri, dövlət-özəl əməkdaşlığı əsasında maliyyələşmə modelləri, vençur və kraudfandinq

institutları və s.) iqtisadiyyatın texnoloji tutumluluğunun artırılmasına yönləndirilməlidir." tezisində tam şəkildə təsbit olunur.

Bütün bunları nəzərə alaraq Azərbaycanda MKOB-un inkişafı üçün əhəmiyyətli ola biləcək bir neçə alternativ maliyyə mənbələrinə MKOB-ların çıxış imkanları qiymətləndirilmiş, mövcud problemlər öyrənilmiş və praktiki həll yolları aşkarlanaraq tövsiyələr hazırlanmışdır.

## Azərbaycanda Kiçik və Orta biznesin yeri

Azərbaycan iqtisadiyyatının genişlənməsində MKOB-ların rolu çox böyükdür. Diaqram 1.1. -dən də göründüyü kimi 2020-ci il üzrə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ölkə üzrə ümumi sayı 316,4 min olmaqla bütün sahibkarlıq subyektlərinin 99.7 %-ni təşkil etmişdir. Bu biznes subyektlərinin 33,5 mini hüquqi şəxs; 282,9 mini isə fərdi sahibkarlar olub. (AR-nın Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/entrepreneurship/)

**Diaqram 1: Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektləri, faizlə (2020)**




**Mənbə:** AR-nın Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/entrepreneurship/)

Bununla yanaşı kiçik və orta sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalarda mikro sahibkarlığın payı 36%, kiçik təsərrüfat subyektləri 14%, orta müəssisələrin payı isə 50% təşkil etmişdir. Diaqram 1.2. -ə nəzər saldıqda bunu aydın şəkildə görmək olar. Mikro sahiblkarlıq

subyektlərinin sayının MKOB-larda payının 97% təşkil etməsinə baxmayaraq ümumi investisiya həcmində çəkisi daha aşağıdır.

**Diaqram 2: Kiçik və orta Sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş vəsaitlərin ümumi dəyərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı, faizlə**




**Mənbə:** AR-nın Dövlət Statistika Komitəsinin məlumat bazasına əsasən müəllif tərəfindən hazırlanmışdır.

### Azərbaycanda kiçik və orta sahibkarlığın ənənəvi və alternativ maliyyə mənbələrinə çıxışı problemləri

Azərbaycan üzrə Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Dünya Bankı (DB) ilə birgə keçirdiyi Biznes Mühiti və Müəssisələrin Göstəriciləri Sorğusunun (BEEPS) nəticələrinə görə, maliyyəyə çıxış biznesin inkişafı üçün əsas maneələrdən biridir. 390 MKOB subyektinin iştirakı ilə keçirilən sorğunun nəticələri 2013-cü ili üzrə məlumatları özündə əks etdirir. Sorğuda iştirak edən yerli müəssisələrdən kiçik sahibkarlıq subyektlərinin 21,7 %-i, orta sahibkarlığın isə 21,6 %-i maliyyəyə çıxış imkanlarını əsas problem kimi qaldırıb. Azərbaycanda MKOB-lar kredit almaq üçün əsasən banklara və bank olmayan kredit təşkilatlarına müraciət edir. Sahibkarlar kənar maliyyələşmə mənbəyi kimi əsasən kreditlərdən istifadə edirlər.

Asiya İnkişaf Bankının Azərbaycanda MKOB-un maliyyə mənbələrinə çıxışını qiymətləndirən hesabatında bildirilir ki, MKOB-ların təxminən yarısı kreditə ehtiyac duyur. Sorğunun nəticələrinə görə, bank kreditləri MKOB-lar üçün kənar maliyyələşdirmənin əsas mənbəyidir və alternativ kənar maliyyələşdirmə mənbələri hələ də işlənməyib. Sorğuda iştirak edən kiçik

müəssisələrin 14,7 %-i və orta sahibkarlıq subyektlərinin isə 14,6 %-i kredit xəttinə malik olduqlarını bildiriblər.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) “MKOB siyasəti indeksi: Şərq Tərəfdaşlığı ölkələri 2016” hesabatında qeyd edilir ki, digər Şərq Tərəfdaşlığı (ŞT) ölkələrində olduğu kimi, Azərbaycanda da maliyyəyə çıxış məsələsi MKOB subyektləri üçün problem olaraq qalır. Hesabata görə, Azərbaycanın MKOB-ların maliyyəyə çıxış imkanları üzrə mövqeyi 5 baldan 2,70 bal təşkil edib ki, bu da Avropa Birliyi Şərq Tərəfdaşlığı ölkələri arasında ən aşağı göstəricidir. (SME Policy Index: Eastern Partner Countries 2016. Assessing the Implementation of the Small Business Act for Europe, http://www.oecd.org/countries/belarus/sme-policy-index-eastern-partner-countries-2016-9789264246249-en.htm)

Bu tədqiqata qədər Beynəlxalq Maliyyə İnstitutları və yerli tədqiqat mərkəzləri tərəfindən Azərbaycanda MKOB-un zəruri kapitalla təminatı ilə bağlı aşkarlanmış problemlərdən bəziləri aşağıdakı kimidir: (Aliyev Samir, “Problems and Opportunities for Leveraging SME Finance Through Value Chains in Azerbaijan”, ADBI Working Paper Series, No. 973 July 2019, p. 20-21, https://www.adb.org/contact/aliyev-samir)

- ✓ Yüksək faiz dərəcələri. Kreditlər üzrə yüksək faiz dərəcəsi MKOB-ların kredit resurslarına çıxışını zəiflədən amillər sırasındadır. Azərbaycan Mərkəzi Bankının məlumatına görə, bir ilədək kreditlər üzrə illik faiz dərəcəsi milli valyutada 17,75 %, xarici valyutada 7,75 %; 1 ildən 3 ilədək müddətə müvafiq olaraq 19,5 % və 11 %; 3 ildən 5 ilədək müddəti əhatə edən kreditlər üzrə isə faiz dərəcələri müvafiq olaraq 14,31 % və 11,65 % təşkil edir.

Qabus Araşdırma və Konsaltinq Şirkəti (QRCC) və Media və İctimai Təşəbbüslər Mərkəzi (CMPI) MKOB-ların kreditlərə çıxış imkanları ilə bağlı keçirdiyi sorğunun nəticələrinə görə respondentlərin 38%-i kredit təşkilatlarına müraciət etməmələrinin səbəbi kimi yüksək faiz dərəcəsini göstərib. Sorğuda iştirak edən sahibkarların 85%-ə qədəri öz kreditləri üçün orta illik faiz dərəcəsinin 20%-dən yuxarı olduğunu bildirib.

- ✓ Sərt kredit şərtləri. Kreditin tələb olunan məbləğdə və müddətdə alınmaması MKOB-ların üzləşdiyi ümumi problemlərdən biridir. QRCC və CMPI-nin sorğusunda 43 sahibkar bu problemi gündəmə gətirib.

Sorğunun nəticələrinin təhlili göstərdi ki, respondentlərin 31,5 %-i tələb olunan qədər kredit götürə bilmiş, digərləri isə kreditlərin kiçik həcmli (29,6%), qısamüddətli (10,2%) və yüksək faiz dərəcələrindən şikayətləniblər. (Aliyev Samir, "Problems and Opportunities for Leveraging SME Finance Through Value Chains in Azerbaijan", ADBI Working Paper Series, No. 973 July 2019, p. 20-21, https://www.adb.org/contact/aliyev-samir)

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycanda kiçik və orta sahibkarlığın maliyyə mənbələrinə çıxışında hələ də bir sıra problemlər mövcuddur. Bu da həmin mənbələrin daha da təkmilləşməsi ilə yanaşı alternativ resursların da tətbiqinin genişləndirilməsini zərurətə çevirir.

## Tədqiqat

Tərəfimizdən mövzu üzrə aparılan araşdırma zamanı 100 sahibkar arasında sorğu keçirilmiş, qanunvericilik bazasına baxılmış, beynəlxalq təcrübə öyrənilmişdir. Aparılan sorğulardan aşağıdakı şəkildə suallar qoyulmuşdur.

1. «Biznesinizin yazılı planı varmı?» sualına 43 sahibkar «BƏLİ» cavabını verib, 57 sahibkar isə bu suala «XEYR» cavabı verib.

**Diaqram 3: Biznesinizin yazılı planı varmı?**




**Mənbə:** Tədqiqat nəticələrinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

**Diaqram 4: İşinizə pul cəlbi üçün harasa müraciət etmisiniz?**




**Mənbə:** Tədqiqat nəticələrinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Sorğuda iştirak etmiş 100 sahibkarın 36%-i (36 nəfər) öz biznesinə pul cəlb etmək üçün banklara müraciət edib. 27 % sahibkar isə digər mənbələrdən istifadə edib. Bu mənbələrə investorlar, mikromaliyyə təşkilatları, dost təşkilatlar, yaxın qohumlar və s. aiddir. Respondentlərin 37 %-i heç bir yerə müraciət etmədiyini bildirib.

**Diaqram 5: Azərbaycanda banklardan kredit almısınız?**




**Mənbə:** Tədqiqat nəticələrinə əsasən müəllif tərəfindən hazırlanmışdır

Ümumilikdə banklara müraciət edib kredit cəlb edən sahibkarların ümumi sayıdakı payı 30 faiz təşkil edir. 70 nəfərin kredit müraciətinə isə banklardan yox cavabı gəlmişdir.

**Diaqram 6: Sahibkarların kreditə görə bank xidmətlərindən məmnunluq dərəcəsi**




**Mənbə:** Tədqiqat nəticələrinə əsasən müəllif tərəfindən hazırlanmışdır

Kreditə görə bankların xidmətlərindən nə qədər məmnunsunuz sualına respondentlərin 37 % - i «HEÇ MƏMNUN DEYİLƏM», 33 %-i «QİSMƏN MƏMNUNAM» cavabını verib. Sahibkarların 22 % -i xidmətlərdən məmnun olduğunu bildirib. 8 % sahibkar bu suala cavab verməkdən imtina edib.

**Diaqram 7: Azərbaycanda banklardan ona görə məmnun deyiləm ki**




**Mənbə:** Tədqiqat nəticələrinə əsasən müəllif tərəfindən hazırlanmışdır

Sorğu nəticəsində məlum olub ki, sahibkarların banklardan narazı olmasının əsas səbəbi YÜKSƏK KREDİT FAİZLƏRİDİR. Respondentlərin 43%-i yüksək kredit faizlərindən, 11%-i ağır girov şərtlərindən, 9%-i cərimə şərtlərinin

ağırlığından şikayət ediblər. 8 % sahibkar isə bankların kreditdən başqa heç bir məsləhət dəstəyi verməməsini mənfi hal olaraq qiymətləndirib. Komisyon haqqlarının yüksək olmasından şikayətlənən sahibkarlar 6 % təşkil edib. Respondentlərin 15 %-i bu suala cavab verməkdən imtina edib.

**Diaqram 8: Aşağıda sadalanan Alternativ maliyyə mənbələrindən hansıları haqqında eşitmisiniz?**




**Mənbə:** Tədqiqat nəticələrinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Respondentlərin «VENÇUR KAPİTALI» haqqında məlumatlılığı 30 %, «KRAUDFANDİNQ» haqqında 15 %, «PAYDA İŞTİRAKA ÇIXIŞ» haqqında isə 26 % təşkil etmişdir. Sahibkarların 56 %-i Alternativ maliyyə mənbələri haqqında məlumatsızdır. Vençur kapitalı haqqında məlumatlı olan 30 sahibkardan 5-i maliyyə cəlbi üçün vençur fondlarına müraciət etsə də, 25 sahibkar heç bir yerə müraciət etməyib. Müraciət edən 5 nəfər bu şəkildə maliyyə əldə edə bilib. Kraudfandinq haqqında məlumatlı olan 15 sahibkardan sadəcə 2-i bundan istifadə edib və ona lazım olan məbləği yalnız 1 nəfər sahibkar toplaya bilib. Sahibkarların ümumilikdə 35 faizi Payda iştiraka çıxış yolundan istifadə etsə də yalnız 17 sahibkar bu üsulla maliyyə cəlb edə bilmişdir.

**Diaqram 9: Payda iştirak (Şərikdən pul almaq) üçün ən çox kimlərə müraciət olunub?**




**Mənbə:** Tədqiqat nəticələrinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Bu şəxslərdən 17-i payda iştirakla maliyyə cəlb edə bilsə də 18-i buna nail ola bilməyib.

**Diaqram 10: Sahibkarlıq subyektlərinin cavabları**




**Mənbə:** Tədqiqat nəticələrinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

"Əgər sizə Alternativ maliyyə mənbələri təklif olunarsa işlərinizi tam şəkildə şəffaf, uçota alınmaqla aparmağa və biznesinizə pul yatıran şəxslərə gəlir və xərcləriniz barədə məlumat verərək iş qurmağa hazırsınızmı?" sualına sahibkarların əksəriyyəti "Bəli" cavabını vermiş, 10 nəfər isə tərəddüd edərək bu suala "Xeyr" cavabı vermişdir.

## Sorğunun nəticəsi

Tədqiqat zamanı aşağıdakılar aşkarlanmışdır:

1. MKOB-lar ölkədə rəqabət mühitinin formalaşmasında, şəffalığın təminində, məşğulluğun təminində, innovasiyaların meydana çıxmasında, məhsulları çeşidlərinin artmasında, ucqar yerlərə əmtəə və xidmətlərin çatdırılmasında, qeyri-müəyyənlik şəraitində çevik davranışına, bazarıq dəyişən və yeniləşən konyukturasına daha tez adaptasiya olunması baxımından sahibkarlığın strukturunda mühüm yerə malikdir;

2. Azərbaycanda MKOB-ların bir sıra çətinlikləri içərisində maliyyə mənbələrinə çıxış imkanları ən başlıca problem kimi qalmaqdadır;

3. Ölkəmizdə sahibkarlığın başlıca maliyyə qaynaqları bank kreditləri, Bank Olmayan kredit Təşkilatlarının vəsaitləri, kreditlər təşkil etməkdədir. Mövcud maliyyə tələbində bazarda olan boşluqda əsas aparıcı yeri tutan ənənəvi kapital institutları risklərin ötürülməsində fürsətdən istifadə etməkdə davam edirlər;

4. Alternativ maliyyə mənbələrinin inkişafı üçün Azərbaycanda böyük potensial mövcuddur. Lakin bu imkanımn üzə çıxması üçün həm mühit, həm də maliyyə savadlığı baxımından bir sıra problemlər var;

5. MKOB-ların Alternativ maliyyə mənbələri ilə bağlı məlumatlılıq səviyyəsi çox aşağıdır;

6. Azərbaycanda alternativ maliyyə institutlarının tam inkişafı üçün şəffaflığın təmini, qabaqcıl təcrübələrin ölkəmizə gətirilməsi və yerli qanunvericiliyin adaptasiya olunması, o cümlədən bu bazarda dünyada mövcud olan rəqabətlilik çağışlarına cavab verəcək tədbirlərin çevikliyi çox aşağıdır;

7. MKOB-ların maliyyə təminatı sahəsində İnstitutsional islahatların ləngliyi, investisiya əlçatanlığının informasiya təminatının aşağı səviyyədə olması bu bazar subyektlərinin mövcud potensialının tam şəkildə üzə çıxararaq Azərbaycan iqtisadiyyatına dəyər qatmasında hələ də gözlənilən nəticələr əldə olunmamışdır.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Tədqiqatın nəticəsi olaraq həm ekspertlərin gəldiyi qənaətdən həm də sorğu blanklarında sahibkarların təkliflərindən çıxış edərək aşağıdakı təklifləri

sadalamaq olar: Azərbaycanda Vençur Fondlarının fəaliyyətini, investisyaların qoyulması və qarşılıqlı hüquqları tənzimləyən “Vençur fondları” haqqında Azərbaycan Respublikası Qanunun qəbul olunması;

Azərbaycanda Kraudfindinq bazarı iştirakçılarının fəaliyyətini nizamlayan “Kraudfindinq maliyyələşmə” haqqında Azərbaycan Respublikası Qanunun qəbul olunması;

Şəriklər arasında münasibətlərin gərginləşməsinin aradan qaldırılması, mövcud ortqalıq müəssisələrinin dayanıqlığının təmini üçün “Ortaqlıq məhkəmələri” İnstitutunu formalaşdırılması;

Vençur maliyyələşməsinin sərmayədarlarına məhsulun bazara çıxıb özünü tam doğruldana kimi olan dövr ərzind Mənfəət vergisindən azad etmək. Bu müddət 1, 5 və daha çox ili əhatə edə bilər;

Kraudfindinq layihələrinin müəllif hüquqlarının qorunmasının təkmilləşdirilməsi;

Kraudfindinq platformalarının genişlənlənməsini stimullaşdırmaq, dövlət nəzarət mexanizmləri vasitəsilə şəffaflıq təmin olunması;

Alternativ maliyyələşmə mənbələrindən olan İslam Bankçılığı modelinin ölkəmizdə tətbiqi ilə bağlı mövcud Qanunvericilikdə zəruri islahatların aparılması sürətləndirilməlidir. Bunun üçün İslam Bank məhsullarının sərbəst tətbiqi üçün bu sektorun şərikli müəssilərin qurulmasında iştirakına, ticarət mexanizmlərini formalaşdırmağa, investisiya fəaliyyətində aktiv iştiraka, payçılarla münasibətlərin səmərəli qurulmasına şərait yaradılmalıdır;

MKOB subyektlərinin maliyyə mənbələrinə çıxışını zəiflədən bir sıra tələb amilləri (bura idarəetmə, zəif kapitallaşma, şəffaflıq, hesabatlıq və s. aid etmək olar) də mövcuddur;

Alternativ maliyyələşmə alətlərindən istifadəni asanlaşdırmaq və qarşılıqlı inam, şəffaflıq mühitinin formalaşdırılması üçün Dövlət Vergi Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi bu sistemlərə inteqrasiya olunmuş Riskli vergi ödəyiciləri və sahibkarlığın adına xələl gətirən “işbazların” bazasını təqdim etməsi daha məqsədəuyğundur.

## ƏDƏBİYYAT SİYAHISI

1. AR-nın Dövlət Statistika Komitəsi, statistik məlumatlar, https://www.stat.gov.az/source/entrepreneurship/;
Bunlarla yanaşı, mütərəqqi metod kimi investisiya təşviqi mexanizminin tətbiqi də qeyd edilməlidir. Ölkədə idxalı əvəz edən və ixracyönümlü sənayenin inkişafı, bu sahəyə investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə investisiyaların təşviqi sənədinin verilməsi 20l6-cı ildən həyata keçirilir. İndiyədək 4l2 sahibkarlıq subyektinə 495 investisiya təşviq sənədi verilib ki, bu layihələrin də ümumi dəyəri 4,5 milyard manatdan çoxdur.

Bununla yanaşı, ölkə ərazisində istehsal edilən və istehsal prosesində istifadə edilən yerli komponentlərin, qeyri-neft məhsullarının dəyərindən, habelə ixrac edilən məhsulların növündən asılı olaraq, qeyri-neft məhsullarının ixracı vasitəsilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödənilib. 20l6-2020-ci illər ərzində 334 müraciət üzrə həyata keçirilmiş ixrac üçün 26,5 milyon manat vəsait geri ödənilib.

Prezident İlham Əliyevin “Dövlət hər zaman sahibkarların yanında olacaq” prinsipinə uyğun olaraq, koronavirus pandemiyasının milli iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfı təsirlərinin azaldılması məqsədilə geniş dəstək paketini nəzərdə tutan proqramlar, çoxşaxəli, çoxstrukturlu, biznesin qısa və orta müddətdə dəstəklənməsini əhatə edən mühüm sənədlər qəbul edildi, pandemiya vasitəsilə bağlı fəaliyyəti məhdudlaşdırılmış sahibkarlara və fərdi (mikro) sahibkarlıq subyektlərinə dövlət tərəfindən maliyyə yardımı göstərildi.

İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlıq subyektlərinə (o cümlədən kiçik və orta sahibkarlara) vergi güzəştləri və tətillərinin, habelə sosial sığorta üzrə güzəştlərin verilməsi vasitəsilə bağlı təkliflər hazırlanır. İşğaldan azad olunmuş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsini və investisiya cəlbediciliyinin artırılmasını, optimal güzəştlərin hazırlanmasını və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şəraitin yaradılmasını əhatə edən layihələr üzərində işlər davam etdirilir.

AR Prezidentinin 202l-ci il 2 fevral tarixli “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Sərəncamının 2.l-ci bəndində nəzərdə tutulmuş, hazırda son müzakirələr mərhələsində olan

“2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda iqtisadıyyatın şaxələnməsinə və investisiyaların cəlb olunmasına vergi siyasətinin effektiv dəstəyinin təmin edilməsi və investisiya mühitinin daha da yaxşılaşdırılması üçün bir sıra tədbirlər nəzərdə tutulur: İşğaldan azad olunmuş ərazilərin inkişafı üçün vergi təşviqlərinin tətbiq olunması; Yeni istehsal sahələrinin qurulmasına əsasən kapital qoyuluşlarına uyğun olaraq mənfəət vergisinə güzəştlərin verilməsi; Turizmin inkişafı üçün vergi təşviqlərinin verilməsi və s. (Abdullayev, Ş. Ə., 2009: s. 65).

İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlıq subyektlərinin böyük bir hissəsinin investisiya təşviqi sənədi ala biləcəyini nəzərə alaraq, onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş vergi güzəştlərini xatırlatmaq istərdim. İnvestisiya təşviqi sənədi almış hüquqi şəxslər və fərdi sahibkarlar həmin sənədi aldığı tarixdən 7 il müddətinə bir sıra vergiləri və rüsumları ödəməkdən azaddırlar: Hüquqi şəxslər və fərdi sahibkarlar əldə etdikləri mənfəətin (gəlirin) 50 faizinə əsasən mənfəət (gəlir) vergisi; Müvafıq investisiya layihəsi çərçivəsində investisiya vəsaiti hesabına əldə olunmuş əmlaklarına əsasən əmlak vergisi; Mülkiyyətində və yaxud istifadəsində olan müvafıq torpaqlarına əsasən torpaq vergisi; Müvafıq təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına əsasən ƏDV və gömrük rüsumu. İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bütün layihələrin investisiya təşviqi sənədi verilən layihələrə aid edilməsi məsələsi də müzakirə olunur

Ölkədə sahibkarlığın inkişafı sahəsində aparılmış dövlət siyasəti və həyata keçirilmiş işlərin nəticəsi olaraq 2020-ci il ərzində qeydiyyata alınmış sahibkarlıq subyektlərinin sayı ümumilikdə l3% artaraq 202l-ci ilin yanvarın l-i tarixinə l 2l7 972 olub. Onların l3%-i (l55 435) hüquqi şəxslərin, 87%-i (l 062 537) fərdi sahibkarların payına düşür. 2020-ci il ərzində fərdi sahibkarlar istisna olmaqla statistik vahidlərin sayı 6,3% artaraq 202l-ci ilin yanvarın l-i vəziyyətinə l55 435 olub ki, onların da 96l9-u 2020-ci il ərzində yaradılıb. Qeydiyyata alınmış statistik vahidlərin l27 5l7-si mikro, 7282-si kiçik, 29l6-sı orta, 678-i isə iri sahibkarlıq subyektidir.

Son illər qəbul olunmuş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, strateji yol xəritələrində, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfıyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin

daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun yüksəlməsinə, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və sosial rifahın artırılmasına təkan vermişdir. Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ümumidaxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2019-cu ildə iqtisadi artım 2.2%, o cümlədən qeyri-neft sektorunda 3.5% olmuşdur. Rəsmi məlumata əsasən cari ildə ölkə ərazisində 16,448 yeni müəssisə yaradılmış, 164 mindən çox yeni iş yerləri açılmışdır.

**Qrafık 1: Əsas sosial-iqtisadi göstəricilər (artım tempi %-lə )**




**Mənbə:** http://mcgf.gov.az/uploads/strategiya_2020-2025.pdf

Sahibkarlığa dəstək məqsədilə beynəlxalq təcrübədə olan bütün alətlərdən istifadə olunur, o cümlədən: kənd təsərrüfatı məhsullarının istehsalçıları üçün vergi, gömrük güzəştləri və birbaşa maddi yardım və subsidiyaların verilməsi; kapitalda iştirak (səhm/payların alınması); güzəştli kreditlərin təqdim edilməsi; konsaltinq, maarifləndirmə və treyninq; satışın təşkili və logistika.

**Cədvəl 1: PEST analiz**

| | |
|---|---|
| **Siyasi faktorlar** | - Ölkənin sosial-iqtisadi inkişafı üzrə hədəflərin müəyyən olunması;<br>- İqtisadiyyatın şaxalənməsi, sahibkarlığın inkişafı, özəl sektorun iqtisadiyyatda rolunun artması üzrə siyasətin həyata keçirilməsi;<br>- Əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü siyasəti;<br>- Vergi siyasəti, dövlət-sahibkar münasibətləri, dövlət nəzarəti və tənzimlənməsi istiqamətində islahatların aparılması;<br>- Mülkiyyət hüquqlarının (xüsusilə tikinti sektorunda və daşınmaz əmlak üzərində) qeydiyyatı və qorunması sahəsində islahatlar;<br>- Fondun digər aidiyyəti qurumlarla əməkdaşlığı. |
| **İqtisadi faktorlar** | - Makroiqtisadi sabitliyin, müsbət iqtisadi artımın təmin olunması;<br>- Sahibkarlıq fəaliyyətini dəstəkləyən biznes mühitinin yaradılması, qeyri-neft ixracın artması;<br>- İqtisadiyyatın prioritet sahələrinin (turizm, nəqliyyat, emal və s.) potensial imkanlarının genişlənməsi;<br>- Büdcə intizamının gücləndirilməsi;<br>- Ölkənin beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi. |
| **Sosial faktorlar** | - Əhalinin sosial rifahının, gəlirlərinin artması;<br>- Əhalinin artımı, urbanizasiyanın surətlənməsi;<br>- Əhali arasında özünüməşğulluq səviyyəsi;<br>- Əhalinin demoqrafik strukturu, gənc və əmək qabiliyyətli əhalinin payının yüksək olması. |
| **Texnoloji faktorlar** | - Ölkə üzrə dövlət və maliyyə xidmətlərinin rəqəmsallaşması və vahid elektron platforma üzərindən göstərilməsi tendensiyanın surətlənməsi;<br>- E-kommersiyanın inkişafı;<br>- Ölkə üzrə sahibkarlıq fəaliyyətinin müasir İT əsasında aparılması üçün müvafiq infrastrukturun yaradılması;<br>- Sahibkarlıq fəaliyyəti üçün müasir istehsal texnologiyaların və avadanlığın mövcud olması. |

**Mənbə:** (Fonun hesabatı əsasında müəllif tərəfindən tərtib edilmişdir)

“İnkişaf maliyyəsi” üzrə son qlobal araşdırmalar göstərir ki, inkişaf edən ölklərdə maliyyə vasitəçiliyinin dərinləşidirilməsi vasitəsilə iqtsadi artım arasında birbaşa və güclü əlaqə vardır. Belə ki, özəl sektora kreditlərin ÜDM-ə nisbətinin 10 f.b. artması iqtisadi artımın 0.2 f.b. yüksəlməsinə səbəb olur. Maliyyə xidmətlərinə çıxış imkanlarına və maliyyə xidmətlərindən istifadəsinə əsasən də Azərbaycanda son illər əhəmiyyətli irəliləyişlər əldə olunsa belə, helə də dünya ölkələri vasitəsilə müqayisə geriləmə qalır.

**Qrafık 2: Real sektora verilmiş kreditlərin qeyri-neft ÜDM-ə nisbəti, %-lə**




**Mənbə:** http://mcgf.gov.az/uploads/strategiya_2020-2025.pdf

Dünya Bankının iş adamları arasında apardığı sorğuya əsasən Azərbaycanda maliyyə resursların çatışmazlığı və/və yaxud bahalılığı biznesin başlanmasında ikinci mühüm məhdudlaşdırıcı amildir. Müxtəlif beynəlxalq təşkilatlar tərəfindən aparılmış araşdırmalara əsasən özəl sahibkarlığın inkişafı, yeni müasir texnologiyalara əsaslanan müəssisələrin yaradılması və fəaliyyətinin genişləndirilməsini məhdudlaşdıran amillərin sırasında sahibkarların maliyyə resursları vasitəsilə təminatlılıq səviyyəsinin aşağı, vəsaitlərin dəyərinin isə yüksək olması, iş adamlarının məhdud maliyyə savadlılığı, maliyyə hesabatlığının keyfiyyət və şəffaflığının aşağı səviyyədə olması, bir çox hallarda banklar tərəfindən yüksək girov təminatının tələbini qeyd edirlər.

Fondun təşəbbüsü vasitəsilə 2019-cu ildə ölkənin böyük şəhərlərində fəaliyyət göstərən sahibkarlar arasında sorğu keçirilmişdir. Sorğuda iştirak edən sahibkarların böyük hissəsi bank və digər maliyyə institutlarından kredit alarkən ən çox rastlaşdığı çətinliklər arasında kreditin alınması zamanı artıq bürokratiya, sənədləşmə prosesinin uzun və mürəkkəb olması, tələb edilən sənədlərin sayının çox olmasını qeyd etmişlər. Eyni zamanda sahibkarlar anderraytinqin çox zaman aparması və bank tərəfindən qərarın gec verilməsi, kredit üzrə yüksək təminatın tələb olmasını və s. qeyd etmişlər. Kredit şərtlərinə gəldikdə ən böyük narahatçılıq kreditlər üzrə faizlərin yüksək, müddətin isə qısa olması vasitəsilə bağlıdır. Ümumiyyətlə, sorğu zamanı müəyyən olunmuşdur ki, sahibkarların 68%-i öz bizneslərini şəxsi vəsaitləri hesabına maliyyələşdirirlər və yalnız 7% sahibkar kredit təşkilatlarının verdikləri kreditlərdən istifadə edir.

Dünya təcrübəsində münaqişədən sonrakı dövrdə büdcə resurslarının səfərbər edilməsi və yenidən prioritetləşdirilməsi müşahidə olunur. Bu şərtlər daxilində bu modelin Azərbaycanda istifadəsi daha məqsədəuyğun olar. 1971-ci ildə Malayziyada qəbul edilmiş yeni iqtisadi siyasət strategiyası iki yolla milli birliyi təmin etməyə yönəlmişdi: yoxsulluğun azaldılması və cəmiyyətin yenidən qurulmasının sürətləndirilməsi ilə iqtisadi disbalansın aradan qaldırılması. Dünya təcrübəsinə görə, ilk növbədə, keçmiş münaqişə zonasının əhalisini əhatə edən daxili insan kapitalını qiymətləndirmək lazımdır. Bu iqtisadi aktorlar passiv şəkildə xarici agentlərdən maliyyə gözləməməlidirlər. Əksinə, əzmkarlıq, çalışqanlıq və yenilik göstərməklə özləri əlavə dəyər yarada bilərlər. İnkişaf strategiyaları sosial dinamikaya və institusional proseslərin tam başa düşülməsinə əsaslanarsa, daha davamlı

olacaq, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına əsasən, bərpa planında yerli iqtisadi aktorlar əsas rol oynamalıdırlar.

Münaqişədən sonrakı ölkələrin təcrübəsində makroiqtisadi sabitliyi təmin etmək üçün yeni iqtisadi inkişaf strategiyası aşağıdakı tələblərə cavab verməlidir (Gasımov L. 2018: s.23):

- iqtisadi islahatların mərhələli və ardıcıl həyata keçirilməsi;
- özəl sərmayənin əsas prioritet kimi seçilməsi;
- iqtisadiyyatın bərpasını təmin edən pul və fiskal siyasətin yenidən qurulması;
- bərabər fiskal dayanıqlığın təmin edilməsi ilə yanaşı, bərpa və məşğulluğun artırılmasının maliyyələşdirilməsini fiskal siyasətin əsas məqsədi kimi müəyyən etmək;
- fiziki şəxslər və ev təsərrüfatları üçün bütün sosial xidmətlərin bərpası;
- beynəlxalq yardım və qrantların idarə edilməsində şəffaflığın və səmərəliliyin təmin edilməsi;
- donor koordinasiya mərkəzinin düzgün qurulması;
- strategiyanın həyata keçirilməsini təmin edən qurumun formalaşdırılması.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Azərbaycanda yaradılmış iqtisadi siyasətin strateji idarə olunmasının yeni çərçivəsinə uyğun olaraq, Qarabağ bölgəsi daim inkişaf edəcək və ölkə həyatına yenidən inteqrasiya edəcəkdir. Qarabağın inkişaf strategiyası zaman və regionlar baxımından ardıcıl icra nəzərə alınmaqla aşağıdakı prioritetlər üzrə həyata keçirilə bilər. Qarabağın inkişaf strategiyasının həyata keçirilməsini təmin etmək üçün idarəetmə, monitorinq və qiymətləndirmə mexanizmi, o cümlədən şəffaf və hesabatlı maliyyələşmə mexanizmi yaradıla bilər. İşğaldan azad edilmiş ərazilərdə şəhər, qəsəbə və kəndlərin yeni baş planlarına uyğun olaraq zərərsizləşdirmə, eləcə də tikinti və abadlıq işlərinə başlanılacaq. Ərazidə iqtisadi infrastrukturun, o cümlədən yollar, meliorasiya və irriqasiya sistemləri, elektrik enerjisi, qaz, su təchizatı, kanalizasiya və s. yaratmaq, bərpa etmək və inkişaf etdirmək lazımdır. Eyni zamanda, sosial infrastrukturun, o cümlədən təhsil və səhiyyənin inkişafı vacibdir. İşğaldan azad edilmiş ərazilərdə dövlət və bələdiyyə orqanlarının tam fəaliyyətinin

təmin edilməsinə, iqtisadiyyatın rəqabətədavamlı sahələrinin və məşğulluğun, o cümlədən özünüməşğulluğun inkişafına üstünlük verilməlidir. Prioritetlərə həmçinin iqtisadi və sosial məsələlər nəzərə alınmaqla məcburi köçkünlərin mərhələli şəkildə öz yaşayış yerlərinə qayıtması, insan kapitalının inkişafı, dövlət investisiyaları ilə bərabər əsasda xarici və yerli sərmayələrin cəlb edilməsi, sahibkarlığın, xüsusən də mikro, kiçik və orta biznes, o cümlədən iqtisadiyyatın innovativ həllər prinsiplərinə yeni texnologiyalara, yaşıl və dairəvi iqtisadiyyat prinsiplərinə uyğun inkişafı və sahibkarlığın inkişafının dəstəklənməsi daxildir.

Kiçik və orta sahibkarlıq mövcud sosial-iqtisadi problemlərin həllində, əhalinin məşğulluğunun genişləndirilməsində böyük rol oynayır. Ədalət Muradov və Elşən Bağırzadə "Azərbaycan iqtisadiyyatı (infoqrafika)" kitabında kiçik və orta sahibkarlığın əhəmiyyətini belə vurğulamışdır: "Yeni dövrdə hökümət neft-kimya, kənd təsərrüfatı, kiçik və orta sahibkarlıq, ağır və maşınqayırma sənayesi, turizm, logistika və ticarət, mənzil, peşə təhsili, maliyyət xidmətləri, informasiya texnologiyaları və ictimai infrastruktur xidmətləri sektorlarını prioritet sektorlar olaraq elan etmişdir" (Muradov Ə., Bağırzadə E. 2021: s.18)

Yaxşı inkişaf etmiş biznes mədəniyyəti Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətini və gələcəkdə iqtisadi artımı təmin etmək üçün böyük əhəmiyyət kəsb edir. Bu gün inkişaf etmiş iqtisadiyyatlarda kiçik və orta sahibkarlıq iqtisadi inkişafın mühüm "lokomotivi"dir. Deməli, sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması həm kiçik sektor, həm də bütövlükdə iqtisadiyyat üçün mühüm əhəmiyyət kəsb edir. Kiçik biznesin dövriyyəsinin ən böyük həcmi topdan və pərakəndə ticarət, daşınmaz əmlak, tikinti və istehsalatdadır.

Kiçik və orta sahibkarlıq subyektləri əsasən istehsal, tikinti, topdan və pərakəndə ticarət sahələrində fəaliyyət göstərirlər. İşğaldan azad olunmuş bölgələrdə kiçik və orta biznesin əksəriyyəti çeviklik, bazar şərtlərinə yüksək dərəcədə uyğunlaşma və əhəmiyyətli əmək intensivliyi ilə xarakterizə olunur. Qeyd edək ki, kiçik və orta biznesin inkişafına, yeni kiçik və orta müəssisələrin yaradılmasına ən çox mane olan üç qrup problem var. Müəyyən edilmiş problemlər regional xarakter daşıyır.

• Maliyyə:

- enerji qurğularına və su təchizatına texnoloji qoşulma xərcləri;

- kredit resurslarının əlçatmazlığı (yüksək faiz dərəcələri, girovun olmaması);

- lizinq mexanizminin yüksək qiyməti;

- kiçik biznesin fəaliyyətini dəstəkləmək üçün öz başlanğıc kapitalının olmaması;

- kiçik və orta biznesin yüksək büdcə yönümlü olması.

• Təşkilati:

- uzunmüddətli inkişaf planlarının olmaması;

- biznes bacarıqlarının olmaması və zəif marketinq;

- biznesin inkişafı və mütərəqqi aparılması üçün zəif stimullar;

- biznesin aparılması üçün ixtisaslaşdırılmış sahələrin çatışmazlığı və yüksək qiyməti;

- zəruri texnoloji avadanlıqların xarab olması;

- ixtisaslı işçilərin çatışmazlığı.

• Xarici mühit və bazar şərtləri (Нуриев А.Х. 2018: s.76):

- kiçik və orta biznesin istehsal etdiyi mal və xidmətlərin mövqeləri uğrunda bazarlarda rəqabətin səviyyəsinin artması;

- sahibkarlıq subyektlərinin aşağı ixrac və investisiya fəallığı.

Kiçik və orta sahibkarlığın inkişaf perspektivləri bilavasitə sadalanan problemlərin həllindən asılıdır, çünki onlar kiçik və orta biznes sahəsinin uğurla inkişaf edə biləcəyi şəraitin yaradılmasında əsas amillərdir. Kiçik və orta biznesin iqtisadi artım templərini sürətləndirmək üçün yoxsulluğa qarşı mübarizə və innovasiyaların inkişafı amili kimi yeni kiçik və orta müəssisələrin yaradılmasını stimullaşdırmaq, onların rəqabət qabiliyyətini artırmaq, iqtisadiyyatın bu sektorunda məşğulluğun artırılması mütləqdir. İşğaldan azad olunmuş ərazilərdə kiçik və orta biznesin yaradılması üçün Dövlət Proqramlarının tətbiq edilməsi zəruridir. Proqramın məqsədləri aşağıdakılardır (Аббасов Ф.Х. 2018: s.93):

- kiçik və orta biznesin inkişafına yardım;

- kiçik və orta sahibkarlığın rəqabətqabiliyyətli məhsullarının (işlərinin, xidmətlərinin) istehsalının həcminin artırılmasına şərait yaradılması, onların daxili və xarici bazarlarda təşviqi.

Proqramın həyata keçirilməsi mexanizmi məqsədə çatmaq və qarşıya qoyulmuş vəzifələrin həlli üçün zəruri olan təşkilati, maliyyə və hüquqi tədbirlər kompleksindən istifadəni nəzərdə tutmalıdır.

Yeni güzəştli kredit imkanları KOS-un maliyyələşdirilməsi üçün əlavə imkanlar yaradır. Belə ki, sahibkarların kredit götürərkən qarşılaşdıqları ən böyük çətinlik girovla bağlıdır. Kiçik biznesin daha məhdud ipoteka kreditləri var. Yeni kreditləşmə mexanizminin üstünlüklərindən biri odur ki, avadanlıq almaq üçün güzəştli kredit götürmüş sahibkar daşınmaz əmlaka malik olmadığı təqdirdə həmin texnikanı girov qoya biləcək. Bu mexanizmə əsasən, bank kreditləri üzrə faiz dərəcəsi illik 7% təşkil edir. Bu obyekt iqtisadi artımın və məşğulluğun dəstəklənməsinə, eləcə də biznesin, xüsusilə girov təminatına çıxışı olmayan kiçik sahibkarların maliyyəyə çıxış imkanlarının daha da genişləndirilməsinə mühüm töhfə verəcəkdir.

Əminliklə demək olar ki, işğaldan azad edilmiş ərazilərdə əlverişli biznes mühitinin yaradılması, mikro, kiçik və orta sahibkarlığın formalaşdırılması qeyri-neft sektorunun dinamik inkişafına böyük təkan verəcək, eyni zamanda, iqtisadi artıma da təkan verəcəkdir. Bu inamın maddi əsasını işğaldan azad edilmiş ərazilərin təbii sərvətləri, sosial-iqtisadi əsasını isə öz doğma torpaqlarına qayıdan fədakar insanlar təşkil edəcək. Bütün bu faktlar ondan xəbər verir ki, bu ərazilərdə müxtəlif mülkiyyət formalı müəssisələrin geniş şəbəkəsini yaratmaq üçün kifayət qədər xammal və enerji ehtiyatları mövcuddur. İndiki və gələcək nəsillərin qarşısında duran əsas vəzifə bu ehtiyatlardan qənaətlə istifadə etməklə Qarabağın davamlı sosial-iqtisadi inkişafını təmin etməkdir. Onu da etiraf etmək lazımdır ki, erməni vandalları tərəfindən məhv edilmiş əraziləri, daşınmaz əmlakı, maddi və mənəvi sərvətləri qısa zamanda bərpa etmək asan olmayacaqdır.

Bu gün banklar tərəfindən verilən kreditlər KOS-ların inkişafına, onların istehsalının həcminin artmasına xidmət edir. Kiçik müəssisələrin inkişafının ilkin mərhələsində kredit almaq xüsusilə vacibdir, çünki kredit resursları uzunmüddətli investisiyalar üçün istifadə olunur, buna görə də banklardan uzunmüddətli kreditlər tələb olunur. Həmçinin, dövriyyə kapitalının sabit səviyyəsini saxlamaq üçün qısamüddətli kreditləşmə lazımdır. Bununla belə,

Azərbaycan bankları kiçik biznesə, xüsusən də fəaliyyətlərinin ilkin mərhələsində kömək etməyə o qədər də həvəsli deyillər, çünki onların hələ kredit tarixçəsi yoxdur və onların gələcək kredit qabiliyyətini müəyyən etmək çətindir. Bank üçün bir neçə vacib şərt var (Financial Risk Management, 2015: s.42):

- müəssisənin qeydiyyatı və ən azı altı ay müddətində fəaliyyət göstərməsi;

- vaxtı keçmiş kreditlərin olmaması;

- şirkətin daimi gəlirinin olması.

Eyni zamanda, kiçik və orta biznesin kredit qabiliyyətinin qiymətləndirilməsi meyarları faktiki olaraq iri sahibkarlıq subyektlərinin kreditləşdirilməsinə qoyulan tələblərdən fərqlənmir. Buna baxmayaraq, kredit bazarının bu sektorunun inkişafına mane olan bir çox səbəblər tamamilə aradan qaldırıla bilər. Xüsusilə müəssisənin ilkin mərhələsində bu şərtlərin hamısını yerinə yetirmək mümkün deyil. Bəzi iş adamları kiçik və orta biznesin aktiv dəyərinin aşağı olması səbəbindən girov təmin etməkdə çətinlik çəkirlər. Amma bu cür kreditlərin də üstünlükləri var: onlar girovsuz və böyük sənədlər paketi olmadan verilir ki, bu da onların səmərəliliyini təmin edir. Kiçik və orta sahibkarlığın kreditləşdirilməsi prosesində aşağıdakı şərtlər təklif oluna bilər (Егорова Н.Е., Смулов А.М. 2012: с.256):

- kiçik və orta sahibkarlıq subyektləri üçün son dərəcə illik 5%-dən çox olmamalıdır;

- iqtisadiyyatın prioritet sahələrində, o cümlədən kənd təsərrüfatı, istehsal, tikinti, nəqliyyat və rabitə, turizm, səhiyyə və tullantıların emalı sahəsində, habelə ictimai iaşə və məişət xidmətləri sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinə güzəştli kreditlər verilməlidir.

KOS-lar üçün kredit məhsullarının mövcudluğudur ki, bu da bir sıra aspektlərlə müəyyən edilir (Егорова Н.Е., Смулов А.М. 2012: с.272):

- girov və zəmanətlərin təqdim edilməsi zərurəti;

- yüksək faiz dərəcələri;

- sənədləşmə işlərinin mürəkkəbliyi.

Kiçik və orta sahibkarlığın kreditləşməsi sektorunun banklar tərəfindən daha fəal inkişafına və onun işğaldan azad olunmuş ərazilərdə diversifikasiyasına aşağıdakı şərtlər daxildir:

- bankların iri və kiçik borcalanlarla işləmək üçün əməliyyat xərclərinin bərabər olması səbəbindən kredit üçün sərfəli deyil;

- bir çox banklar KOS-lara etibarsız və riskli müştərilər kimi baxırlar. Buna görə də, bir çox kredit təşkilatları böyük korporasiyalara kredit verməyə daha çox hazırdırlar;

- təminatsız kreditlərin verilməsi təcrübəsinin risklərin qiymətləndirilməsi üçün effektiv əsası yoxdur. Kiçik və orta müəssisələrin kredit resurslarına çıxışını təmin etmək üçün hökumət tədbirləri kiçik və orta sahibkarlığın kredit resurslarından istifadə imkanlarının artırılmasına yönəlib (Вороновская О.Е. 2001: c.62).

Aydındır ki, hər bir müəssisənin inkişafı daha çox xarici maliyyələşmədən asılıdır. Azərbaycanda xarici maliyyələşdirmənin əsas nisbətən əlverişli mənbəyi bank kreditləridir. Banklar kiçik və orta biznesin kreditləşdirilməsi şərtlərini daim sərtləşdirir. Bu səbəbdən sahibkarlar nə yeni texnikaya, nə bizneslərini genişləndirməyə, nə də yeni iş yerlərinin açılmasına sərmayə qoya bilmirlər. Belə şəraitdə dövriyyədə olan kreditlərin artırılması, faktorinq şərtləri üzərində uğurla işləyən və ya lizinq üzrə avadanlıq almış kiçik müəssisələr sıradan çıxacaqdır. Bundan əlavə, kredit üçün girovun olması bankların formalaşdırdığı ehtiyatların həcminə təsir göstərir. Bankın borcalanların kredit keyfiyyətini qiymətləndirmək tələbləri, bankın verilən kreditlərin həcminin 20% -dən çox ehtiyat yaratmağa borclu olduğuna gətirib çıxarır. Kapital adekvatlığının aşağı düşməsi şəraitində banklar tənzimləyici tələblərə cavab vermək üçün yüksək keyfiyyətli kiçik biznes krediti girovuna ehtiyac duyurlar.

Kredit proqramlarının kompleks şəkildə həyata keçirilməsi ölkə iqtisadiyyatı üçün daha müsbət meyillər gətirir. Hazırda ölkəmizdə korporativ kreditləşmə fəal inkişaf edir ki, bu da təkcə bank sektoruna deyil, həm də iqtisadiyyatın real sektoruna müsbət təsir göstərir. Bu gün korporativ kredit bazarı Azərbaycanın, xüsusilə də işğaldan azad olunmuş rayonların inkişafında böyük əhəmiyyət kəsb edir. O, ölkə iqtisadiyyatının vəziyyətinə mühüm təsir göstərir, bir çox təsərrüfat subyektlərinin, istər bank xidmətlərinin birbaşa istehsalçısı olan kommersiya banklarının, istərsə də bank xidmətlərinin

istehlakçısı kimi iqtisadiyyatın real sektorunun təşkilatlarının maraqlarına toxunur.

2019-cu ilin statistik göstəricilərinə əsasən qeyd edə bilərik ki, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş vəsaitlərin çoxu Bakı şəhərinin payına düşür. Sahibkarlığın inkişafına bilavasitə təsir edən amillərdən biri də maliyyə resurslarına çıxışın olmamasıdır. Burada həm daxili, həm də xarici maliyyə mənbələri vacibdir.

Sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması məqsədilə əsaslı islahatların aparılması ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının tələblərindən irəli gəlir və hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl surətdə həyata keçirilir. Ölkə iqtisadiyyatının davamlı və tarazlı inkişafının təmin edilməsi, regionların inkişafının sürətləndirilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırkı mərhələsinin prioritet istiqamətlərindən biridir və qəbul edilmiş məqsədli dövlət proqramları çərçivəsində uğurla həyata keçirilir. Hazırda bu sahədə siyasət sahibkarlığa dövlət dəstəyinin sistemli şəkildə həyata keçirilməsinin təmin edilməsinə, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəliliyinin artırılmasına yönəlib. Bu strateji istiqamətin həyata keçirilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Kiçik və orta sahibkarların maliyyə tələbatının ödənilməsinin mühüm real mənbəyi kimi çıxış edən sahibkarlığa dövlət maliyyə dəstəyi mexanizmi yaradılmışdır. Dövlət-sahibkarlıq münasibətləri inkişaf etdirilmiş, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Sahibkarların hüquqlarının müdafiəsi üçün iş mexanizmləri yaradılmış, onların tətbiqi nəticəsində müdaxilə hallarının sayı azalmışdır. Biznes konsaltinqinin gücləndirilməsi, informasiya dəstəyi və işgüzar əlaqələrin inkişafı istiqamətində mütəmadi olaraq tədbirlər həyata keçirilir.

2008-ci il yanvarın 1-dən təsərrüfat subyektlərinin fəaliyyətinin “Bir pəncərə” prinsipi ilə təşkili təmin edilmişdir. “Bir pəncərə” sisteminin tətbiqindən sonra Azərbaycanda biznesə başlamaq üçün prosedurlar 15-dən 1-ə, buna sərf olunan vaxt isə 30 gündən 3 günə endirilib. Bu sistemin tətbiqindən sonra qeydiyyatdan keçən hüquqi şəxslərin sayı xeyli artıb. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ümumi daxili məhsulda özəl sektorun payı 85%-ə çatıb (Валиев Э. 2015: с.37).

Ölkədə sahibkarlığın davamlı inkişafını təmin etmək məqsədilə dövlətlə sahibkarlar arasında tərəfdaşlığın institusional təşkili tətbiq edilib. Bu baxımdan yaradılan mexanizmlər dövlətlə sahibkar arasında əlaqələrin inkişafında mühüm rol oynayır. 2003-cü ildə ölkənin ixrac potensialının artırılması və xarici investisiyaların cəlb edilməsi üzrə prioritet məqsədlərə nail olmaq üçün Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) yaradılmışdır. Fond ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların axtarışında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara fəal dəstək verir.

İqtisadiyyat Nazirliyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) bu istiqamətdə həm ölkə daxilində, həm də xaricdə mühüm iqtisadi tədbirlər, o cümlədən biznes forumlar, sərgilər, seminarlar və konfranslar keçirir. Bu tədbirlər həm ölkənin biznes mühitinin və iqtisadi potensialının təşviqi, həm də yerli sahibkarlar arasında işgüzar əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, xarici ölkələrdə keçirilən tədbirlər ölkə iqtisadiyyatının prioritet sahələrinə investisiyaların həcminin artırılmasında öz müsbət nəticələrini göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 31 iyul 2018-ci il tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxs yaradılıb. Güzəştli kreditlərdən daha səmərəli istifadə etmək məqsədilə Sahibkarlığın İnkişafı Fondundan kreditlər üzrə illik faiz dərəcəsi 6 faizdən 5 faizə endirilib. Eyni zamanda, Fondun 2018-ci ildə təsdiq olunmuş Nizamnaməsində qeyd olunmuş yeni qaydalar orta hesabla kreditlərin verilməsi üçün limitləri 50 001 manatdan 1 000 000 manatadək dəyişib.

Bu günə kimi sahibkarlığın hüquqi bazasının təkmilləşdirilməsinə yönəlmiş bir çox qanunlar qəbul edilmişdir. Sahibkarlığın inkişafına töhfə verən bu qanunlardan biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 02 iyul 2013-cü il tarixində qəbul edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunudur. Qanunda sahibkarlıq sahəsində yoxlamaların məqsəd və prinsipləri, təşkili və aparılması qaydaları, yoxlayıcı orqan və vəzifəli şəxslərin hüquq və vəzifələri, sahibkarların hüquq və mənafelərinin müdafiəsi ilə bağlı məsələlər öz əksini

tapıb. Qanunun əsas məqsədi sahibkarlıq sahəsində yoxlamaların aparılmasının vahid qaydalarının müəyyən edilməsi və yoxlamalar zamanı sahibkarların fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasıdır. Ölkə ərazisində aparılan bütün növ yoxlamalar yalnız bu Qanunla nəzərdə tutulmuş hallarda və qaydada vahid məlumat reyestrində ilkin qeydiyyata alınmaqla aparılmalıdır.

Dünyanın aparıcı ölkələrində sahibkarlığın inkişafı üçün müxtəlif iqtisadi modellərdən istifadə olunur. Bu modellərdən biri də xüsusi iqtisadi zonalardır. Xüsusi iqtisadi zonaların yaradılmasında məqsəd iqtisadiyyatın prioritet sahələrinin inkişafının sürətləndirilməsi, yerli və xarici investisiyaların cəlb edilməsi üçün daha əlverişli şəraitin yaradılması, yüksək texnologiyalara əsaslanan sənaye sahələrinin inkişafına dəstək, rəqabətqabiliyyətli, səmərəli istehsal və xidmətlərin təşkilindən ibarətdir. Azərbaycanda sahibkarlığın inkişafı üçün yeni modellərin - xüsusi iqtisadi zonaların, sənaye parklarının və mikrorayonların, aqroparkların yaradılması istiqamətində müvafiq işlər aparılır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2017-ci il tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb. Agentlik ölkədə kiçik və orta sahibkarlığın inkişafına dəstək verən, sahibkarlıq subyektlərinə bir sıra xidmətlər göstərən, dövlət orqanlarının bu sahədə xidmətlərini əlaqələndirən və tənzimləyən publik hüquqi şəxsdir. Hazırda ölkədə sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində sistemli və ardıcıl tədbirlər həyata keçirilir. Özəl sektorun dəstəklənməsi, yeni iqtisadi şəraitə uyğun olaraq sahibkarların hüquq və mənafelərinin müdafiəsi, beynəlxalq təcrübə nəzərə alınmaqla bu sahənin inkişafı üçün müasir tələblərə cavab verən mexanizmlərin tətbiqi istiqamətində islahatlar aparılır. Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin rəsmi veb səhifəsində verilmiş məlumata əsasən 2021-ci ildə sahibkarlığa göstərilən dövlət dəstəyinin nəticəsində, sahibkarlıq subyektlərinin sayı 5 dəfə artmış, özəl sektorun ümumi daxili məhsulda xüsusi çəkisi 85 faizi, məşğulluqda xüsusi çəkisi isə 76 faizi ötmüşdür.

Qarabağın yüksək texnologiyalar və innovasiyalar regionuna çevrilməsi dövlətimizin iqtisadiyyatı və tərəqqisi üçün çox vacibdir. Bu baxımdan kiçik və orta sahibkarlar müasir iqtisadiyyatın xüsusi sektoru kimi iqtisadiyyatın struktur transformasiyasında "sıçrayan" rol oynayırlar. Bu mövqe innovasiya

potensialının kiçik və orta biznes (KOB) tərəfindən uğurla yaradıldığı, sonra isə iri şirkətlər tərəfindən tətbiq edildiyi inkişaf etmiş ölkələrin kiçik biznes təcrübəsi ilə təsdiqlənir. Qarabağın azad edilməsi bu bölgələrdə kiçik və orta biznes üçün tarixi fürsət yaradır. Həqiqətən də, ölkəmizdə aparılan iqtisadi islahatlar, görülən işlər, xüsusən də sahibkarlığın və biznesin inkişafı daim möhtərəm Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin diqqət mərkəzində olub, diqqətdən kənarda qalmayıb və əldə olunub. Bu baxımdan Qarabağın ərazisi, onun zəngin torpaqları həm yerli sahibkarlar, investorlar, iş adamları, həm də xarici investorlar üçün əlverişli və sərfəli ola bilər. İşğaldan azad edilmiş ərazilərdə bərpa, yenidənqurma və yeni infrastrukturun yaradılması istiqamətində görüləcək işlərdən birincisi, təbii ki, minaların təmizlənməsi, həyat üçün vacib olan yeni infrastrukturun qurulmasıdır. Bundan əlavə, kənd təsərrüfatı, xidmət, ticarət, tikinti, nəqliyyat və s. ilə bağlı yeni fəaliyyət sahələri yaranıb. Eyni zamanda, görüləcək işlər, dəymiş ziyan və bu itkilərin aradan qaldırılması üçün dövlət tərəfindən atılan addımlar göstərilməli, müvafiq investisiyalar dəqiq müəyyən edilməlidir.

2021-ci ildə Ermənistan Silahı Qüvvələri tərəfindən dəymiş ziyanın aradan qaldırılması və qiymətləndirilməsi üçün Dövlət Komissiyası yaradılıb, ona dəyən ziyanın qiymətləndirilməsi və zədələnmiş obyektlərin tam bərpası üçün zəruri olan vəsaitin dövlət başçısına verilməsi tapşırılıb. Təbii ki, istehsal sahələrinin inkişaf tempi artdıqca xidmət və ticarətin dinamik tempi də artacaq. Bu dinamik iqtisadi göstərici artdıqca əhali üçün yeni iş yerlərinin yaradılmasının da müsbət nəticələrdən biri olacağına ümid edilir. Xüsusilə, ərazilərdə kənd təsərrüfatı məhsullarının istehsalı göstərir ki, bu ərazi iqtisadi fəaliyyət növlərindən biri olacaqdır. Çünki, məcburi köçkün və qaçqınlarımızın geri qayıtmasının işlə təmin olunması mühüm məsələlərdən biri olacaq. Bu baxımdan işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının dinamik inkişafı aydın sistemli şəkildə həyata keçirilməlidir. Bəli, qeyd olunan hadisələrin siyahısını davam etdirmək olar. Bu gün doğma Azərbaycanda həyat dəyişir, insanların rifah halı yaxşılaşır, istər paytaxtda, istərsə də bölgələrdə yeni sosial layihələrə imza atılır, göydələnlər, nəhəng körpülər, rahat yollar salınır və s. müstəqil Azərbaycanımızın artan iqtisadi qüdrətindən xəbər verir. Sevindirici hallardan biri də odur ki, bu məsələlərin həlli üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli Sərəncamı əsasında Qarabağın Dirçəliş Fondu yaradılıb. “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!” - Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bu fikri bizdə tam əminlik yaradır ki, güclü iqtisadiyyata, dünya ölkələri

arasında böyük nüfuza malik bir xalq daima xarici investorların diqqət mərkəzindədir, rəqabətədavamlı, yenilməz, səbirlə gözləyən bir dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi, zəfərimiz xalqımızın tarixi nailiyyətidir.

Bu tədbirlərin vaxtında, sistemli və ardıcıl həyata keçirilməsi Azərbaycanın qüdrətini gücləndirməklə yanaşı, onun nüfuzunun artmasına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərəcək. Qarabağın ənənəvi iqtisadi təcrübəsinə əsaslanaraq işğaldan azad edilmiş torpaqlarda üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvəçilik, tərəvəzçilik, bostançılıq və heyvandarlığın inkişafı üçün kifayət qədər imkanlar mövcuddur. Qarabağın kənd təsərrüfatı məhsullarının emalı və yeyinti sənayesinin inkişafı üçün potensialı və ənənələri var. Ona görə də aqrar sahənin inkişafında fermer təsərrüfatlarının, kooperativlərin və aqroparkların, o cümlədən kənd təsərrüfatı məhsullarının emalından son məhsula qədər bütün mərhələləri əhatə edən klasterlərin yaradılmasına üstünlük verilməsi daha məqsədəuyğun olardı. Aqrar-sənaye kompleksindəki müəssisə və təsərrüfatlara dövlət maliyyə yardımı göstərilməli, kənd təsərrüfatında bazar prinsiplərinə əsaslanan sığorta sistemi yaradılmalıdır. Gənclər üçün münasib iş yerlərinin yaradılması, onların sahibkarlığa cəlb olunması üçün işlək mexanizm hazırlanmalı və tətbiq edilməlidir. Gənclərin sahibkarlığı və məşğulluğu ilə bağlı genişmiqyaslı özünüməşğulluq layihələrinin həyata keçirilməsi zəruridir. Beynəlxalq təşkilatların dəstəyindən istifadə etmək də vacibdir.

2022-ci ilin büdcə layihəsi pandemiya ilə əlaqədar dünya iqtisadiyyatında neftin qiymətlərinin konservativ müəyyənləşdirilməsini, strateji inkişafa uyğun olaraq büdcə xərclərinin prioritetləşdirilməsini tələb edir. Qarabağın ölkənin iqtisadi həyatına inteqrasiyası üçün dövlət siyasətini ehtiva edir. Şübhəsiz ki, işğaldan azad edilmiş torpaqlar ölkənin ərazi bütövlüyünün bərpası baxımından böyük siyasi əhəmiyyətə malik olmaqla yanaşı, həm də strateji iqtisadi əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, münaqişədən sonrakı müddətdə 2021-ci ilin dövlət büdcəsində Qarabağın bərpası üçün 2,2 milyard manat vəsait ayrılmışdır. Böyük Vətən Müharibəsində qazanılan böyük Qələbənin əhəmiyyəti ərazilərin bərpasının milli iqtisadiyyatın artım tempinə, əhalinin məşğulluğuna, ərzaq təhlükəsizliyinə və xidmət sahələrinə, turizm sektorunun gələcək inkişafına, habelə yeni iqtisadi imkanların yaradılmasıdır. İri dövlət müəssisələri tərəfindən dövlətə ödənilən dividendlərin büdcəyə mədaxil daxil edilməsində böyük perspektivlər mövcuddur. Belə ki, büdcə

gəlirlərinin mənbələrinin genişləndirilməsi istiqamətində mühüm addımdır. Bütün bu imkanların növbəti illərdə reallaşması dövlət büdcəsinin gəlirlərinin genişlənməsinə, bütövlükdə ölkədə şaxələndirilmiş iqtisadi artımın yeni modelinin uğurla həyata keçirilməsinə, tamamilə yeni simanın formalaşmasına güclü təkan verəcəkdir. Bu imkanlardan və strateji çağırışlardan yararlanmaq üçün gələcək nəslin struktur islahatlarının aparılması, iqtisadi mühitdə və idarəetmədə mövcud problemlərin daha tez həll edilməsinin vacibliyi getdikcə artır. Bu baxımdan rəqabətqabiliyyətli və innovativ iqtisadiyyatın inkişafının sürətləndirilməsi, kiçik və orta sahibkarlığın iqtisadi inkişafın əsas qüvvəsinə çevrilməsi, ixrac imkanlarının genişləndirilməsi, iqtisadiyyatda səmərəli maliyyə vasitəçiliyinin təmin edilməsi, o cümlədən kapital bazarının dərinləşdirilməsi, dövlət müəssisələrinin şəffaf və səmərəli fəaliyyətini təmin etmək, inklüziv inkişafa nail olmaq kimi yeni çağırışlarla üzləşirik.

Bütün bu islahatlar istiqamətlərinin həyata keçirilməsi işğaldan azad edilmiş ərazilərin bərpası amili ilə yanaşı, təbii ki, iqtisadiyyatımızın sürətli artım dinamikasının formalaşmasına və bu əsasda ölkəmizin bu qrupa daxil olmasına geniş imkanlar açır. Bu mənada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə müəyyən edilmiş növbəti 10 ildə iqtisadiyyatın həcminin iki dəfə artırılmasına dair vaxtında çağırış olub. Bu çağırış qeyri-neft iqtisadiyyatının sürətli artımını qaçılmaz edir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Ölkəmizdə davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin, inklüzivliyinin və sosial rifahın daha da artırılması məqsədi vasitəsilə AR Prezidentinin “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” 2016-cı il 6 dekabr tarixli Il38 nömrəli Fərmanı vasitəsilə milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır.

Məhz sözügedən Fərmanın tətbiqi vasitəsilə əlaqədar dövlət başçısının “Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” 2017-ci il 28 dekabr tarixli 1771 nömrəli Fərmanı əsasında AR-nın Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılmışdır. AR

Prezidentinin 26 iyun 2018-ci il tarixli 148 nömrəli Fərmanı vasitəsilə Agentliyin nizamnaməsi və strukturu təsdiq edilmişdir.

Sahibkarların maliyyə savadlılığı və şəffaflığı aşağı səviyyədədir. Belə ki, sorğuda iştirak edən sahibkarların təxminən 30 faizi sahibkarlıq fəaliyyətləri vasitəsilə bağlı heç bir maliyyə uçotu aparmır (və yaxud maliyyə hesabatları hazırlamır), 80%-i isə kənar auditor tərəfindən audit olunmur.

Beləliklə, ölkədə sahibkarların kredit resurslarına çıxış imkanlarının zəif olması səbəblərini aşağıdakı kimi qruplaşdıra bilərik:

- maliyyə şəffaflığının və hesabatlılığın aşağı səviyyədə olması;

- yüksək faiz dərəcələri;

- mürəkkəb prosedurlar;

- təminat yetərsizliyi;

- risklərin bölüşdürülməsi məsələsi;

- maliyyə savadlılığının lazımi səviyyədə olmaması;

- tərəfdaşlar arasında işgüzar münasibətlərin zəif olması.

Təminat yetərsizliyi və yaxud qeyri-likvidliyi bir çox hallarda perspektivli layihələrin maliyyələşdirilməsinə imkan vermir. Belə olan halda isə banklar tərəfindən kredit resurslarının yerləşdirilməsi məsələsi çətinləşir, sahibkarlıq subyektləri yetərli maliyyə vəsaitləri vasitəsilə təmin edilmir və nəticədə bank kreditləşməsinin zəifləməsi fonunda iqtisadi aktivlik aşağı düşür.

Nəticədə əhalinin gəlirləri arasında bərabərsizliyi aradan qaldırmaq üçün gəlirlərin yenidən bölüşdürülməsi və inflyasiyanın qarşısının alınması üçün müvafiq tənzimləyici tədbirlərin həyata keçirilməsinin təmin edilməsini təklif edirik.

Bank müştərilərinin diqqət yetirdiyi yüksək keyfiyyətli xidmətin əsas aspektləri texnologiyalar (xidmətin göstərilməsi proseduru və şərtləri, xidmət şərtləri üzrə öhdəliklərin yerinə yetirilməsi) və insanlardır. İşğaldan azad olunmuş rayonlarda kiçik və orta sahibkarlıq subyektlərinin kreditləşməsinin artması üçün aşağıdakı istiqamətlərdə kreditləşmənin genişləndirilməsi üçün tədbirlər görülməlidir:

1. filial şəbəkəsinin genişləndirilməsi;

2. yeni kredit proqramlarının yaradılması;

3. faiz dərəcələrinin aşağı salınması.

Ümumiyyətlə, ölkədə kiçik və orta biznesin maliyyələşmə probleminin həll edilməsi ilə ölkədə iqtisadi fəallığın artımına nail olmaq mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI

1. Abdullayev, Ş. Ə. və Əsgərova, R. V. (2009). “Bank işi”, Bakı, “Elm”, 472.
2. Əliyev, T. N., Əhmədli, A. M. və Məmmədov, R. M. (2011). “Müştərək müəssisə və sahibkarlıq.” Bakı, Şərq və Qərb, 368.
3. İslamov, E., Musayeva, G., Babaşov B. və Ağayeva, Ş. (20l7). “Françayzinq: Kiçik Sahibkarlıq üçün bələdçi”, Bakı, Şərq və Qərb, 29.
4. Kaşıyeva F., Pul, kredit, banklar (2011). Bakı, Şərq və Qərb, 221.
5. Manafov, Q. N. (2011). “Sahibkarlıq nəzəriyyəsi”. Bakı, “Azərbaycan”, 118.
6. Manafov, Q. N. (2012). “Sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafının elmipraktiki problemləri” iqt. e. d-ru a. dər. al. üçün təq. ol. dis.: 08.00.0l Manafov Q. N. Azərbaycan Dövlət İqtisad Un-ti.Bakı, 324.
7. Niftullayev, V. (20l2. “Sahibkarlığın əsasları”, Bakı, Zaman, 618.
8. http://mcgf.gov.az/uploads/strategiya_2020-2025.pdf
9. https://smb.gov.az/storage/KOB%C4%B0A%20%C4%B0CMAL%202020.pdf
10. https://azertag.az/xeber/Gelen_ilden_Qarabagda_sahibkarlara_guzestlerle_bagli_teklifler_hazirlanir-l9439l6